بسم الله الرحمن الرحيم

**İslam Araşdırmaları Elmi-Tədqiqat Jurnalı**
**İslam Araşdırmaları İnstitutu Azərbaycan Tələbələrinin Elmi Birliyi**

İslam  Araşdırmaları

Üçüncü il, beşinci sayı (payız-qış / 2024)

İslam Araşdırmaları İnstitutu, Azərbaycan bölümü

**İmtiyaz sahibi**: Əl-Mustafa Beynəlxalq Universiteti

Əl-Mustafa Virtual Universiteti İslam Araşdırmaları İnstitutu

və Əl-Mustafa Virtual Universiteti Elmi-Tədqiqat Departamentliyinin birgə əməkdaşlığı ilə

**Məsul müdir**: Höccətülislam Dr. Səid Ərcuməndfər

**Baş redaktor**: PhD. Tofiq Əsədov

**Elmi redaktor**: PhD. Tofiq Əsədov

**Texniki redaktor**: PhD. Elman Ağamoğlamov

**Ünvan**: Qum, Cənubi Sahil küçəsi, Mosalladan öncə, 6-cı və 4-cü küçələr arasında
**Poçt qutusu**: 3713913554
**Telefon və faks**: 32114185 - 32613875
**Nömrələr**: elektron çap
**Səhifələrin sayı**:353
**Veb**: www.mou.ir
**E-poçt**: tofiq.asadov@inbox.ru

Redaksiya heyəti

| | |
|---|---|
| PhD. Tofiq Əsədov | Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Sədri, Əl-Mustafa Beynəlxalq Universiteti Elmi Heyətinin Əsas Üzvü |
| PhD. Elman Ağamoğlanov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Firuz Niftiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Elman Rəsulov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Azər Quliyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Cəbrayıl Abiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |


***Lisenziya əsasında:***

***Əl-Mustafa Beynəlxalq Universitetinin Elmi-Tədqiqat Departamentliyi***

***Elmi-Tədqiqatların Təşkili və Dəstək Baş İdarəsi***

***(Tarix: 16/01/2022)***

***Bu jurnal elmi-tədqiqat jurnalı səviyyəsindədir***

***(Xüsusi olaraq tələbələrin elmi birlikləri üçün müəyyən edildi.)***

# Məqalə və təqdim şəkli

1.Məqalə aşağıdakı bölümlərə malik olmalıdır:
Ünvan, xülasə, açar kəlmələr, müqəddimə yaxud mövzuya giriş, məqalənin əsas mətni, nəticə, istifadə olunmu mənbələr.
2. Məqalələr əvvəllər çap olunmamış olmalı və müəllif məqaləni başqa nəşriyyəyə verməyə öhdədar olmamalıdır.
3.Elmi və hüquqi cəhətdən məqalənin doğruluğu üçün , müəllif məsuliyət daşıyır.
4.Məqalələrin qəbul edilib-edilməməsi jurnalın öhdəsindədir.
5.Elmi dəyərləndirmədən sonra məqalənin jurnalda çal olunması üçün son təsdiq, təhrir heyətini öhdəsindədir.
6.Məqalənin həcmi ən az 7 səhifə və ən çox 30 səhifə, hər səhifədə 250 kəlmə olmalıdır.
7.Jurnalın məqalələrindən istifadə, jurnala istinad verilmək şərtilə manesizdir.
8. Azərbaycan dilindəki məqalələr font 13 və Times New Roman xəttilə yazılmalıdır.
9.İstifadə olunmuş mənbələr əlifba sıraası ilə və aşağıdakı şəkildə olmalıdır:
İstifadə edilmiş kitab: Müəllifin familyası, adı, nəşr ili, kitabın ünvanı (bold şəklində), tərcüməçinin və yaxud düzəliş edən şəxsin adı, çap növbəsi, məkan, nəşriyyat.
10. İstifdə edilmiş məqalə: Müəllifin familyası, adı, nəşr ili, məqalnin ünvanı, tərcüməçinin adı, nəşriyyat (bold şəklində), çap dövrəsi, çap nömrəsi, məqalənin səhifələrinin sayı, nəşr ili.
11.Mətndə istiadə edilmiş mənbələrin haşiyədə qeyd olunma tərzi: Müəllifin adı, nəşr ili, səhifə.
Bununla birgə, ad, familya, elmi rütbə, ünvan, tel. nömrəsi və elektron-poçtunuzu (email) göndərin.

## MÜNDƏRICAT

BAŞ REDAKTORDAN........................................................................ 8

**Quranın hər kəsə şamil olması baxımından möcüzə olması...................................9**
Elçin Əliyev

**Qadın və uğur.....................................................................................................47**
Elnarə Abdulova

**Fəlsəfə elminə qısa bir baxış.............................................................................73**
Kəmalə Əsgərova

**Fatimə iki dünyanın ən üstün xanımı ..........................................................99**
Gülbacı Abbasova

**Dində ixlas........................................................................................................129**
Meysam Javadnia

**Quran elmləri barədə araşdırma...................................................................159**
Kamran Babayev

**Din, Qərbin fəlsəfi atmosferində .....................................................................193**
Kəmalə Mahmudova

**Bədgümanlıq və onun növləri.........................................................................219**
Nəsimi Piriyev

**Quranda övlad haqları..................................................................................265**
Nigar Məmmədova

**Müasir insanın mənəvi tələbatı.......................................................................287**
Rauf Musayev

**İsrafla mübarizə Nəhcül-Bəlağə baxımından................................................309**
Xədiqə Qaraisayeva

**Zeydiyyə və İsmailiyyə məzhəblərinin ..........................................................329**
Şamil Məhərrəmov

## Baş redaktordan

Maarifçi, hər hansısa elmi və yaxud mənalı fikri başqalarına çatdıran və düşündürən şəxsdir. Başqa sözlə desək, xalqa düzgün ideologiya və faydalı olan həyat tərzini öyrədən, həqiqəti və gözəlliyi sevdirən insandır, maarifçi!
Görəsən hər kəs maarifçi ola bilərmi? Yaxud hər şəxs öz bildiklərini başqaları ilə bölüşmək bacarığına malikdirmi? Əslində, cavab müsbətdir. Hətta ilkin yaranışdan bəri, nəinki təkcə insan övladında, ümumiyyətlə, instinktlə hərəkət edən digər canlılarda da, təhlükə və fayda zamanı bir-birlərini münasib səmtə yönəltmə üslubu var. Belə ki, təbiətdə hansısa bir canlı təhlükə hiss etdiyində, başqa canlıları həmin təhlükənin varlığından xəbərdar etdiyinin şahidi oluruq. Yaxud bir mənfəət əldə etdiyi zaman öz həmnövlərini birgə faydalanmağa səslədiyini görmək olur. Bu, təbiətdəki canlıların instinktinə xas olan xüsusiyyətdir. İnsan da canlıların ən şərəflisi olduğu üçün, həqiqətləri ən gözəl şəkildə öz aralarında paylaşmağa görəvlənmişdir. Bu görəv həm onun fitrətində qoyulmuş, həm də İlahi dinlər tərəfindən hər bir insan öz elmi qədər bu mənəvi işə əməl etməyə dəvət olunmuşdur.
Ümid edirəm ki, qarşınızdakı bu jurnal siz əziz oxuculara dəyərli yazar maarifçilərimiz tərəfindən gözəl ərməğan olsun. Gözəl mütaliələr diləyirəm.

Dr. Tofiq Əsədov

# Quranın hər kəsə şamil olması baxımından möcüzə olması

Elçin Əliyev[1]

## Abstract

Quran elə bir kitabdır ki, onu hər kəs oxuyub, başa düşə bilər. Bu müqəddəs kitabı həm yaşlı nəsil və həmdə gənclər, qadın və kişilər, eləcə də filosoflar, həkimlər, tədqiqatçılar, tarixçilər, ariflər, hüquqşünaslar və bir çox təxəssüsə sahib olan insanlar başa düşür və Quran hamını öz müxatəbi qərar verə bilir.

Yəni Quran hər kəsin başa düşə biləcəyi bir kitabdır. Əlbəttə burada söhbət Quranın ümumi məzmunundan gedir. Çünki Quranın bəzi ayələri var ki, onları başa düşmək üçün bəzi hədislərə, eləcə də təfsir kitablarına ehtiyac var.

Baxmayaraq ki, Quran on dörd əsr bundan qabaq nazil olub, amma bu kitabın möcüzəvi cəhətlərindən biri də budur ki, onu həm islam peyğəmbərinin (s.ə) əsrində yaşayanlar, həmdə ki, 21-ci əsrin insanları oxuyub, başa düşə bilirlər. Yəni hər bir dövrdə yaşayan insanlar Quranı oxuyub, özləri üçün bir çox faydalı məlumatlar, öyüd-nəsihətlər və yaşayışları üçün mühim mesajları örnək götürə bilərlər. Quranı oxuyanda, bəzi ayələrin sırf qadınlar, bəzilərinin kişilər, bəzilərinin gənc və uşaqlar, bəzi ayələrin isə yaşlı nəsilə aid olduğunu müşahidə etmək olur.

**Açar sözlər:** Quran, möcüzə, şamil olma, baça düşmək

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

## Quranın hər kəsə şamil olması

Quran elə bir kitabdır ki, onun ayələrinin məzmunu həm 1-ci əsrin, həm 6-cı, həmdə ki, indiki əsrimizin insanlarına aiddir.

Yəni baxmayaraq ki, Quran 14 əsr bundan qabaq nazil olub və Quranın ilk müxatəbi elə o zamanın insanları idi, amma yenə də görürük ki, həmin ayələr elə indiki zamanın insanlarına da şamildir.

Quranın bu xüsusiyyətini daha yaxşı başa düşmək üçün, aşağıda nümunə olaraq bəzi Quran ayələrini gətirəcəyik.

## Quranda fəlsəfi ayələr

Fəlsəfə sözü Yunan dilinə aid bir sözdür. Belə ki, Fəlsəfə iki sözdən tərkib tapıb. Onlardan biri "Filo", ikincisi isə "sofiya" sözüdür. "Sofiya" hikmət, "filo" isə sevmək deməkdir."Filosofiya" — "hikməti sevmək" mənasını verir. "Fəlsəfə" isə orta əsr şərq alimlərinin bu yunan sözünü ərəb dilinə uyğun deməlerindən yaranıb.

Əgər Quran ayələrinə müraciət etsək, görərik ki, Quranın heç bir yerində fəlsəfə sözü yoxdur. Miladdan dörd yüz il əvvəl fəlsəfə Sokratın fikirləri ilə ciddi şəkildə başlamışdı. Peyğəmbərin (s.ə) dövrünə, yəni miladi VI əsrə qədər fəlsəfənin ciddi bir elm sahəsi kimi önə çıxması təxminən min il olmuşdur. Amma bir qədər əvvəldə də dediyimiz kimi, Quranda bu söz işlədilmir. Bu həqiqəti nəzərə alaraq, bəziləri Quranın fəlsəfə ilə heç bir əlaqəsi olmadığını düşünə bilər. Halbu ki, bu heçdə belə deyil. Bizim üçün Quranın məzmunu da, onun zahiri mətni qədər vacibdir.

Quranda fəlsəfədən başqa bir söz işlədilmişdir ki, bu söz Ərəbistan yarımadasında və əlbəttə ki, İran ərəbləri arasında

fəlsəfə ilə sinonim olmuşdur. Bu sözün ərəb dilində nisbətən qədim nəsli vardır və əgər yunan dilində “fəlsəfə” sözü, farsca isə “fərzanəgi” sözü bir sıra biliklər üçün işlənirsə, ərəbcə onların sinonimi “hikmət” sözüdür.

Qurana müraciət etsək, görərik ki, Quranda“Hikmət” sözü iyirmi dəfə işlədilir. Rağib İsfahaninin "Müfrədat" kitabında yazdığı "hikmət" sözü, elm və ağıl vasitəsilə həqiqətə çatmaq anlamında məna edilir.

Deməli, hikmət nə ağılın özüdür, nə də elmin özü. Daha doğrusu, elmin və ağlın tətbiqinin məhsuludur. Qurani-Kərimin bu sözü işlətdiyi bir çox hallarda bu, eyni mənaya gəlir. Quranda bu sözün işlədilməsi, Platonun əsərlərinin mətnində fəlsəfə mənasına çox yaxın olan bir məna yada salır. Misal üçün Allah “Bəqərə” surəsinin 269-cu ayəsində belə buyurur: "Allah istədiyinə hikmət bəxş edər, kimə hikmət verilsə, ona çoxlu xeyir verilmişdir. Onları ancaq ağıl sahibləri xatırlayarlar”. Ayəni oxuyanda ilk olaraq bunu başa düşmək olur ki, hikmət Allah tərəfindən verilmiş bir nemətdir. Ayədən başa düşdüyümüz digər bir həqiqət isə budur ki, ayədə hikmət sözü “xeyir”kəlməsi ilə əlaqələndirilmişdir. Bu xüsusiyyətlərin hər ikisi də Platonun fəlsəfə dediyi şeydə mövcuddur.

Bunlardan əlavə, “əql və rasionallıq” əslində fəlsəfi metodun xidmətçilərindən biridir. Necə ki, ümumi mənasında hər cür biliyin sinonimi olan “elm” də fəlsəfi metodun bir hissəsidir. Quranda bu cür fəlsəfənin tələblərinə çoxlu işarələr vardır. Bu əlavələr Quran dinləyicilərini istər-istəməz fəlsəfəyə yönəldən məfhumlar sistemi kimidir. Əgər kimsə Quranı hər hansı digər kitab kimi əvvəldən axıra qədər oxumağa qərar verərsə, bu kitab bir neçə səhifədə ona düşünməyi, elm öyrənməyi və təfəkkür etməyi tövsiyə edər. Belə bir insan istər-istəməz

fəlsəfəyə meyl edər. Bütün bunlarla yanaşı, Quranın əsas mövzuları da ən mühüm fəlsəfi mövzularla üst-üstə düşür. Allah, mənəviyyat, insan, mərifət və əxlaq Quranla fəlsəfə arasında ortaq mövzulardır.

Bir qədər əvvəldə xatırlatmışdıq ki, Quranda "Fəlsəfə" sözü müstəqil kəlmə kimi işlənilməsə də, fəlsəfə mənasını çatdıran " Hikmət" sözü bir çox ayələrdə zikr olunub.

Aşağıda həmin ayələrdən bəzilərini nümunə olaraq gətiririk.

Ümmilərə (yazıb-oxumaq bilməyən ərəblərə) özlərindən onlara Allahın ayələrini oxuyan, onları (şirkdən) təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərən Odur. Həqiqətən, onlar daha əvvəl açıq-aydın bir zəlalət içində idilər. [1]

Ayəyə diqqət etsək, görərik ki, ayədə hikmət sözü kitab (Quran) kəlməsi ilə birgə işlənib. Bu da öz növbəsində bizə başa salır ki, Quranın ayələri hikmət ilə uyğundur. Yəni Quran ayələrinin hər birində dərin və fəlsəfi mənalar var. Həmçinin ayə bizə bunu başa salır ki, Qurannın təlim və tərbiyə metodu fəlsəfə və hikmət ilə zəngindir və Quran ayələri insanlara düzgün yaşamaq yolunu çox gözəl şəkildə başa salır.

Allahın sizə olan nemətini, öyüd-nəsihət vermək üçün sizə göndərdiyi kitabı və hikməti xatırlayın! Allahdan qorxun və bilin ki, Allah hər şeyi biləndir. [2]

Cümə surəsində olduğu kimi, bu ayədə də Allah yenə kitab sözü ilə birlikdə hikmət sözünü işlədib. Ayəni oxuyanda

1 Cümə, 2.
2 Bəqərə, 231.

məlum olur ki, Allah Quran ayələrinin fəlsəfi mənaya malik olduğunu başa salmaq istəyir.

Həmçinin Allah bu ayədə müsəlmanlara Quranı və hikməti unutmamağa dəvət edir.

(Ey Rəsulum!) Bunları sənə, ayələrdən və hikmətlə dolu olan Qurandan oxuyuruq.[1]

Diqqət etsək, görərik ki, Allah-tala bu ayədə Quranın hikmətlə dolu olduğunu başa salır və Quran ayələrinin hikmətlə yanaşı izah olunduğunu bəyan edir.

Əgər sənə Allahın lütfü və mərhəməti olmasaydı, onlardan bir dəstə səni (haqdan) azdırmaq niyyətində olardı. Halbuki, onlar özlərindən başqasını azdıra bilməzlər və sənə heç bir zərər verə bilməzlər. Allah sənə Kitabı (Quranı) və hikməti nazil etdi, eləcə də daha əvvəl bilmədiklərini öyrətdi. Allahın sənə olan lütfü böyükdür. [2]

Bu ayədə də Allah yenə Quran ilə birgə hikmət, yəni fəlsəfə sözünü işlədib. Ayədən belə məlum olur ki, hikmət də Quran ayələri kimi Allah tərəfindən nazil olmuş bir nemətdir. Yəni necə ki, Quran ayələrini oxuyub, haqqında düşünmək insanlar üçün faydalıdır, həmin ayələrin fəlsəfi yönləri haqqında da düşünmək insana fayda verər.

(Bu Quran) hikmət sahibi və hər şeydən xəbərdar olan Allah tərəfindən ayələri möhkəmləndirilmiş, sonra da izah edilmiş bir kitabdır. [3]

---

Ali-İmran, 58.[1]
Nisa, 113.[2]
Hud, 1.[3]

Bu ayədə isə Allah özünün hikmət sahibi olduğunu bəyan edir. Yəni Allah bizə bunu başa salmaq istəyir ki, fəlsəfi mənalar ilə dolu olan Quran ayələrini nazil edən Allah da, fəlsəfə və hikmət sahibidir. Həmçinin ayəni oxuyanda başa düşürük ki, uca yaradan olan Allah fəlsəfəyə və Quran ayələrinə fəlsəfi baxışa çox önəm verir.

Hikmətlə və gözəl nəsihətlə Rəbbinin yoluna dəvət et! Onlarla ən gözəl şəkildə mübarizə apar! Şübhəsiz ki, Rəbbin yolundan azanları da, doğru yolda olanları da ən yaxşı tanıyandır. [1]

Bu ayə isə bizə bunu başa salmaq istəyir ki, başqalarını doğru yola dəvət edən zaman, gərək gözəl nəsihət, hikmət və fəlsəfə yolu ilə dəvət edək. Yəni qarşı tərəfi nəsihət edən zaman, onunla gözəl davranmaqdan başqa, fəlsəfi yanaşmadan da istifadə etmək lazımdır.

Ayənin maraqlı tərəflərindən biri də budur ki, əvvəlki ayələrdən fərqli olaraq, bu ayədə hikmət sözü, gözəl nəsihət sözü ilə birgə işlənir. Bunun da səbəblərindən biri budur ki, necə ki, gözəl nəsihətdə məntiq var, hikmək və fəlsəfədə də məntiq mövcuddur. Yəni hər bir ağıllı və vicdanı təmiz insan doğru sözü o zaman qəbul edər ki, başqalarını haq yola dəvət edən insan, öz dəvətində şəxsi hədəf güdməsin və dəvət etdiyi vaxt işlətdiyi cümlələr həm gözəl nəsihət, həmdə hikmətlə yanaşı olsun.

Diqqət etsək, görərik ki, bu ayələrdəki mənaları, xüsusi ilə də ayələrdə hikmət və fəlsəfə sözlərinin bir arada gəlməsini həm filosoflar, həmdə adi insanlar oxuyub, başa düşə bilərlər. Buda öz növbəsində sübut edir ki, Quran ayələrini hər bir insan başa

---

Nəhl, 125.[1]

düşə bilər və hər bir kateqoriaya aid olan insanlar Quran ayələrini öz bilgiləri səviyyəsində dərk edib, başa düşə bilər.

Həmçinin oxuduğumuz ayələrə diqqət etsək, görərik ki, ayələrin hər birində fərqli mövzulara aid mənalar var.

Misal üçün Allah cümə surəsinin 2-ci ayəsində buyurur: Ümmilərə (yazıb-oxumaq bilməyən ərəblərə) özlərindən onlara Allahın ayələrini oxuyan, onları (şirkdən) təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərən Odur. Həqiqətən, onlar daha əvvəl açıq-aydın bir zəlalət içində idilər.

Diqqət etsək, görərik ki, Allah ayənin əvvəlində Peyğəmbərin (s.ə) haqqında danışır, daha sonra fəlsəfə və hikmətə işarə edir, ayənin sonunda isə Allah tarixi bir həqiqətə işarə edib, müşrik və kafirlərin peyğəmbərdən (s.ə) öncə açıq-aydın bir zəlalət içində olduqlarını xatırladır.

Yəni Quran ayələri elə bir xüsusiyyətə malikdir ki, o ayələri həm filosoflar, həm müəllimlər, həm həkimlər həmdə adi insanlar dərk edib, başa düşə bilər.

## Quranda irfani ayələr

### İrfan barədə qısa anlayış

İrfan ərəb sözüdür və “böyük və əhatəli bilik” mənasındadır. Yəni İrfan sözü biliyin çox olduğunu ifadə edir. İrfan sözü ümumi mənada həyatın və insanlığın mahiyyəti, dünyada baş verən hadisələrin hikməti, uca yaradan olan Allahın varlığının və sifətlərinin təhlili haqqında bilik və düşüncələrin məcmusu kimi qəbul edilir. Bunu da unutmamalıyıq ki, İrfan quru elm deyil, həmçinin dünyagörüşüdür. Çox zaman “irfan” sözü

“təsəvvüf” kəlməsi ilə eyni mənada işlədilir. İrfan – haqqa doğru yönələn yol barəsində nəzəri bilikləri əhatə etdiyi halda, təsəvvüf – bu yolun təcrübi olaraq keçilməsidir. İrfani biliklərlə möhkəmlənməmiş bir təsəvvüf həyatı düzgün sayılmaz. Eləcə də, həyatda yaşanılmayan irfan bilgiləri də qətiyyən əhəmiyyət kəsb etməz. İrfansız təsəvvüf, təsəvvüfsüz irfan yoxdur.

“Təsəvvüf” termin kimi, hicrətin II əsrindən sonra meydana çıxdığı üçün, bundan əvvəlki dövrə aid olan İslam mənbələrində eyni mənanı bildirmək məqsədilə "zöhd”, “irfan” və s. kəlmələr işlədilirdi. İstər İslam müqəddəslərinin hədislərində, istərsə də ilk sufilərin söz və yazılarında rast gəldiyimiz “arif” kəlməsinin məna yükü sonralar “sufi” sözünə şamil edilmişdir. Şəhid Mürtəza Mütəhhəri “İslam elmləri ilə tanışlıq” kitabında yazırdı: “İrfan barədə iki istiqamətdə danışmaq və tədqiqat aparmaq olar: ictimai baxımdan və mədəni baxımdan. İrfan əhlini mədəni baxımdan yanaşdıqda “ariflər”, ictimai baxımdan yanaşdıqda isə çox vaxt “təsəvvüfçülər” (sufilər) adlandırırlar”. [1]

İrfan bir elmi və mədəni kompleks kimi iki hissədən ibarətdir: əməli (praktiki) irfan və nəzəri irfan. Əməli irfan insanın öz iç dünyası ilə, onu əhatə edən xarici aləmlə və Allahla əlaqələrini, bunların qarşısında daşıdığı vəzifələri öyrənir. Bu cəhətdən irfan əxlaq elminə bənzəyir; yəni onun kimi təcrübi elmdir. Əməli irfanı həm də “seyrü-süluk” adlandırırlar. Burada insaniyyətin ən yüksək nöqtəsinə, yəni tövhid mərhələsinə çatmaq üçün haqq yolçusunun mənəviyyat səfərinə haradan başlayacağı, hansı məqamları ardıcıllıqla

[1] İslam elmləri ilə tanışlıq kitabından

keçəcəyi, bu yol boyunca nə kimi hallarla üzləşəcəyi və hansı vəziyyətlərə düşəcəyi izah edilir. Bütün bu məqamlar həmin yolu əvvəlcədən keçmiş, onun qayda-qanunlarından xəbərdar olan kamil və yetkin bir şəxsin (mürşidin, şeyxin) nəzarəti və rəhbərliyi altında keçilməlidir. Bir mənzili keçmədən növbəti mənzilə çatmaq mümkün deyil. İrfanı əxlaq elmindən fərqləndirən əsas cəhət də budur. İrfanda bəşər ruhu bir bitki, yaxud körpə uşaq kimidir; onun kamilliyi xüsusi qanun üzrə inkişaf etməsindədir. Bu baxımdan irfan təkamülpərvər, mütəhərrik bir təlimdir. Əxlaq elmində isə sadəcə olaraq ruhun gözəl xüsusiyyətləri – fəzilətlər sadalanır və bunların təsviri verilir. Əxlaq nöqteyi-nəzərindən, insan ruhu naxışlarla bəzədilməsi lazım olan evə bənzəyir, amma işin hansı ardıcıllıqla görülməsi, haradan başlayıb harada qurtarmaq lazım gəldiyi göstərilmir. Nəzəri irfan varlığın təfsiri, yəni Allah, aləm və insanın izahı ilə məşğuldur. Nəzəri irfan fəlsəfə və kəlam elmlərinə yaxındır, amma bunların da arasında bəzi fərqlər vardır. Məsələn, fəlsəfə və kəlam yalnız əqli prinsiplərə və metodlara əsaslanır. İrfanda isə kəşfə (hissiyyatla dərketməyə) dayaqlanan prinsip və metodlar əsas sayılır. Kəlam aliminin nəzərində həm Allah, həm də Allahdan qeyri şeylərin hamısı həqiqidir. Fərq bundadır ki, Allah "vacibül-vücud" (mövcudluğu heç bir səbəbdən asılı olmayan), Ondan savayı hər şey isə "mümkünül-vücud"dur (mövcudluqları ilkin səbəbdən asılıdır). Arif isə bu fikirdədir ki, Allahdan savayı heç nə Allah qarşısında qərar tuta biləcək vücuda malik deyil. Allahın vücudu hər şeyi əhatə etmiş və özündə toplamışdır. Hər şey yalnız Allahın ad, sifət, iradə və təcəllasıdır, ondan başqa bir şey deyildir. Həqiqi mövcud olan yalnız Allahdır, Allahdan savayı hər şey "görünüş"dür (təzahürdür), "varlıq" deyil. Arifin tövhidi "Allahdan savayı heç nə yoxdur" deməkdir. Filosofun və kəlam aliminin mənbələri ağıl və

məntiq, metodu isə istidlaldır (əsaslandırma); Arifin mənbəyi – qəlb, metodları – daxili mübarizə, hərəkət və paklaşmadır.

Irfan barədə ətraflı məlumat əldə etdikdən sonra, yaxşı olardı ki, mövzuya aid bəzi ayələr ilə də tanış olaq.

Bildiyimiz kimi  Allahı tanımaq fitri bir hissdir. Yəni Allah hər bir insanı yaratdığı zaman, Allahı tanımaq və onun varlığına inanmaq hissini də onun daxilində yaradıb. İnsanlar etdikləri çox sayda günahlar nəticəsində, həmin daxili hissin üstünü günahın toz-torpağı ilə bağlayır və nəticədə Allah barədə düşünməyə heç fürsətləri belə qalmır.

Həmin insanlar müxtəlif çətinliklər ilə qarşılaşanda, günahlar nəticəsində yığılmış toz-torpaqlar bir anlıq da olsa aradan gedir və onlar Allahı xatırlamağa başlayırlar.

Bunu sübut edən çox sayda ayələr var. Aşağıda nümunə olaraq həmin manada olan ayələrdən bəzisini gətiririk.

Allahın insanları yaratdığı fitrət üzrə hənif olaraq üzünü dinə (İslama) çevir! Allahın (insanları fitrət üzrə) yaratmasında heç bir dəyişiklik yoxdur. Doğru din budur! Lakin insanların çoxu bunu bilmir. [1]

Onlar gəmiyə mindikləri zaman dini yalnız Allaha məxsus edərək Ona dua edərlər. Ancaq Allah onları xilas edib quruya çıxartdıqdan sonra yenə Allaha şərik qoşarlar. [2]

Dağlar kimi dalğalar onları bürüdüyü zaman onlar dini Allaha məxsus edərək Ona dua edərlər. Ancaq Allah onları quruya çıxartdığı zaman onlardan bir qismi orta yolu (haqq

---

Rum, 30.[1]
Ənkəbut, 65.[2]

yolu) tutar. Bizim ayələrimizi yalnız nankorlar və xainlər inkar edər. [1]

Ayələrə diqqət etsək, görərik ki, Allah bu ayələrdə Allahı tanımağın daxili və həqiqi bir hiss olduğunu bildirir. Allah insanlara başa salır ki, Allahı tanıyıb, ona inanmaq, insanların daxilində var və bu hiss heç vaxt onların fitrətindən silinməyəcək.

Bəzi ayələrdə isə Allah varlıq aləmindəki nişanələrindən danışır və bu nişanələri xatırlatmaqla, insanların fitrətlərini oyatmağa çalışır. Yəni Allah bu ayələrdə öz varlığına dəlil və sübut olan ayələri gətirməklə, insanların Allaha olan daxili və fitri inanclarını diriltmək istəyir.

Aşağıda həmin mənada olan bəzi ayələri gətiririk.

Beləcə, yəqinliklə iman gətirənlərdən olması üçün İbrahimə göylərin və yerin hökmranlığını (əzəmətini) göstərdik. [2]

Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəcəyik. (Ya Peyğəmbər!) Məgər Rəbbinin hər şeyə şahid olması (sənin dediklərinin doğruluğuna) kifayət deyilmi?! [3]

Yerdə (Allaha) tam yəqinliklə inananlar üçün (Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır.

---

Loğman, 32.[1]
Ənam, 75.[2]
Fussilət, 53.[3]

Sizin özünüz də (sizi yaradanın birliyini sübut edən) əlamətlər vardır. Məgər görmürsünüz? [1]

Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində, (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır. [2]

Məgər (müşriklər) yerlə göy arasında (uçaraq Allaha) ram olmuş quşları görmürlər?! Onları (havada) yalnız Allah saxlayır (bütün hərəkətlərini ancaq Allah idarə edir). Həqiqətən, bunda möminlər üçün ibrətlər vardır! [3]

Bəzi ayələrdə isə, Allah insanlara çox yaxın olduğunu bildirir və bununla, irfanın, yəni Allahı tanımağın fərqli və daha dərin mənasına işarə edir. Belə ki, bəzən Quran ayələrində Allahın insana, onun şah damarından da yaxın olduğu bildirilir. Bu və bu kimi ayələr, Allahı tanımağın fərqli yolları, eləcə də Allahı tanımağın dərəcələrinə işarə edir.

Diqqət etsək, aşağıdakı ayələrdə həmin mənalara rast gələ bilərik.

---

Zəriyət, 20-21.[1]
Bəqərə, 164.[2]

[3] Nəhl, 79.

Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır. Şübhəsiz ki, Allah (öz mərhəməti ilə) genişdir, (O, hər şeyi) biləndir! [1]

Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir! [2]

And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq! (İnsanın adi hərəkətlərindən tutmuş ürəyindən keçən ən gizli hisslər, duyğular belə Allaha məlumdur!) [3]

Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə (imana, haqqa) dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz! [4]

Göylərdə və yerdə nə varsa, hamısı hökmran, müqəddəs, qüdrətli və hikmət sahibi olan Allahı təsbeh edir. [5]

Bu və bu kimi ayələri hər bir insan başa düşüb, haqqında fikirləşə bilər. Yəni Allahı tanımaq barədə nazil olan ayələri, vəzifəsindən, inancından, xasiyyətindən,dünya görüşündən və hətta savadının çox və ya az olmasından asılı olmayaraq, hər bir insan oxuyub, başa düşə bilər.

## Quranda hüquqi ayələr

---

Bəqərə, 115.[1]
Hədid, 4.[2]
Qaf, 16.[3]
Ənfal, 24.[4]
Cümə, 1.[5]

İslam hüququ İslam dininin ayrılmaz tərkib hissəsidir. Tədqiqatçıların demək olar ki, hamısı İslam hüququnu İslam dininin əsas tərəflərindən biri kimi xarakterizə edirlər. Tədqiqatçıların fikrincə, İslam dininin özü, həm də hüquqi təbiətə, Qurandakı normaların bir çoxu isə hüquqi məzmuna malikdir. L.R.Syukiyaynen yazır ki, İslam hüququnun tədqiqi ilə məşğul olan alimlər, adətən onun bir-birini şərtləndirən iki xarakterik xüsusiyyətinə – dini mənşəyə («ilahi təbiətə») və hüquqi müddəaların müsəlman doqmatikası (ilahiyyat), mənəvi normalar, ibadət qaydaları, bütövlükdə İslam normaları ilə yaxın (bəzilərinin fikrincə isə qırılmaz) əlaqəyə malik olmasına diqqət verirlər. [1]

A.S.Boqolyubov klassik Roma hüququnun əksinə olaraq, İslam hüququnun dinin ayrılmaz tərkib hissəsi olduğunu və bütün müsəlmanlar üçün nəzərdə tutulan vahid hüquqi sistem kimi başa düşüldüyünü bildirir. [2]

İslam hüququnun dinlə qırılmaz əlaqəsini, həmçinin İslam dininin normalarında hüquqiliyin güclü olmasını Qərb alimləri də xüsusi vurğulayırlar. Rene David və Kamilla Jofre-Spinozi yazırlar ki, «yəhudi dini kimi İslam da mahiyyətcə qanun dinidir. Berqştrasserin təbirincə, müsəlman hüququ «əsl müsəlman ruhunun kvintessensiyası (cövhəri – İ.Q., İ.M.), müsəlman ideologiyasının ən aydın ifadəsi, İslamın başlıca həlqəsidir». [3]İslam hüququ (fiqh) müsəlman şəxsin doğumundan ölümünə qədər həyat fəaliyyətini tənzimləyən davranış və hərəkətlərin sərhədlərini müəyyən edən hüquqi sistemdir. Bu sistemə şəxsin həm ibadət həyatı, həm də digər

---

Сюкияйнен Л.Р.Мусульманское право. М., 1986. с. 7.[1]

А.С.Боголюбов. Пересечение и наказание в мусульманском праве /Ислам. [2] Религия. Общество.

Давид Рене, Жоффре-Спинози Камилла. Основные правовые системы [3] современности. М., 1998. с. 309.

şəxslərlə əlaqələrini özündə əks etdirən sosial həyatı, o cümlədən, dövlətdaxili əlaqələrini özündə ehtiva edən hüquqi həyat da daxildir. Ərəbcə s-l-m kökündən törəmiş olan islam sözünün lüğəti mənası boyun əymək, təslim, barış deməkdir. İslam, insanın Allah, digər insanlar və varlıqlarla əlaqələrini nizamlayan və həyatını istiqamətləndirən, onlarla bağlı davranışlarına əsas olacaq qaydalar məcmusudur. Ərəbcə haqq sözünün cəmini ifadə edən hüququn lüğəvi mənası haqlar deməkdir. İctimai tənzimləmə metodlarından biri olan hüquq-fərdlər arasında ədalət, bərabərlik və azadlıqları təmin edən, fərdlərin bir-biri ilə və cəmiyyətlə əlaqələrini nizamlayan və dövlətin məcburetmə qüvvəsi ilə təmin olunan davranış qaydaları sistemidir. Diqqət etsək bir din olaraq islam ilə hüquq arasında mahiyyət etibarilə heç bir fərq yoxdur. Bu bənzərlik onların hər ikisinin də şəxsiyyət və cəmiyyətin həyatını nizamlamasıdır. İslamda bununla yanaşı, fərdin Allahla olan əlaqələrinin nizamlanması da öz əksini tapır. İslam hüququ (fiqh) islam və hüquq sözlərinin birləşməsindən əmələ gələn, islam tarixində fiqh olaraq tanınan elm sahəsidir. Lüğəti mənası bilmək, anlamaq mənalarını ifadə edən fiqh haqqında islam hüquqşünaslarının müxtəlif tərifləri (düşüncələri) olmuşdur: - Fiqh, mükəlləfiyyət daşıyan şəxslərin hərəkətləri ilə əlaqəli olan sabit hökmləri bilməkdir; - Fiqh, müctəhidlərin praktiki məsələlərin həlli üçün dəlilləri incələyib, onlardan çıxardıqları hökmlərdir; - Bir sözlə fiqh, islami bir tam təşkil etməklə dini hökmləri məqsədinə uyğun şəkildə qavramaq və onu zamanın şərtlərinə uyğun (formada) və ehtiyacları qarşılaya biləcək bir formada insanların başa düşə biləcəkləri bir dillə, həm bu dünyada, həm də axirətdə xoşbəxtliklərini təmin etmək üçün praktiki tətbiqetmə qabiliyyətidir. Fiqh elminin bir neçə özünəməxsus xüsusiyyəti var: 1. Fiqh hüquq elmidir. Mücərrəd qanunlardan ibarət

deyildir. 2. İslamı qanunları savab və günahla tənzimləyir. Məsələn; günahkar cəzasını çəkir, eyni zamanda tövbə edərək özünü cəhənnəm əzabından xilas etmiş olur. Yaxşılıq edən şəxslər də həm cəmiyyət üçün yararlıdır, həm də savab qazanır. 3. İslam hüququ idarə etdiyi cəmiyyəti və insanları dəyişdirir. İnandırma və məcburetmə yolu ilə ilahi qüvvənin hesabına yeni bir hüquqi cəmiyyət formalaşdırır. 4. Fiqh sabit qanunlarla yanaşı, adət-ənənələrin dövrə uyğunlaşdırılması və səmərəli şəkildə tətbiqinə imkan verir. 5. İslam alimlərinə görə dəlillər, əqli və nəqli olaraq iki qrupa bölünür. Buna görə də islamiyyət ağıla ən yüksək dəyər verib. Yetər ki, ağıl tam olaraq təcəlli etsin və lazım gələndə öz sərhədlərini özü təyin etməyi bacarsın. Ağıl, islamın ona sərbəstlik verdiyi yerlərdə istədiyi kimi hərəkət edə bilər. Məhdudiyyətlərin qoyulduğu yerlərdə də heç hərəkət etməz. Bu vizanı ona islam verir. Məhz fiqh, ağlın, nəsillərdən (dini hökmlər) əldə etdiyi əmrlərdən meydana gələn müqəddəs ölçü çərçivəsidir. Bütün bu xüsusiyyətlərə əsaslanaraq islam hüququ haqqında belə bir fikir söyləmək olar.

İslam hüququ, hər şeydən əvvəl ilahi qaynaqlı, tamamilə özünəməxsus, öz-özünü idarə edə biləcək, çox incə və dərin bir sistemə sahib, ahəngli bir tamlıq təşkil edən, tarixi yöndən əhəmiyyətli bir hüquq sistemidir. Bəzi alimlər (Şərq mədəniyyətini araşdıran qərb alimləri) islam hüququnun Roma hüququndan alınma olduğunu, orijinal bir hüquqi dəyər daşımadığını irəli sürmüş, bu iddiaya dəlil olaraq da Hz.Peyğəmbərin Suriyaya səfərini, bu bölgələrdə Roma hüququnun mövcudiyyətini, ilk müctəhidlərin Roma hüququnun qüvvədə olduğu yerlərdə yaşadıqları üçün hüquq sistemlərində bəzi oxşarlıqların da olduğunu qeyd edirlər. Bununla yanaşı, mütəfəkkirlərin bir qismi ilə islam

hüquqşünasları bu iddiaları konkret dəlillərlə rədd etmiş və əksini isbat edirlər. Hz.Peyğəmbərin uşaqlıq və gənclik illərində Suriya tərəflərinə etdiyi qısamüddətli səyahətin, gələcəkdə yaradacağı hüquq sisteminin əsaslarını öyrənməyə kifayət etməməsi açıq-aşkardır, qaldı ki, o hələ oxumağı və yazmağı belə bilmirdi. İslam hüququnu tədvin (yazıya köçürmək) edən müctəhidlərin çoxu Roma hüququnun tətbiq edilmədiyi bölgələrdə yaşayıblar. İslamın fəth edildiyi və yayıldığı torpaqlarda yaşayan qeyri-müsəlmanlara hüquqi muxtariyyət verildiyini, həmçinin, öz qanunları ilə məhkəmədə mühakimə etmək və müdafiə olunmaq hüququ verilməsi hamıya məlumdur. Bu vəziyyət fərqliliklərin və qarşılıqlı təsiri aradan qaldırmaqdan başqa heç bir nəticə verməz. İslamın müəyyən etdiyi ümumi hökmlərə, qayda və prinsiplərə zidd olmamaq şərti ilə məhəlli adət və ənənələrin mənimsənilməsi yolu ilə təsir etmə müzakirə obyekti olarsa da, bu nə Roma hüququna məxsus deyil, nə də islam hüququnun orijinallıq vəsfinə xələl gətirməz. Hüquqlar arasındakı bəzi bənzərliklərə gəlincə isə, hüquq toplumdakı münasibətlərin bir qismini nizamladığına, toplumların bəzi təməl ehtiyaclarının bir-birinə bənzər olduğuna görə, bu sinonimliyin də məhz bundan irəli gəldiyini söyləmək olar. Dünyada var olan bütün hüquq sistemləri arasında bəzi oxşarlıqlar tapmaq mümkündür. Sistemləri bir-birindən ayıran və orjinallaşdıran xüsusiyyət, orada heç bir bənzərliyin olmamasında deyil, hüququn istinad etdiyi, söykəndiyi fəlsəfə və prinsiplərdədir. Bununla əlaqədar olaraq islam hüququnun bəzi spesifik xüsusiyyətlərini aşağıdakı müddəalarla göstərə bilərik: a) İslam hüququ Quran və Sünnəyə, bunlar da ilahi vəhylərə əsaslanır. Bunlardan əlavə mənbələr (icma, qiyas, adət-ənənə və s.) də Quran və Sünnə çərçivəsindən kənara çıxmır, yəni, onlara zidd deyil. Belə olduğu halda islam hüququnun mənbələri Allah

iradəsidir. Adət-ənənə və ictihad kimi bəşəri hüquq qaydaları və hökmlər ya bu ilahi iradənin işığında formalaşır, yaxud da ona uyğunluq təşkil etməklə hüquqilik qazanır. 7 b) İslam hüququnda din, ibadət, əxlaq və hüquq bir-birini tamamlayan cəhətlərdir. Müsəlman hüquqauyğun hərəkət edərkən yalnızca cəza, təzminat, məhrumiyyət kimi maddi və dünyəvi motivlərin təsirindən deyil, itaət və riayət etdiyi hüquq qaydalarının Allah iradəsini təmsil etdiyinə inanmaqla, bu səbəblə də ibadət həzzi, savab və ədəbi səadət təmənnası ilə ömrünü sürür. c) İslam hüququnda həqiqi mənada qanunu qoyan Allahdır. İslam alimlərinin vəzifələri isə, onun açıq iradəsini təsbit etmək, izaha ehtiyacı olan maddələrin şərhini vermək, elmin, texnologiyanın və sosial həyatın inkişafı ilə əlaqədar qanunda yaranan boşluqları doldurmaqdan ibarətdir. Alimlərin (müctəhidlərin) bütün bu fəaliyyətləri nəticəsində ortaya qoyduqları qanunlar həm özləri, həm də digər müsəlmanlar üçün ümumməcburi xarakterə malikdir. Müsəlmanların seçdiyi başçı və məclis üzvləri (şura heyəti) ya müctəhidlərin etdiklərini edərək, yaxud da onların ictihadlarına istinad edərək qanun topluları yarada bilərlər. d) Dünyəvi və demokratik sistemlərdə hüquq xalqın iradəsinə tabedir, ədalət prinsipi əsasında xalqın ehtiyaclarını qarşılamağı qarşısına məqsəd qoyub. Pozitiv hüququn funksiyası budur. Bununla yanaşı, ideal və təbii hüquq konsepsiyaları da mövcuddur. Ancaq bu hüquq sahələrinin prinsipləri hüquq fəlsəfəsində müttəfiqlik təşkil etmədiyi üçün prinsiplərin pozitiv hüquqa yanaşmasına əngəl olur. İslam hüququnun hədəfi xalqın fərdi və ictimai-hüquqi ehtiyaclarını qarşılamaqla yanaşı, onu Allah tərəfindən əmr olunmuş haqq, hüquq və ədalət prinsipləri əsasında tərbiyə etmək, bu rəhbər ideyaların toplumun həyatında realizəsinə nail olmaqdır. Burada bir sual ortaya çıxa bilər: Allah iradəsinin nə olduğunu Quran və Sünnədən

öyrənirik, bu qaynaqların tərkibi dəyişmir və yenilənmir, insanlar təkamül qanununa tabe olaraq dayanmadan dəyişib inkişaf edir, yeni-yeni hüquqi situasiyalar meydana çıxır, 16 əsr əvvəl mövcud olan mədəni, ictimai və iqtisadi şərtlərə uyğun hüquq qaydaları, bütün dövrlər daxilində insanların ehtiyaclarını nə cür qarşılayır? Yerində və haqlı olaraq verilən bu sualın cavabını iki bəndlə izah edək: 1. Quran və Sünnədə ifadə edilən hüquq qaydalarının və hökmlərin həm sayı azdır, həm də geniş olmaqla ümumi əsaslar haqqındadır: miras, ailə, halal-haram kimi mövzularda hökmlər ayrıntılı-ətraflı şəkildə müəyyən olunmuşdur. Dövlətin forması, müqavilə, mülkiyyət və sair ictimai münasibətlərin həlli ilə bağlı seçim, məşvərət, qarşılıqlı razılıq kimi müxtəlif üsullar müəyyən olunmuşdur. Bunun əsasında yeni qaydaların qəbul olunmasına icazə verilmişdir. 2. Sabit hökmlər qarşısında həm ayrı-ayrı fərdlər, həm də ümumiyyətlə xalq (müsəlmanlar) çıxılmaz vəziyyətə düşəndə, onlara riayət etmək mümkün olmadıqda — bu yalnız müəyyən zaman çərçivəsində, yəni müvəqqəti ola bilər, bu təqdirdə «qadağalar, məcburiyyətlər ortadan qaldırılır» prinsipi əsas götürülür. Bir sözlə həyat necə tələb edirsə elə hərəkət etmək imkanı verilmişdir. İslam hüququnu digər hüquq sistemlərindən fərqləndirən xüsusiyyətləri aşağıdakı kimi qruplaşdıra bilərik. I. Dini mənşəlidir. İslam hüququnun ilk və son vacib xüsusiyyəti dini məşəli olması, yəni, təməl müddəalarının Allah və Peyğəmbər tərəfindən müəyyən edilməsidir. Hamıya məlum olduğu kimi, hüquq sisteminin ilk qaynağı Quran, ikinci mənbə isə Sünnədir. Bu iki mənbədə açıq-aydın bir hökm varsa, hüquqşünasın bu hökmü dəyişdirmək və ya ortadan qaldırmaq kimi cəhdləri boşa çıxacaq. Bu iki mənbələrdən ikincisi, yəni, Sünnə Peyğəmbərin söz və davranışlarından ibarət olsa da, sözün həqiqi mənasında o da ilahi iradəni özündə təcəlli etdirir.

Çünki, Peyğəmbərin hər hansı bir sünnəsi ilahi iradəyə zidd olarsa, Peyğəmbərə vəhylə xəbərdarlıq edilir, belə ki, Peyğəmbərin söz və hərəkətləri bu iradəyə uyğunlaşdırılır. Ona görə də, islam alimləri Qurani-Kərimi «vəhyi-matluv» (sözləri və mənası Allaha aid olan vəhy), Sünnəni isə «vəhyi-qeyri matluv» (mənası Allaha, sözləri Peyğəmbərə aid olan vəhy) adlandırırlar. İslam hüququnun bu xüsusiyyəti onu digər hüquq sistemlərindən fərqləndirir. Ancaq islam hüququnun bu xüsusiyyəti bütün hökmlərin ilahi mənşəli olduğu və heç bir bəşəri xarakter daşıyan izah və əlavələrin olmadığı mənasına da gəlmir. Halbuki, islam hüququnun təşəkkülündə kifayət qədər bəşəri müddəalar öz əksini tapır. Baxmayaraq ki, Quran və Sünnədə təməl əsaslar müəyyən olunub, bunların dəqiq hökm və normalar halına gətirilməsi və sistemləşdirilməsi hüquqşünaslar tərəfindən həyata keçirilmişdir. Quran və Sünnədən başqa digər mənbələr bəşəri qaynaqlardır. Lakin, hüquqşünasların bu qaynaqlardan istifadə etdiyi zaman qarşılarına qoyduqları əsas qayə Quran və Sünnə ilə müəyyən edilmiş ilahi mesajı izah etmək və ona uyğun normalar yaratmaqdır. İslam hüququnun dini mənşəli olduğu zənn edilsə də, bu heç də onun hökmlərinin müqəddəs məna daşıdığı və dəyişilməz olduğu mənasına gəlmir. Halbuki, Quran və Sünnə xaricində digər qaynaqlardan alınan əsasların və müctəhid hüquqşünasların nəzəriyyələri müqəddəs sayılmır, zamanın tələbinə uyğun olaraq dəyişikliyə məruz qala bilər. Bu konsepsiyadan yanaşaraq islam hüququ kanonik hüquq deyil və Qərb ədəbiyyatlarında göstərildiyi kimi teokratik xarakter daşımır. Digər tərəfdən islam hüququnun dini mənşəli olması, hökmlərinin həm dini, həm də hüquqi əsaslara bağlanması ilə nəticələnmişdir. Başqa bir ifadə ilə desək, bu hüququn bir əsasının yerinə yetirilməsindən ikili bir hüquqpozma meydana çıxır, belə ki, şəxs iki fərqli xəta işləmiş olur. Məsələn, zina

həm hüquqi, həm də 9 dini baxımdan qadağandır. Dolayısıyla, bu qadağaya məhəl qoymayan şəxs həm hüquqi, həm də dini baxımdan məsuliyyət daşıyır, yəni, birincisinin dünyəvi (cəza), ikincisinin uhrəvi (əzab) məsuliyyətlə qarşı-qarşıya qalır. Bu xüsusiyyət belə hökmlərə müsəlman cəmiyyətində daha həssaslıqla və könüllü olaraq əməl olunmasına səbəb olmuşdur.

II. Hüquqşünasların fəaliyyəti nəticəsində yaranmışdır. İslam hüququ əsas etibarilə müctəhid hüquqşünasların fəaliyyəti nəticəsində təşəkkül tapmışdır; dörd xəlifə dövründən başqa, bu formalaşma prosesində dövlətin birbaşa rolu olmamışdır. Lakin, dörd xəlifə dövründə hər biri müctəhid hüquqşünas olan xəlifələr bu hüququn təşəkkülündə bilavasitə iştirak etmişdilər. İslam hüququ əslində fərdi ehtiyaclara və tələbatlara açıq bir hüquq sahəsidir. Hz.Peyğəmbərin səhabələrini ictihada təşviq etməsi buna açıq misaldır. İslam hüququnun tarixi inkişafı da məhz bu yöndə olmuşdur. Habelə, islam hüququnun həyata keçirilməsində əsas vasitəçi olan dövlətin və xüsusilə dövlət başçısının onun formalaşmasında iştirak etməsi də eyni şəkildə islam hüququnun quruluşuna uyğun gəlir. İslam hüquqşünasları buna nail olmaq üçün dövlət başçısının müctəhid hüquqşünas olmasını şərt qoymuşdular. Digər bir tərəfdən islam hüququ dövlət başçısına, zənn edildiyindən az səlahiyyətlər verir. Ancaq Əməvilərdən etibarən Ömər ibn Əbdüləziz xaric xəlifələr islam hüququnun formalaşmasında iştirak etməyiblər. Bunun əsas səbəbi xəlifələrin özlərini bu baxımdan kifayət qədər bilikli hesab etməmələri olmuşdur. İslam hüquqşünasları Əməvi və Abbasi xəlifələrinin dini məsələlərə qarışmamalarının səbəbini yetərsiz biliyə sahib olduqlarından vaz keçmələrində görmüşlər. Abbasi xəlifəsi

Məmunun Xalqül-Quran (Quranın xəlqi) məsələsinə müdaxiləsinin islam alimlərinin ciddi etirazları buna sübutdur.

Bütün bunların nəticəsi olaraq təşəkkül dövrü sayılan I-IV əsrlərdə islam hüququ, çoxu dövlət məmuru belə olmayan hüquqşünasların ictihadları ilə inkişaf etmiş və yenə onların fəaliyyəti ilə tədyin edilmişdir. Ancaq bu o demək deyildir ki, bunun heç bir mənfi xüsusiyyəti yoxdur. Dövlətin islam hüququnun formalaşması prosesində iştirak etməməsi bəzi hüquqşünasların nəzəri problemlərlə həddindən artıq məşğul olmaları ilə nəticələnmiş, bununla da, praktiki sahədə islam hüququnun normal inkişafından kənarda qalan problemlər ortaya çıxmışdır. İslam hüququ siyasi və tarixi-mədəni amillərin təsiri ilə vaxtilə mövcud olmuş bütöv bir hüquqi sistem, daha doğrusu bir-birinə çox yaxın olan müxtəlif hüquqi sistemlərdən ibarət özünəməxsus hüquq ailəsini meydana gətirmiş, dini-hüquqi qaydalar isə həmin sistem daxilində hüququn mənbəyi kimi çıxış etmişdir. İslam hüququ ailəsi İslam dininin dünyanın üç qitəsində böyük bir əraziyə yayılaraq, şəriətə söykənən ayrı-ayrı milli hüquqi sistemlərin formalaşdırması nəticəsində yaranmışdır.

III. Kazuistik metodla meydana gəlib və inkişaf etmişdir. Bir çox hüquq sistemində olduğu kimi islam hüququ da başlanğıcda ayrı-ayrı problemlərin (hüquqi) həllinə dair yaranan hüquqi mülahizələr, izahlar və müzakirələr nəticəsində formalaşmışdı. Hz.Peyğəmbərdən etibarən olduqca uzun bir dövr ərzində islam hüquqşünasları elmi fəaliyyətlərini qarşılaşdıqları və ya intiqal etdirilən hüquqi problemlərin həlli istiqamətində aparmışlar. İslam dininin sürətlə yayılması və günbəgün yeni-yeni insanların və bölgələrin bu hüququn təsiri altına düşməsi, hüquqşünasların xüsusi olaraq çevrələrində meydana gələn problemlərlə məşğul olma zərurətini ortaya

çıxarmışdır. Bu, hüququn kazuistik bir metodla meydana gəlməsi və inkişafını da özü ilə bərabər gətirmişdir. Başqa bir ifadə ilə desək, klassik islam hüququ əsərlərində buna bənzər hüquqi əməliyyat və ya hadisələrin tabe olduğu ümumi hökmlərin müəyyən edilməsi üstün hesab olunmuşdur. Əsasən hüququn normal inkişafı da məhz bunu tələb edir. Kazuistik metodun daha dəqiq və ədalətli hökmlərin çıxarılmasında faydalı olması ilə yanaşı, mənfi xüsusiyyəti də ondan ibarətdir ki, bu metod əsasında qələmə alınan kitablardakı bilgilərin tam əhatə olunmaması, hüquqşünasları müəyyən bir zaman çərçivəsində mücərrəd metoda və ya dolaşıq bir üsula yönəltmişdir. Eyni inkişaf xəttinə islam hüququnda da rast gəlmək mümkündür. İslam hüququnun əsası kazuistik metodla yaradıldıqdan sonra fakihlər Hicri təqviminin III əsrindən etibarən bu əsasların içərisindəki təməl müddəaları, ümumdavranış qaydalarını və fəaliyyət prinsiplərini müəyyən etməyə yönəlmişlər. Hənəfilərdə — Əbu Tahir-ədDəbbas, Kərhi, Dəbusi, İbn Müzeym; Şafilərdə — İmamül-Harameyn, əl-Cüveyni, İzzu ibn Əbdissalam, Suyuti; Malikilərdə — Karafi; Hənbəlilərdə — İbn Rəcəb bu sahədə əməyi keçən hüquqşünaslardır. Məcəlləyi-Ahkami-Ədliyyənin bütün maddələri bu mahiyyətdə olmasa da müqəddiməsində bu ümumi davranış qaydaları 100 maddə halında bir araya gətirilmişdir. Müxtəlif məzhəblərə mənsub hüquqşünasların bu mövzuda kifayət qədər əsərlər qələmə almalarına baxmayaraq, müqavilə, borc, inzibati xəta və cinayətləri müəyyən edən ümumi normaların hazırlanması yolunda heç bir hüquqi fəaliyyəti olmamışdır. Bunun əsas səbəbi islam hüququnun Hicri təqviminin IV əsrindən etibarən getdikcə artan nisbətdə bir durğunluq dövrünü yaşaması ilə bağlıdır. Halbuki, kazuistik metoda görə ortaya atılmış minlərcə məsələlər içərisindən bunların tabe olduğu ümumi hökmləri çıxarmaq,

bir sözlə, yeni bir hüquqi texnika yaratmaq üçün bu məsələlərə tam bir bağlılıq və sağlam hüquq məntiqi olmalıdır. Türkiyəli alim Xeyrəddin Qaraman yazır ki, İslam dini insan cəmiyyətində müəyyən edilən islahatı gerçəkləşdirmək üçün həyata keçirilməsi tələb olunan əmrlər və hökmlərdən ibarət şəriəti yaratmışdır ki, bunun da bir-birinə bağlı, hər biri öncəkinin meyvəsi və sonrakının kökü olan üç hədəfi vardır: 1. Bəşəriyyətin ağlını xurafat və təqlid əsarətindən qurtarmaq. Bu, bir tək Allaha inam ilə əqli dəlinin, hür əməlin düşüncəyə yönəlməsi yolu ilə gerçəkləşir. Bununla da İslam dini müxtəlif cür təzahür olunan bütpərəstliyə qarşı mübarizə aparmışdır. Bütpərəstlik ağlın degenerasiyası, bəsirətin kor olması deməkdir; 2. Fərdin ruh və əxlaqını islah etmək, onu xeyir, yaxşılıq və vəzifə sahəsinə yönəltmək, həmçinin insana öz arzu və ehtiraslarına qalib gəlməsi, ağıl və vəzifə duyğusuna sahib olması imkanı yaratmaq. Bunu, Allaha davamlı ibadətlə savab və cəza inancı gerçəkləşdirir. Bunların sayəsində insan daim yaradıcısını xatırlayacaq, vəzifələrini qüsursuz olaraq yerinə yetirə bilmək üçün davamlı özünü nəzarətdə saxlayacaqdır; 3. Cəmiyyətdə ümumi həmrəyliyi və insanlar arasında bir-birinə olan inamı, ədaləti, həmçinin insana verilən hürriyyətlərin qorunmasını vacib etmək. [1]

İslam hüquqi ilə bir qədər tanış olduqdan sonra, yaxşı olardı ki, Qurandakı bəzi hüquqi ayələr ilə də tanış olaq.

Elə bu baxımdan da islamın hüquqa olan baxışını daha yaxşı və dərindən başa düşmək üçün, aşağıda bəzi hüquqi ayələri gətirəcəyik.

---

pa.edu.az[1]

Xanımlarına yaxınlaşmamağa dair and içənlər üçün dörd ay gözləmə müddəti vardır. Əgər andlarından dönsələr, bilsinlər ki, Allah bağışlayandır, rəhm edəndir. [1]

Əgər onlar boşamağa qəti qərar versələr, bilsinlər ki, Allah hər şeyi eşidəndir, biləndir. [2]

Boşanan qadınlar üç aybaşı müddəti gözləməlidirlər. Əgər Allaha və qiyamət gününə iman gətiriblərsə, bətnlərində Allahın yaratdığını gizlətmək onlara halal olmaz. Əgər ərləri barışmaq istəsələr, bu müddət ərzində onları geri almağa (hər kəsdən) daha çox layiqdirlər. Adətə görə kişilərin qadınları üzərində hüquqları olduğu kimi, qadınların da kişiləri üzərində müəyyən hüquqları vardır. Kişilərin isə onların üstündə bir dərəcələri vardır. Allah yenilməz qüvvət və hikmət sahibidir. [3]

Boşama (talaq) iki dəfədir. Bundan sonra (qadını) ya yaxşılıqla saxlamaq, yaxud da xoşluqla ayrılmaq lazımdır. Hər iki tərəfin Allahın hüdudlarında qala bilməməkdən qorxmaları istisna olmaqla, onlara (mehr kimi) verdiyinizdən bir şeyi geri almağınız sizə halal olmaz. Əgər Allahın hüdudlarında qala bilməyəcəklərindən qorxsanız, (mehrdən) ona (ərinə) bir şey verməsində heç birinə günah yoxdur. Bunlar Allahın hüdudlarıdır. Onları aşmayın! Kim Allahın hüdudlarını aşarsa, onlar əsil zalımlardır. [4]

Uşaqlarının tam əmizdirilməsini istəyənlər (atalar) üçün analar uşaqlarını tam iki il əmizdirsinlər. Onların (anaların) yeməyi və geyimi adətə görə (uşağın) atasının üzərinə düşür.

---

[1] Bəqərə, 226.

Həmin, 227.[2]
Həmin, 228.[3]
Həmin, 229.[4]

Heç kim gücünün çatmadığından məsul tutulmaz. Nə ana, nə də ata uşağına görə zərər çəkməlidir! Eyni məsuliyyət varisin üzərinə də düşür. Əgər ata və ana öz aralarında məsləhətləşərək razılığa gəlib uşağı süddən kəsmək istəsələr, heç birinə günah yoxdur. Əgər uşaqlarınızı süd anasına əmizdirmək istəsəniz və verəcəyinizi (zəhmət haqqını) adətə müvafiq ödəsəniz, sizə heç bir günah yoxdur. Allahdan qorxun və bilin ki, Allah etdiyiniz əməlləri görəndir. [1]

Sizdən ölən kimsələrin qoyub getdiyi qadınlar dörd ay on gün gözləməlidirlər. Gözləmə müddətləri tamamlandığı zaman öz barələrində etdikləri məşru işlərdə sizə günah yoxdur. Allah etdiklərinizdən xəbərdardır. [2]

Boşanan qadınların adətə müvafiq qaydada dolanışıqlarının təmin edilməsi müttəqilərin borcudur. [3]

Onları gücünüz çatdığı qədər yaşadığınız yerin (evinizin) bir hissəsində məskunlaşdırın və sıxışdırmaq (evdən çıxarmaq) məqsədilə onlara zərər verməyin! Əgər onlar hamilədirlərsə, uşağı dünyaya gətirənə qədər onların dolanışığını təmin edin! Sizin üçün uşaq əmizdirərlərsə, onlara ücrətlərini verin və aranızda gözəl bir şəkildə razılaşın! Əgər (razılaşmaqda) çətinliyə düşsəniz, uşağı başqa bir qadın əmizdirə bilər. [4]

İmkanlı olan (boşanmış, yaxud südəmər uşağı olan qadınlara) öz imkanına görə versin! İmkanı az olan da Allahın ona verdiyindən xərcləsin! Allah hər kəsi yalnız ona verdiyindən məsul tutar. Allah çətinlikdən sonra asanlıq bəxş edər. [5]

---

Həmin, 233.[1]
Həmin, 234.[2]
Həmin, 241.[3]
Təlaq, 6.[4]
Təlaq, 7.[5]

Oxuduğumuz ayələr, daha çox ailədaxili hüquqlara aid olan ayələrdir. Əgər diqqət etsək, görərik ki, Allah həmin ayələrdə ailə məsələlərinə, xüsusi ilə də kişi və qadın arasındakı yaranan ixtilaflı məsələlərə necə incəliklə yanaşır və bu ixtilafda heç kimin haqqının tapdalanmasına imkan vermir və xüsusi ilə də qadının haqqını açıqlayaraq, onu müdafiə edir.

Eyni zamanda da, ayələrdə ailə haqqındakı islam hüquq sisteminin bəzi qaydalarına da işarə edilir.

Yazının davamında, cinayət hüquqlarına aid bəzi ayələri gətirəcəyik.

Allaha və Peyğəmbərinə qarşı vuruşanların və yer üzündə fitnə-fəsad törətməyə çalışanların cəzası öldürülmək və ya çarmıxa çəkilmək, ya da əlləri və ayaqlarının çarpazvari kəsilməsi, yaxud da yaşadıqları yerdən sürgün olunmalarıdır. Bu (cəza), onların dünyadakı rüsvayçılığıdır. Axirətdə isə onlar üçün böyük bir əzab vardır. [1]

Oğurluq edən kişi və qadının gördükləri işə görə Allahdan bir cəza olaraq əllərini kəsin! Allah qüdrətlidir, hikmət sahibidir. [2]

Zina edən qadın və zina edən kişinin hər birinə yüz şallaq vurun! Əgər Allaha və axirət gününə inanırsınızsa, Allahın dinində (hökmlərini tətbiq edərkən) onlara qarşı ürəyiniz yumşalmasın! Möminlərdən bir qrup da onlara verilən cəzaya şahid olsun! [3]

---

Maidə, 33.[1]
Həmin, 38.[2]
Nur, 2.[3]

Namuslu qadınlara zina isnad edib sonra da dörd şahid gətirə bilməyənlərə səksən şallaq vurun və heç vaxt onların şahidliyini qəbul etməyin! Onlar əsil fasiqlərdir. [1]

Indi isə Notariat və müqavilə hüquqlarına aid bəzi ayələr ilə tanış olaq.

Ey iman gətirənlər! Müəyyən müddətə qədər borc alıb-verdiyiniz zaman onu yazın! Aranızda bir katib (onu) ədalətli bir şəkildə yazsın! Katib, Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın və yazsın! Borclu olan şəxs də söyləyərək yazdırsın və Rəbbi olan Allahdan qorxaraq ondan bir şey əskiltməsin (borcunu əskik yazdırmasın)! Əgər borclu şəxs ağılsız və ya zəifdirsə, yaxud yazdırmağa qadir deyilsə, o zaman onun vəkili ədalətli bir şəkildə (onun borcunu) yazdırsın! Öz adamlarınızdan iki kişini də şahid tutun! Əgər (şahidlik edəcək) iki kişi yoxdursa, razı olduğunuz şahidlərdən bir kişi ilə iki qadın (şahid olsun ki), o iki qadından biri unudarsa, digəri ona xatırlatsın.(Şahidlik etmələri üçün) çağırıldıqları zaman şahidlər boyun qaçırmasınlar. Az olsun, yaxud çox olsun, (borcu) hansı vaxta qədər olduğunu yazmağa ərinməyin! Bu, Allah dərgahında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməniz üçün daha uyğundur. Ancaq aranızda həmişə dövr edən nəğd ticarət olarsa, onu yazmamağınız sizin üçün günah deyildir. Alış-veriş etdiyiniz vaxt şahid tutun! Katibə və şahidə də zərər yetirilməsin! Əgər (belə) etsəniz, şübhəsiz, bu sizin üçün günahdır. Allahdan çəkinin! Allah sizə öyrədir. Allah hər şeyi biləndir! [2]

Əgər siz səfərdə olub katib tapa bilməsəniz bir şeyi girov qoymağınız da kifayətdir. Biriniz digərinə bir şey əmanət

---

Həmin, 4.[1]
Bəqərə, 282.[2]

edibsə, əmanət verilən kimsə əmanəti (vaxtı gələndə sahibinə) geri qaytarsın və Rəbbi olan Allahdan qorxsun! Şahidliyi gizlətməyin! Kim onu gizlədərsə, şübhəsiz, onun qəlbi günahkardır. Allah etdiyiniz əməlləri biləndir. [1]

Diqqət etsək, görərik ki, Allah bu ayələrdə "Notariat və Müqavilə" hüquqları haqqında danışır. Əgər ayələri oxuyub, onların mənaları haqqında bir qədər düşünsək, Quranın bu mövzuya nə dərəcədə dəyər verdiyini başa düşə bilərik.

Allah ayələrdə "Notariat və Müqavilə" hüquqları haqqında o həddə incə və şəffaflıqla danışır ki, o ayələri oxuyan hər bir insan həmin hüquqi mənaları dərk edə bilir.

Sonda isə Vərəsəlik hüququna aid bir neçə ayəni gətirib, Quranın bu mövzuya verdiyi dəyər ilə tanış olacağıq.

Sizdən birinizə ölüm gəldiyi zaman bir xeyir (mal-mülk) qoyub gedəcəksə, valideynlərə və yaxın qohumlara adətə uyğun bir şəkildə vəsiyyət etməsi fərz edildi. Bu, təqva sahiblərinin borcudur. Kim onu (vəsiyyəti) eşitdikdən sonra dəyişdirərsə, onun günahı yalnız onu dəyişdirənlərədir. Şübhəsiz ki, Allah hər şeyi eşidəndir, biləndir. Kim vəsiyyət edənin haqsızlıq etməsindən və ya günaha girməsindən qorxub onların (varislərin) arasını düzəldərsə, ona heç bir günah yoxdur. Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir. [2]

Allah övladlarınız (övladlarınıza miras bölgüsü etməyiniz) haqqında sizə əmr edir ki, oğula iki qızın payı qədər (pay) düşür. (Ölən şəxsin) qızları ikidən artıq olarsa, mirasın üçdə ikisi onlarındır. Əgər tək bir qızdırsa, (mirasın) yarısı onundur. (Ölən kimsənin) övladı varsa, ata-anasının hər birinə mirasın

---

Həmin, 283.[1]
Bəqərə, 181-183.[2]

altıda biri (qədər pay düşür). Əgər onun övladı olmayıb, varisi ata və anasıdırsa, (mirasın) üçdə biri anaya düşür. Əgər onun (ölmüş kimsənin) qardaşları varsa, (mirasın) altıda biri anaya düşür. (Bütün bu bölgü, ölən kimsənin) edəcəyi vəsiyyətdən və ya borcu ödənildikdən sonradır. Atalarınızdan və övladlarınızdan faydalı olmaq cəhətdən hansının sizə daha yaxın olduğunu bilməzsiniz. (Bunlar,) Allah tərəfindən müəyyən edilmiş paylardır. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hikmət sahibidir. [1]

Əgər zövcələrinizin övladı yoxdursa, onların qoyub getdikləri (mirasın) yarısı sizindir. Əgər onların övladı varsa, qoyub getdiklərinin dörddə biri sizindir. (Bu bölgü,) edəcəkləri vəsiyyətdən və ya borcları ödənildikdən sonradır. Əgər sizin övladınız yoxdursa, qoyub getdiyiniz (mirasın) dörddə biri onlara (arvadlarınıza) düşür. Əgər sizin övladınız varsa, qoyub getdiyiniz (mirasın) səkkizdə biri onlara düşür. (Bu bölgü də,) edəcəyiniz vəsiyyətdən və ya borcunuz ödənildikdən sonradır. Əgər miras qoyan kişi və ya qadının ata-anası və övladı olmayıb, bir qardaşı və ya bir bacısı varsa, onların hər birinə (mirasın) altıda biri düşür. Əgər bundan daha çox olsalar, onlar üçdə birinə şərikdirlər. (Bu bölgü,) ediləcək vəsiyyətdən və ya borc ödənildikdən sonra (və heç kimə) zərər verilmədən (aparılır). (Bunlar,) Allahdan (sizə) bir tövsiyədir. Allah hər şeyi biləndir, həlimdir. [2]

Ey iman gətirənlər! Sizdən birinizin ölümü çatdığı zaman vəsiyyət vaxtı içinizdən iki ədalətli şəxsi aranızda şahid tutun! Əgər siz səfərdə ikən başınıza ölüm müsibəti gələrsə, sizdən olmayan başqa iki nəfəri (şahid tutun). Əgər (şahidlərdən) şübhə etsəniz, namazdan sonra o ikisini tutub saxlayın və

---

Nisa, 11.[1]
Həmin, 12.[2]

onlar: "Onu (andları) qohumlarımızın mənfəəti üçün olsa belə heç bir qiymətə satmayacaq və Allahın şahidliyini gizlətməyəcəyik. Yoxsa, biz şübhəsiz ki, günahkarlardan olarıq", – deyə Allaha and içsinlər. [1]

Bu ayədə ölmək üzrə olan bir müsəlmanın öz yaxınlarına vəsiyyət etməsi gərəkdiyi tövsiyə olunur. Bəzi təfsirçilərə görə, ayədə qeyd edilən "içinizdən iki ədalətli şəxs" ifadəsi ilə ölən kimsənin yaxın qohum-əqrabası, yaxud müsəlman olanlar nəzərdə tutulmuşdur. "Başqa iki nəfər" ifadəsindən məqsəd isə müsəlman olmayıb kitab əhli olanlar, yaxud ölən kimsənin qohum-əqrabası olmayanlardır.

## Quranda hekayə və ibrət ayələri

Bu bir həqiqətdir ki, kainatı yaradan və dolayısı ilə onun həqiqi sahibi olan uca Allahın aləmdəki sonsuz varlıqlar içindən seçərək özünə həmsöhbət qəbul etdiyi, fitrət etibarilə ən gözəl, ən qiymətli bir şəkildə yaradaraq xilafətə layiq gördüyü, hətta elm öyrənmə və elm çıxarma cəhətiylə mələklərdən də üstün bir mövqeyə oturtduğu müstəsna varlıq İnsandır. Qurani-Kərim isə, yaradılışındakı üstün fitrətiylə aşan varlıq olan, Allaha həmsöhbət olmağa layiq görülən və şəxsən Quranın bəyanlarıyla üstünlüyü mələklər, ruhanilər tərəfindən səcdə edilərək həqiqətən təsdiq edilən insana Allah tərəfindən rəhmət olaraq göndərdiyi ən son ilahi mesajdır. Həqiqətən Allah insan əlaqəsi çərçivəsində mövzu qiymətləndirildiyində yaşadığımız bu aləmdə insan üçün ilahi mesajların, xüsusilə ən son ilahi mesaj olan Qurani- Kərimin əhəmiyyəti və zərurəti inkar edilə bilməz bir həqiqətdir. Çünki insan, hər nə qədər fitrətən ən üstün olaraq yaradılmışsa da yaradılan olması səbəbiylə ağlı, idrakı, məlumatı, gücü və bu

---

Maidə, 106.[1]

kimi qabiliyyətləri cəhətiylə əskik, qüsurlu və məhdud bir varlıqdır. Buna görə də insan yaradan və mütləq varlıq olan Allaha hər zaman möhtacdır. İnsanlığın hər dövrdə ilahi vəhyə ehtiyacı, gecənin zülmət qaranlığında yolunu itirib əl prosedurasıyla yolunu tapmağa çalışan çarəsiz bir insanın işığa, nura ehtiyacı kimidir. Ən son ilahi vəhy olan Qurani-Kərim də həmsöhbətlərinə, gərək özünü, gərəksə özündən əvvəlki ilahi vəhy məhsulları olan məsələn Tövratı və İncili təsvir edib tanıdarkən bir çox ifadələrin yanında "Nur" və "Dıya'=İşıq" ifadələriylə də xüsusilə təyin etməkdədir. Hətta eyni məna çərçivəsində ilahi vəhylərin və Quranın insanları qaranlıqlardan nura çıxardan ilahi bir kitab olduğu israrla vurğulanmaqdadır. Tarixi və Quranı həqiqətlər çərçivəsində sabitdir ki, Qurani-Kərim; insanlığa ən doğru, ən ədalətli yolu təsvir edən, hər iki dünya səadətinə hidayət edən, Allahın ən son olaraq göndərdiyi, alternativi olmayan din və hidayət kitabıdır. Qurani-Kərim hidayət və din kitabı olaraq ilahi mesajı insanlığa təqdim edərkən təbiətiylə insanlıq anlayış və mədəniyyətində var olan bəyan və üslubları ilahi bəyan və üsluba yaraşar ən gözəl və möcüzə şəkillərdə istifadə etmişdir. Şəxsən Qurani Kərim; insanlar həqiqəti daha yaxşı anlasın və daha yaxşı dərs və ibrət götürsün, ilahi mesaj və hidayət yolunu daha asan qavrasın deyə müxtəlif bəyan və üslub şəkillərini istifadə etdiyini, növ növ nümunələr ehtiva edən ayələri açıqladığını əhəmiyyətlə vurğulamaqdadır. Şübhəsiz Qurani-Kərimin istifadə etdiyi bir çox üslub şəkilləri içində ən əhəmiyyətlilərindən biri də "Hekayələr" üslubudur. Deməkolar ki, Quranın yarısını təşkil edən hekayələrin mahiyyətini anlamaq və Quranın digər bir əhəmiyyətli üslub növünü, izahat metodu olaraq məsəllərlə qarışdırmamaq və ya hekayə sözünə, kök quruluşunda mövcud olmayan mənalar yüklənərək ədəbiyyatdakı ‘Hekayə' növü ilə qarışdırmamaq üçün hekayə

sözünün lüğətdəki və Quran terminindəki mənalarına işarə etmək uyğun olacaq. Ərəbcədə hekayə sözü, (Qasas) kökündən törədilən bir sözdür. Sözün kökündə; izah etmək, xəbər vermək, bildirmək, rəvayət etmək, sözü nəql etmək, rəvayət etmək, izləmək, kəsmək, vs. mənalar var. İslami ədəbiyyatda və ya Quran terminində hekayə deyildiyində, Quranda izah edilən tarixi hadisələr və peyğəmbərlərin (ə) həyat hekayələri nəzərdə tutulur. Ancaq Qurani-Kərimdə haqqında danışılan məzmunda şəxsən hekayə olaraq deyil, eyni kökdən gələn, əslində ad olub, məsdər yerinə də istifadə edilən qəsəs şəklində keçməkdədir. Yenə eyni sözün törəmə sözləri bir çox yerdə izah etmək, rəvayət etmək; iki yerdə də izləmək, mənalarında istifadə edilmişdir. Quranda əhəmiyyətli bir yekun təşkil edən tarixi hadisələrə qəsəs deyilməsi təsadüfi olmamışdır. Bu ad Quranda, tarixi hadisələrin keyfiyyət və ölçülərini göstərən çox incə mənalar güdülərək seçilmişdir. Bu həqiqəti anlaya bilmək üçün hekayə sözünün kökündə mövcud olan bu dörd təməli unutmamaq lazımdır. Birincisi: İz sürmək, birini izləyib arxasından getmək. Daha əvvəl də ifadə edildiyi kimi söz mövzusu bu mənada Qurani-Kərimdə 2 yerdə istifadə edilmişdir. İkincisi: Bir kimsəyə bir xəbər və ya sözü bildirmək, açıqlamaq, izah etməkdir. Söz bu mənasıyla da Qurani-Kərimdə təxminən 17 yerdə keçməkdədir. Üçüncüsü: Bir şeyi qayçı ilə kəsmək, qırxmaqdır. Yenə Ərəbcədə “Qusasətuş-Şəri” təbiri, yəni “Saçlardan kəsilən bir miqdarı” ifadə edər ki "Bir tomar saç" şəklində tərcümə etmək mümkündür. Eyni kökün dördüncü mənası olaraq da əslində ad olub məsdər mənasında istifadə edilən qəsəs və qass sözlərinə baxdığımızda; sinə, sinənin başı, ortası və sinə sümüyü mənalarıyla bir şeyin əhəmiyyətli qisimi, müəyyən bir hissəsi, parçası mənalarını verdiyini görməkdəyik. Bu son məna, Ərəblərin Qusasuş-Şari təbirində, alın qismində saçların

bitiş nöqtəsi, ön cəbhədə başın orta nöqtəsi, alın kimi mənaları ifadə etdiyini görürük. İndi Quran ədəbiyyatında qəsəs, hekayə və ya hekayələr deyildiyində dərhal Quranda əhəmiyyətli yer tutan keçmişə aid hadisələrin izah edilməsi ağla gəldiyi kimi, elmi və obyektiv bir nəzərlə diqqət yetirildiyində eyni zamanda sözün kokündə var olan əsl dörd mənadan ötəri təməl ünsürləriylə Quran hekayələrinin mahiyyətini, həqiqətliyini əks etdirdiyini də görərik.

Ayələrin birində Allah-tala belə buyurur: Şübhəsiz ki, onların qissələrində ağıl sahibləri üçün ibrət vardır. (Bu Quran) uydurulan bir söz deyildir. Lakin o, özündən əvvəlkiləri (ilahi kitabları) təsdiqləyən, hər şeyi açıq şəkildə izah edən (bir kitab) və iman gətirən bir qövm üçün hidayət və rəhmətdir. [1]

Ayə bizə bir çox həqiqətləri çatdırır. O cümlədən, tarixin dərinliklərində itmiş, unudulmuş və ya bəzi izləri insanlığın yaddaşında varlığını qoruya bilmiş, hər vaxt üçün etibarlı mütləq həqiqətləri, yüksək dini dəyərləri, istiqamətləndirmə, təşviq kimi ünsürləri başqa hekayələrdə olmayan bir şəkildə ehtiva edən tarixi hadisələrin, özündən daha doğru bir kimsənin olmadığı Allah tərəfindən Quran tərəfdarlarına; sanki hadisələrə yenidən bir canlılıq verərək izah edilməsidir. Hadisələr izah edilərkən, Quran ayələrdə təfərrüat məsələlərini və lazımsız qisimlərini tərk etmiş, yalnız Quranın hidayət rəhbəri olduğuna uyğun bir şəkildə həmsöhbətləri irşad edib, işıqlandıracaq qisimlərini izah etmişdir. Hekayə kökünün lüğət və termini mənasıyla əlaqədar yuxarıdakı şərhlərdən, Quran hekayələrinə nə üçün ilk baxışda daha uyğun görünən hekayə deyilmədiyini asanca anlamaq mümkündür. Çünki hekayə sözünün lüğət mənası; “Bir şeyin eynisini və bənzərini

[1] Yusuf, 111.

gətirmək" mənasındadır. Ərəbcədə "Həka ənhul-hədis" (Ondan sözü rəvayət etdi) deyincə; söz, hərəkət və digər xüsuslarda təfərrüatda eynisini nəql etdi mənasını verir.

Ibrət və hekayə haqqında kifayət qədər məlumat əldə etdiyimizə görə, bu barədə bəzi Quran ayələri ilə də tanış olsaq, məqsədə daha uyğun olardı. Bu baxımdan, aşağıda hekayələr haqqında nazil olan bəzi Quran ayələrini gətirməklə, hekayələrin və onlardan alınan ibrət dərslərinin əhəmiyyətini dərk etmiş olarıq.

Onlar yer üzündə gəzib dolaşaraq özlərindən əvvəlkilərin aqibətinin necə olduğuna baxmadılarmı? Onlar bunlardan da güclü idilər. Onlar torpağı becərir və bunlardan daha çox abadlaşdırırdılar. Onların peyğəmbərləri özlərinə açıq-aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm etmirdi. Əksinə, onlar özlərinə zülm edirdilər. [1]

De: "Yer üzündə gəzib dolaşın, sonra (peyğəmbərləri) təkzib edənlərin aqibətinin necə olduğuna baxın!" [2]

(Bədr döyüşündə) iki dəstənin qarşı-qarşıya gəlməsində sizin üçün bir ibrət vardır. Biri Allah yolunda vuruşan dəstə, digəri isə gözləri ilə onları (möminləri özlərinin) ikiqatı görən kafirlər dəstəsi idi. Allah dilədiyi kimsəni köməyi ilə dəstəkləyər. Şübhəsiz ki, bunda, bəsirət sahibləri üçün bir ibrət vardır. [3]

Kitab əhlindən inkar edənləri (müsəlmanlar qalalarının önündə) ilk toplandıqları zaman yurdlarından çıxardan Odur. Onların çıxacaqlarını zənn etmirdiniz. Onlar da elə zənn

---

Rum, 9.[1]
Ənam, 11.[2]
Ali-İmran, 13.[3]

edirdilər ki, qalaları özlərini Allahdan qoruyacaqdır. Ancaq Allah (Allahın əzabı) onlara heç gözləmədikləri bir yerdən gəldi və onların qəlblərinə qorxu saldı. Onlar evlərini həm öz əlləri, həm də möminlərin əlləri ilə dağıdırdılar. Ey ağıl sahibləri, (bundan) ibrət alın! [1]

Şübhəsiz ki, onların qissələrində ağıl sahibləri üçün ibrət vardır. (Bu Quran) uydurulan bir söz deyildir. Lakin o, özündən əvvəlkiləri (ilahi kitabları) təsdiqləyən, hər şeyi açıq şəkildə izah edən (bir kitab) və iman gətirən bir qövm üçün hidayət və rəhmətdir. [2]

Ayələri diqqətlə oxuyanda, tarixi hadisələrin insan həyatında nə qədər önəmli təsirə malik olduğunu başa düşmək olar. Eyni zamanda da bu və bu kimi bir çox ayələri mütaliə edəndə, hekayə və ibrət ayələrinin hər kəs üçün başa düşülən olduğunu anlamaq olar. Ibrət alınacaq ayələri hər bir insan oxuyub, öz yaşayışı üçün ibrət dərsi götürə bilər və həmin ayələr xüsusi bir qrup insanlar üçün yox, bütün insanlar üçün bir nümunə və ibrət dərsidir.

---

Həşr, 2.[1]
Yusuf, 111.[2]

## Ədəbiyyat

1-Qurani-Kərim.
2- Nəhcülbəlağə
3-Səhifeyi-Səccadiyyə
4- Məclisi, Məhəmməd Baqir, Biharul-ənvaril-camiəti lidurəri əxbaril-əimmətil-əthar, 1377
5- Nuri, Hüseyn, Müstədrakül-Vasail, 1377
6- İbni Yəqub, Kuleyni, Məhəmməd, Üsuli-Kafi.
7- Hurr Amili, Əbu Cəfər, Məhəmməd, Vəsaiuş-Şiə.
8- İbni Əbi Əhməd, Seyyid Rəzi, Məhəmməd, Nəhcül-Bəlağə.
9- İbn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, Məhəmməd ibn Əli, Məanil-Əxbar.
10- İbni Yəqub, Siqətul-İslam, Kuleyni, Muhəmməd, Furuul-Kafi.
11- Əbdül-Vahid, Əbulfəth Nasihuddin, Ğurərul-Hikəm.
12- Təbərsi, ibni Həsən, Fəzl, Məkarimul-Əxlaq.
13- Təbərsi, ibni Həsən, Fəzl, Məcməul-Bəyan.
14- İbni Hüseyn ibni Musa Bəbaveyhi əl-Qummi , Məhəmməd ibn Əli, İləluş-Şərayi.
15- Razi, Fəxruddin, Təfsiri-Kəbir.
16- Zeynul-Abidin, Əli ibni Huseyn, Səhifə Səccadiyyə.
17- Məkarim Şirazi, Nasir, Quranda Əxlaq.
18- Qummi, Şeyx Abbas, Məfatihul-Cinan.
19- Məğribi, Qazi Əbu Əbdullah, Muhəmməd, Şəhabul-Əxbar.
20- Qiraəti, Muhsin, Nur təfsiri.
21- Beyhəqi, İbni Huseyn, Əbul-Fəzl, Muhəmməd, Tarix Beyhəqi.
22- İbni Cümə Huvəyzi, Əbdu-Əli, Nurus-Səqələyn.
23- Tusi, Xacə Nəsruddin, Adabul-Mutəəllimin.

24- İbni Əbdul-Məlik Hindi,Əlauddin Əli, Kənzul-Ummal.

25- İbni Muhəmməd Şuəyri, Şeyx Tacəddin, Muhəmməd, Camiul-Əxbar.

26- Nəraqi, Muhəmməd Məhdi, Camius-saadat.

27- Anatomy of the Earth", Cailleux ( Səhifə 71-dədi)

28- theQuranleadsthewaytoscienceaz.wordpress.com (Səhifə 80)/

27- Şəhid Mütəhhəri, Mürtəza, İslam elmləri ilə tanışlıq.

29- Сюкияйнен Л.Р.Мусульманское право. М., 1986. с. 7. (Səhifə 98).

30- А.С.Боголюбов. Пересечение и наказание в мусульманском праве /Ислам. Религия. Общество. (Səhifə 99).

31- Давид Рене, Жоффре-Спинози Камилла. Основные правовые системы современности. М., 1998. с. 309. (Səhifə 99).

32- pa.edu.az saytı

# Qadın və uğur

Elnarə Abdulova[1]

**Abstrakt**

Qadın qoynunda insanlar yetişdirib cəmiyyətə təqdim edə bilən yeganə varlıqdır ki, onun ən böyük uğurlarından biri sağlam bir cəmiyyət, hətta cəmiyyətlər yaranıb son dərəcə yüksək və insani dəyərlərə yönələ bilər. Qadın hər zaman cəmiyyətdə önəmli yer tutmuşdur. Xüsusilə cəmiyyətin inkişafında, tərəqqisində qadınların rolunun araşdırılması və müazkirə olunması mühümdür. Qadının uğurları haqda, onun elmi və mədəni xidmətləri haqqında nə qədər məqalələr, kitablar yazılsa da, araşdırmalar aparılsa da yenə də bu mövzuya tələbat var. Qadın , Quran və rəvayətlərdə həyat libası, Tanrı neməti və gül budağı kimi gözəl dəyərləndirilmişdir.

**Açar kəlmələr:** slam, qadın, hüquq, uğur, müvəffəqiyyət

## Giriş

“Aranızda olan subay kişi və ərsiz qadınları əməlisaleh (yaxud evlənmək həddinə çatan ) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa Allah öz lütfü ilə onları

---

- İslam araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları İnstitutu, Əl-Mustafa [1] Beynəlxalq Virtual Universiteti, Qum, İran

dövlətli edər. Allah lütfü , mərhəməti geniş olan və hər şeyi biləndir.” [1]

Allahın rəsulu buyurur: “Kimə bu dörd şey qismət olsa dünya və axirətin xeyir-bərəkətini qazanar.

1.Gümrah bədən

3. Zikr edən qəlb

2. Zikr edən dil

4. Saleh əməlli həyat yoldaşı.[2]

Allahın Rəsulu buyurur:

“Ruzi həyat yoldaşı və evliliklə birgədir.[3]

Kişinin xöşbəxtliyindən biri də ləyaqətli həyat yoldaşına sahib olmasıdır.” [4]

İmam Kazım buyurur:

“Xeyir –bərəkətin çoxu qadındadır.” [5]

İmam Sadiq buyurur:

“Mömin şəxs üç şey üçün (axirətdə)hesab verməz ; yediyi yemək, geydiyi paltar və ona günahlardan uzaqlaşmaq üçün yardım edən ləyaqətli qadın.” [6]

Qeys bir gün Məhəmməd Peyğəmbərin (s.) öz qızlarından birini dizinin üstündə əyləşdirdiyini gördü. Dedi:

“Bu qoyun balası nədir ki , onu bu qədər öpürsən?”

Həzrət buyurdu:

“Bu mənim qızımdır.”

Qeys dedi:

“Allaha and olsun ! mənim çox sayda qızım olub , onların hamısını diri-diri torpağa basdırmışam , heç birini bu qədər öpüb , əzizləməmişəm.

---

Nur surəsi ayə 32[1]
Müstədrəkül-vəsail c.14,səh.108[2]
Üsuli-kafi c.5,səh 331[3]
Əl-kafi c.5,səh 327,hədis 4[4]
[5] Vəsailüş-şiə,c.14,səh 11[5]
Əl-kafi c.6,səh.180[6]

Peyğəmbər (s) qəzəblənərək buyurdu:

“Vay olsun sənə! Allah mərhəmət hissini sənin könlündən silib. Allah-taalanın insana bəxş etdiyi ən dəyərli nemətlərin qədir-qiymətini anlamamısan.” [1]

“Fatimə mənim bədənimin bir parçasıdır. Onu sevindirən məni sevindirib və onu qəmləndirən məni qəmləndirib, Fatimə mənim üçün ən əziz şəxsdir” [2]

**Nümunəvi qadınlar**

Qurani kərimə və hədis qaynaqlarına nəzər saldıqda görürük ki, Qurana görə nümunəvi qadın, müvəffəq və uğurlu qadındır.

Qurani Kərim:

(Ya Peyğəmbər!)Xatırla ki , bir zamanlar mələklər belə demişdilər:

“Ya Məryəm, həqiqətən, Allah səni seçmiş , (eyblərdən) təmizləmiş, (cəmi) aləmlərin (bütün dünyanın ) qadınlarından üstün tutmuşdur .” [3]

Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə binti Məzahimi) misal çəkdi . O zaman o dedi:

“Ey Rəbbim !Mənim üçün Öz dərgahında –Cənnətdə bir ev tik .

Məni Firondan və onun əməlindən qurtar . Məni zalım qövmdən xilas et.” -demişdi. [4]

Allahın Rəsulu buyurur:

“Kim Xədicə kimi ola bilər?! O hər kəsin mənə qarşı olduğu bir vaxtda iman gətirib , mənə himayədarlıq etdi.” [5]

Allah taala dərgahında dörd seçilmiş qadın var: Məryəm, Asiya ,

---

İslam və ərəb mədəniyyəti ,Mürtəcim :Seyyid Haşim Hüseyni səh.501və 503[1]
Biharül Ənvar c 43 səh.23.hədis 17[2]
Ali İmran surəsi ayə 42[3]
Təhrim surəsi ayə 11[4]
Səfinəti –biharül-ənvar c 1 səh 36[5]

Xədicə , Fatimə. [1]

İslam tarixinin ilk şəhid xanımı –Süməyyə

İslam tarixinin ilk dövrlərində Əmmarın atasını , yəni Süməyyənin əri Yasəri İslamı qəbul etdiyinə görə şəhid edirlər. Onu şəhid edən İslam düşmənlərinin ürəkləri bununla soyumur . Onlar Süməyyəni də hədələyirlər:

-"Əgər Muhəmmədi inkar etməsən , ayaqlarının hər birini bir dəvəyə bağlayıb , iki tərəfə çəkərək səni şaqqalayacağıq". Ancaq bütün vücudu "Allah" – deyən Süməyyəyə onların bu hədə-qorxusu təsir edərdimi?! Elə hey Peyğəmbərin(s.ə.a.s) sözü qulağında cingildəyirdi:

-"Yasərin ailəsi , səbr edin, sizin yeriniz Cənnətdir."

Nəhayət, qana susamış düşmənlər ona ağır işgəncə verməklə öz qəlblərini yatırtmaq qərarına gəlirlər və onu şəhid edirlər.

Beləliklə, onun adı İslam uğrunda canını qurban verən ilk şəhid xanım kimi tarixin səhifələrinə yazılmış olur.

Heç bir zülmdən , əziyyətdən , min bir məşəqqətdən qorxmayan və heç bir zaman İslam dininin əmr etdiyi yoldan dönməyən bu xanım kimi digər bir neçə xanım qəhrəmanlar vardır ki , onların da adlarını qeyd edərək qısa məlumat vermək istəyirəm .

İndi isə haqqında yazacağım xanım İslam Peyğəmbəri Muhəmməd (s.ə.a.s)-in altı bibisindən biridir.

Səfiyyə xanım Peyğəmbərin əmisi Həzrət Həmzə ilə eyni ata-anadan doğulmuşdur. Atası Əbdülmütəllib , ansı isə Halə ibni Vəhəbdir. Cahillik dövründə Haris ibni Hərbə ilə ailə qurmuşdur və bu nigahdan bir oğlu dünyaya gəlmişdi. Həyat yoldaşı Harisin vəfatından sonra Həzrət Xədicənin qardaşı , Əvvam ibni Xuveylidlə ailə qurur. Bu evlilikdən onun üç oğlu

---

Biharül-ənvar c 43[1]

dünyaya gəlir. Oğullarının adı Zubeyr , Saib və Əbdülqədədir. Bu uşaqların ən məhşuru Zubeyr ibni Əvvamdır.

Səfiyyə qardaşı oğlu Muhəmmədi (s.ə.a.s) çox istəyirdi. Hələ uşaqlıqdan ona qayğı bəsləyirdi. Atasının yoxluğunu hiss etdirməmək üçün əlindən gələn fədakarlığı edərdi.

Aradan uzun illər keçir , böyük sevgi göstərdiyi Muhəmməd (s.ə.a.s) Allahın seçdiyi sonuncu nəbi olur və İslam dinini əvvəl gündən gizli təbliğ etməyə başlayır. Nəhayət Qurani –Kərimin Şura surəsinin 114,115-ci ayələrinin hökmünə əsasən Peyğəmbər qohumlarını bir ünvana toplayır. Ayədə belə deyilir:

-"Əvvəl ən yaxın qohumlarına tövsiyə et. Sənə inanan möminlərə mərhəmət qanadını endir (onlarla yaxşı davran)" .

İslma dinini qohumlarına təbliğ etdikdən sonra Səfiyyə xanım və oğlu Zubeyr İslam dinini qəbul etdilər və Peyğəmbərə (s.ə.a.s) qoşuldular. Səfiyyə xanım çox çalışdı ki , qardaşı Əbu Ləhəb də İslam dinini qəbul etsin. Lakin əmisi Əbu Ləhəbin Muhəmmədə (s.ə.a.s.) olan kin-küdurəti həddini aşmışdı. O, müsəlmanlara əzab verir , onların keçdikləri yollara tikan səpir , hətta təhqirini belə açıq –aşkar etməkdən çəkinmir, yeri gələndə zor tətbiq edirdi. Səfiyyə xanım hər zaman Allah rəsulunu qorumağa çalışırdı. Bir gün eşitdi ki , Əbu Ləhəb onu narahat edir. Oraya gəldi və dedi:

-"Əbu Ləhəb! Qardaşım oğlunu və onun dinini köməksiz köməksiz qoymaq sənə yaraşırmı ? Kitab əhlinin alimləri Əbdülmütəllibin soyundan bir peyğəmbər dünyaya gələcəyini bilmirdilərmi ? Bu sənin qardaşın oğludur ."

Onun yanıqlı sözləri Əbu Ləhəbə təsir etsə də o, qürur və təəssübkeşliyindən dönmədi və bacısına belə söylədi :

-"Qadınların sözü həmişə kişilərə ayaq bağıdır."

Bu sözlərdən sonra Səfiyyə xanım məyus halda oradan ayrıldı.

Qardaşını yola gətirə bilməsə də oğlu Zubeyr ibni Əvvam bir islamçı kimi yetişdirməkdə Səfiyyə xanımın səyləri boşa getmədi. Bir sıra mənbələrdə Zubeyr Peyğəmbərin hər zaman yanında olduğu gostərilib hətta onun Cənnət əhli olmasını iddia edirlər. Lakin tarixə nəzər saldıqda görürük ki , Cəməl müharibəsində onun Həzrət Əliyə (ə) qarşı olması , beyəti pozması ağır və bağışlanılmaz hallardandır.

Səfiyyə xanım heç bir zaman Allah rəsulu və Əhli-beytin yolundan dönmədi. Müşriklərin zülmündən sonra oğlu Zubeyr ilə birgə Məkkədən Mədinəyə köçdü. İslam dini uğrunda malı və canı ilə hər zaman mübarizə apardı. O, İslam tarixində hərbdə olan ilk qadın idi. Həzrət Muhəmməd (s.ə.a.s.) Uhud müharibəsində olan zaman qadın və uşaqları bir yerə toplayıb Mədinədə təhlükəsiz bir ev sayılan Həsən ibni Sabitin evinə apardı. Bu kişi yaşlı və şikəst olduğu üçün müharibədə iştirak etmirdi. Səfiyyə xanım nəql edirdi :

-“ Mən qadın və uşaqlardan bir dəstə ilə çadırda oturmuşdum. Həsən də bizimlə idi. O gün döyüş uzun çəkdi. Bizimlə Allahın rəsulu arasında o qədər məsafə vardı ki , əgər düşmən bizə gecə hücum etsəydi bizi düşməndən müdafiə etməyə gələ bilməzdilər. Biz xeymədə olanda yəhudi kişi xeyməyə yaxınlaşdı. Həsənə dedim:

-“Bu kişinin bizi qətlə yetirəcəyini hiss edirəm , qalx və bu kişini burdan uzaqlaşdır.

Həsən ibni Sabit dedi :

-”Əbdülmütəllibin qızı, Allah bilir ki , mən onun yanına gedənə qədər qüvvətim olsaydı Allah rəsuluna Uhud döyüşündə kömək edərdim”.

Səfiyyə xanım Həsənin bu sözlərindən sonra cuşa gələrək ayağa qalxdı və qərara gəldi ki , düşmənin həmləsini özü dəf etsin. Silahsız olmasına baxmayaraq bu barədə qərarı tez verərək xeymənin sütununu silah kimi əlinə aldı və

düşmənə hücum etdi . Səfiyyə xanım yəhudini qetl edənə kimi onunla döyüşdü. Səfiyyə xanım İslam tarixinin qızıl səhifələrinə düşməni qətlə yetirən ilk cəsur xanım olaraq adını yazdırdı.

Yəhudini öldürdükdən sonra o , döyüş meydanına nəzər yetirdi. Müsəlmanlar çox təlaşlı idilər. Hətta müharibədən məğlubiyyət xəbərləri gəlməyə başladı. Nəhayət o, qardaşı oğlunun başına gələ biləcək ağır hadisənin təhlükəsindən qorxuya düşərək bir neçə qadınla Ühüd meydanına gəldi. Qardaşı oğlunun sağ olması , qardaşı Həmzənin şəhid olmasını eşitdi. Qardaşını görməyə tələsdi. Bundan xəbər tutan Peyğəmbər (s.ə.a.s) Zubeyrə buyurdu:

-"Ananın qarşısını kəs!"

Zubeyr Peyğəmbərin(s.ə.a.s) əmrinə itaət edərək anasını döyüş meydanına girməkdən çəkindirdi. Qəlbi parçalanan Səfiyyə xanım dedi:

-"Məni qardaşımla onun bədəninin tikə-tikə doğrandığı üçün görüşməyə qoymursunuzsa bu islam yolunda kiçik birşeydir. Mən bu hadisə ilə razılaşmışam. Mən buna səbr edərəm və bunu Allah dərgahında hesaba gətirəcəyəm." Bundan sonra o , Həzrəti Muhəmmədi (s.ə.a.s.) gördü və ondan soruşdu:

-"Ya Rəsulullah , atamın oğlu Həmzə haradadır?" Peyğəmbər ona cavabında buyurdu:

-"O , şəhidlər arasındadır." Səfiyyə xanım irəli gəldi, qardaşının parçalanmış bədənini gördü və ağladı. Peyğəmbər (s.ə.a.s.) də ona qoşulub ağladı. Sonra Peyğəmbər (s.ə.a.s.) iki əlini Həmzənin sinəsinə qoyub onun üçün dua etdi.

Səfiyyə xanım mətanət və qəhrəmanlığı ilə yanaşı şairəliyi ilə də tanınmışdır. Rəsuli Əkrəm (s.ə.a.s.) dünyadan köçdükdən sonra onun üçün söylədiyi mərsiyələr məşhurdur. Onlardan birinin məzmunu belədir.

"Ey Allahın Rəsulu (s.ə.a.s.) , sən bizim ümid dayağımızdın. Bizə qarşı daima yaxşılıq edərdin.

Allahın Rəsuluna (s.ə.a.s.) atam , anam ,öz nəfsim fədadır. İnsanların Rəbbi səni bizə buraxsaydı xöşbəxt olardıq. Amma Allaha can fədadır . Allahın salamı olsun sənə ya Rəsulullah(s.ə.a.s.).

Bu xanım Peyğəmbərdən (s.ə.a.s.) sonra on il yaşadı . Hicrətin iyirminci (Miladi 640) ilində 73 yaşında Ömər ibni Xəttabın xilafəti zamanında vəfat etdi. Mədinədə ,Bəqi məzarlığında dəfn olundu.

Təsadüfi deyildir ki , Əmmar Yasirin anası Süməyyə xanımın düşmənlərin ən ağır işgəncələrinə dözərək əqidısindən , ianmından dönməmiş , elə buna görə də müşriklər tərəfindən amansızlıqla qətlə yetirilmişdi. Belə ki , o , İslam dünyasının ilk şəhidi sayılır.

Peyğəmbərin (s.ə.a.s.) dövründə müharibələrdə döyüşçülərə qulluq edən , onların qayğısına qalan müsəlman qadınlar bundan əlavə hətta ən çətin anlarda da döyüş meydanına atılaraq qəhrəmancasına vuruşmuşlar. Ümmü Amir ləqəbli Nəsibənin Ühüd döyüşündə , Həmzənin bacısı Səfiyyə xanımın Xəndək müharibəsində düşmənə qarşı vuruşaraq göstərdiyi rəşadətlər üçün Peyğəmbərimizin (s.ə.a.s.) onlar behişt vəd etməsi də buna misal ola bilər.

Mövzunun bu məqamında Səfiyyə xanımdan başqa bir neçə qəhrəman xanımlar da vardır ki , onların adını çəkərək həyatına qısa nəzərə salaq.

1. Lubəynə xanım bəni-Muməl tayfasının kənizi idi. Ömər ibni Xəttab, İslamı qəbul etməmişdən əvvəl ona çox işgəncə verərdi. Lakin bu qadın heç vaxt təslim olmayıb və İslam dinindən dönməyib.

2.Zinnirə xanım bəni-Məxzun tayfasından idi . Əbu Cəhl müsəlman olduğuna görə ona əziyyətlər versə də onu əqidəsindən döndərə bilməyib.

3.Nəhdiyyə bəni-Nəhd tayfasının kənizi idi. Nəhdiyyə İslamı qəbul etdiyinə görə öz xanımının işgəncələrinə məruz qalsa da öz əqidəsindən dönməyib. Nəhdiyyə xanımın kəznizi olduğu xanım bəni-Əbuddar qəbiləsindən idi.

4. Xənsa bəni –Səlim tayfasından idi. Onun təbliği nəticəsində bütün qəbiləsi İslam dinini qəbul etmişdi. Bəzən Xənsa özünün şeir və şüarları ilə müsəlmanları kafirlərin əleyhinə qaldırardı. Bütün bu etdikləri ilə kifayətlənməyən Xənsa xanım Qadisiyyə döyüşündə oğlanlarının dördünü də döyüş meydanına göndərmiş və dördü də bu döyüşdə şəhid olmuşdur.

5.Ümmü Ziyad Əşcəiyyə Xeybər döyüşündə iştirak etmiş beş qadından biridir. Peyğəmbər (s.ə.a.s.) onların gəlişinin səbəbini soruşduqda onların cavabı belə olmuşdu:

-"Yaralılara tibbi yardım göstərməklə sizə kömək etmək istəyirik."

Peyğəmbər (s.ə.a.s.) onların qalıb yardım etmələrinə icazə vermişdi.

İslam tarixinin qəhrəman xanımlarından biri də Cabir ibn Həkimin qızı Qəziyyə kimi tanınan Ümmu Şərik Əsəd idi. O, Qureyş tayfasının bəni Amir qəbiləsindən idi. İslamın ilk dövrlərində müsəlman olan bu xanım , bütün bacarığı ilə dinin təbliği üçün çalışmışdı . O,gizlin və aşkarda insanları- xüsusən də xanımları İslama dəvət etdiyi üçün ağır işgəncələrə məruz qalıb. Hətta bir dəfə onu palansız dəvəyə mindirib üç gün ac-susuz vəziyyətdə saxlayıb , sonra isə əl-ayağını bağlayıb

qızmar günəş altında yolun üstünə atıblar. Əgər Allahın lütf və mərhəməti olmasaydı şübhəsiz o , tələf olardı.

Bir neçə şücaətli xanımın adını çəkdikdən sonra istərdim ki , birlikdə Peyğəmbərin (s.ə.a.s.) kənizi Ümmu Əymənin həyatına qısa nəzər salaq.

Bu xanımın adı Bərkə idi. Bərkə xanım həm də şəhid vermiş analardan biridir. Həzrət Peyğəmbər (s.ə.a.s.) onu kənizlikdən azad edərək Übeydə Xəzrəci ilə evləndirmiş və onların bu izdivacından Əymən adlı oğlu dünyaya gəlmişdi.

Ümmu Əymənin əri vəfat etdikdən bir müddət sonra Peyğəmbər (s.ə.a.s.) onu Zeyd ibn Haris ilə evləndirmiş və bu izdivacdan da Üsamə adlı oğlu dünyaya gəlmişdi. Ümmu Əymən çox qoşaq və şücaətli bir xanım idi. O , yaralılara tibbi yardım göstərmək üçün Ühüd döyüşündə iştirak etmiş və döyüşün qızğın anında bir dəstə müsəlmanın fərariliyini görəndə ovcunu torpaqla doldurub onların üzünə ataraq demişdi:

-"Kişi döyüşdən qaçmaz. Siz arvad kimi hərəkət edirsinizsə , gedin arvad cəhrəsi arxasında da oturun. Vay olsun sizə!"Ümmu Əymən bununla da kifayətlənməyib , əlinə qılınc alaraq İslam və Peyğəmbərimizin (s.ə.a.s.) müdafiəsinə qalxmışdı.

Onun fəziləti , cəsurluğu barəsində çox yazmaq olar. Ümmu Əymən Rəsuləllahdan (s.ə.a.s.) sonra da əqidəsində möhkəm qalmış və həmişə Həzrəti Fatimeyi Zəhra (s.ə.) və onun ailəsi ilə birgə olmuşdu. Bu fəzilətli xanım haqqında bunu demək kifayət edir ki ,onun oğlu Əymən Hüneyn döyüşündə misli görünməmiş qəhrəmanlıq göstərərək şəhid olmuş , digər oğlu Usamə isə hələ 17-20 yaşlarında ikən sərkərdə məqamına kimi yüksəlmişdi.

İslam tarixində ağır döyüşlərdən biri də Ühü döyüşüdür. Bu döyüdə Mədinə müsəlmanlarının bir çoxu şəhid vermişdir.

Maraqlıdır ki , xanımalr öz övladlarının , ərlərinin və qardaşlarının halını xəbər almazdan öncə , Peyğəmbərin(s.ə.a.s.) halını soruşurdular.

Qeysin qızı Suda da belə xanımlardan biri idi. Ühüd döyüşündə o, övladlarının şahid olduqlarını bilsə də , onlar haqqında xəbər almazdan öncə soruşdu :

-“ Peyğəmbərdən (s.ə.a.s.) nə xəbər var?”

-“Peyğəmbər (s.ə.a.s.) sağdır.”

Suda dərhal özünü Peyğəmbərə (s.ə.a.s.) çatdırdı. Sağ-salamat olduğunu görəndə dedi:

-“Başıma gələn müsibətlər mənə asanlaşdı. Təki siz sağ-salamat olasınız , daha heç bir qəmim yoxdur.”

Bu möhkəm iradəli xanım döyüş meydanından oğlanlarının cənazəsini tapıb dəvənin belinə yükləyərək Mədinəyə tərəf yollanarkən yolda rastlaşdığı insanlar ondan Peyğəmbəri (s.ə.a.s.) soruşduqda cavab verdi:

-“Peyğəmbər (s.ə.a.s.) sağ-salamatdır.

İslam tarixinin qəhrəman xanımları haqqında danışdıqdan sonra düşünürəm ki , İslam dininin yaşamasında çox önəmli mövqeyə sahib olan Kərbəla hadisəsi haqqında və bu hadisəni bizə çatdıran qəhrəman xanımlar haqqında məlumat verəm. Xüsusən də məqaləni Səfər ayında yazıramsa Kərbəla hadisəsinə toxunmağı özümə borc bilirəm.

## Qadınların uğur əzmi

Məhəmməd peyğəmbərin (s.ə.a.s.) gəlişi ilə cəmiyyətdə tam insani hüquqlu şəxsiyyətə çevrilən qadınlar daim İslam dininin inkişafı və müdafiəsi yolunda özünəməxsusu əhəmiyyətli rol oynayaraq böyük nüfuz qüvvəsinə malik olmuşlar. Biz İslam tarixini diqqətlə izlədikdə bu dinin yarandığı gündən etibarən Həzrət Xədicə (s.ə.)kimi namuslu ,

cəsur qadınların tərəfindən maddi və mənəvi cəhətdən mühafizə olunaraq , dəstəkləndiyinin şahidi oluruq. O , bütün var-dövlətini İslam dinin qorunması və inkişafı yolunda xərcləməklə yanaşı sevimli Peyğəmbərimizi (s.ə.a.s.) ən böhranlı vaxtlarda belə tərk etmədi. Böyük mal-mülkə sahib zəngin bir xanım olan Xədicənin (s.ə.) bütün sərvətini İslam yolunda sərf edərək , sonda isə müşriklərin yaratdığı iqtisai blokadanın nəticəsində aclıq ucbatından dünyasını dəyişməsi də qadın fədakarlığının möhtəşəm nümunəsidir. [1]

Həmçinin Xanım Fatimə (s.ə) kimi dəyərli xanımların atasının və yaxınlarının qürbətinə, ayrılığına dözməklə bərabər ,İslam yolunda öz Vətənindən belə köçüb yad şəhərlərə hicrət etməsi onun simasnda müsəlman qadının əzmindən xəbər verir. [2]

Müsəlman xanımlar öz atalarını , qardaşlarını ,ərlərini və övladlarını Peyğəmbərin (s.ə.a.s.) düşmənlərilə mübarizəyə həvəsləndirməklə birgə , onların şəhid olduğunu eşitdikdə də , daim qürur hissi ilə yüksək səbir və dözüm nümayiş etdirmişlər. Ühüd döyüşündə qardaşının , dayısının və ərinin şəhid olduğunu eşidən Himnə binti Cəhişin vüqarla " hamımız Allah tərəfindən yaranmışıq və hamımız ona doğru geri dönəcəyik"-deyə söyləməsi müsəlman qadının hər şeyə qadir olduğuna bir örnəkdir. [3]

Kərbəla qiyamının inkişaf tarixini və hadisələrin məntiqi ardıcıllıqla gedişini izlədikdə onun hər ləhzəsində ləyaqətli müsəlman xanımının da öz rolu olduğunu anlayırıq. Belə ki , biz İslam tarixi boyunca seyr etdiyimiz nümunəvi qadına xas olan xislətləri Kərbəla qiyamında adı səslənən hər bir qadında kamil şəkildə görürük.

---

Sirəti-ibn Hişam c 1 səh 274[1]
Məsumların həyatı səh 41[2]
Tarixi-Təbəri c 2 səh 74 [3]

Qiyamın əvvəlindən etibarən bir çox müsəlman qadınlar İmam Hüseynə (ə) kömək etmək üçün öz səylərini göstərmişlər. Bu səylər müxtəlif formalarda ifadə olunaraq özünəməxsus təsir gücünə malik olmuşdur.

## Qadın himadəyarlığı

Bəzi qadınlar ağır şəraitdə düşmən nəzarətinin ən güclü və təhlükəli olduğu mühitdə İmam Hüseynə (ə) , onun tərəfdarlarına öz himayələrini əsirgəməmiş , böyük rəşadətlə onları müdafiə etmişdir. Kərbəla qiyamında Tuə kimi xanımın İmamın (ə) Kufəyə göndərdiyi elçisi Müslim ibn Əqilə öz evində pənah verdiyini düşmənlərdən gizləyərək qoruduğunun şahidi oluruq.[1] Bir halda ki , Həzrət Hüseyni (ə) 18000 məktubla Kufəyə dəvət kufəlilər Müslim ibn Əqili şəhər küçələrində İbn Ziyadın qoşununun təqibi altında yalnız buraxaraq onu tənha və köməksiz qoymuşdu. Qorxaq Kufə əhli hətta evlərinin qapısını da bağlamışdılar. Amma Tuə adlı bir müsəlman xanım Müslim ibn Əqili tanıyaraq onu öz evində gizlətdi. İmanın qorxuya üstün olduğunu sübut etdi.

Bir çox qadınlar Həzrət Hüseynin (ə) dəvətini qəbul etmək üçün tərəddüd edən ərlərini İmama (ə) qoşulmağa meylləndirir, bu barədə onlara dəyərli məsləhətlər verirdilər.

Kərbəlada qəhrəmanlıqla şəhid olan Züheyr ibn Tin məhz həyat yoldaşı Dilhəm binti Əmrin məsləhəti sayəsində haqqın yolunu taparaq İmam Hüseynə (ə) qoşuldu. [2] Züheyr ibn Tin İmamın (ə) tərəfdadrı kimi tanınmırdı. O , hətta Həzrət Hüseynin onu dəvət etmək üçün göndərdiyi elçisinə rədd cavabı vermişdi. Amma belə olduqda arvadı Dilhəm Züheyrə dedi:

---

Zəbihullah Məhəllati Rəyahinüş-şəriə c 4 səh 374[1]
Əyanüş-şiə c 6 səh 427[2]

-“SübhanAllah sən Peyğəmbər (s.ə.a.s.) övladının dəvətini qəbul etmirsən ?Utanmırsanmı ? Heç olmasa get , səninlə nə işi olduğunu öyrən.”

Həyat yoldaşının məntiqli sözləri qarşısında xəcalət çəkən Züheyr İmamın (ə) yanına gələrək onunla görüşdü. Sonra isə DİlhƏmin yanına qayıdaraq , Hüseynə (ə) qoşulduğunu , onunla birgə düşmənə qarşı mübarizə aparacağını söylədi. Lakin o, Dilhəmin razı olmayacağını zənn etdiyi üçün qorxurdu. Dilhəm isə öz növbəsində dedi:

-“Züheyr get ! Allah sənə kömək olsun. Əgər şəhid olsan Allahın iznilə qiyamət günü Peyğəmbərin (s.ə.a.s.) və Hüseynin (ə) kənarında mənə şəfaət tələb edərsən.”

Belə olduqda Züheyr İmamın (ə) yanına qayıtdı və Aşura günü igidlik nümayiş etdirdikdən sonra şəhid oldu.

Həbib ibn Məzahir də İmam Hüseynin (ə) çağırış məktubunu alarkən xanımı ona dedi:

“Həbib , səni and verirəm Allaha ki , ağamız Hüseynə (ə) kömək etmək üçün səhlənkarlıq etmə.” [1]

Həbib ibn Məzahir onu sınamaq üçün dedi:

“Mən necə Kərbəlaya gedim ki , qorxuram övladlarım yetim qala”

Amma Həbibin həyat yoldaşı cavabında dedi:

“Sən Allahın rəsulu Muhəmmədin (s.ə.a.s.) Hüseyn ibni Əli (ə) barəsində dediyi kəlamı eşitməmisənmi?”

Məzahir soruşdu:

“Hansı kəlamı?”

Xanımı buyurdu:

“Peyğəmbər (s.ə.a.s.) buyurmuşdur: -“Həsən (ə) və Hüseyn (ə) Behişt cavanlarının sərvəridir.”

İndi isə nə üçün Peyğəmbər övladının köməyinə tələsmirsən?

---

Mürtəza Kermani Qəhrəman qadınlar səh 74 [1]

Ey Həbib , get və İmam Hüseyni (ə) görsən mənim əvəzimdə də onun əllərini , ayaqlarını öpərsən. Salamımı ona yetirərsən"

Cəsur müsəlman xanımları Kərbəlada öz ərlərini döyüşə qoşulmağa həvəsləndirir , onlara mənəvi dayaq olurdular.

Müslim ibn Ovsəcənin [1] Ümm Xələf [2] adlı xanımı ərinin şəhid olduğunu öz gözlərilə seyr etdikdən sonra oğlu Xələfi döyüş meydanına göndərdi. Amma İmam Hüseyn (ə) Xələfin anasının kimsəsiz qalmaması üçün dedi :

"Ey cavan ! Atan igidliklə şəhid oldu. Əgər sən də şəhid olsan anan Ümm Xələf köməksiz qalar və bu azğın səhrada kimə pənah aparar?"

İmamın söylədiklərinə diqqətlə qulaq asan Xələf ibn Müslim azca tərəddüd edərək geriyə anasının yanına qayıtdı. Lakin rəşadətli, cəsur qadın olan Ümm  oğlu Xələfə belə əmr etdi.

"Oğlum , döyüşə getməsən , Peyğəmbərin (s.ə.a.s.) övladı Hüseynə (ə) kömək etməsən , düşmənlərinə qarşı vuruşmasan həyatım boyu səndən razı olmayacağam."

Xələf anasının əmri ilə ruhlanaraq döyüşə qoşuldu və şəhid oldu. Əmr ibn Cünadənin anası Bəhriyyə xanım da əri Cünadə ibn Kəəb Ənsarinin düşmən tərəfindən qətlə yetirildiyini gördükdən sonra on bir yaşlı oğlunu vuruşmaq üçün göndərdi. İmam Hüseynin (ə) gözləri Əmr ibn Cünadəyə sataşdıqda ona buyurdu:

"Bu cavanın atası indicə şəhid oldu. Onun da vuruşub şəhid olması anası üçün ağır bir dərd olar." Amma Əmmar ibn Cünadə İmama (ə) belə dedi:

---

[1] Mühəmməd Füzuli Hədiqətüs-süəda əsərində Müslimin azəri türkü olduğunu iddia edir.

[2] Cavad Mühəddisi Aşura şüarları səh 247

"Ey Peyğəmbərin (s.ə.a.s.) övladı ,anam özü mənə döyüşməyi əmr etdi."

Belə olduqda Həzrət Hüseyn (ə) Əmrə döyüşmək üçün icazə verdi və o , qəhrəmanlıqla döyüşüb şəhid oldu.

Kərbəlada müsəlman xanımları yüksək əzm və dözüm nümayiş etdirərək bütün azadələrə ibrıt dərsi oldular.

Vəhəb ibn Abdullah Xəbaba Kəlbinin anası [1] ərinin ardınca oğlunun da şəhid olduğunu izlədiyi zaman daşürəkli düşmən qoşunu oğlunun kəsilmiş başını anasına doğru tulladı. Cəsarətli qadın isə oğlunun başını götürüb vüqarla düşmənə doğru irəlilədi və onu zülmkar dəstəyə sarı atıb dedi:

"Biz Allah yolunda verdiyimiz qurbanları geri almırıq."

## Aşurada qadınların uğurlu rolu

Düşmənin əsir tutduğu qadınların iradəsini qirmaq üçün bütün səylərini səfərbər etməsinə baxmayaraq , Əhli-beyt xanımları izzət və iftixarla dolu şəhadətin acı məğlubiyyət deyil , şirin bir qələbə , zəfər olduğunu sübut etdilər. Onlar öz xütbələri , çıxışları ilə xalqı Kərbəla inqilabının məqsəd və şüarları haqqında maarifləndirərək , onun əhəmiyyəti barəsində gərəkli təbliğat işləri apardılar. Həmçinin Əhli-beyt (ə) xanımları müsəlmanlara atəşli xütbələri ilə müraciət edərək İmam Hüseynə (ə) kömək etmədikləri üçün böyük günaha batdıqlarını söyləyib onlara zülmün qarşısında haqqa yardımçı olmadıqları üçün öz mənliklərini , şəxsiyyətlərinbi alçaltmış olduqlarını anlatdılar.

Əsir halda Kufəyə gətirilən Əhli-beyt (ə) xanımları Həzrət Hüseyni (ə) Kufəyə dəvət edib sonra isə öz əhdinə vəfasız çıxan qorxaq , əzgin ruhlu kufəliləri gördükdə ,

---

Tarixi-Təbəri c 3 səh 322[1]

əhalinin yatmış qeyrətini oyatmaq üçün onları məzəmmət etməyə başladılar.

Əvvəlcə Xanım Zeynəb belə buyurdu:

"Ey Kufə camaatı ! Ey hiyləgər və namərd insanlar! Sizi görüm heç zaman gözünüzdən yaş əskik olmasın! Siz bir qadına bənzəyirsiniz ki , əlində olan bütün sapları toxuyur , sonra da bütün toxuduqlarını sökərək korlayır. Sizin nə əhdinizin , nə də andınızın heç bir dəyəri yoxdur. Sizin lovğalanmaq , kəniz tək yaltaqlıq etmək və boşboğazlıq etməkdən başqa nəyiniz var? Siz peyinlikdə bitən nəbatata və qəbir üzərindəki bəzək əşyalarına oxşayırsınız. Axirət dünyanız üçün ən pis azuqəni hazırladınız. (Axirət üçün ən pis azuqə Allahın qəzəbi və (sonsuz) cəhənnəm işgəncəsidir) Ağlayırsınız? Elədir , ağlayın. And olsun Allaha ki , ağlamağa layiq insanlarsınız.Çox ağlayın , az gülün . Belə bir namərdlik və dönüklük edib , (şox iyrənc) ləkə daşıdığınız halda nə üçün ağlamayasınız? Elə bir şərəfsizliyə əl atdınız ki , heç bir su ilə yuyub təmizləmək olmaz. Peyğəmbər (s.ə.a.s.) övladını və Cənnət cavanlarının rəhbərini qətlə yetirməkdən də böyük rəzillik və ləkə ola bilərmi? Elə bir şəxs ki , sizi haqqa doğru yönəldən yola işıq və çətin zamanlarınızda pənəhgahınız idi. Utancınızdan ölün! Xəcalətli üzlərinizi gizlədin. Keçmişdəki zəhmətlərinizi bütünlüklə bir dəfəyə hədər etdiniz. Gələcəyiniz üçün isə heç nə əldə etmədiniz. Bundan sonra rəzillik , əskiklik içində ömür sürəcəksiniz. Çünki Allah0taalanın hiddətinə və qəzəbinə tuş gəldiniz. Elə bir əmələ əl atdınız ki , az qaldı qəzəbindən göy sökülüb yerə tökülsün , yer yarılıb parçalansın və dağlar parça-parça olsun. [1]

Xanım Zeynəbin təsirli sözlərindən sonra daha da peşmançılıq hissi keçirdən , öz pis əməllərinin dəhşətini anlayan kütlənin gözlərində artıq inqilab qığılcımlarını

---

Mehdi Pişvayi , Məsum imamların həyatı səh 133,134[1]

görmək çətin deyildi. Onlar qorxaqlıqları və nankorluqları üçün dərin təəssüf hissi keçirdir , hansı vəziyyətdə olur olsun səhvlərini yumaq , təmizləmək barəsində fikirləşirdilər.

İmam Hüseynin (ə) qızı Fatimə və bacısı Ümm Gülsüm də kufəlilər qarşısında çıxış edərək onları daha da təsirləndirirdi. Fatimə dedi:

"Ey Kufə əhli ! Ey hiylə və fırıldaq sahibləri ! Bizi kafir sayıb bunun üçünmü bizim qanımızı axıtdınız? Qılınclarınızda bizim qanımız damcı-damcı tökülür, buna görə sevinirdiniz? Tezliklə Allahın qəzəbi çirkin əməllərinizə görə sizə nazil olacaq. Vay halınıza ! Bizə necə qıydınız? Hansı iyrənc hissiniz sizə bizi öldürməyə vadar etdi? Ayaqlarınız necə bu yolda qədəm tutdu? Qəlbləriniz kirlənmiş və ürəkləriniz daşlaşmışdırmı? Gözləriniz həqiqəti görmür və qulaqlarınız onu eşitməyə acizdir. Şeytan iyrənc əməllərinizi sizə "gözəldir"-deyə zinətləndirmişdir...

Ey Kufə əhli ! heç bilirsinizmi Peyğəmbər (s.ə.a.s.) sizdən bu tökülən qanları cavablandırmanızı istəyəcək." [1]

## Təhriflə mübarizə

İslam düşmənləri Kərbəla müsibətindən sonra onu cürbəcür yollarla təhrif etməyə çalışdılar. Çünki xalqın Aşura qiyamının əsl mahiyyətini anladıqda əks-əməl göstərəcəyini və bunun onlar üçün ağır nəticələri olacağını başa düşürdülər. Bu qiyamı və Kərbəladakı müsibəti müsəlmanların dərk etməsi o zamanın zalım hökumətinin məhvi demək idi. Elə buna görə də din düşmənləri həm İmam Hüseynin (ə) inqilabının həqiqətini gizlətmək və həm də özlərinin insanlıqdan uzaq cinayətlərini ört-basdır etmək üçün müxtəlif yollarla onu təhrif etməyə başladılar.

---

Xiyabani , Vəqayeül -əyyam səh 253[1]

İbni Ziyad Kufədə İmam Hüseynin (ə) qiyamının yalnış olması barədə şübhələr yaratmağa çalışdı. O guya bu işin məcburi qəzavü-qədər (alın yazısı) olduğunu , Hüseyni (ə) Allahın öldürüyünü Yezid və tərəfdarlarının bu işdə heç bir günahı olmadığını sübuta yetirməyə çalışırdı. Amma Əhli-beyt (ə) xanımlarının və imam Səccadın (ə) bacarığı, mübarizəsi sayəsində düşmən öz çirkin hədəfinə çatmağa nail ola bilmədi. **1**

Ubeydullah ibn Ziyad camaatı Kufənin came məscidinə (mərkəzi məscidinə) toplayaraq öz çirkin əməllərinə dini don geyindirməyə başladı:

"Həmd olsun o Allaha ki , haqqa zəfər əta etdi və "möminlərin ağasına" (yezidə) , onun dostlarına yardım etdi. Yalançı oğlu yalançını (nəuzubilləh) İmam Hüseyni (ə) öldürdü." [2]

Elə bu zaman Xanım Zeynəb (ə) digər qadınlarla birgə əsir şəklində olmasına baxmayaraq vüqarla məscidə daxil oldu. Ubeydullah ondan kim olduğunu soruşduqda cavab vermədi . Kənizlərdən biri dedi:

"O , Allahın Rəsulunun (s.ə.a.s.) qızı Fatimənin (ə) əziz övladı Zeynəbdir(ə)." Ubeydullah ibn Ziyad ,qardaşları , övladları və digər yaxınları şəhid olmuş başı çox müsibətlər çəkmiş və indi əsir kimi qarşısında dayanan Zeynəbin (ə) qürurunu sındırmağın asan olduğunu zənn etdi. Ona elə gəldi ki , azacıq çağır-bağır salsa belə , Zeynəb ağlayacaq , yalvaracaq və İbn Ziyaddan aman diləyəcək. camaat da zalımların haqlı olduğunu düşünəcəkdir. Ona görə də lovğalıqla dedi:

"Həmd olsun o Allaha ki , sizin ailənizi rüsvay edib yer üzündən sildi və sözlərinizin yalan olduğunu sübuta yetirdi"

---

Mürtəza Mütəhhəri , Hüseyn (ə) inqilabı c 3. Səh 252[1]

Məsum imamların həyatı səh 130 [2]

Xanım Zeynəb onun sözlərinə bu cür cavab verdi:

"Həmd olsun o Allaha ki , bizə (ailəmizə babamız ) Peyğəmbəri (s.ə.a.s.) əta etməklə əzəmət bağışladı və çirkinlikdən pak saxladı.[1] Yalnız fasiqlər rüsvay olar. Yalnız pis adamlar yalan danışar. Allaha həmd və səna olsun ki , pis adam biz deyil , başqa şəxslərdir. (Yəni pis insanlar sən və sənin tərəfdarlarındır)" [2]

İbn Ziyad dedi:

"Gördün Allah sizin başınıza nə müsibətlər gətirdi."

Xanım Zeynəb isə cavabında dedi:

"Mən gözəllikdən başqa bir şey görmədim".

**Uğurlu qadının liderliyi**

Siyasi formaya - qadınların dövlət hakimiyyətinin ali və yerli Qanunverici və İcraedici orqanlarında, o cümlədən qadın dövlət rəhbərləri, siyasi partiyaların, BMT və s. kimi beynəlxalq təşkilatların rəhbərliyində olması aid edilir.

İqtisadi forma - qadınların iqtisadi məsələlərlə məşğul olan milli dövlət orqanlarında aparıcı mövqe tutması, o cümlədən, idarə, müəssisə və təşkilatlarda rəhbər, yüksək idarəetmə nişanına malik beynəlxalq və regional məaliyyə müəssisələrində işçi olmasıdır.

Qadın liderliyin ictimai forması - qadınların vətəndaş cəmiyyəti sferalarında, özünüidarə orqanlarında, QHT-nın ictimai hərəkatlarında, kütləvi informasiya vasitələrində təmsil olunmasıdır.

Məqsəd Əhli-beyt (ə) haqqında nazil olan Əhzab surəsinin 33-cü ayəsidir. [1]

Şeyx Müfid İrşad səh 244[2]

BMT-nin «Qadınların siyasi hüquqları haqqında» Konvensiyasına (1953-cü il) müvafiq olaraq, «qadınlar açıq seçkilər tələb edən, milli qanunlarla təsis edilmiş qurumlara kişilərlə bərabər şərtlərlə seçilə bilərlər» (Maddə 2) .

Bu cür şərtlərlə «qadınlar ictimai-dövlət xidmətlərində vezifə tutmaq hüququna malikdirlər» (Maddə 3).

1979-cu ildə BMT tərəfindən qəbul edilmiş «Qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» Konvensiya bütün dövlətlerin qarşısına dövlət siyasətinin işlənməsi ve həyata keçirilməsində qadınların kişilərlə bərabər şərtlərdə təmsil olunmasına nail olmaq, qadınların bərabər əmək haqqı imkanlarını təmin etmək öhdəliyi qoyur. Qadınların Vəziyyətinə dair IV Ümumdünya Konfransının Fəaliyyət Platformasında (Pekin, 1995-ci il) göstərilir ki, qərarların hazırlanmasında qadın və kişilərin bərabərhüquqlu iştirakı demokratiyanı möhkəmləndirir və onun çərçivəsində fəaliyyət imkanlarını genişləndirir.

Qədim Yunanıstanda, Afina polisində yaranmış milli idarəçilik ideya və praktikası əvvəllər vətəndaş hesab olunmayan qadınların iştirakını tələb etmirdi. Din və inkişaf edən bütün ictimai proseslər-böyük mədəni intibah, inqilablar və hüquqlar haqqında qanun kişilərin maraqlarını diqqət mərkəzində saxlayırdı. «Azadlıq! Bərabərlik! Qardaşlıq!» kimi demokratik şüarlar qadınlara yönəldilməmişdi. Yalnız XIX əsrin sonlarında qadınlara kişilərlə bərabər səsvermə hüquqlarının verilməsi prosesi başlandı. Yeni Zellandiya və daha sonra Avstraliya qadınlara vətəndaş statusu verən, 1893-cü ildən isə, onların milli səviyyədə seçicilik hüquqlarını tanıyan ilk dövlətlərdən oldular. Sənayesi güclü inkişaf etmiş

ölkələrdə qadınların seçkilərdə iştirak hüququnun qüvvəyə minməsi XX əsrin əvvəlinə təsadüf edir.

Qadınlar Finlandiya ve Norveçdə 1906-1907-ci ildə, Danimarkada 1915-ci ildə, Almaniya, İsveç və Böyük Britaniyada 1918-ci ildə , ABŞ-da 1920-ci ildə, Fransada 1944-cü ildə , İtaliyada 1945-ci ildə , İsveçrədə 1971-ci ildə sesvermə hüququ qazanmışlar.

Azərbaycanda ilk dəfə qadınların səsvermə hüquqları barədə məsələnin 1907-ci ildə Çar Rusiyasının Dumasında Azərbaycanın nümayəndəsi Xasməmmədov qaldırmış və Dumanın müsəlmanlar fraksiyasında gərgin müzakirələrdən sonra müsbət həll olunmasına nail olmuşdur. 1918-ci ildə Azərbaycan Respublikası qadınların səsvermə hüququnu tanımışdır. İnkişaf etmiş ölkələrin əksəriyyətində qadınlar səsvermə hüququnu müstəqillik hüququ ilə bir vaxtda əldə etdilər. Lakin qadınların nə vaxtdan seçki hüququnu əldə etməsindən asılı olmayaraq, əksər ölkələrin siyasətində qadın liderliyi və qadın-kişi partnyorluğu problemi həll edilməmiş qalır.

Baxmayaraq ki, qadınlar seçicilərin yarısını təşkil edirlər, onların payına parlamentdə orta hesabla 10%, milli dövlət idarələrində 6% yer düşür.

1994-cü ilin ortalarına aid melumatlara görə, qadınlar Nazirlər Kabinetinin tam sayının ümumilikdə 6%-ni, inkişaf etmiş ölkələrdə 5%-i ve inkişaf etmiş sənaye ölkələrində 8%-i təşkil edirdilər. Bu göstəricilərə göre, birinci yeri Finlandiya (39%), ikinci yeri Norveç (35%), üçüncü yeri İsveç (34%), dördüncü yeri Hollandiya və Seyşel adaları tutur (31%). 1995-ci ilin əvvəlində dünyada ilk dəfə İsveçdə hər iki cinsin nümayəndelərinə qarşı təmamilə bərabər münasibətli Nazirlər Kabineti formalaşdırıldı.

Uğurun zirvəsinə çatmağa çalışan qadın liderləri sıradan

çıxaran, görünməz, lakin real maneə - şüşə tavandır. Kişilər üçün bu cür maneə mövcud deyil. Vəziyyəti dəyişmək məqsədilə ABŞ-da və Qərbi Avropada bir çox təşkilatlar ictimai fikrin təzyiqi altında «bərabər imkanlar siyasəti» adlanan siyasət həyata keçirirlər.

Ancaq aydın olur ki, bu siyasət reallıqda həyata keçirilərkən və iş yerində kişi personalı tərəfindən müqavimətlə qarşılanır. Qadının rəhbərlik yolunda ciddi rolu cinslərin sosializasiyası ilə bağlı maneələr oynayır: insanların əksəriyyəti qadının aşağı siyasi statusa malik olmasında sosial haqsızlıq görmürlər.

Qadın liderlərin keyfiyyətlər sırasına görə kişi həmkarlarından fərqlənməməklərinə baxmayaraq, onların liderlik rolu üçün yararsızlığı haqqında sabit təsəvvürlər mövcuddur. Dünyanın müxtəlif ölkələrində qadınların sosiallaşması elə şekilde baş verib və hazırda da baş verir ki, onların öz karyerasını və siyasi cəhdlərini gücləndirən xüsusi ambisiyalar inkişaf etmir.

Qadınlar üçün liderlik məktəbi QHT olub. QHT-yə üzvlükdə opponentlər tərəfindən bu cür qarşıdurma mövcud deyil, ona görə ki, QHT siyasi fəaliyyətlə məşğul olmur. Qərar qəbul edilməsində kişilərin üstünlüyü ona gətirib çıxarır ki, qadın maraqları nəzərə alınmır. Bu, onların, onsuz da, bərabərsizliyə malik mövqelərini zəiflədir və mövcud gender rollarının aradan götürülməsinin qarşısını alır.

Qadınların qərar qəbulunun bütün səviyyələrində irəli çəkilməsi – istər qadınların özündən, istərsə də dövlətdən səy tələb edən strategiyaların işlənməsini tələb edir.

Deyilənlərdən belə qenaətə gəlmək olar ki, qadın lider ola bilər. Ancaq bunun üçün o, ilk növbədə öz hüquqlarını bilməli və onlardan öz fəaliyyətlərində düzgün istifadə etməlidirlər.

Azərbaycan Respublikasında qadın hüquqlarını qoruyan gözəl qanunlar möcuddur və bu qanunların icrasına nəzarət və icra edən qurumlar da hesabda işləyir. Ancaq buna baxmayaraq bir çox rayon ve kəndlərimizdə qadın hüquqları tapdalanır və bütün bu dözülməz haqsızlıqlar mili mentalitet adında qələmə verirlir.

Bizim təlimimizin məqsədi, insan şüurunda müəyyən dönüşün təməlini qoymaq ve gələcək nəslin, milli mədəniyyət ənənələrimizi qoruyub saxlayaraq, daha proqressiv inkişaf istiqametində addımlamaq imkanını yaratmaqdır.

Hər bir müsəlman üçün müqəddəs sayılan "Qur'ani Kərim" də qadın hüquqları lazımı səviyyədə əks etdirilib və müqəddəs hesab olunur. Qadın özü də müqəddəs varlıq kimi təsvir edilir və kişi qadını həmişə qorumalı və onunla hesablaşmalıdır.

Azərbaycan qadınlarının güclü potensialı olduğunu esirlər boyu bütün dünyaya çatdıran minlərlə qadın siyasətçilərimiz, alimlərimiz, mədəniyyət və incəsənət xadimələrimiz olmuşdur.

Müasir dövrdə də Qadınlarımız istənilən sahələrdə çalıçaraq öz məharətlərini göstərirlər və göstərəcəklər, ancaq onların ailə tərəfindən dəstəklənməsi və başa düşülməsi respublikamızın hər bölgəsində eyni səviyyədə deyil.

Yuxarıda göstərilənləri nəzərə alsaq, kişilər qadınlara daha çox imkan, şərait yaratsalar, və qadınlar öz güclərinə inanıb, potensiallarını inkişaf etdirsələr, həm ailəsinin rifahı üçün, həm də cəmiyyətimizin inkişafı üçün əvəzsiz töhvələr verməyə qadirdilər.

Bütün dünyada qəbul olunmuş faktdır ki, qadınların fikirləri, istəkləri, məsləhətləri nəzərə alınmırsa, həmin dövlətdə, bölgədə, kənddə, ailədə – tərəqqiden, yaşayış səviyyesinin yüksəlməsindən və s. söz gedə bilməz, bu mümkün deyil.

## Nəticə

Məqalədə İslam dinin qadının uğurları haqqında buyurduğu, əməl edilməsi vacib olan göstərişlər haqqında məlumat verilmişdir. İslam tarixində müvəffəq xaımların həyatı, onların qəhrəmanlığı və şücaəti haqqında geniş məlumat verilmişdir. Beynəlxalq analitiklər isbat ediblər ki, siyasi strukturlarda qadınların təmsil olunma faizi 20 % dən az olmamaq şərti ile təmin olunarsa, dövlətdə, iqtisadi baxımdan səviyyəsi aşağı olan insanların vəziyyəti, təhsil və səhiyyə sahelərinin inkişafında real dönüşlər müşahidə edilir. Deməli tərəqqinin ən az bir hissəsi qadınların əlindədir, qadın istəsə ailəsi üçün də, cəmiyyət üçün də faydalı ola bilər. Bunun üçün bir qədər səy göstərmək tələb olunur!

**Ədəbiyyat**


1. Qurani Kərim
2. "Ali-Məhəmməd (s) matəmində" Məhəmməd İştihardi.
3. "Aşura dərsləri" Cavad Mühəddisi , Dəftər təbliğati-islami, 1380h.ş.
4. "Vəsailüş-şiə" Məhəmməd ibn Həsən Hürr Amoli
5. "Qəhrəman qadınlar" Mürtəza Kermani , İntişarati-hakim 1378h.ş.
6. "Aşura şüarları" Cavad Mühəddisi , Dəftər-təbliğati-islami 1378h.ş.
7. "Hüseyn inqilabı" Mürtəza Mütəhhəri
8. Məsum imamların həyatı Mehdi Pişvayi ,Qum , çap növbəsi 2.

# Fəlsəfə elminə qısa bir baxış

Kəmalə Əsgərova[1]

**Abstrakt**

Fəlsəfi məsələlər çox qədimdən araşdırılsa da, müstəqil şəkildə olmamışdır. Fəlsəfi fikirləri bütün elmlərdən ayrı və müstəqil şəkildə öyrənməyi lazım bilən ilk şəxs tanınmış yunan filosofu Aristotel oldu. O, bu sahadə öz nəzəriyyələrini məqalə şəklində yazmağa başlamış, lakin bu elmə heç bir ad qoymamışdı. Sonralar Aristoteldən qalan əsərləri cəm edib ensiklopediya halına gətirdilər. Yuxarıda qeyd etdiyimiz elmi sahə, yə'ni Aristotelin fəlsəfi fikirləri bu kitabda fiziki elmlərdən sonra yer tutdu. Bu elmin xüsusi bir adı olmadığı üçün onu «Metafizika», yə'ni «fiziki elmlərdən sonrakı elm» adlandırdılar. Bu ad həmin elmə ensiklopediyanın tərtibinə əsasən qoyulmuşdu. Tədricən bu məsələ unuduldu və alimlər belə bir qənaətə gəldilər ki, metafizika bu elmin mahiyyətinə əsasən meydana gəlmişdir.

**Açar kəlmələr:** Fəlsəfə, elm, İslam, metafizika

## Giriş

Fəlsəfə –sözü yunan mənşəlidir. O, *«phileo»*–sevirəm və *«sophia»* – elm, müdriklik kəlmələrinin birləşməsindən əmələ gəlmiş mürəkkəb bir sözdür. Bütövlükdə bu sözün mə'nası elmi, «müdrikliyi sevirəm», yaxud «sevmək» kimi başa düşülür. Bu elmin nə zaman və nə üçün belə adlandırılması ilə bağlı ehtimallar çox olmasa da, bir deyil. Fəlsəfənin mahiyyəti

- İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, [1] Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

və onun ehtiva etdiyi məsələlər barədə konkret tarix müəyyənləşdirmək olmaz. Bu mə’nada ki, bəşəriyyətin ilk filosofu elə onun babası Adəmdir (ə).

Fəlsəfə tarixi sahəsində yazılmış kitablarda rast gəldiyimiz ehtimallardan biri həmin terminin ilk dəfə Samoslu Pifaqor1 tərəfindən işlədildiyini vurğulayır. Lakin daha münasib ehtimal fəlsəfə terminini məhşur yunan filosofu Sokratla2 əlaqələndirən nəzəriyyədir. Bu ehtimala görə Sokrat özünü filosof adlandıran ilk şəxs olmuşdur. Sokrat bu adı öz üzərinə götürdüyü zaman –Sofizm (*Sophisma*) adı ilə geniş yayılmış bir məktəblə elmi mübahisələr aparmaqda idi. Bu məktəbin nümayəndələri, yə’ni Sofistlər özlərini alim, müdrik (sofizm sözünün mə’nası belədir) adlandırsalar da elm və idrakın əsl düşmənləri idilər. Onlar heç bir şeyin həqiqət olmadığını iddia edir, həqiqət varsa da onu dərk etməyin qeyri-mümkünlüyünü söyləyirdilər. Sofizm əsasən materialist yönümlü bir anlayışdır, lakin bu anlayışla heç materiyanı da dərk etmək mümkün deyildir. Sofistlər öz müddəalarını isbat etmək üçün bütün məntiqi qanunlara zidd olan yalançı bir üslubdan istifadə edirdilər. Bu üsluba Sofistika1 deyilir. Sofistlər vahid məktəbdə birləşmirlər. Lakin Cənubi İtaliyada meydana gəlmiş «Eleya məktəbi» bu sahədə daha çox fərqlənir.

Belə bir zamanda dahi mütəfəkkir olan Sokrat bu batil məktəblə üz-üzə dayandı. Məhz buna görə də, o, özünü Sofist –alim, müdrik deyil, filosof, yə’ni elmi, müdrikliyi sevən

---

[1]Samoslu Pifaqor – *Pythaqoras* –Qədim yunan mütəfəkkiri. Eramızdan əvvəl təqribən 580-500-də yaşamışdır. Samos adasında anadan olmuş, Pifaqorçular məktəbinin əsasını qoymuşdur. Həndəsədə Pifaqor teoreminin (Düzbucaqlı üçbucaqda hipotenuzun kvadratı katetlərin kvadratları cəminə bərabərdir) müəllifidir.

[2]Sokrat –eramızdan əvvəl 469-399-da Afinada yaşamışdır. Platon, Aristipp, Evklid kimi dahilərin müəllimi sayılır. Ondan yazılı şəkildə heç nə qalmamışdır.

[1]Sofistika –mübahisə zamanı səhv dəlilləri, formal düzgünlüklə pərdələyərək tətbiq etməkdir.

adlandırdı. Başqa bir ehtimala görə, Sokrat hədsiz təvazökarlığı səbəbi ilə alim adlanmasından imtina etdi. Bir sözlə Sokrat insan təfəkkürünün əvəzsiz fədaisi, fəlsəfənin «Tacsız kralı» sayılır. Bu «Fəlsəfə kralı» öz zamanında, xüsusilə ilahiyyatın, humanizmin və əxlaqi məsələlərin inkişafında müstəsna rol oynamışdır. Şərq filosoflarının bir qismi Sokratın peyğəmbər olması ehtimalını da irəli sürmüşlər. Bu ehtimalla ziddiyyət təşkil edən yeganə məsələ Sokratın nəzəriyyələrində bə'zi çatışmazlıqların olması faktıdır. Lakin bu ziddiyyəti aradan qaldırmaq o qədər də çətin deyil. Belə ki, biz Sokratın nəzəriyyələrini yalnız onun tələbələrinin əsərlərində müşahidə edə bilirik. Onun nəzəriyyələrinin yalnız bu əsərlərdə əks olunması onların təhrif olunması ehtimalını artırır. Qədim yunan qövmü içərisində İlahi elçilərin mövcudluğu zərurəti, heç də həqiqətdən uzaq deyil. Bu zəruriyyətin təsdiqini «Qur'ani-Kərim»də də görə bilərik:

**«Elə bir ümmət, qövm yoxdur ki, onun içərisindən bir peyğəmbər olmasın».2**

Biz bu ehtimalın düzgün olması haqda deyil, mümkünlüyü barədə danışırıq. Təsdiqləyəcəyimiz yeganə məsələ odur ki, Sokrat sözün həqiqi mə'nasında bir ilahiyyatçı filosof olmuşdur.

Aristotelin fəlsəfi fikirləri ilahiyyata və ümumi əqli məsələlərə aid olduğu üçün belə adlandırılmışdır. Beləliklə, metafizika öz həqiqi mə'nasını itirib, «Transfizika –fizikadan başqası» anlamını kəsb etdi. Bu məsələ ilk növbədə Avropa filosoflarının arasında meydana gəlmiş və yayılmışdır.

İsa Məsihin (ə) peyğəmbərliyindən sonra xristianlıq dininin geniş yayılması fəlsəfi fikirlər üçün yeni bir mərhələ oldu. Bu mərhələni antik fəlsəfə (Sokrat, Platon, Aristotel fəlsəfəsi) ilə xristian dini tə'limlərinin qarşılıqlı əlaqələri təşkil edirdi. Bu

---

2Fatir surəsi, ayə 24.

qarşılıqlı əlaqələr Avropa kilsələrində tədris olunan «Sxolastik fəlsəfəni» (***Scholasticos***) meydana gətirdi. Sxolastik fəlsəfə təhrif olunmuş Bibliya2 tə'limlərini əsas götürərək özünəməxsus bir fəlsəfi sistem yaratdı. Sxolastika nümayəndələri bu sistemi yaratmaqla Avropada yeganə fəlsəfə təmsilçisinə çevrildilər. Avropa fəlsəfəsinin ən böyük «bədbəxtliyi» də, məhz bu olmuşdur.

Sxolastika tə'limində metafizika kor-koranə şəkildə qəbul olunur, dünyanın fiziki mənzərəsi yalnız Ptolomeyin1 baxışları ilə izah edilirdi. Onlar öz tə'limləri ilə ziddiyyət daşıyan hər hansı bir nəzəriyyəni rədd edir, həmin nəzəriyyə sahiblərinə divan tuturdular. Fizika alimlərinin hələ 13-14-cü əsrlərdəki cəhd və kəşfləri sxolastikanın, xüsusilə də bu fəlsəfi cərəyan nümayəndələrinin dünyanın fiziki mənzərəsi yönündəki tə'limlərinin yanlış olduğunu aydınlaşdırırdı. Sxolastika dünyanın geosentrik sistemə tabe olduğuna inanırdı. Geosentrik sistem Ptolomey tərəfindən əsaslandırılmış antik fiziki nəzəriyyədir. Bu nəzəriyyəyə görə Yer hərəkətsiz olub kainatın mərkəzi sayılır və Günəş daxil olmaqla bütün səmavi cisimlər Yerin ətrafında dövr edirlər. Geosentrik dünya sisteminə qarşı duran nəzəriyyə Heliosentrik sistemidir. Heliosentrik sistem isə Kainatın mərkəzini Yer deyil, Günəş haseb edir. Hələ qədimdən nəzəri şəkildə söylənilmiş bu fərziyyə, nəhayət, 16-cı əsrdə polyak astronomu Nikolay Kopernik (1473-1543) tərəfindən isbat olundu. Sxolastika tə'limlərinin elmi şəkildə özünü doğrultmaması Avropada fəlsəfi fikirlərə tamamilə kölgə saldı. Bütünlükdə Avropa Sofizmə, eləcə də hər şeyə şübhə ilə yanaşmağa meyl etdi.

2Bibliya – yunan dilində kitablar deməkdir. Yəhudilik və xristianlığa aid kitablar külliyatı –50 kitab əhdi-ətiq yəhudi tə'limləri, 27 kitab əhdi-cədid xristianlıq tə'limlərini əhatə edir.

1 Ptolomey –eramızdan əvvəl 2-ci əsrdə yaşamış yunan filosofu. Geosentrik dünya sistemi nəzəriyyəsinin banisi sayılır.

Onlar –əgər bu gün Geosentrik tamamilə səhv bir nəzəriyyə olması isbat olundusa, digər fəlsəfi fikirlərin də yalan olmadığına zəmanət varmı? –deyə düşünürdülər.

Belə bir zamanda yeni bir təfəkkür formalaşdı. Bu təfəkkür «Empirizm fəlsəfəsindən» ibarət idi. Empirizm fəlsəfəsi hər şeyin təcrübəyə bağlı olduğunu iddia edir və insan idrakının təcrübədən kənarda olan hər hansı bir şeyi isbat etməyə qadir olmadığını söyləyirdi. Bu təfəkkür tərzinə hələ 14-cü əsrdə ingiltərəli filosof Uilyam Okkamda (1285-1349) təsadüf etmək olar (Nominalizm). Sonralar isə Empirizm fəlsəfəsi Frensis Bekon (1561-1626), Tomas Hobbs (1568-1679), Con Lokk (1632-1704) və Devid Yum (1711-1778) tərəfindən müxtəlif şəkillərdə inkişaf etdirilmişdi. Empirizm dalğası bütün Avropanı «Təcrübəyə bağlılıq» ruhuna qərq etdi.

Avropalıların fəlsəfədən şübhəyə düşdükləri bir dövrdə digər tərəfdən görkəmli fransız filosofu Rene Dekart**1** yeni bir fikirlə çıxış etməyə başladı. Dekart avropalıların «şübhəsini» öz fikirlərinin əsası qərar verdi. O şübhənin mövcudluğunu həqiqətin mövcudluğuna dəlalət edən başlıca amil hesab edirdi. Sonralar Dekart öz fəlsəfəsini «Goqito erqo sum – düşünürəmsə, deməli mövcudam» prinsipi üzərində sistemləşdirdi. Dekartın bu prinsipində yanlış məqamların olduğunu ikinci fəsildə açıqlayacağıq. Lakin qeyd etmək lazımdır ki, bu filosofun Sofizm cərəyanından olan müasirləri ilə mübarizəsindəki nailiyyətləri inkarolunmazdır. Dekart riyaziyyatda analitik həndəsənin, kosmoqoniyada Günəş sisteminin təbii inkişafının, fiziologiyada reaksiyaların reflektor hadisəsinin ilk elmi təsvirlərinin banisi sayılır. Onun

---

1Rene Dekart –1596-1650-də yaşamış fransız mənşəli filosof, riyaziyyatçı, fizik və fizioloq. Niderlandda 20 il təhsil almışdır. Ən böyük uğuru analitik həndəsəni yaratmasıdır. Həndəsədə absis və ordinat oxlarını müstəvi üzərində ilk dəfə tətbiq etdiyi üçün bu koordinatlar Dekart koordinatları adlanır.

məhz bu elmi nüfuzu öz fəlsəfəsinin vüs'ət tapmasında mühüm rol oynamışdır.

Müasir Avropa fəlsəfəsinin formalaşması haqda danışarkən İmmanuil Kantın1 da rolunu qeyd etmək lazımdır. Onun klassik alman idealizminin yaranmasında da xüsusi xidmətləri olmuşdur. Kant fəlsəfəsi özünün tənqidi çıxışları ilə fərqlənmişdir. Bu fəlsəfəyə tənqidi fəlsəfə (critical philosophgy), yaxud transsendental idealizm deyilir. Kant empirizm dalğasından, başqa sözlə desək «Təcrübəyə bağlılıq» ruhundan tam xilas ola bilməmişdi. Bununla belə o, metafizikaya, xüsusilə də Allaha inanmağın zəruri olduğunu deyirdi. Yalnız, Kant təcrübədən kənarda qalan bu varlıqların dərkolunmazlığını iddia edirdi. Bu filosofa görə bizim hiss üzvləri ilə dərk edə bilmədiyimiz şeylər «özündə şey» sayılmalıdır. «Özündə şey» isə dərkolunmazlıqdır.

Bir müddət sonra Kant idealizmi məşhur filosof Georq Vilhem Fridrix Hegel2 tərəfindən inkişaf etdirildi. Hegel alman idealizminin əsas nümayəndələrindən sayılır. O, materiyanın deyil, ruhun əsas və birinci olduğuna inanırdı. Lakin Hegelin varlıq barədə sistemləşdirdiyi tə'lim, həqiqəti bir növ inkar etmək idi. Bu tə'lim *thesis-antithesis-synthesis* kimi formalaşan «inkarı inkar qanunu» idi. Bu qanun iki əks şeyin vəhdətini tərənnüm edir. Bu vəhdət, həm də mübarizədir. İki əks şey bir-biri ilə mübarizə edir və nəticədə şey öz əksini «inkar» edərək məhvə mə'ruz qoyur. Lakin bu elə məhvdir ki, ondan inkarı inkar edən üçüncü bir şey törəyir. Deməli, birinci şey – *thesis*, ikinci onu inkar edən əkslik – *antithesis* və nəhayət yaranmış üçüncü şey, inkarı inkar edən – *synthesis* -

1İmmanuil Kant –1724-1804-də yaşamış Alman filosofudur. Köniqsberqdə anadan olmuş, klassik alman idealizmini yaratmışdır. Kosmoqoniyada kainatın dumanlıqdan yaranmasını iddia edən «Nebulyar» hipotezini irəli sürmüşdür.

2Georq Vilhelm Fridrix Hegel – 1770-1831-də yaşamış Alman filosofu. Klassik idealistlərdən sayılır.

dir. Hegelin bu təfəkkürü 19-cu əsrdə «Sol hegelçilər»in meydana gəlməsinə səbəb oldu. Onların lideri Karl Marks1 idi. Marks, Hegelin idealizmini darmadağın edərək radikal bir materializmin bünövrəsini qurdu. Qeyd etmək lazımdır ki, Hegelçiliyin materialistcəsinə təhlil olunmasında, Marks, bilavasitə alman ateisti Lüdviq Feyerbaxın2 müstəsna tə'siri altında olmuşdur. Marks Hegelin «inkarı inkar qanunundan» daha kəskin və ateist nəticələr çıxarmışdı. O, bu qanunu ümumiləşdirərək dialektika və tarixi materializmin əsasını qoydu. Dialektika və tarixi materializmə görə iqtisadi amillər hər hansı bir cəmiyyətdə onu inkar edən əkslik rolunu oynayır. Bu əksliyin həmin cəmiyyəti inkar etməsindən yeni bir cəmiyyət meydana gəlir. Marks bu qanuna əsasən, inkişaf etmiş bütün kapitalist cəmiyyətlərinin sosializmə keçəcəyini düşünürdü. Biz Marksizmin nə qədər gülünc bir nəzəriyyə olduğunu «Sosializm, Kapitalizm və İslam iqtisadiyyatı» kitabında bəyan edəcəyik.

Kantdan başlayaraq Almaniyada idealizmin formalaşdığı bir dövrdə Fransa filosofları «təcrübəyə doğru geriyə» şüarını irəli sürdülər. Bu, yaranmaqda olan yeni bir təfəkkürün, «Pozitevizm fəlsəfəsi»nin şüarı idi. Pozitevizm fəlsəfə və metafizikaya qarşı daha «qəddar» mövqe tutmuşdu. Bu məktəbə görə, ümumi əqli məsələlərdən bəhs edən fəlsəfə və metafizika adlı heç bir şey yoxdur. Pozitevizmin banisi Ogüst Kont3 sayılır. İngiltərədə isə bu fikri inkişaf etdirən və vüs'ət

---

1Karl Marks – 1818-1883-də yaşamış, məşhur materialist filosof, tarixi materializm-marksizmin banisi. İnqilabi fikirlərində proletar fəhlə sinifinin müdafiəsi mövqeyindən çıxış etmişdir. Ən məşhur əsəri siyasi-iqtisadla bağlı olan «Kapital» kitabıdır.

2Lüdviq Feyerbax – 1804-1872-də yaşamış alman mənşəli materialist və ateist filosof . Hegel fəlsəfəsinin materializmə yönəldilməsində əvəzsiz rolu olmuşdur. Ateist baxışlarına görə 1830-cu ildə Erlangen universitetindən qovulmuşdur.

3Ogüst Kont –1798-1857-də yaşamış fransız filosofu. Məşhur fransız sosialisti, inqilabçı Sen-Simonun(1760-1825) katibi olmuşdur.

almasına kömək edən Herbert Spenser[1] olmuşdur. Pozitevizmin metafizikaya qarşı radikal mövqeyi Avropa fəlsəfəsində daha dərin böhran yaratmışdır.

1Herbert Spenser –1820-1903-də yaşamış ingilis filosofu, Pozitevizmin banilərindən biri sayılır.

## Müsəlmanların fəlsəfİ baxışları

İslam dininin zühur etdiyi gündən müsəlmanlar arasında fəlsəfi fikirlər mövcud olmuşdur. Belə ki, «Qur'ani-Kərim» öz İlahi də'vətində insanları əqli nəticələr vasitəsilə metafizikaya, Allaha, mələklərə və Axirət gününə inam bəsləməyə səsləyirdi. Lakin fəlsəfə müsəlmanlar arasında xüsusi bir elm şəklində VIII əsrdən e'tibarən geniş yayılmağa başladı. Bu bir tərəfdən müsəlmanların sıralarında ilahiyyat məsələləri ilə bağlı ciddi ixtilafların baş qaldırdığı, digər tərəfdən isə Abbasi xəlifələrinin yunan, hind və iran fəlsəfə kitablarını ərəb dilinə tərcümə etdirib, geniş yaydıqları zamana təsadüf edir. Hələ ilkin mərhələlərdən başlayaraq, İslam alimləri bütün əqli elmləri fəlsəfə kimi tanıyırdılar. Onlar tarix, ədəbiyyat, dilçilik, təfsir, hədis, üsul və fiqh kimi nəqli elmləri çıxmaq şərti ilə ilahiyyat, cəbr, həndəsə, astronomiya və musiqi kimi bütün əqli elmləri fəlsəfənin tərkib hissəsi hesab etmişlər.

Bu baxımdan, fəlsəfə ümumi bir elm olduğundan onun üçün xüsusi bir tə'rif və mövzu göstərilməmişdir. Bu mərhələdə İslam mütəfəkkirləri fəlsəfəni aşağıdakı hissələrə bölmüşlər:

**1.Nəzəri fəlsəfə;** Bu növ fəlsəfə əşyanın olduğu kimi tədqiqinə varır, onun malik olduğu kəmiyyət və keyfiyyətləri araşdırır. Nəzəri fəlsəfə də öz növbəsində üç hissədən ibarətdir:

**a) İlahiyyat;** ali təbəqəli fəlsəfə. Bu fəlsəfənin mövzusu ümumi şəkildə varlıqdır. Başqa sözlə desək, bu fəlsəfə var olan hər bir şeyin kim və ya nə olduğundan asılı olmayaraq, ümumilikdən söhbət açır. DeməK, bizim düşündüyümüzün əksinə olaraq «İlahiyyat» fəlsəfəsi, təkcə «Allahın» varlığından danışmır. Lakin «Allah» məfhumu bu elmin ən ali mövzusu olduğu üçün «İlahiyyat» adı ilə tanınmışdır.

b) Riyaziyyat; orta təbəqəli fəlsəfə. Bu fəlsəfə isə əşyaya hakim olan riyazi qanunlardan bəhs edir. Cəbr, Həndəsə və Musiqi[1] elmləri bu hissənin əsas bölümləridir. Cəbr ədədlərə, Həndəsə xətlərə, Musiqi isə səs və notlara hakim olan riyazi qanunları təsdiq edir. Bu elmlərin əsas və ortaq olmaq şərti ilə iki xüsusiyyəti var. Əvvəla, burada qanunların şamil olduğu mövzular yalnız xarici aləmdə müəyyən maddi predmetə bağlanır. Zehni təsəvvürdə isə onları müəyyən maddi predmetə bağlamaq zəruri deyil; məsələn: 3, 5, 10 rəqəmləri xarici aləmdə, yalnız maddi predmetlərin (ağac, ev, daş və s.) əsasında özlərini göstərirlər. Zehni təsəvvürdə isə bu zərurət aradan gedir. İkinci xüsusiyyət isə bu elmlərdə qanunların riyazi və dəyişməz olmasıdır.

v) Təbii və fiziki elmlər; aşağı təbəqəli fəlsəfə. Bu hissəyə aid olan fəlsəfə əşyanın təbii və fiziki fəlsəfələrini araşdırır. Fizika, kimya, fiziologiya, biologiya və s. kimi elmlər buraya daxildir.

**2.Əməli fəlsəfə, yaxud əxlaq və hüquq fəlsəfəsi;** bu fəlsəfə insanın əməl və hərəkətləri haqda söhbət açır, rəftarının yaxşı və ya pis olduğunu açıqlayır. Bu növə Əxlaq, Ailə hüquqları, Hüquq və Siyasət daxildir.

Müsəlman alimləri fəlsəfənin növləri arasında nəzəri fəlsəfənin birinci hissəsinə, yə'ni «İlahiyyat»a tədricən daha çox üstünlük verməyə başladılar. İslam filosofları bu elmlə daha ətraflı maraqlanır, nəzəriyyələr irəli sürürdülər. Beləliklə, əvvəllər ümumi ad olaraq bütün əqli elmləri şamil edən fəlsəfə müsəlmanlar arasında «İlahiyyat» kimi qəbul olundu.

---

[1]Musiqi hələ qədim zamanlardan filosofların diqqət mərkəzində olmuşdur. Səslərin hormonik rəqsləri müasir fizikada da öz əksini tapmışdır. Pifaqorçular öz fəlsəfi tə'limlərində musiqiyə geniş yer vermişlər. Deyilənlərə görə «ikinci müəllim» ləqəbi ilə tanınmış məşhur filosof Əbu Nəsr Fərabi(870-950) musiqini fövqəl'adə şəkildə mənimsəmiş, musiqi vasitəsilə qarşı tərəfin psixoloji durumunu duymağı və ona istənilən psixoloji vəziyyəti aşılamağı bacarmışdır.

## Məşşai fəlsəfəsi

XI-XII yüzilliklərdən başlayaraq İslam filosofları iki əsas fəlsəfi cərəyana ayrılmağa başladılar. Bunlardan biri «Məşşai fəlsəfəsi» idi. «Məşşai» sözü yeriyən deməkdir. Bu söz Aristotelin davamçılarını özündə cəm etmiş «Peripatetik» (yunanca: *perepateo* - gəzişirəm, yeriyirəm) məktəbdən götürülmüşdür. Bunu Aristotelin Likey xiyabanlarında gəzişərək fəlsəfi mühazirələr söyləməsi ilə izah edirlər. Məşşai fəlsəfi cərəyanının önündə şərqin görkəmli filosofu İbn Sina[1] durur. İbn Sina Farabidən sonra Aristotel nəzəriyyələrinə varis çıxan ən böyük filosof sayılır. Onun sistemləşdirdiyi Məşşai fəlsəfəsinin əsas xüsusiyyəti həqiqətin kəşf olunmasında yalnız əqli yollara istinad etməsindən ibarətdir. Məşşai filosofları hesab edirlər ki, həqiqətin kəşf olunması üçün əqli sübutlar kifayət edir. Bunun üçün həqiqət axtaranın əməli mərhələlər keçməsi, ruhunu paklaşdırması zəruri deyildir.

---

1İbn Sina –Əbu Əli Hüseyn İbn Abdullah 980-1037-ci illərdə Orta Asiya və İranda yaşamışdır. Latınlaşdırılmış adı Avissena olan bu filosof, həm də misilsiz təbabət alimi olmuşdur. Məşşai fəlsəfəsinin banisi sayılır. Onun Aristotel fəlsəfəsinin geniş yayılmasında mühüm rolu olmuşdur. İbn Sinanın «Biliklər kitabı», «Şəfa», «İşarat», «Tibb elminin qanunu» və s. kitabları dünya şöhrəti qazanmışdır.

Məşşai fəlsəfəsi İslam dünyası üçün mütləq bir fəlsəfə sistemləşdirə bilməsə də, müsəlmanlar arasında uzun əsrlər boyu hakim fəlsəfi nəzəriyyə olmuş və geniş yayılmışdır. Bu fəlsəfənin Bəhmənyar ibn Mərzban2, Nəsirəddin Tusi1, İbn Bacə2 kimi görkəmli nümayəndələri olmuşdur.

## İşraq fəlsəfəsi

İbn Sinadan başlayaraq Məşşai fəlsəfəsinin sistemləşərək genişləndiyi bir dövrdə yeni bir fəlsəfi cərəyan zühur etdi. Bu fəlsəfi cərəyana görkəmli Azərbaycan filosofu Şihabəddin Sührəvərdi1 başçılıq edirdi. Sührəvərdi həm Platonun2, həm də Aristotelin fəlsəfi fikirləri ilə tanış idi. O, yaratdığı fəlsəfəyə «İşraq fəlsəfəsi» (intuitiv fəlsəfə) adını vermişdi. Sührəvərdiyə görə həqiqətin kəşf olunması üçün iki yolun mövcudluğu zəruridir:

---

2Bəhmənyar ibn Mərzban – XI əsrdə yaşamış Azərbaycan filosofudur. İbn Sinanın elminə yiyələnmiş ən iste'dadlı şagirdidir. Onun yazmış olduğu «Təhsil», «Metafizikanın mövzusu», «İzahat», «Mövcudatın mərtəbələri» və başqa kitabları dünyanın bir çox dillərinə tərcümə olunub çapdan çıxmışdır.

1Nəsirəddin Tusi – Məhəmməd ibn Həsən 1201-1274-ci illərdə yaşamış dahi Azərbaycan filosofudur. Riyaziyyat, Astronomiya, Minerologiya, təbabət elmləri sahəsində əvəzsiz xidmətləri olmuşdur. Marağa Astronomiya Rəsədxanasını tə'sis etmişdir. Nəsirəddin Tusi e'tiqad bəslədiyi imamiyyə(şiə) əqidələrini fəlsəfi şəkildə «Təhzibul-Kəlam» kitabında açıqlamışdır. İbn Sinanın «İşarat» kitabına gözəl şərh yazmış bu İlahi filosofun onlarla qiymətli kitabı günümüzədək elm ocaqlarında tədris olunur.

2İbn Bacə –Əbu Bəkr Məhəmməd ibn Yəhya 1070-1139-cu illərdə yaşamış ərəb filosofu, Fizika, riyaziyyat, astronomiya, təbabət və musiqiyə dair bir çox məqalə və kitabların müəllifidir.

1Şihabəddin Sührəvərdi –Yəhya ibn Həbəş –1154-1191-ci illərdə yaşamış Azərbaycan filosofudur. Fəlsəfə və sufiliyə dair 50-dən çox əsərin müəllifidir. Əqidəsi uğrunda qətlə yetirilmiş və «Öldürülmüş filosof» adı ilə dillərə düşmüşdür.

2Platon –eramızdan əvvəl 428-348-də yaşamış dahi yunan filosofudur. Sokratın şagirdi, Aristotelin müəllimi hesab olunur. 30-dan artıq fəlsəfi əsəri qalmışdır.

1.Aşkar əqli dəlillər, isbat və istidlallar (deduksiyalar3).
2. Əməli mərhələlər keçərək ruhun paklanması ilə İlahi nurdan kömək almaq.

İşraq sözünün mə’nası «Nur saçmaq» deməkdir. Cərəyanın «İşraq» adlandırılması həqiqətin kəşf olunmasında Sührəvərdinin zəruri bildiyi İlahi nurla əlaqədardır. O, bütün mövcudatı nur və zülmətdən ibarət bilirdi. Sührəvərdiyə görə nur ilə zülməti seyr etmək və nəhayət, nurlar-nuru Allahı tapmaq lazımdır. İşraqilər özlərini Platonun varisləri hesab edirlər. Məşşai və İşraq fəlsəfi cərəyanları arasında ən əsaslı ixtilaf işraqilərin həqiqəti kəşf etməkdə zəruri bildikləri ikinci şərtdir (ruhun paklanması). Lakin Aristotel ilə Platon arasında, məhz bu məsələdə, fikir ayrılığı olduğunu heç kəs sübut edə bilməmişdir.

XX əsrin görkəmli filosofu şəhid Mürtəza Mütəhhəriyə1 görə bu iki filosof arasında qeyd etdiyimiz məsələ barəsində ixtilaf

3Deduksiya –düşünmək prosesində ümumidən xüsusiyə getmə, yekun çıxarma.

[1]Şəhid Mürtəza Mütəhhəri –XX əsrin görkəmli filosofu, fəqih və sosioloqudur. Çoxlu sayda məqalə və kitabları çapdan çıxmışdır.

olmamışdır. İşraqilərin lideri Şihabəddin Sührəverdi zəmanəsinin sufiləri ilə sıx əlaqədə olduğu üçün ruhun paklanması şərtini öz cərəyanına daxil etmişdir. Tarixdə bu iki filosof arasında mübahisə mövzusunda sübuta yetmiş yalnız bir məsələ vardır ki, bu da Platonun «İdeyalar» nəzəriyyəsinin Aristotel tərəfindən qəbul olunmamasıdır. «İdeyalar» nəzəriyyəsində bizim müşahidə etdiyimiz aləmdən başqa digər bir aləmin də olduğundan söhbət açılır. Platon gördüyümüz hər bir şeyin əsl həqiqətinin həmin aləmdə yerləşdiyinə inanırdı. Bu aləm «İdeyalar» aləmi adlanır. Filosof hər bir mövcudun kökünü o aləmdə axtarır, insanın, əvvəlcə orada olub sonra isə bu aləmə gəldiyini və hər mə'lumatı orada öyrənib, sadəcə bu aləmdə hər şeyin təkrar olduğunu bildirirdi. Aristotel isə bütün bunları inkar edir və aləmin kökünü *nous*– nus deyilən vahid qüvvə və imkanda görürdü.

## İslam fəlsəfəsinin mühüm bəhsləri

### Vücud və onun həqiqəti

Ötən bəhslərimizdən mə’lum olduğu kimi fəlsəfənin əsas mövzusu vücuddur. Fəlsəfi bəhslərdə hər şeydən öncə vücudla tanışlıqdan və onun həqiqətindən söhbət açılır. Vücud nədir?– Bu sualın cavabı demək olar ki, yoxdur. Bu ifadəmizdən, ilk öncə, vücudun çox qaranlıq və açıqlaması olmayan bir varlıq olması başa düşülür. Lakin bu belə deyil. Məntiq elmində tə’rif barədə göstərilən əsas şərtlərdən biri, tərifin, tə’rif olunan məfhumdan aydın və aşkar olmasıdır. Hər hansı bir məfhumu, ondan daha aydın olmayan bir məfhumla tə’rif etmək məntiqi baxımdan düzgün sayılmır. Vücuda tərif vermək ona görə mümkün deyil ki, onun mə’nası bütün məfhumlardan daha aşkardır. İrəli sürülərək təqdim olunan bütün tə’riflər isə vücud məfhumunu açıqlamaq əvəzinə, onu daha da mürəkkəbləşdirir.

Mövcud olan hər bir şeyin varlığı, elə onun vücudu deməkdir. İnsan şüuru heç bir tə’lim keçmədən, ilk növbədə özünün, daha sonra isə özündən kənardakı aləmin vücudu olduğunu dərk edir və bu vücudları dərk etməyə qadir olduğuna inanır. Bütün bunlar nə qədər aşkar olsa da, bə’zi filosoflar tərəfindən inkar olunmuşdur. Biz vücudun həqiqətini inkar edən bə’zi fəlsəfi nəzəriyyələri diqqətinizə çatdırırıq:

Bir dəstə filosof vücudun həqiqətini tamamilə inkar edir. Bu nəzəriyyənin əsası yunan sofistləri tərəfindən qoyulmuşdur. Sofistlərə görə aləmdə heç bir şey yoxdur, heç nə həqiqi deyildir. Vücudun həqiqətini inkar edən nəzəriyyə antik olsa da, müasir fəlsəfəyə də öz tə’sirini göstərmişdir. Avropalılar öz ölkələrində sxolastik fəlsəfənin böhran keçirdiyi bir dövrdə bu nəzəriyyəyə meyl göstərmişdilər. Dekart bu nəzəriyyəni rədd etmək üçün onların həqiqətə olan şübhələrini həqiqətin ən böyük dəlili hesab edirdi. Dekart: «Mən şübhə edirəm, yaxud

düşünürəm, deməк mövcudam», – prinsipini ortaya atmışdı. Filosof bu prinsiplə avropalıların şübhəsini qismən də olsa, dəf edə bildi, lakin Dekart prinsipinin özü də, nöqsansız deyildi. Çünki insan öz düşüncəsinin (yaxud şübhəsinin) mövcudluğu ilə öz mövcudluğunu qəbul edə bilməz. Əksinə, əvvəlcə insanın öz varlığı dərk olunmalıdır ki, bu varlığın düşünə bilməsi də isbat olunsun.

Həqiqətdə isə bu nəzəriyyəni (vücudun həqiqətini inkar edən nəzəriyyəni) rədd etmək üçün dəlil gətirməyə ehtiyac duyulmur. Bu nəzəriyyə (əgər qərəzli deyilsə), sadəcə insanın ruhi naxoşluğundan irəli gələ bilər. Deyilənə görə, ibn Sina bu fikirdə olanları başa salmaq üçün «dəyənək sübutundan» (*Arqumentum baculinum*) istifadə etməyi məsləhət görərmiş.

Sofistlərin bir qrupu aləmdə, yalnız bir həqiqətin olduğunu söyləyir. Bu həqiqət də sofistin özüdür. Onlara görə «mən»dən başqa heç bir şeyin həqiqəti yoxdur. Bu nəzəriyyə də məntiqsizliyinə görə öncəkindən geri qalmır. İslam fəlsəfəsinin ən böyük şəxsiyyətlərindən olan, zəmanənin möcüzəsi sayılan Şəhid Məhəmməd Baqir Sədr[1] «Fəlsəfəmiz» kitabında bu nəzəriyyəni sadə bir dəlillə rədd edərək yazır (ixtisarla): «Bu nəzəriyyə sahibləri özləri də bilmədən, özlərindən başqa həqiqətlərin mövcud olduğunu qəbul edirlər. Əgər sofistin özündən başqa həqiqi varlıq yoxdursa, bu nəzəriyyəni, məqalə və kitabları kimin üçün yazmışlar?!»

Aqnostisizm nəzəriyyəsi. Bu nəzəriyyəyə görə, aləmdə həqiqi varlıqlar mövcuddur, lakin bu varlıqlar dərkolunmazdırlar. Antik fəlsəfədə yunan filosofu Elidalı

---

[1] Şəhid Məhəmməd Baqir Sədr –İraqda yaşamış filosof, müctəhid, fitri iste’dadı ilə zəmanənin möcüzəsi hesab olunmuşdur. Hələ gənc yaşlarında ikən «Fəlsəfəmiz», «İqtisadiyyatımız» və « İctimaiyyatımız» kitablarını yazmış, fəlsəfi, ictimai-siyasi, iqtisadi nəzəriyyələrini açıqlamışdır. Onun bir çox kitabları dini elm mərkəzlərində tədris olunur. Mübariz fikirlərinə görə mənfur İraq rejimi tərəfindən həbs olunaraq faciəvi şəkildə şəhid edilmişdir.

Pirronun1 yaratdığı skeptisizm cərəyanı da dərkolunmazlığı tə'lim etmişdir. Klassik Avropa filosoflarından Devid Yum və İmmanuil Kant aqnostisizmi formalaşdırmışlar. Kanta görə «özündə şeylər» «bizim üçün şeylərə» çevrilə bilməz. «Özündə şeylər» dərkolunmazdır. XX əsr Avropa fəlsəfəsində aqnostisizmi müdafiə edən əsas məktəb «Ekzistensializm»**2** fəlsəfi məktəbi olmuşdur. Ekzistensialistlərə görə, varlığı dərk olunan qəbul etmək onu məhv etməkdir. Onlar Corc Berkli1 fəlsəfəsindəki «*Esse est percipi*!– Mövcudluq qavranılmaq deməkdir!» tə'limini tənqid edərək, onu, varlığı məhv etməkdə təqsirləndirirlər.

Aqnostisizm nəzəriyyəsində Sofizmin açıq-aşkar tə'siri duyulur. Bu tə'lim insan idrakını dəmir hasarlara alır, biliyi inkar edərək məhdudlaşdırır. Qeyd etdiyimiz kimi, insan özündə və özündən xaricdə həqiqət olduğunu, habelə özünün bu həqiqəti qavramağa qadir oduğunu fitrət və vicdanı ilə təsdiqləyir.

## Səbəbiyyət qanunu

Mövcudata nəzər salsaq, onun bütün predmetlərinə hakim çıxan bir qanunun olduğu diqqətimizi cəlb edəcəkdir.

Yer hərəkət edir, Günəş nur saçır, yazda çaylar daşır, yüksək hərarət əlimizi yandırır… Bütün bu gördüklərimiz və görə bilmədiklərimizin hər biri bu qanunla əlaqəlidir. Bu,

---

1Elidalı Pirron –eramızdan əvvəl 360-270-də yaşamış yunan filosofu, Skeptisizm tə'liminin banisi olmuşdur.

2Ekzistensializm fəlsəfəsi –XX əsrdə meydana gəlmiş fəlsəfi tə'limdir. Bu fəlsəfi tə'limin nümayəndələri arasında dini və ateist ekzistensialistlər də olmuşdur. Bu tə'limin Qabriel Marsel(1889-1973, Fransa), Nikolay Berdyayev(1874-1948,Rusiya),Martin Haydegger(1889-1976,Almaniya) və başqaları kimi görkəmli nümayəndələri olmuşdur.

1 Corc Berkli (1685-17 İngilis idealist filosofu. O, hər bir şeyin mövcudluğunu onun qavranılan olmasında görürdü.

«Səbəbiyyət» qanunudur. Səbəbiyyət qanunu biri «səbəb», digəri «nəticə» olan iki prinsipin əlaqəsini ifadə edən fəlsəfi kateqoriyadır. Lakin bu iki şey arasında olan əlaqə və kauzallıq bütün əlaqələrdən daha güclü, daha dərindir. Burada şeylər biri digərinə öz vücudu ilə bağlıdır. Səbəb öz nəticəsinə həyat verən, ona varlıq bağışlayan, nəticə isə öz varlığında, var olmasında səbəbə borclu olan, ona möhtac olan amillərdir. Məsələn, Günəş bir səbəb kimi öz nuruna vücud bağışlayır. Burada, nəticə olan Günəş nurunu Günəşsiz təsəvvür etmək olarmı?

Səbəbiyyət qanunu o qədər aşkar və möhkəmdir ki, bütün fəlsəfi məktəblər tərəfindən bə'zi fərqlərlə qəbul olunmuşdur. Yalnız «İndeterminizm» təlimi bu qanunun ümumiliyini, bə'zi hallarda isə tamamilə inkar etməkdə fərqlənir. Bunun müqabilində «Determinizm» səbəbiyyətin ümumi xarakterini müdafiə edərək onu zəruriyyətlə eyniləşdirir.

Fizikanın inkişafı ilə Kvant mexanikasının meydana gəlməsi Determinizmə baxışları dəyişdi. 1927-ci ildə alman fiziki Verner Heyzenberqin (1901-1976) bir prinsiptək formalaşdırdığı «qeyri-müəyyənliklər nisbəti» səbəbiyyət qanununun ümumi xarakteri ilə uyğun gəlmirdi. Bu prinsipdə elementar zərrəciklərin koordinat və impulslarını tə'yin etməyin qeyri-mümkünlüyü söylənilirdi. Həmişə olduğu kimi materialistlər bu prinsipdən faydalanaraq, mikroaləmdə səbəbiyyət qanununun hakim olmadığını iddia etdilər. Onlar bu iddianı «elementar zərrəciklərin iradə azadlığı» kimi ifadə edirdilər.

Lakin Heyzenberqin «qeyri-müəyyənliklər nisbəti» prinsipinin mütləq şəkildə doğru olmasına heç kəs zəmanət vermirdi; Elementar zərrəciklərin koordinat və impulslarının müəyyən olunmasının qeyri-mümkünlüyü, onların «iradə azadlığından» daha çox eksperimental vasitələrin zəifliyindən

irəli gəlirdi. Digər tərəfdən, mə’lum olduğu kimi materialistlər yalnız səbəbiyyətin deyil, bütün qanunların ümumiliyini inkar edirlər. K.Marksa görə bütün qanunlar, irəli sürülən nəzəriyyələr müəyyən şəraitin məhsuludur; hər hansı bir şəraitdə gəldiyimiz qənaət, başqa bir şəraitdə mütləq dəyişəcək, yenisi ilə əvəz olunacaqdır. Elə isə, materialistlər «qeyri-müəyyənliklər nisbətini» mütləq şəkildə necə qəbul edirlər?

Səbəbiyyət qanununu şübhə altına almaq bütün elmi tədqiqatları «tormozlamaq» kimi bir şeydir. Ən mürəkkəb elmi kəşflər, məhz, səbəbiyyət qanununa inamdan doğulur. Misal üçün diqqətinizi fizikada mühüm bir kəşfə yönəldirik:

Atom fizikasında fövqəl’adə əhəmiyyət kəsb edən alfa, beta və qamma şüaları necə kəşf olunmuşdur? Bu şüalar radioaktiv çevrilmələr zamanı kimyəvi elementlərdən ayrılan müxtəlif xasiyyətli şüalardır. Bu fərqli şüaları ilk dəfə məşhur ingilis fiziki Rezerford (1871-1937) aşkar etmişdi. Rezerford dövrü sistemdə 88 nömrəli element olan radiumun saçdığı radioaktiv şüanı perpendikulyar istiqamətdə güclü maqnit sahəsi ilə tə’sirləndirir. Bu zaman şüalanma istiqamətində qoyulmuş fotolövhədə bir deyil, üç şüa aşkar olur. Şüalardan biri düz, ikincisi maqnit sahəsinə az meylli, üçüncüsü isə maqnit sahəsinə çoxmeylli düşmüşdü. Bunun səbəbi şüalardan birinin mənfi yüklü, ikincisinin müsbət yüklü, üçüncüsünün isə yüksüz olması idi. Maqnit sahəsinə az meyl edən müsbət yüklü şüalar alfa, çox meyl edən mənfi yüklü şüalar beta, meyl etməyən yüksüz (elektrik yükü olmayan) şüalar isə qamma – şüaları adlandırıldı. Rezerford şüaların üç istiqamətdə düşməsinə nə üçün səbəb axtarırdı? Nə üçün o, bu hadisəni bir təsadüf kimi qiymətləndirmirdi? Çünki o, hər bir şeyin səbəbiyyət qanununa bütün varlığı ilə inanırdı.

Səbəbiyyət qanunu barədə söhbət açan mövzulardan biri də bu qanunun necə kəşf olunması mövzusudur. İnsan belə bir qanunun mövcud olmasına necə inanmış və onun kəşfinə necə yetişmişdir? Bə'zi alimlər bu qanunun dəqiq təcrübələrin nəticəsində aşkar edildiyini düşünürlər. Məsələn, həkim gündəlik təcrübəsində xəstəliklərin müəyyən səbəblərə bağlı olduğunu görür. Şübhəsiz ki, bu fərziyyə düzgün deyildir. Əvvəla, həkim belə bir qanunu müayinə zamanı aşkarlamır. O, bu qanunun mövcudluğuna inandığı üçün hər bir xəstəyə müəyyən səbəb axtarır.

Emprizm nümayəndələrindən olan ingilis filosofu Devid Yuma görə səbəbiyyət qanunu şeylərin ardıcıl və ya paralel olmasından asılıdır. Məsələn, biz qara buludlarla yağışın ardıcıl şəkildə gəldiyini müşahidə edirik. Bu buludların səbəb, yağışın nəticə olmasından xəbər verir. Yaxud, işləyən mühərriklə hərəkətdə olan maşının uyğun vəziyyətdə olduğunu görürük. Bu uyğunluq mühərrikin səbəb, maşının hərəkətinin isə nəticə olduğunu açıqlayır.

Bu filosofun da nəzəriyyəsi qənaətbəxş deyildir. Sözsüz ki, deyilən misallarda səbəbiyyət qanunu mövcuddur. Lakin bu qanun Yumun dediyi kimi ardıcıllıq və ya paralellik ilə kəşf olunmur. Təbiətdə çoxlu varlıqlar mövcuddur ki, ardıcıl və ya paralel şəkildə olsalar da, biri digərinin səbəbi, yaxud nəticəsi deyildir. Məsələn, fəsillər həmişə eyni ardıcıllığa malikdirlər, lakin bunların heç biri digərinin səbəbi, yaxud nəticəsi deyil. Habelə, Günəşdən ayrılan nur və istilik həmişə paraleldir. Lakin bunlardan (nur və istilik) hansı birini digərinə səbəb, yaxud nəticə hesab etmək olar?!

Ən düzgün nəzəriyyə budur ki, insan səbəbiyyət qanununu hər şeydən öncə öz daxilində tapır. O, hər an davranış və hərəkətlərinin öz iradəsinə bağlı olduğunu görür. Bu da, insan

iradəsinin səbəb, davranış və hərəkətlərin isə nəticə olduğunu açıqca bəyan edir.

**Qədim və Hadis**

Tarix boyu fəlsəfi bəhslər arasında geniş və köklü mübahisə obyektinə çevrilən məsələlərdən biri də mövcudatın «Qədim», yaxud «Hadis» olmasıdır. Fəlsəfi ədəbiyyatda bu iki kateqoriyanı əks etdirə bilən konkret bir termin tapa bilmədik. Buna görə də hər iki kəlməyə dair bir qədər açıqlama verməyi məqsədəuyğun saydıq.

«Qədim» sözü, doğma ana dilimizdə olduğu kimi –uzaq keçmişə xas olan şeylərə deyilir. Məsələn, yaşı min illər olan tikili, uzaq keçmişləri xatırladan yaşlı ağac və s. xalq arasında qədim sayılır. Lakin fəlsəfi termin kimi «qədim» kəlməsi tarixi olmayan, əzəli varlıqlara deyilir. Daha dəqiq tə’rif vermək istəsək, belə deyə bilərik ki: «Qədim –əvvəli yoxluq olmayan əzəli varlığa deyilir». Bu tə’rifə əsasən, yaşı minlər, bəlkə də milyonlar olan bir varlıq fəlsəfi nöqteyi nəzərdən qədim sayılmır.

«Hadis» kəlməsi isə, birincinin antonimi olaraq yaşı çox olmayan gənc varlıqlara deyilir. Konkret olaraq, hadis sözünü «yeni» kimi tərcümə etmək olar. Bu kəlmə də öz «əkizi» kimi fəlsəfə də başqa mə’nada qəbul olunmuşdur. Belə ki, yaşı nə qədər çox olsa belə, sonradan vücuda gələn varlıqlar hadis sayılırlar. Beləliklə, «Yaşından asılı olmayaraq əvvəli yoxluq olub, müəyyən tarixdə meydana gələn varlıqlar hadis adlanır». Ötən bəhsimizdə sübuta yetirdik ki, Allah-təalanın vücudu Onun zatındandır. Bunun izahında isə dedik ki, o Uca varlıq əzəldən mövcud olmuş heç kim (hətta özü) tərəfindən yaradılmamışdır. Bu, Allah-təalanın «qədim» olduğunu bizə açıq şəkildə bəyan edir.

Fikrimizcə «Qədim və hadis» bəhsinin fəlsəfəyə daxil olması «Nəticənin səbəbə ehtiyacı» məsələsilə bağlıdır. Tarix boyu mütəfəkkir və filosoflar belə bir sual ətrafında düşünmüşlər: «Nə üçün nəticə öz səbəbinə ehtiyaclıdır?»

Bu sualın cavabında, artıq bizə tanış olan kəlam məktəbləri nəticənin səbəbə ehtiyacını, onun hadis olmasında görürlər. Onlara görə hər bir nəticə öz səbəbindən sonra mövcud olmalı və onların arasında zaman fasiləsi hökm sürməlidir. Nəticənin öz səbəbilə bir zamanda vücuda gəldiyini qəbul etsək, onun səbəbə olan möhtaclığını inkar etmiş olarıq. Əlbəttə kəlam alimlərinin əsl məqsədi, ən'ənəvi olaraq, hər bir mövcudun səbəbi olan Allah-təalanın «Qədim», məxluqatın isə «Hadis» olduğunu və beləliklə, Ona möhtac olduğunu isbat etməkdir.

Filosoflar arasında ilk dəfə olaraq Molla Sədra nəticənin səbəbə ehtiyacını düzgün və əsaslı şəkildə izah edə bildi. O, nəticənin səbəbə ehtiyacını, onun «Hadis» olmasında görənlərin nəzəriyyəsini yanlış hesab etdi. Filosof bu ehtiyacı nəticənin səbəblə müqayisədə «vücuda zəiflik və fəqirlik» anlamı ilə izah edirdi. Həmçinin o, vücudun vacib deyil, mümkün olmasını, onun öz səbəbinə möhtac olması üçün başlıca amil hesab edirdi. Mütəaliyə filosofları bu müddəanı isbat etmək və kəlam alimlərinin nəzəriyyəsini rədd etmək üçün gətirdikləri dəlillərdən birilə tanış olaq: Biz varlıq aləmində səbəb və nəticələri mülahizə edərkən bir çox möhtac nəticələr görə bilərik ki, öz səbəblərindən sonra yaranmışlar və onların arasında zaman fasiləsi yoxdur. Məsələn, günəşin şüası günəşlə eyni zamanda vücuda gəlmişdir, lakin bu şüanın günəşə nə qədər möhtac olduğu şübhəsizdir. Kəlamilərin məntiqinə əsasən, günəş səbəb, onun şüası isə nəticə olduğu üçün, əvvəl günəş yaranmalı, müəyyən zaman fasiləsindən sonra onun şüası vücuda gəlməlidir. Beləliklə, filosoflar öz nəzəriyyələrini isbat etmiş olurlar. Qeyd etmək lazımdır ki, bu

nəzəriyyə yalnız nəticənin səbəbə ehtiyacını onun «Hadis» olmasında görən fikiri inkar edir. Lakin bə’zi filosoflar bu nəzəriyyədən daha kəskin nəticələr alaraq, aləmin «Qədim» olduğunu iddia etmiş, Allah-təaladan başqa bir əzəli varlığın mümkünlüyünü düşünmüşlər. Onlar hətta öz müddəalarına dəlil olaraq deyirlər:

«Bütün aləm Allah-təalanın yaratdıqlarıdır. Xəlq etmək Onun lütfü, mərhəməti, ehsanı ilə eynidir. Öncə qeyd etdiyimiz kimi, Allah-təalanın sifətləri Onun zatı ilə eynidir. Onun zatı qədim olduğu üçün, bütün sifətləri, lütfü, mərhəməti, ehsanı da qədim və əzəlidir (Qədimul-Ehsan). Əgər bu sifətlər qədimdirsə, onun xəlq etdiyi aləm də qədim olmalıdır.»

Filosofların bu fikrinə cavab olaraq, dövrümüzün ən böyük İslam filosoflarından biri olan Məhəmməd Təqi Misbahın iradı ilə tanış olaq:

Allahın lütfü, mərhəmət və ehsanının qədim olması, eləcə də heç bir zaman və məkan buxovları ilə məhdudlaşmaması şübhəsizdir. Lakin bu, məsələnin yalnız bir tərəfidir. Bu lütfü, mərhəmət və ehsanı əxz edən tərəf (məxluqat) də nəzərə alınmalıdır. Onlar qeyri-məhdud ilahi lütfə şamil olmaqda məhduddurlar. Necə ki, Allahın lütfünün nə qədər hədsiz olmasına baxmayaraq, maddə aləmi zaman və məkan məhdudiyyəti ilə yaradılmışdır. Dahi filosofun əvəzsiz iradına çox kiçik də olsa, daha iki irad əlavə etmək istəyirik: – Əvvəla mütəaliyə fəlsəfəsində əsas şərtlərimizdən biri fəlsəfi nəzəriyyələrin dini tə’limlərə uyğun gəlməsidir. Aləmin qədim olması bizim möhkəm əqidə üsullarımıza müvafiq deyil. Qur’ani-Kərim və səhih hədislər Allah-təalanın mövcudatı yoxdan var etməsini, Onun hər şeydən öncə mövcud oluduğunu tə’lim edir. Bu isə aləmin hadis olduğundan xəbər verir. İkincisi, biz Allah-təalanın sifətlərini diqqətlə nəzərdən

keçirməliyik. Lütfkar olmaq lütf etmək demək deyildir. Mərhəmətli olmaq mərhəmət etmək kimi dərk olunmamalıdır.

Diqqət etmək lazımdır ki, birincilər şəxsin zatı sifətləri, ikincilər isə bu sifətlərdən qaynaqlanan davranış və hərəkətlərdir. Mümkündür ki, şəraitdən asılı olaraq bu sifətlər mövcud olduğu halda, onlardan qaynaqlanan hərəkətlər icra olunmasın. Bu isə həmin sifətlərə və sifət sahiblərinə nöqsan gətirməz!

## Nəticə

Qeyd etdiyimiz kimi, fəlsəfə varlıq aləmini qeydsiz-şərtsiz araşdırır. Bu elmin mövzusu konkret şəkildə nə maddə, nə də metafizikadır. Varlığın, yaxud «vücudun» ümumi qanunları, xüsusiyyətləri və s. bu elm vasitəsilə açıqlanır. Yə'ni, misal üçün hər hansı bir maddəni götürsək, onunla bağlı olan «səbəbiyyət» qanunu bizim üçün aşkarlanar. Burada söhbət maddənin bir nəticə kimi hansı səbəbdən vücuda gəlməsi, yaxud da bir səbəb kimi hansı nəticələr doğurmasından gedir. Bu qanunun (Səbəbiyyət) həmin maddəyə hakim olması onun maddə olduğundan irəli gəlmir. Sadəcə, maddənin «mövcud olması» onun bu qanunla əlaqəli olduğunu açıqlayır. Lakin bu maddənin qeyri-üzvi, elastik və radioaktiv olub-olmaması, bilavasitə onun maddə olması ilə bağlıdır. Beləliklə, birinci qanun (Səbəbiyyət) fəlsəfənin, sonrakılar (qeyri-üzvilik, elastiklik, radioaktivlik) isə fizikanın mövzularıdır.

**Ədəbiyyat**

1 - Qurani-kərim
2- Bibliya
3. Misbah Yəzdi, fəlsəfə təlimi, Qum, Çap 2004
4. Mail İsmayıloğlu, "Din fəlsəfəsi" (2009-cu il)
5. Təmimi Amidi, Əbdulvahid ibn Məhəmməd "Ğurərul-hikəm və durərul-kiləm",
6. Mirzə Hüseyn Nuri, Müstədrəkül-vəsail
7. Əllamə Məclisi, Biharul-ənvar, c. 78
8. Məhəmməd ibn Yəqub ibn İshaq Kuleyni, "Üsuli-əl-Kafi", c.2
9. Şeyx Səduq ibn Babuveyh, " Tövhid "
10. Rauf İmranoğlu, "Məntiq" (2011-ci il),

11. Ayətullah əl-üzma Nasir Məkarim Şirazi, “Təfsiri nümunə” (2018), c. 16
12. Şeyx Əhməd Nəraqi; “Meracus-Səadə” (Səadət zirvəsində, Çap ili: 2012 )
13. Şeyx Təbərsi , “Məcməül-bəyan”, c.10
14. Sərrac Tusi “Lümə” 1960-cı il
15. S. Xəlilov, “Fəlsəfə: tarix və müasirlik”
16. Əxbər əl-Həllac, 1936-cı il
17. Könül Bünyadzadə, “İnsan: kamilliyin arxitektonikası” (Bakı – 2014-cü il),
18. Mürtəza Mütəhhəri, “İlahi ədalət
19. Molla Sədra, “Əsfari ərbəə”
20. Cəfər Sübhani, “İlahiyyat”
21. Məhəmməd Hüseyn Təbatəbai, “Əl-mizan”
22. Məhəmməd Təqi Misbah Yəzdi, “Amuzeşi fəlsəfə”
23. Məhəmməd Hüseyn Təbatəbai, “Nihayətul-hikmət”
24. Mətləb Baqir, Fəlsəfə ilə tanışlıq (ƏSAS QAYNAQ

# Fatimə iki dünyanın ən üstün xanımı

Gülbacı Abbasova[1]

## Abstrakt

Tarix boyu qadınlar məşəqqətli həyat yaşamışlar. İctimai cəhətdən güclü cinsin-kişilərin müqabilindən zəif olduqlarından,tarix boyu zülmkarlar və zora arxalananlar qadınların insani şəxsiyyətini alçatmış və bu yolda bir sıra cinayətlərə yol açmışlar. Bütün dünya qadınları cahillik girdabında çabalayırdılar. Qadının şəxsiyyəti daha çox ayaqlar altına atılmış, əşya kimi alınıb satınmış, kişilərin miras mallarından onlar üçün heç bir hüquq tanımamışdırlar. Oğul və qız övladı arasında ayrı seçkilik qoyulurdu və qız uşaqlarına qarşı çox laqeyd yanaşırdılar.”Qız uşaqları bizim övladlarımız deyldir,yanlız oğlan övladları bizim övladlarımızdır”
Oğlanlarımız, oğlanlarımızın oğullarıdır.
Qızlarımızın oğulları isə yad kişilərin oğulları deyə yanaşmışlar.
Belə bir dönəmdə islam huzur etdi. Xatəmul-ənbiya həzrət Məhəmməd(s) buyurdu: ”Məryəm öz zəmanəsinin qadınlarının xanımı idi,amma qızım Fatimə bütün dövrlərdə yaşamışdünya qadınlarının xanımıdır.
Hədisdən bizə bəlli olurki, Xanım Fatimeyi Zəhranın dərəcə baxımında,daha üstün olmuşdur.

Açar kəlmələr: Fatimə, Zəhra, üstün, xanım

---

- İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, [1]
Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

# Giriş

Mənim bu mövzüda yazmağıma "Əyyami Fatimə"səbəb oldu. Bu günlər məni bu mövzüda yazmağa vadar etdi. Bu mövzuya müraciət etmək həm məni sevindirdi, həm də düşündürdü. Sevindirir ona görəki, mövzüm hər iki dünyanın reyhanəsi haqqındadır. Düşünürəm ona görəki belə bir xanım haqqında yazmaq böyük məsulliyət tələb edir. Mən sovet idyalogiyası ilə böyüyən,tərbiyyə və təhsil alan müselman xanımam. İstər ailədə,istərsədə cəmiyyətdə qadın doğulduğum üçün üzülürdüm. Cəmiyyətdə qadın kişi məsələsində,ağır ictimai iş prinsipləri.Ailədə
isə qadının dəyərinin çox aşağı olması məni düşünməyə vadar edirdi. Düşünürdüm ki "Kaş mən kişi doğulsaydım"bir sözdə kişiləri xoşbəxt görürdüm və qısqanırdım. Zamanla böyüdüm, erken yaşda ailə həyatı qurmuşdum. Qiyabi ali təhsil aldım, ikinci təhsilim ilahiyyət üzrə oldu.İlahi elmlərlə tanış olduqdan sonra anladımki elə ən böyük dəyər elə islamın qadına verdiyi dəyərdir. Getdikcə bu elmin batininə azda olsa vardım. Əvvəl tarixə sonra islamın qadına verdiyi dəyərə və ondan sonra dönüb özümə baxdım. Sevindim, şükür etdim və dedim"Rəbbim nə yaxşıki məni qadın yaratdın"sənə təşəkkür edirəm.

Tarixə müraciət edəndə görürük ki, İslam Ərəbistan yarımadasında zuhur etməmişdən öncə bədəvi ərəblər qadın məxluquna etdikləri zülmün pik nöktəsini görürük. Qız uşaqlarının diri-diri torpağa basdırılması,qadınların söz azadlığının olmaması,ya əşya ya qul kimi dəyərləndirilməsi məni üzdü.İslamın zuhurundan sonra qadınların xanım Fatimətuz-Zəhranın simasında nəinki öz dəyərlərni tapdılar,hətta dünyanı qadınlar haqqında, bu məxluqun kimliyi,izzəti,gizli məqamları haqqında düşünməyə vadar etdi.

# Həzrət Fatimə hədislərə

Həzrət Məhəmməd buyurdu: “Fatimə bədənimin bir parçasıdır;gözlərimin nuru,qəlbimin meyvəsi və ruhumdur. O,insan sifətində bir huridir”

Hədisdən bəlli olurki,bədənimin bir parçası dedikdə Fatimə rəsullahlahın cismindən və ruhundan,gözlərimin nuru dedik də qəlb gözlərinin nuru nəzərdə tutulmuş,qəlbimin meyvəsidir dedik də ilahi nemətlərin onda təcəlli olmasını,bir huridir dedik də isə mələklərdən üstün olmasına işarədir.Rəsullahlah(s ) beysətin beşinci- ci ilini yaşıyırdı.Çox çətin bir şərairdə yaşayırdı.İslam yeni idi.Müselmnların sayı isə az idi.Təziqlər dözülməz hala salmışdır.Bir tərəfdən Məkkənin şirk,bütbərəslik,cahillik, və xurafat bürümüş,digər tərəfdəndə Ərəb qəbilələri arasındaki müharibələr həyatı tarimar edirdi amma bu çirkablıqların üzerində Resulu Əkrəm parlaq bir gələcəyin təməlini qoyurdu.elə bil gələcəkki ağlın təsəffüründə olmayacq bir gələcək,həmin il Rəsulu Əkrəm mehrac gecəsi Behişdən keçərkən Cəbrayıl (s) Tuğba ağacının meyvəsindən ona verdi.Rəsuli Əkrəm yerə uzune qayıtdıqdan sonra Fatimətul-zəhranin nütfəsi əmələ gəldi. Ellame Meclisi Hz-Zehranin e.s tevellud tarixini meshur ‘’Biharul-Envar’’kitabinda yazir.

Bir gun Peygember s.e.s Ebteh (Mekke ve Mina arasinda)deyilen yerde eylesmis ,Hezreti-Eli s.e Abbas ,Hemze, Emmar Yasir,Mufzer ibn Zehzah ,Ebu Bekr ve Omer de o Cenabin yaninda oturmusdular. Bu zaman Cebrayil oz esl suretinde cox boyuk qanadlari serq ve qerbi ehate etmis halda Peygember(s.e)-in huzuruna gelib bele seslendi.’’Ey Pemgember .Boyuk Allah sene salam gonderir ve buyurur ki,qirx gun Xedice (s.e) ile yaxinliq etmeyesen’’

Bu mehrumiyyet Xedice (s.e)-ye derin mehebbet beslediyine gore Peygember (s)-e cox agir geldi, lakin Allahin emri her bir seyden daha ustun oldugu ucun onu mutleq yerine yetirmek lazim idi. Bu hadiseden sonra Peygember (s) qirx gun Xedice(s.e)-ye yaxin dusmedi. Gunduzleri oruc tutub ,geceleri ise ibadetle mesgul olan Resulullah(s) vaxt tamama yetisende Emmar Yasiri Xedice (s.e)-nin yanina gonderib bu xeberi ona catdirmagi tapsirdi. ‘’ Ey Xedice ,Ele guman etme ki, bir muddet senden uzaqlasdigim sene olan sevgimin azalmasi,yada laqeydlik uzundendir. Allahim bunu oz isini yer uzunde heyeta kecirmekden otru emr etmisdir.bu emrin neticesi ucun seadet ve xeyrden savayi bir sey fikirlesme. Allah-Teala gunde nece defe en boyuk meleklerini senin nazini cekmeye memur edir. Axsam dusen kimi qapini bagla ve oz yatginda istirahet et. Bil ki, men Fatime binti Esedin evindeyem .

Seyx Seduq ‘’Emali’’ kitabinda Mufezzel Ibn Omerden neql edir.

Omer Imam Sadiq e.s sorusur

-Fatime s.e dunyaya nece gelmisdir?

İmam e.s buyurdu;

-Xedice s.e Peygember s.e ile evlenenden sonra Mekke qadinlari Islama qarsi olan dusmencilikleri uzunden Xedice s.e-den uzaqlasdilar. Onun ne evine gedirdiler, ne de ona salam verirdiler. Hetta basqa qadinlar ile gorusmesine mane olurdular. Butun bu hallar Xedice s.e cox keder getirirdi. Ve bunu oz heyat yoldasindan gizledirdi.

Fatime s.e Xedice s.e-in betnine dusmemisden once Allah Peygemberi s.e Xediceyi Kubradan uzaqlasdirdi.Burda meqsed Fatime s.e-in muqeddes vucudunu ve Allahin bu boyuk tofhe ve hediyyesini almaq ucun gorulen hazirliq idi.bele ki, Hz.Zehranin ziyaretnamesinde bu metlebe isare

olunmusdu;’’Ilahi ,Salam gonder o pak qadina .Fatime senin resulunun qizi, ciyer paresi,qelbinin melhemidir.O, Peygembere senin terefinden secilimis ve oz ehdine vefa etdiyi bir tohfedir’’.
Xedicenin (s.e) oz gunlerini qem ve kederle otururdu. Qirx gun sona yetdikde Hz Cebrayil Peygember (s.e) yanina gelerek erz etdi. ‘’Allah -Teala sene salam gonderir ve buyurur ki, sene verilecek hediyyeni almaga hazirlassin ‘’. Peygem ber (s.e) Cebrayildan sorusdu. ‘’Allahin mene verecyi tofhe nedir ?’’ Cebrayil bu barede bir sey bilmedgini bildirdi. Bu zaman Mikayil goyden yere enerek behist parcalarina bukulmus cennet meyveleri ile dolu sinini Resuli Ekremin qarsisina qoydu
Bu vaxt Cebrayil Peygembere (s.e) dedi’’ Allah -Teala buyurur ki, axsam iftarini bu meyvelerle ac’’. Belece Behistin pak meyvelerinin siresinden nutfe baglanmisdir
Xedice(s.e) hamilelik doneminde betnindeki korpe ile danismasi bir vcox moteber menbelerde oz tesdiqini tapmisdir. Xedice (s.e) betnindeki korpeye istinad ederek buyurmusdur ki, o menim ‘munisimdir’.
Zaman geldi yetisdi, dogusun cetin deqiqelero basladi. Xedice(s.e) evde tek id. Ona komek edecek bir qadin yox idi, qelbi yaman doyunurdu. Camaatin rehmsiz davranisi onun qelbini cox sixirdi. Birden ruhunun ufiqinden bir nur parladi. Gozlerini acdi ve yaninda 4 qadin gordu. Onlar qureys qadinlarini xatirladan gorunusde idiler. Onlardan biri dedi; ‘’Qorxma,darixma. Mehriban Allahin bizi senin komeyine gonderib. Biz senin bacilariniq. Men Sarayam, bu ise Fironun xanimi Asiyadir. Biri Imran qizi Meryemdir, biri Musanin bacisi Gulsumdur. Biz sene komek etmek ucun burdayiq’’ . Bu korpenin dogulmasi Peygemberi o qeder sevindirdi ki, Allah -

Tealani medh etdi, onu ‘’ebter’’(sonsuz) adlandirilanlarin dillerini kesdi.

# Onun adı Kövsərdir!

Quran: “Biz sene Kovser (boyuk xeyr ve bereket )nazil etdik. Ele ise Rebbin ucun namaz qil ve qurban kes. (bil ki) senin düşmenin sonsuzdur ve nesli kesilecektir.”[1]
Belelikle Beysetden sonra cemadius-sani ayinin iyirmisinde qeybi ruzilerin behresi yer uzune tecelli etdi. Zehra ulduzu doğuldu. Muhemmed ve Xedicenin evi Fatimenin nuru ile isiqlandi. Pak ve oxsarsiz atadan ve Pakize anadan bir körpe dünyaya geldi ki, alemi sahilsiz kamillik zirvesinde qerq etdi. Qisa ve bereketli omrunde beseriyyeti teeccub ve heyrete getirdi.

Peygember (s.e) ata ve Xediceyi Kubra kimi sexavetli ve fedekar qadindan dogulan o mubarek ovlad cemadius-sani ayinin iyirmisi bu dunyaya qedem qoydu ve muxaliflerin Resulallaha (s.e) vurduqlari ‘’ nesli biten’’ teneleri ve danlaqlari su uzerinde cekilen resm kimi pozuldu.’’Kovser’’ suresinin mezmununa esasen ,Fatimetuz-Zehra (s.e) Qiyamete qeder davam edecek Peygember(s.e) ailesinin ,hidayet Imamlarinin (s) butun zamanlarda boyuk xeyrin cosan bulagi oldu. Bu Behist Xaniminin (s.e) biri digerinden daha menali 10 adi var ki, onun bereketli vucudunun gostericileridir.
1.Fatime, 2. Siddiqe, 3. Tahire, 4. Mubareke, 5. Zekiyye, 6.Raziye, 7. Merziyye, 8.Zehra, 9.Muheddese, 10. Betul

---

- Kövsər surəsi[1]

Mohterem Islam Peygemberinden (s) neql olunan bir hadise emirel-mominin Eliden (e) sorusur; ‘’Bilirsenmi qizim niye ‘’Fatime’’ adlandirilib ?
İmam (e) ‘’ Buyurun -dedi . Peygember (s) buyurdu. ‘’ Ona gore ki, onun ozu sielerini ve ardicillari Cehennem odundan azad edilmisdir.
Tahirə adının mənası isə hər bir çirkinliklərdən pak olan heç vaxt nifas və heyz görməyəndir.
Bətul adlanmasına səbəb isə heç vaxt heyz görməməsidir.
Həzrəti İsa (s) anası da bu səbəbdən Bətul adlanmışdır.
Hürayi İnsiyyə adlanmasında səbəb isə Rəsuli Əkrəmin mehracda olan zaman behiştin alma,təzə xurma,və digər meyvələrinə meyl etdi.Allah-Təala həmin behişt yeməklərini Peyğəmbərin(s) sülbündə suya çevirdi və xanımın nütfəsinin qoyulmasına səbəb oldu.Ona görədə xanım həm yer əhli olmaqla yanaşı həmdə behişt hürulərindən idi.
Imam Ceferi-Sadiqden (e) sorusdular ; ‘Niye Fatimeye (s.e) ‘Zehra’ adini qoyublar? Hezret cavab verdi; ‘Zehra’ sozunun menasi ‘’parilti’’dir . Fatime ,ibadet mehrabinda oldugu zaman onun nuru asiman ehline nur sacdi. Ulduzlarin yer ehline nur sacdigi kimi. Buna gore de ona Zehra adi qoyuldu. Hezreti-Zehra(s,e)-nin adlarina bu adlar da daxildir. Hisan , Hurre, Seyyide , Ezra , Hevra, Meryem, Kubra . Revayetde neql olunur ki, o hezret bu sebebden ‘’Betul’’ adlandirilmisdir ki, hec vaxt qadin adeti gormemisdir. Ibn Sehr Asub ‘’Menaqib’’adli kitabinda yazir;
‘’Sehih revayetlere esasen ,Fatime (s.e) iyirmi ada malik olubdur ki, adlarindan her biri onun feziletlerini ozunde eks etdirmisdir. Ibn Babeveyh bu adlari ‘’Muvellid Fatime ‘’ kitabinda sadalamisdir.
O Xanimin gunyeleri ; ‘’Ummulhesen’’ , ‘’Ummulhuseyn’’ ,’’ Ummulmohsin’’ ,’’Ummuleimme’’ , ‘’Ummuebiha’’ ve

‘’Ummulmominin’’-den ibaret olmusdur. Bu gunyeler xanim Fatime(s.e)-nin ziyaretnamesinde de isledilmisdir.
‘’Menaqib ‘’ adli kitabda qeyd olunmusdur ki, goylerde hezreti -Fatime (s.e)-ye ‘’Nuriyye ‘’, ‘’Semaviyye’’, ‘’Haniyye’’ de deyirler.
‘’Haniyye’’ adi erine ve ovladlarina qarsi cox mehriban, qaygikes oldugu ucun xanim Zehra(s.e)-ya verilmisdir.
Omrunun sekkiz ilini atasi ile Mekkede , on ilini ise Medinede kecirtdi. Hele usaqliqdan atasinin derd ortagi olmus, cismi ve ruhi yaralarina melhem sarmisdir. Ana balasini udafie etdiyi kimi atasinin mudafiesine qalxirdi. Ona gore de , Resuli Ekrem ona ‘’Ummi Ebiha ‘’ (atasinin anasi) adini vermisdir. Tarix bu haqqda seve-seve yazmis ve ilhamla ozunde canlandirmisdir.Zahirde bu atasinin anasi kimi adlansada batinde imamet ailesinin ,atasinin anasi adlanmisdir. Yeni Imam Zaman (e.f) yuxari qalxdiqca atasinin anasi, atasinin anasi, saydiqca gelir Imam Hesen (s) Mustebaya cixir.
Hezreti Fatime islamin nezerde tutdugu canli qadin numunesidir.
Ataya nece qiz?
Kisiye nece yoldas?
Ovlada nece ana ?
Cemiyyete nece qadin?
Fatime(s.e) butun bu nov suallara canli cavabdir. İdealligi butun dunya qadinlari ucun misilsizdir. Merdliyi ve safligi her bir qadin nece olmali sualina cavabdir. Hezreti Fatime (s.e) subhesiz butun dunya qadinlarinin sahi kimi yer almaqdadir.
Resuli Ekremin dili ile desek Fatime dunya ve axiret xanmlarinin reyhanesidir. Atasi mesum
Yoldasi mesum
Ozu mesum
On bir ovladi mesum

Resuli Ekremin Xanım Fatimeyi(s.e) olan mehebbeti ve xanim Zehranin atasina olan mehebbeti bir atanin qizina ,bir qizin ataya olan mehebbetinin en bariz numunesidir.
Peygember(s) buyurmusdur; ‘’Behistin sovqu qelbime dusende Fatimenin bogazindan opurem’’
‘’Fezailu-Sie’’ . cild 3,seh 127
Butun tarix ve hedis alimleri Peygember (s)-in qizina qeribe ve tukenmez mehebbetin oldugunu yazmislar. Bu mehebbet o Hezretin vucudunda dovran edirdi. Bu mehebbet tekce ata-bala esqi yox, Allaha olan mehebbeti ozunde cemleyen ilahi bir esq idi. Onlarin baxislari, bir-birine olan davranislari ilahi esqden guc alirdi. Sunni ve Sie kitablarinda bir nece hedise isare edek.

1. Kisilerin icerisinde Eli(s) , qadinlarin icerisinde Fatime(s.e) en cox sevdiyi sexsler idiler.
   ‘’İhqaqul-heqq ve ibtalul-batil’’, Molla Baqir Uskuyi, cild 10,seh 167
2. ‘’Biriniz digerini cagirdiginiz kimi , Peygemberi ‘’hemin sekilde’’ seslemeyin

Nur suresi aye 63
Bu aye nazil olmamisdan once erebler Resuli Ekremi oz adi ile cagirirdilar. Bu ayeden sonra ‘’ya Resulallah’’, ‘’Ye Eyyuhen-Nebi’’nidalari ile cagirmaga basladilar. Hezreti Fatime bir muddet atasina ‘’atacan’’ nidasi ile cagirmaga curet etmedi. Butun insanlar kimi ‘’Ya Resullah’’ deye muraciet etdi. Peygember (s) bundan cox narahat oldu ve qizina buyurdu ‘’Fatime bu aye ne sen, ne ailen ,ne de neslim baresinde nazil olub. Sen mendensen ,mende sendenem. Bu aye Qureysin edebsiz ve cefakar adamlari baresinde nazil olub’’
‘’Atacan’’ de. Bu menim qelbimi dirildir ve Allahi razi salir

‘’Menaqibi-Ali Ebu Talib ‘’, Mehemmed ibn Eli Mazenderani cild 3,seh 320

3. Peygember(s) Fatimeni ele isteyirdi ki, sefere gederken son vidalasdigi ve seferden qayidarken gorusmeye telesdiyi ilk sexs idi.

‘’Fezailul-xemse ‘’ cild 3,seh 132

4. Peygember(s) buyurmusdur; ‘’Kim ona eziyyet ederse mene eziyyet etmis,Kim onu qezeblendiribse meni qezeblendirmis, kim onu sevindirse meni sevindirmis, kim onu kederlendirse meni kederlendirmisdir’’

Coxlu sie ve sunni menbelerinde

5. ‘’Behistde ilk yanima geleck sexs qizim Fatime olacaq’’

   Kuleyni. Sunni ‘’kenzul -ummal ve.s

   Bu haqqda cox yazmaq olar.

   İslamin 3 il agir dovrunde iki nefer daha cox fedekarliq gostermisdir. Qadinlardan-Xedice (s.e), onun ruhu ve cismi yaralarina melhem olur, ozunun fedekarligi, mehebbeti, safligi Peygember(s) mubarek qelbini qem qusseden xilas edirdi. İkinci sexs ise Emirel-Mominin Eli (s) atasi Ebu Talib idi. O son derece zekali ve tedbirli adam idi. Beysetin onuncu ili Resuli Ekrem bu iki qiymetli sexsleri itirdi. Emisi Ebu Talibden Eli(s), yoldasi Xediceden qizi Fatime emanet qaldi( Allah bir nemeti alarsa ,yerine basqa nemet verer.

   Ebu Talib oz missasini oqluna Xedice s ise qizina oturdu

   Peygember(s) buyurmusdur; Xedice (s.e)-in var-dovleti, Ebu Talibin himayesi, Eli (s) qilincinin gucu olmasaydi Islam oz mohkem bunovresini qoya bilmezdi

   Indi baxaq Fatimenin yoldasina olan munasibetine

“Eger Əli (s) olmasaydi Fatimeye ər olmaqa bir kisi movcud olmazdı”.
“Kunuzul-həqaiq”səh:124
Bu barədə təkcə bunu xatırlamaq kifayət edərki, həzrəti Zəhra(s.ə) dəyən zərbə,vurulan töhmət,sümüyun sınması qırbaçın qolunda iz salması kimi müxtəlif əzab və əziyyətlərə düçar olması böyük məhəbbət bəslədiyi əri Əli (ə.s) yə görə olmuşdu.Bütün bu əzab əziyyətə bu boyda şəhadətə yetişənə kimi dözdü.Omrünün son anlarında Zəhra (ə.s) nı ağlayan görən həzrəti Əli (ə.s) ondan ağlamağının səbəbini soruşduqda xanım Fatimə (ə.s)”məndən sonra sənə baş verəcək müsibətlərə görə ağlayıram” deyə cavab verdikdə İmam Əli(ə.s) buyurmuşdu:”Ağlama Allaha and olsun ki bu müsibətlər mənə Allah yolunda üz verdiyinə görə asan və kiçik görünür.”
Belli olur ki Xanım dövrünün İmamını qoruyan bu yolda cihat edən,faciəli şəkildə şəhid olan yeganə ilk qadındır. O öz həyat yoldaşını yox,dövrün imamını qoruyurdu.
Dusunurem biz dovrumuzun imamini ne qeder qoruyurBiz buna ne qeder haziriq

Xanımın məşəqətli aile həyatı bütün müsəlman ailələri üçün ən bariz nümünədir.Onların bir birilərinə olan məhəbbətləri Allaha xatir idi.
“Kisa”və Mübahilə əhlində biri sayılan Fatimə(ə.s) ən çətin dövürdə Allah yolunda hiçrət edən, şərəfinə “Təthir”ayəsi nazil olan şəxsiyyətlərdəndir.Cəbrayıl da onlarla birgə ağlamasına fəxr etmişdi.Allah-Təala onların paklıq və doğruğuluna şəhadət vermişdir.O imamların anası olmaqla yanaşı ,Peyğəmbər(ə.s) in nəslinin ondan doğulub himayətə

kimi davam edəcək yadigarıdır.Bu nurlu vücud əvvəldən axıra hər iki dünya qadınların xanımıdır.O sözündə və danışığında Həzrəti-Məhəmməd(ə) ə ən çox oxşayan şəxs idi.Onun əxlaq və həyat tərzi Rəsuli-Əkrəm(s)in həyat tərzi və əxlaqını xatırldırdı.Yeriyişi sanki Peyğəmbərin(s) in yeriyişi idi.O həmişə atasının yanına gələndə Rəsulu-Əkrəm(s) qızını mehribanlıqla qarşılayar,əlindən öpər nə zaman behişt ətrini duymaq istəsə idi onu qoxlayar və buyurardı:

“Fatimə bədənimin parəsidir.Kim onu sevindirsə,məni sevindirib,kim ona pislik etsə mənə pislik edibdir.

Peyğəmbərin Fatimə(ə s)yə olan sonsuz məhəbbətin ifadə etdirən”ya həbibətə əbiha”kimi kəlamların misal göstərmək olarki bu da “Ey atasının dostu və məhbubu”mənasındadır.

Xanımın fəzillətlərindən biridə onun mocuzeli “Müshəv”dir.İmam Sadiq(s) buyurmuşdur: Fatiməyi Zəhra Müshəv yadigarı qoydu.Həmin müshəv Quran deyil amma Allah sözlərindən ibarətdir ki Allah-Təala Fatiməyi Zəhraya göndərmiş, dili ilə tərpətmiş və Əli(s)onu imla etmişdir.Bu kitab Quran deyldi,lakin Ulu yaradan tərəfindən Fatiməyi Zəhraya nazil olan Allah kitabıdır.

Əbu Bəsir belə nəql edir:

Bir gün İmam Sadiq(ə.s)in huzuruna gəlib soruşdum:

-Canım sənə fəda!Əhli-beyt tərəfdarları deyirlər ki,Peyğəmbər(s) öz elmindən bir fəsil öyrətmişdir ki,həmin fəsildən də minlərlə qapı açılır.Mənim zənnimcə, həqiqi və kamil elm məhz elə budur.

Həzrəti-Cəfəri Sadiq(ə.s) bir az fikrə gedib buyurur.

-O elmdir,lakin kamil elm deyildir.Əlbətdə “Məcmuə”bizdədir amma,insanlar hardan bilsin ki “Məcmuə”nədir?O yetmiş dirsək uzunluğunda

peyğəmbərin söylədiyi,Həzrəti-Əli (əs)nin dəstixətti ilə yazdığı bir tumardır.Bütün halal və haram hökmlər şəri qanunlar orada yazılmışdır,beləki hətta cırmaqın cərimərəsinə kimi həmin tumarda qeyd olunmuşdur.Dedim:

-Allaha and olsun ki bu kamil elmdir

-Bu elmdir lakin,kamil elm deyldir.düzdür “Cəfr”elmi bizdədir amma xalqın”Cəfr”elim barədə heç bir məlumatı yoxdur.

-Bəs”cəfr”nədir?

-Peyğəmbərin övliyaların,keçmiş Bəni-İsrail alimlərinin dəri üzərində yazılmış elmidir ancaq buda elmi kamil deyl .Sizin elinizdəki “Quran”ın uc bərabər ölçüsündə olan Həzrəti Fatimə(sə)nin kitabıda elmdir.Bu elmdən yanlız bizim xəbərimiz var çünki o bizdədir.

DUNYANIN EN BOYUK DORD XANIMI

Zəxairul-uqba kitabında ibn Abbas Peygembərdən (s) belə nəql edir; ‘’ dord qadin dunya qadinlarinin xanimidir. Imranin qizi Meryem, Muzahim qizi Asiya , Xuveylid qizi Xedice ve Muhemmed qizi Fatime. Onlarin icerisinde en ustunu Fatimedir’’

Fatime(s.e) baresinde isledilen ‘’en ustun’’ soz ifadesi xeyli sayda keyfiyyetin- xanimin elm, teqva, fedakarliq ve diger ali keyfiyyetlerinin isaresidir.

Quran aciq bir sekilde beyan edir; ‘’Meryem meleklerle danisirdi ve melekler de onunla sohbet edirdiler’’

Meryem suresi aye 42,43

‘’Meryem ucun (ibadet) mehrabinin yaninda Behist yemekleri hazir olurdu’’

Ali-Imran suresi aye 37

‘’Meryəm siddiqe idi ‘’-Maide surəsi ayə 75

Xülase, Qurani-Kərim Meryəm ve digər böyük xanımlar,meselen Asiya üçün bir sıra meqamlar bəyan edir. Peygember (s) də Xədicə xanım üçün bir sira məqamlar beyan etmişdir. Yuxarıdakı hedisler de həmin ali meqamlarin hamisini ve onlardan da artığını Fatimetuz-Zehra (s.e) ucun isbat edir.

Bir qadına xas olan təsəvvür oluna bilən bütün gözəl cəhətlər Fatiməyi-Zəhra(s)da cilvələnmişdir.O sıradan bir qadın deyldir,ruhani bir qadın,səmavi bir qadın,insanlığın bütün mənasında insan,və qadınlığın bütün mənasında təkrar olunmaz qadın idi.O səmavi bir məxluqdur ki,aləmdə insan sürətində zahir olmuşdur.Dünyaya elə bir qadın gəlmişdi ki bütün kişilərə bərabər idi. Bütün insani keyfiyyətlərini özündə cəmləyən insanlıq nümunəsidir.O islamda günəş kimi parlayır.Onun fəzilətləri Peyğəmbər(s) fəzilətləri qədərdir. Elə bir qadındır ki,hər kəs onu mədh etmək istəsə öhdəsindən gələ bilməz.Bir sözlə hər kəs öz qəlbi(tutumu)qədərində onu vəsf edə bilər.Bundan artğını bacara bilməz.Çünki bunun misalı dəryanı küzədə yerləşdirmək qədər mümkünsüzdür,çünki dərya küzəyə sığmaz. İmam Xomeyni Təfəkküründə Qadının mövqeyi kitabında yazır:Həzrəti Zəhra kimi böyük qadın heysiyyətini qoruyun.Biz hamımız ona iqtida etməliyik.İslam qanunlarını onun və övladlarının vasitəsilə öyrənməliyik və onun kimi olmalıyıq. Elm və təqva sahəsində çoxlu sey göstərin,çünki elm heç bir kəslə məhdudlaşmamışdır,elm hamının maıdır,təqva hamının malıdır,elm və təqvaya yiyələnmək bizim hamımızın vəzifəsidir.(22)

21,12,63 h.ş-12,3,85

Səhifəyi-nur ç.19 s. 120

Xanımın həyatında fədəyin qəmli tarixçəsi xüsusi yer tutur.Bu xanımın və əhlibeytin həyatında umumi və islam tarixində daha geniş iz buraxmış ən qəmli

qovğalı(mübahisəli)hadisələrdən biridir.Bu hadisə siyasi məqsədlərlə zəngindir.və İslamın ilk illərinin bəzi müəmmalarını açmaq üçün mühüm bir sənətdir.Fədək hicaz məntəqəsində xeybər qalasının yanında abad torpağı məhsuldar,Mədinənin 140 km-yin də yerləşən bir ərazidir.Orda çoşan bulaq çoxlu xurmalıq sahəsi mövcud idi. Xeybərdən sonra hicazda yəhudilərin ikinci sığınacaq yeri sayılırdı.Rəsulallah Xeybər qalasının fəthindən sonra eve dönüş yolunda idi.Allah yəhudilərdən ibarət olan fədək əhalisinin qəlbinə qorxu saldı. Onlar bir nəfəri Peyğəmbər(s) huzuruna göndərib,fədəyin yarısını onun ixtiyarına verməklə onunla sülh bağladılar.Rəsulallah bunu qəbul edib,sülh müqaviləsini imzaladı

Bu yolda Fədək Peyğəmbəri-Əkrəmin (s) şəxsi əmlakına çevrildi.Çünki Qurani-məcidin aydın göstərişinə əsasən "Müselmanların əlinə döyüş aparmadan çatan bütün mallar Rəsuli-Əkrəmin (s) haqqıdır və bu mallar müharibə qənimətləri kimi bölüşdürülmür"[1]

Peyğəmbər (s) Allahın bu hökmünə əsasən Fədəyi öz hökmünə alıb,gəlirini səfər əsnasında imkanları tükənən insanlar üçün sərf edilirdi.Bir çox tarixçilər təsdiq edirki Peyğəmbər hələ sağ ikən Fədək bağını qızı Fatiməyə hədiyyə etdiyini yazmışdır.Buna misal olaraq Əhli-Təsənni təfsir alimi Əllamə Cəlaləddin Siyuti "Əd-Durrul-mənsur fit-təfsir bil-mənsur" kitabında "İsra surəsini təfsir edərək yazır":Əbu Səid Xidridən nəql etdiyi hədisdir məzmunu6" İsra" surəsinin " öz yaxınlarina onların haqqını ver!"ayəsi nazil olandan sonra Rəsulallah Fatiməni çağırıb Fədəyi ona bağışladı.

Çünku bu Peyğəmbərin şəxsi malı idi.

---

1 -"Həşr" surəsi, ayə, 6-7

Eyni məzmunda İbin Abbas da belə yazmışdır: Biz Xanım Fatiməyi Zəhranın tarixə qızıl hərflərlə yazılmış fədək xütbəsindən yazılmış bir parçanı sizə təqdim edirik.
Fatimə(s)---- EY MÜSELMANLAR.HEÇ REVADIRMI,MƏNİM ÖZ İRSİMNƏLİMDƏN ALINSIN"ƏBU BƏKİR" ALLAHIN KİTABINA ƏSASƏN SƏN ÖZ ATANDAN İRS APARA BİLƏRSƏN,LAKİN MƏNİM ATAM ÖZÜNDƏN SONRA İRS QOYA BİLMƏZ?BU İŞİNLƏ ALLAH VƏ RƏSULUNA QARŞI ÇOX QƏRİBƏ VƏ PİS BİR İŞ GÖRDÜNŞQƏSDƏN ALLAHIN KİTABINİ TƏRK EDİB,ONU KƏNARA ATDINIZ?HALBUKİ ALLAH-TƏALA BUYURUR:"SÜLEYMAN DAVUDDAN" İRS APARDI.YƏHYA İBN ZƏKƏRİYYADAN XƏBƏR VERDİKDƏ ZƏKƏRİYANIN DİLİNDƏN BUYURUR:"MƏNƏ ÖZ DƏRGAHINDAN BİR CANİŞİN BƏXŞ ETKİ MƏNİM VƏ YƏQUB AİLƏSİNİN VARİSİ OLSUN.BAŞQA YERDƏ ALLAH-TƏALA BUYURU:"QOHUMLAR ALLAHIN KİTABINDA BİRBİRİNƏ DAHA YAXINDIRLAR.ALLAH-TƏALA YENƏDƏ BELƏ BUYURUR:"QOHUMLAR ALLAHIN KİTABINDA BİRBİRİNƏ DAHA YAXINDIRLAR. ALLAH -TƏALA YENƏDƏ BELƏ BUYURUR:"ALLAH ÖVLADLARINIZ HAQQINDA SİZƏ TÖVSİYYƏ EDƏRƏK BUYURUR Kİ OĞULA İKİ QIZ HİSSƏSİ QƏSƏR PAY DÜŞÜR."BAŞQA BİR AYƏDƏ BUYURUR:QOYUB GEDƏCƏYİNİZ MALDAN VALİDEYNLƏRİNİZƏ,YAXIN QOHUMLARINIZA VERİLMƏSİ ÜÇÜN ƏDALƏT ÜZRƏ VƏSİYYƏT ETMƏYİNİZ ZƏRURİDİR MÜTTƏQİLƏRƏ VACİBDİR. SİZ MƏNİM HEŞ BİR PAYIMIN OLMADIĞINI.ATAMLA MƏNİM HEÇ BİR QOHUMLUQ ƏLAQƏMİN

OLMAMASININ VƏ ATAMIN İRSİNİN MƏNƏ ÇATMADIĞINI GÜMAN EDİRSİNİZ.MƏGƏR ALLAH-TƏALA QURANDA OLAN BU AYƏLƏRİ SİZƏ MƏXSUS EDİB VƏ ATAM MUHƏMMƏDİ BU AYƏLƏRİN HÖKMÜNDƏN KƏNARDA SAXLIYIB?YOXSA DEMƏK İSTƏYİRSİNİZKİ İKİ DİNİN ƏHLİ BİR-BİRİNDƏN İRS APARMIR?MƏGƏR MƏN VƏ ATAM BİR DİNİN ƏHLİ DEYLMİYİK?YOXSA SİZ QURAN AYƏLƏRİNİN ÜMUMİ VƏ XÜSUSİ HÖKMLƏRİNİN ATAM VƏ ƏMİM OĞLUNDAN DAHA YAXŞI BİLİRSİNİZ? SONRA ƏBU-BƏKİRƏ XİTAB EDƏRƏK BUYURDU:BU GÜN İSTƏDİYİNİ ET.FƏDƏKİ MƏNDƏN BÜTÜNLÜKLƏ AL.QİYAMƏT GÜNÜ GÖRƏCƏKSƏN ALLAHIN HAKİMLİK ETMƏSİ,MUHƏMMƏDİN BİZİM RƏHBƏRİMİZ OLMASI VƏ QİYAMƏT GÜNÜNÜN GÖRÜŞƏCƏYİMİZ GÜN OLMASI NƏ QƏDƏR DƏ GÖZƏLDİR.QİYAMƏT GÜNÜ BATİL ƏHLİ XƏSARƏTƏ UĞRAYACAQDIR.PEŞMAN OLDUĞUNUZDAN DEDİKLƏRİNİZDƏN SİZƏ HEÇ BİR FAYDASI OLMAYACAQDIR.”HƏR BİR XƏBƏRİN MÜEYYEN BİR VAXTI VARDIR .”O ZAMAN RÜSVAEDİCİ ƏZABIN KİMƏ GƏLƏCƏYİNİ VƏ KİMİN ƏBƏDİ ƏZABA DÜÇAR OLACAĞINI BİLƏCƏKSİNİZ.

SONRA FATİMƏ ÜZÜNÜ ƏNSARLARA TUTUB VƏ BUYURDU:

“EY QƏHRƏMANLAR DƏSTƏSİ,DİNİN DAYAĞI VƏ İSLAMI QORUYANLAR.MƏNİM BARƏMDƏ NİYƏ BELƏ SÜSTLÜK EDİB MƏNA EDİLƏN ZÜLMLƏRİN MÜQABİLİNDƏ ÖZÜNÜZÜ YUXULUĞA VURUSUNUZ?...............................

SONDA

ƏBU BƏKİR XANIM ZƏHRA(S) BELƏ DEDİ:

“ALLAH ONUN RƏSULU VƏ ONUN QIZI OLAN SƏN DÜZ DEYİRSƏN.SƏN HİKMƏT MƏNBƏYİ,RƏHMƏT VƏ HİDAYƏT MƏSKƏNİ,DİNİN ƏSASI,HAQQ DƏLİNİN ÖZÜNSƏN.MƏN SƏNİN FİKRİNİ,SÖYLƏDİKLƏRİNİ ƏSLA RƏDD ETMİRƏM VƏ DANIŞDIQLARINI İNKAR ETMİRƏM.LAKİN SƏNİN VƏ MƏNİM QARŞIMDA OTURAN BU CAMAAT BU İŞİ MƏNİM ÖHDƏMƏ QOYUB.MƏN ONLARIN İTTİFAQI İLƏ GÖTERDEYEME GÖTÜRMÜŞƏM.MƏN TƏKƏBBÜRLÜ İSTƏDİYİNİ EDƏN VƏ ZÜLMKAR BİRİ DEYLƏM.ONLAR MƏNİM DEDİKLƏRİMƏ ŞAHİDDİRLƏR.”

XANİM FATİME(S)UZUNU İNSANLARA TUTUB BUYURDU;

EY CİRKİN EMELİN QARSİSİNDA SAKİT DURUB ONA RAZİ OLAN VE SURETLE BATİL SOZE TEREF MEYL EDİB YUYUREN MUSELMANLAR.MEGER SİZ QURANİ DUSUNMURSUNUZ,?YOXSA QELBİNİZ QİFİLLİDİR?XEYİR ETDİYİNİZ ZULUMLERİN VE PİS İSLERİN QARANLİGİ QELBLERİNİZİ BURUMUSDUR.GOZLERİNİZ VE QULAQLARİNİZ TUTULUB.NEPİS XEYALLARA DALDİNİZ.NE PİS BİR YOLUN ARXASİNCA GETDİNİZ.BUTUN BUNLARDAN ENPİSİ İSE BASQASİNİN HAQQİNİ QESB ETDİNİZ.

ALLAHA AND OLSUN Kİ BUNUN YUKU AQİR AQİBETİ COX PİS OLACAQ.

GOZUNUZUN ONUNDEN PERDELER CEKİLEN ZAMAN ONUN ARXASİNDAN DEHSETLİ EZABİ GORDUYUNUZ ZAMAN ALLAHDAN SİZE GUMAN ETMEDİYİNİZ(BİR EZABİN) GELDİYİNİ.YALAN DANİSANLAR ELE ORDACA ZİYANA UGRAYACAQ

SONRA XANİM UZUNU REY(S) QEBRİNE TEREF CEVİRDİ........

Bu ezemetli xutbenin her kelmesini altinda boyuk tefsir yatir.
Bir meqama toxunmaq isteyirem.
Xanimin dilleri, lal eden, zehni ise salan, qelbleri titreden, bel bukduren ,haqq olub batili aradan aparan benzersiz xatixi xutbesi meni qocaldi......
Dusunurem men ne qeder xeta etdim.?
Cunki Xanimin belagetli ve fesaetli xutbesi dovre gore. insanlara gore yox.
Butun beser alemine ve qiyamete qeder quvvede qalan testiqlenmis xezinedir.
Ebu Bekrin verdiyi cavaba baxaq.
ALLAH VE ONUN RESULU VE ONUN QİZİ OLAN SEN DUZ DEYİRSEN............
SOYLEDİKLERİNİ RED VE İNKAR ETMİREM.LAKİN SENİN VE MENİM QARSİMDA OTURA BU CAMAAT BU İSİ MENİM OHTEME QOYDU.
MEN ONLARİN İTTİFAQİ İLE GOTURDUYUMU GOTURMUSEM.
MEN TEKEBBURLU İSTEDİYİNİ EDEN VE ZULUMKAR BİRİ DEYİLEM.ONLAR( YENİ BUNLAR) MENİM DEDİKLERİME SAHİDDİRLER...
Cox tesir qoydu mende bu veziyyetden cixis cumleleri.
Dusunurem biz heyatimizda zalimlainin fitlelerinin heyata cecirmelerine ne qeder zemin yaradiriq?
Eslinde zalimlar munafiqler musrikler ve kafirler cox olmur.onlarin havadarlari.onlara ses verenler sozde emelde testiq edenler cox olur.biz cemiyyet olaraq ne qeder batillerin bunovresinde muhendislik etmisik?
Yasamaq bize hec de asand gelmemelidir. Xirda bilmeyereklerimiz gelegeyin boyuk faciyyesine cevrile biler...Aile meselerinden ta cemiyyetimizin inkisaf ve muhum meselelerinde testiqde ve inkarda cox ehtiyatli olmaliyiq.

Aladim ki qiyametdede bele olacaq.EBU BEKR kimiler veziyyetden cixis yolunu cahil cemiyyetin anlamadan orada hec bir xeyri olmadan ozlerine bilmeyerekden vurduqlari ziyyanda basqa verdikleri oylari olacaq.
XANİMİN UZUNU CAMAATA TUTUB SOYLEDİKLERİ BİR DE BAXAQ.
EY CİRKİN EMELİN QARSİSİNDA SUSUB OTURAN VE RAZİ OLAN VE SURETLE BATİL SOZE TEREF MEYL EDEN VE YUYUREN MUSELMANLAR...
Allahne qeder dehsetli cumledir...demeli batilin qarsisinda susub baxmaq bele dehsetdir.susmaqimizla ne qeder batili testiq edirik...
Burda SEDİ SİRAZİ  YAXSİ DEYİR.
EDEB SAYİLSADA MECLİSDE SUSMAQ
LAZİM OLAN ZAMAN SOZ DEYE GEREK.
FATİME(S)İN GELECEYİ HAQQİNDA  PEYGENBER(S) SOYLEDİKLERİ.
Seyx Seduq İbn Abbasdan esitdiyi revayete esasen yazir.
PEYGENBER (S)  “Qizim FATIME (s) Ezeli ve ebedi olaraq iki dunya qadinlarin xanimidir.O menim cismimim bir paresi.gozumun nuru. Qelbimin paresidir ve vucudumda olan ruhumdur .O “HOVRAY YNSIYYE’’DIR
Mehriban Allah qarsisinda ibadet etmeye basladiqi vaxt nuru sema melekleri ucun parlayir;Bu zaman Allah sema meleklerine buyurar;
“EY MELEKLER menim qarsimda ibadet etmek dayanan kenizlerimin serveri olan kenizime baxin. Menim qarsimda nece bedeni esir.O butun varligi ile menim qarsimda ibadet edir.Sizi şahid tuturamki ,onun işlərini cəhənnəm atəşindən alandan,saxlayacam”
Şeyx Sədu yazır:Həzrəti Muhəmməd bu sözdən sonra buyurmuşdur:”Mən Fatimə(s)baxanda yadıma məndən sonra

üz verə biləcək müsibətlər düşür.Sanki qəm və kədərin onun evinə necə varid olmasını,ona edilən hörmətsizliyi,haqqının əlindən alınmasını,öz irsinə yetişə bilməməsini,qabırğasının sındırılmasını,boynunda olan və hələ dünyaya gəlməmiş uşağın siqt olmasını,onun “Yə-Muhəmmədahu” çağırmağını elə indidən görürəm.O bir cavab eşitmir lakin kömək istəyir.Heç kim ona kömək etmir.Həmişə məndən sonra hüzünlü,qəmli,gözü yaşlıdır.Hərdən elə fikirləşirki vəhy evindən kəsilib,mənim ayrılığıma mübtəla olubdu.Gecələr hövlank durur,ona görə ki,gecə namazı vaxtı mənim quran oxumağımı eşidən indi isə eşitmir.Sonra atasının sağlığında necə əzizlənib,nəvaziş edildiyini xatırlayb,qəmli-qəmli için ağlayırdı.Bu zaman Allah-təala mələkləri ona munis edər.Mələklər Həzrəti Məryamlə həm söhbət olduqları kimi, onunla da həm söhbət olarlar.buyurarlar:”Ey Fatimə Allah-Təala səni seçdi və pak etdi.Səni bütöv xanımların xanımı etdi.Ey Fatimə Allaha imadət və səcdə et!Allah dərgahında rukuda olanlarla ruku et.

Sonra elə bil görürəmki o dərddən qəmdən xəstələnin,qulluğa ehtiyacı var.Allah İmran qızı Məryəmi ona baxmağa göndərər. Bu vaxt Allah-təala ilə dərdləşər:

“İlahi ,həyatdan doyub yorulmuşam.Dünya pərəst insanların əlindən artıq canə gəlmişəm.Məni atama qovuşdur.

İlahi day yorulmuşam,
Dünyəvilərdən doymuşam
Tənədən canə gəlmişəm
Qovuşdur məni atama
Teşnə oldum mən babama

Allah-Təala da onu mənə yetirər.O,əhlibeytimdən qəmli,kədərli,haqqı qəsb olunmuş və öldürülmüş halda mənə yetişəcək ilk kəsdir.Bu vaxt Allaha yalvarn deyərəm”İlahi ona zülm edən şəxsləri öz rəhmətindən uzaq et.Onun haqqını qəsb

edənləri cəzalandır.Onu kədərləndirənləri xar elə.Qızıma hələ hamilə ikən zərbə vurub,uşağını hələ dünyaya gəlməmiş məhv edənləri isə əbədi olaraq cəhənnəm atəşinin sakini et”

Bu zaman mələklər deyərlər:”Amin,İlahi bu duanı müstəca elə”

Xanım Fatiməyə edilən zülmlər barəsində verilən xəbər Rəsuli Əkrəm mehrac gecələrin birində çatdırılmışdır.Rəsuli Əkrəmin o zaman buyurduğu kəlam bu olmuşdur:”Biz Allah tərəfindən gəlmişik,və Allaha tərəf qayıdacayıq.İlahi mən bunu qəbul edərək,sənin fərmanına təslim oluram,və sənin dərgahından səbr və dözm istəyirəm.

Bütün qəmli hadisələr  Rəsuli-Əkrəmin vəfatından sonra başlandı.Rəsuli-Əkrəmin cənazəsində iştirak etməyən ənsarlar ,Bəni-Saidə səqifəsində toplandılar.Allahın”Qədur-xum “da seçdiyinə qarşı gəlib özləri ozlərinə ,başçı seçmək qərarına gəldilər.(Halbuki onlara cənazə törənində iştirak etmək vacib idi)Bütün bu faciələrin toxumları cücərməyə başladı.Peyğəmbər(s) sonra vəhy evinə hücumlar başlandı.

Əli (s) Peyğəmbər (s) vəsiyyətinə əsasən ölümündən sonra ilk işi Qurani-kərimi cəmləmək idi.Əli(s) bu işi görmək üçün evinə çəkildi.Dəfələrlə vəhy evinə hücumlar olundu.

Eyyaninin yazdıqlarından :

“Əli (s) evindən aparandan sonra Fatimə (s) çölə çıxıb Əbu-Bəkr ə üzünü tutub dedi:

İstəyirsiz ki,həyat yoldaşımı əlimdən alıb məni tək qoyasınız?

Allaha and olsun ki əgər ondan əl çəkməsəniz başımı açıb atamın qəbrinin üstündə Allah dərgahına nalə çəkərəm”

Sonra Fatimə(s) Həsən(s) və Hüseyn (s) əllərindən tutub, Peğəmbər(s) qəbrinin üstünə gəldi.

Həzrəti-Əli(s) məsələdən agah oldukda salmana belə tapşırdı:

“ Get Muhəmmədin(s) qızı Fatimə(s) tap və geri qaytar.Sanki Mədinənin Lərzəyə gəlib batdığını hiss edrəm.Allaha and

olsun ki,əgər Fatimə(s)saçını dağıdıb Peyğəmbər(s) qəbrinin üstündə Allah dərgahında nalə çəksə,daha Mədinə əhlinə bir an belə möhlət verilməyəcək.Yer onların hamısını öz kamına çəkəcəkdir.Salman Əli(s) dediklərini xanıma çatdırdı və buyurdu:
"mən qorxuramki,bu zaman yer lərzəyə gəlib Mədinə Əhlini udar.Əli(s) məni sizin yanınıza göndərdiki nifrin etməkdən əl şəkib evə qayıdasınız.
Həzrəti Zəhra(s) buyurdu:
"O zaman mən o Cənaba itaət edib evə qayıdaram və səbr edərəm"
Əllamə Təbərsi "Ehtiyac" adlı kitabında İmam Sadiq (s) dan belə nəql edir:
"Əli(s) nl evdən aparanda bütün Bəni-haşim xanımları evdən çıxıb Həzrəti Muhəmməd(s) in qəbri üstünə gəldilər.Həzrəti Zəhra(s) ucadan səsləndi:
"Əmim oğlunu buraxın!And olsun Muhəmmədin(s) haqq göndərən Allaha!Əgər onu buraxmasanız,saçımı qaldırıb Peyğəmbərin köynəyini başıma tutaram və Allah dərgahına nalə çəkərəm.Saleh peyğəmbərib dəvəsi Allah dərgahında mənim övladlarınmdan əziz deyldir
Salman deyirki,Fatimə(s) nin yaxınlığında dayanmışdım.Allaha and olsun,Peyğəmbər(s)məcidinin divarlarının yerdən necə aralandığını gördüm,beləki o aralıqdan bir şəxs asanlıqla siyrilib keçə bilər.
Böyük ravi və alim Şeyx Kuleyni İmam Baqir(s)və İmam Sadiq(s) dən nəql edir.
Bu işin bu dərəcəyə yetişdiyini görən Həzrəti Fatimə (s) Omerin libasından tutub çəkib buyurdu:
Allaha and olsun,ey Xəttabın oğlu,eger arada günahsız bəndələrdə bəlaya düçar olmasaydı,yaxşı bilirsən ki, and içib Allaha pənah aparardım və tezliklə Allah istədiyimi müstəcəb

edərdi.Əbu Bəkr tərəfdarları olan hadisələrdən qorxub Əli(s) buraxdılar.Əli (s) Həzrəti Zəhranın(s) əlindən tutub evə apardı.
Bir çox şiə məktəbinin düşmənləri bu rəvayət və dənizlərin zahirinə müraciət edərək,buyururlarki necə ola bilərd ki, Xanım Fatimə(s) naməhrəmlər qarşısında başını açıb yolardı.Bu onun əxlaqına tərsdir.
Şiə alimləri bu məsələnin batininə varıb buyururlar:
Xanım ftiməyi Zəhra(s) başımı acacam dedik də üzünü Allah dərgahına tutmağı
Saçının yolunması dedikdə isə nifrin etməsində söhbət gedir.Həqiqətən Xanımın bir nifrini kifayət edərdi ki yerlə göy lərzəyə gəlsin.
Ravi yazır:
Peyğəmbər(s) ölümündən 7 gün keçəndən sonra Fatimə (s) atasının qəbrini ziyarət etmək məqsədilə evdən ağlıya-ağlıya qəbrin üstünə yollandı.Xanımın ağlamaqdan gözləri qaralmışdı.Narahatlığın təsirindən çadrası yerlə sürünürdü.Atasının qəbrinə gözü sataşan kimi özündən gedib məzarın üstünə yıxıldı.Atasının qəbrinə gözü sataşan kimi özündən gedib məzarın üstünə yıxıldı.Bunu görən Mədinə Qadınları onun üzünə susub səpib,onu huşa getirdilər.Fatimə(s) ağlaya-ağlaya atasına buyurdu:
Atacan qüvvətim tükənib səbrim qutarıb,düşmənim sevinir,qəm-qüssə isə məni öldürür.Ey əziz atam daha tənha qalmışam,səndəm sonra səsim kəsilib,belim bükülüb,Həyatım bir birnə deyib.Səndəm sonra dəhşətli günlərimi keçirirəm.Sakitləşdirənim yox,qəm-qüssəm günü-gündən artır,Ey ata səndən sonra kim bu ümmətin fəryadına yetişəcək?Ata səndən sonra camaat bizdən üz döndərdi.Görəsən nə vaxt yanına gələcəm?İlahi mənim ölümümü tezləşdir.Həyat mənim üçün daralıb.Atasından sonra

xanım gecə gündüz ağlıyıb göz yaşı tökürdü. Mədinə böyüklərindən bir dəstə Əli(s) yanına gəlib buyurdular:
Ya Əli(s) Fatiməyə(s) denənki ya gecə ağlasın yada gündüz,səsindən gecələr yata bilmirik,gündüzlər dincələ bilmirik.Əli(s)başını aşağı salıb Xanımın yanına getdi.Onu ağlar görüb buyurdu:
Mədinə böyükləri xaiş edirki ya gecə ağlıyasan,ya da gündüz.
Fatimə(s):
Ey Əbul-Həsən!Mən bu camaatın arasında çox yaşayacam və tezliklə onlardan ayrılacam.
Əli(s) buyurdu:
-İxtişar sahibisən.
Sonra Əli(s) Mədinə evlərindən uzaqda ,Bəqi qəbirstanlığında Fatimə(s) üçün kiçik bir ev düzəltdi.bu evi "Beytul-əhzan" yəni " Qəm- evi" adlandırdı.
Fatimə hər gün sübh vaxtı Həsən(s) və Hüseynlə(s) bu evə gəlib ağlayardı.Əli(s) axşam gəlib Xanim Zəhranı(s) evə apardı.İslam düşmənləri bu evidə dağıtdılar.Yenə İslam düşmənləri bu hadisə ilə kifayətlənməyib Xanımın əxlaqına dil uzatmaq istədilər.Onlar buyurudularki,Xanımın gecə gündüz ağlaması onun səsinin naməhrəmlərin eşitməsi onun əxlağına tərsdir.Şiə alimləri isə bu məsələyə batini tərəfdən yanaşır və yazırlar:
Peyğəmbər(s) hədisdir ki,Fatiməni incitməyin!Əgər Fatimə ağlasa körpələr süddən kəsilər.Mədinə əhli nə gecə nə gündüz körpələrin süd əmmədiklərini və süddən kəsildiklərini görüb,anladılar ki, Fatimə(s) ağlayırşona görə buyurdular ki,Fatimə(s) ya gecə ağlasın, ya da gündüz.Əks təqdirdə məntiqə sığmır ki, evin için də necə ağlayar ki bütün şəhər nə gecə yatar, nə də gündüz.Atasından sonra Fatimə Bilala xəbər göndərdiki Əzan versin.Bilal iki dəfə " Allahu Əkbər!Allahu Əkbər!"demişdiki,Fatimə(s) özünü saxlaya bilməyib

ağladı.”Əşhədu-ənnə-Muhəmmədən Rəsulallah”səsini eşidən kimi bihuş oldu.
Mədinə camaatı elə başa düşdü ki Xanım(s) həyatını dəyişdi. Bilal Azanı saxladı.Fatimə(s) özünə gələndən sonra buyurdu ki, Azanı axıra kimi oxusun.
Bilal Azanı davam etməyib dedi:
“Ey xanımlar xanımı qorxuram azanı axıra çıxarmaqla sizin səhətinizə xətar toxunar.”

**Vəfatı:**
İmam Sadiq (s) buyuruki:Xanım atasının vəfatından sonra 75 gün yaşadı.Başqa bu kimi möhtəbər mənbələrimiz çoxduş Başqa möhtəbər mənbələr isə 95 gün yazır.Xanımın ölüm günü pünhandır.Onun qəbridə pünhandır.Xanımın vəsiyyətinə görə Xanıma gecə qusul verilib və gecə dəfn olunub. Qəbrin gizli qalması onun vəsiyyətinə bağlı olmuşdur.İslamda ilk tabut onun vəsiyyətinə əsasən düzəldilmişdir ki, naməhrəmlər onun əzasını ölçülərini təxmin etməsinlər.Bu tabutu düzəltmə metodunu islamda boyuk xidmetleri olan,””Ezhab” suresnin 35 ayesi senine nazil olan,hebesstana ilk hicret eden qadın-ESMA binti Umeyz olmuşdur.
İmam Sadiq(s) buyurur:
Nənəm Fatimənin təsbihatını tərk etməyin!Nənəmin təsbihi mənim üçün min rükət namazdan üstündür.Bunu ona Allahın Rəsulu öyrətmişdir.
“Vəsailuş-şiə 4 cü cild 9 cu bab 1024 cu səhifə”
Mənim rəylərim:
Xanımın qəbrinin gizli qalması haqqında yanaşmam:
Sünni-Şiə mənsəbləri arasında ayrı şeckilik edirsiniz deyənlərə sualım”bugün ki gündə nənəmizin qəbri gizli olmasının səbəbkarı şiəmi? Gizli qüsul edib gecə dəfn olunmasına səbəb şiəmi?

14 əsr yarımdır ki,nənəmizin qəbrinin ziyarətini bizlərə,biz şiələrr haram olmasının səbəbi şiəmi?Tarixi mənbələri Quran və əhlibeytə söykənən sonda yenə yalançı olan şiəmi?kimdir günahkar? Kimdir səbəbkar? Bu sualların cavabını Xanım Fatimənin (s) dili ilə çatdırırıq

Yanına barışıq üçün gələn Əbu-Bəkrə və Omərə verdiyi cavabla bağlayırıq

İlahi bu iki nefer mənə əziyyət etdi.Onlardan şikayətimi "Sənin və Peyğənərimin huzurunda deyəcəyəm.Atam RəsulAllah la görüşüb sizin mənə etdiyiniz zülm və haqsızlıqları ona çatdərmayınca sizə halal etmiyəcəm.Qoy o özü mənimlə sizin aranızda olanları mühakimə etsin.Əbu-Bəkr bu məsəslədən çox narahat oldu.Omer isə oz halənəda bozmadı.Xanımın faciəli şəhadəti və sirli qalan tarixçəsi sünni və çiə arasında yaranan bütün ixtilafları cavablayır.Xanım dövrünün İmamının müdafiəsinə qalxan və o müdafədə faciəli şəkildə şəhid olan ilk qadındır.Xanım dünyəvi cazibədən üz döndərib əbədi cazibəyə üz tutan çətinliklər qarşısında səbr edən marağı axirət istiqaməti olan şəxs idi.Mən xanimin batini fəzilətlərini dərk edə bilmədim.Yazdıqlarım tarixi mənbələrə söykənərək əldə etdiklərimin cüzi hissəsidir.Bu məsələdə tarixi mənbələrə müraciət elədim və öz tutumumun qədərində yazmağa çalışdım.Vəziləti,izzəti,kəramati,əxlağı,həyası,bəşər sözüylə ölçülə bilməyən dünya və axirətin reyhanəsinin söz qəlibinə getirmək çox çətindir.Rəbbimiz dünyada Xanımın ardıcıllarından biz bi nəsib etməsin

Müqəddəs salavat hədiyə olsun

Şənimə yazmağa söz tapmıram mən
Hüsnünə yarşan tay tapmıram mən
Bu paslı qələmlə tutaşıram mən
Məqamın önündə bükülür belim
Söz tapmır,lal olur,bu copur dilim

.......................................................
Sən bizə örnəksən,pak-pakizəsən
Bəşər üçün sönmyən tək bir günəşsən
İbadıtinlə tək bizə örnəksən
Mehracamı yüksəldi sənin cəsədin
Hər yeri azadlıq,yox bir əsərin
........................................................
Analar anası "Əşrəfün-nisa"
Səni bəyan bilib "Ümmü həbiha"
Səndən ilham alır "məryəmul kubra"
Sənki nitqin də "həqqi mühəndisə"
Allahın elminə bağlı Zəkiyyə
.............................................
Salam!Zəhərlənmiş Həsən anası
Kərbala şəhidi:Hüseyn anası
Cihada sarılmış Zeynəb anası
Mübarək günündür eller anası
Allahın salamı sizlərə olsun:

**Nəticə**

Bizlər həqiqi Muhəmmədi İslamın ardıcıllarıyıq. Bizim həyatverici, ümidverici, dirildici bir mədəniyyətimiz vardır – iffət mədəniyyəti. Bu kişə də aiddir, qadına da. İffət mədəniyyəti təkcə biz Müsəlmanlarda deyil, digər ilahi dinlərdə də vardır. Hətta qeyri-ilahi dinlərin ardıcıllarından da çoxu qadın iffətinə və hicabına toxunublar. Müqəddəs kitabımız qadının yaradılışını, eyni zamanda onun məhəbbət və sevgi solu bir varlıq olmasını, həmçinin cütlüklər arasındakı eşq bağlılığının öz qüdrətinin

simvolu və nümunəsi kimi vurğulayır. Necə ki Rum surəsində belə oxuyuruq: Sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun qüdrət əlamətlərindəndir.

## Ədəbiyyat

1)Şeyx Abbas Qumi “beytul-əhzan”, çap 1351 h.q.
2)Məhəmməd Həsəm Muini “14 Məsum haqqında sorğu sual”, birinci çap
3)İmam Xumenin təfəkküründə qadının mövqeyi
4)Ali Məhəmmədin sirleri, çap 1994
5)Şeyx Məkari Şiyazi” Fatimə dünyanın ən üstün qadını”, çap 1389
6)Əllamə Məhəmməd Hüseyn Təbatəbai”Qadın” çap. 1380
7)Cavadi Amuli”Qadın əzəmət və gözəllik güzgüsündə” çap, 1398

# Dində ixlas

Meysam Javadnia[1]

## Abstrakt

İxlas, ibadət olmayan hər hansı bir mübah əmələ belə ilahi rəng vurub, Allaha yaxınlıq niyyətilə yerinə yetirərək, onu ibadət dərəcəsinə qaldırıb, əcr və savaba yetişdirə bilir. Əgər yemək və ya istirahət etmək yenidən qüvvə toplayıb, yaxşı ibadət etmək və ya xalqa xidmət göstərmək üçün olarsa, ibadət sayılar. Halbuki belə əməllər əslində ibadət deyildir. Deməli, bu keyfiyyətə görə niyyətə əməlin ruhu və özülü demək olar. Başqa sözlə desək, islamda ən mühüm məsələ hər bir şeyin batini və həqiqi cəhətidir, çünki əməllərin dəyəri və qəbulolma dərəcəsi ona bağlıdır. Əməlin keyfiyyət və dəyərinə niyyət güclü təsir bağışladığı kimi, insan şəxsiyyətinin formalaşmasına da böyük əhəmiyyətə malikdir. Əgər bizi əhatə edən adamların şəxsiyyətini öyrənmək istəsək, bunu onun düşüncə və məqsədlərində axtarmaq lazımdır.

**Açar kəlmələr**: Din, ixlas, niyyət, ibadət

## Giriş

Ayə və rəvayətlərdən anlaşılır ki, sədaqət ibadətin bünövrəsi və mayasıdır. Həqiqətən, sədaqət əsl bəndəyə xas sifətdir. Təmiz məhəbbət olmadan ibadətin heç bir mənası yoxdur. Buna görə də İmam Sadiq(ə) buyurur:

---

1 Hikmət və dinlərarası institunun müəllimi, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

“....... Niyyət əməldən üstündür. Bilin və agah olun ki, niyyət əməlin əsasıdır.”1

Buna görə ən yaxşı əməl saf niyyətlə yerinə yetirilən əməldir.

İxlas nədir?

Niyyəti şirk və riyadan paklaşdırmağa ixlas deyilir. (Nəfsi paklaşdırmada ruhu rəzil sifət və mənəvi aşınmadan təmizləmək. İxlas mənəviyyatla bağlı olduğundan onu zahiri gözəllik və işin həcmi ilə ölçmək olmaz. İmam Sadiq(ə) buyurur:

“Namaz qiyam, rüku, səcdə, oturub-durmaq deyildir. Namaz sənin saf niyyətin və Allahı sevməyindir.”2

Yəni namazın mahiyyəti namaz qılanın saf niyyətidir. Namazı yalnız Allahın razılığı üçün qılmaq ixlas, saf niyyətdir. Başqa bir hədisdə İmam Sadiq(ə) buyurur:

“Xalis əməl odur ki, Allahdan başqası üçün yerinə yetirilməsin”3.

İxlas bir neçə mərhələyə bölünür. İlk növbədə ibadət riya və özünü nümayiş etdirmədən pak olmalıdır. Hər kim savab, yaxud diləyinin yerinə yetirilməsi üçün ibadət edərsə, əməli düzdür. Bu cür niyyətlərin ixlasla qarışdırılmasının heç bir eybi yoxdur. Qeyd etdik ki, sədaqətin bünövrəsi riya və özünügöstərməni tərk etməklə möhkəmlənir. Namaz qılarkən Allahdan nə isə diləyən, ondan mükafat (əcr) və savab gözləyən şəxs riyakar sayılmır. Əlbəttə, belə bir şəxsin ixlası kamil deyildir. Kamil ixlaslı bəndənin qəlbində Allahdan başqa bir şey olmamalıdır. İmam Sadiq(ə) buyurmuşdur:

“Bəndə üçün ən üstün nemət odur ki, qəlbində Allahdan başqa bir şey olmasın.”1

---

“Üsuli-kafi” II c /səh-16 /hədis №4.[1]

«Şərhi-nəhcül-bəlağə» İbn Əbil-Hədid: I c /səh-325.[2]

“Üsuli-kafi” II c /səh-16 /hədis №4.[3]

“Allahdan başqa bir şeyi özündə saxlamayan qəlb sağlam qəlbdir. Şirk və ya şəkk-şübhə içində olan qəlb isə xəstədir....”2

Müxləslər cərgəsində yalnız bütün əməlləri Allah üçün olan şəxs addımlaya bilər, belə ki bununla bağlı sevimli Peyğəmbərimiz(s) buyurur:

***“De: “Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!” («Ənam» - 162,163).***

## • İxlasın mənəvi gücü

İxlasın təsiri o qədər güclüdür ki, sadə əməlli savaba çevirir və hər hansı bir cəbhəni müdafiə, havadarlıq etməklə əzab və savabda o cəbhə ilə şərik olur.

İmam Sadiq(ə)-dən «cəhənnəm əhli cəhənnəmdə, cənnət əhli isə cənnətdə niyə görə əbədi qalır?»- deyə soruşduqda o Həzrət belə buyrurur:

“Cəhənnəm əhli dünyada əbədi olaraq qalsaydı, həmişə Allaha asi olacaqlarını niyyət etdiklərindən cəhənnəmdə, behişt əhli isə əgər dünyada həmişəlik qalarlarsa, daim Allaha ibadət edəcəklərini düşündüklərindən cənnətdə əbədi olaraq qalacaqlar.Onların hər ikisi niyyətinə görə cənnət və cəhənnəmdə əbədidir. Sonra isə bu ayəni tilavət etdi:

***“De, hər kəs öz əxlaqına uyğun əməl edər.”3***

---

«Müstədrəkül-vəsail» I c /səh-10.[1]

«Müstədrəkül-vəsail» I c / s.10.[2]

“Biharül-ənvar” Beyrut çapı: LXVII/s-209; [3]

«Vəsailüş-şiə» I c/s-36;

“Üsuli-kafi” İslamiyyə çapı: II c/s-85;

Peyğəmbər(s) buyurmuşdur:

"Həqiqətən, əməllər niyyətə bağlıdır. Hər bir şəxs nəyi niyyət edibsə, elə ona da yetişər. Kim Allaha və Rəsuluna görə hicrət edərsə, Allah və peyğəmbərlərinə tərəf də gedər. Kim qadına görə evlənərsə və ya sərvət, var-dövlət ələ keçirmək xatirinə hicrət edərsə, hicrəti niyyətində tutduğu şey tərəfə də yönələr."1

"Möminin niyyəti əməlindən yaxşı, kafirin niyyəti isə əməlindən daha pisdir. Hər kəs niyyətinə görə iş görər."2

Dördüncü imam həzrəti Əli ibn Hüseyn(ə) buyurur: "Heç bir əməl niyyətsiz qəbul olunmur."3

Peyğəmbər(s) bir hədisdə buyurur:

"Qiyamət günü insanlar niyyətinə görə təhrik olunarlar."4

"Qiyamət günü adamlar niyyətinə görə sorğu-sual olunar."5

---

«İləlüş-şəraye» Nəcəf çapı: II c/s-523/fəsl-299;
«Məalümüzzafi» daş çapı: səh.36.
«Sünəni-Termezi»Beyrut çapı: IV c/s-179/16-cı fəsil/hədis № 1647;1
«Sünəni-ibn Macə» II c/s-1413/Niyyət fəsli/hədis № 4227;
«Müsnədi-Əhməd Hənbəl» I c/s25,43;
«Səhih Buxari» I c/s-1;
«Munyətil-murid» səh.42;
«Səhih Müslim» II c/s-103;
«Əttərğib və əttərhib»Beyrut çapı: I c/s-56.
«Vəsailüş-şiə» İslamiyyə çapı: I c/s-35; 2
"Biharül-ənvar":Beyrut çapı: LXVII/s-189;
"Üsuli-kafi" İslamiyyə çapı: II c/s-84/hədis №2;
«Münyətil-mürid» səh.43.
"Biharül-ənvar" Beyrut çapı: LXVII/s-185,204,207; 3
«Vəsailüş-şiə» İslamiyyə çapı: I c/s-33/hədis 1,3;
"Üsuli-kafi" İslamiyyə çapı: II c/s-84.
«Sünəni-ibn Macə» II c/s-1414/zöhd fəsli/hədis №4229; 4
"Biharül-ənvar" Beyrut çapı: LXVII/s-249;
«Munyətil-murid» səh.43; «Əttərğib və əttərhib» I c/s-57.
«Sünəni-ibn Macə» II c/s-1414.5

İmam Sadiq(ə) də bu barədə bir hədisdə buyurur: "Qiyamət günü Allah-təala insanları düşüncə və niyyətinə görə sorğu-suala çəkər."1

Əmirəlmöminin(ə) Cəməl döyüşündə qalib gələndən sonra səhabələrindən biri o Cənaba dedi:

-Kaş qardaşım da bizimlə birgə olaydı, sizin düşmən üzərində qələbənizi görəydi. Bu cihadın fəzilətində o da bizimlə şərik olaydı.

Həzrəti Əli(ə) buyurdu:

-Qardaşın biz tərəfdəndirmi? Ürəyi bizimlədirmi?

O ərz etdi:

-Bəli.

Əmirəlmöminin (ə) buyurdu:

-Deməк, o da bizimlə birgə bu döyüşdə vuruşubdur. (Təkcə o yox, əksinə) ataların belində, anaların bətnində olan bizimlə bir əqidədə olanlar da bu döyüşdə bizimlə birgə vuruşublar. Tezliklə zaman onları dünyaya gətirəcək, din və iman onların vasitəsilə qüdrətli olacaqdır."2

İbn Əbil Hədid bu xütbəni bəyan edəndən sonra yazır: "Əbul Əsvəd Duəli belə nəql edir: Əmirəl-möminin(ə) Cəməl döyüşündə qalib gələndən sonra bir dəstə mühacir və ənsarla (mən də onların arasında idim) Bəsrə şəhərindəki beytül-mal saxlanılan binaya daxil oldu. O Həzrətin gözü orada olan var-dövlətə sataşanda onlara xitab olaraq dedi: «Ey dirhəm və dinarlar! Məndən başqasını aldadın». Sonra Həzrəti Əli (ə) fərman verdi ki, səhabələrdən hər birinə beş yüz dirhəm verilsin. Dirhəmlərin hamısı səhabələr arasında bölüşdürülüb qurtarandan sonra Əbul Əsvəd dedi: «And olsun Məhəmməd(s)-i peyğəmbərliyə seçən Allaha, adamların sayı

---

[1] «Vəsailüş-şiə» İslamiyyə çapı: I c/s-34/hədis №5; "Biharül-ənvar" Beyrut çapı: LXVII/s-209.

[2] «Nəhcül-Bəlağə» Feyzül-İslam: Xütbə №12.

on iki min nəfər olmasına baxmayaraq, bir dirhəm belə artıq-əskik olmadı. Elə bil Əmirəl-möminin(ə) pulların məbləğindən xəbərdar idi.”

Sonra ibn Əbil Hədid yazır:

“Həbbeyi Ərəni adlı bir nəfər deyir: «İmam(ə) beytül-malı səhabələr arasında bölüşdürdükdən sonra başqaları kimi özünə də beş yüz dinar pul ayırdı. Döyüşdə iştirak etməmiş bir şəxs o ali Cənaba yaxınlaşıb dedi: “Ey Əmirəl-möminin! Bu vuruşda cismim sizinlə birgə olmasa da, qəlbim sizinlə idi. İstəyirdim, bu döyüşdə sizinlə bir yerdə vuruşum. Mənə də puldan əta et. İmam(ə) öz payını ona verib özü üçün heç bir şey saxlamadı.”1

Bu məsələdən belə başa düşürük ki, əgər biri başqalarının işindən razı olarsa, deməк, əzab və savabında da onlarla şərikdir.

## • İxlasın psixoloji və mədəni gücü

Təkcə özünü düşünən adamla xalqın nicatı üçün çalışan şəxs eynidirmi? Özünə qənimət ələ keçirmək üçün döyüşə gedən adamla Allah rizasına görə vuruşan adama bir cərgədə baxmaq olarmı? Bu bərabərlik və bərabərsizlik insanların əməlləri ilə yox, onların şəxsiyyəti və məqsədləri ilə əlaqədardır, çünki zahirdə əməl birdir, onun heç bir fərqi yoxdur. Şücaət göstərib rəşadətlə vuruşan iki dəstə arasındakı fərq düşüncə və niyyətdədir. İmam Sadiq(ə) bu ölçü ilə bəndələri üç qismə bölərək hər birini ibadətdə olan niyyətlərinə uyğun bir xüsusiyyətlə vəsf edir:

“Həqiqətən, Allah bəndələri üç dəstədirlər. Birinci dəstə Allaha cəhənnəm əzabının qorxusundan ibadət edir. Bu, qulların ibadətidir. İkinci qrup cənnətə və mükafata görə

---

«Şərhi-Nəchül-Bəlağə» ibn Əbil-Hədid: I c/s-249,250.[1]

Allaha ibadət edirlər. Bu da nökər və muzdur ibadətidir. Üçüncü dəstə isə Allahı sevdiklərindən ona ibadət edirlər. Bu isə azadələrin ibadətidir, yəni onlar Allaha cəhənnəm əzabından qorxduqlarına və cənnət nemətlərinə görə yox, Allaha bəslədikləri məhəbbət və pak niyyət üzündən ibadət edirlər. Bu, ibadətin ən uca zirvəsidir."1

Mülahizə edirsizmi, imam Sadiq(ə) Allah bəndələrini öz məqsəd və niyyətlərinə görə necə də dəqiq bölmüş və hər bir dəstəni Allah-təalaya hansı niyyətlə ibadət etməsinə görə o biri dəstədən fərqləndirmişdir.

Niyyət insanın şəxsiyyətini nümayiş etdirməkdən əlavə əqidəvi, ictimai və milli bağlılıqlardan da bizə xəbər verir. İslam mənbələrində bu barədə elə ifadələr vardır ki, onların hamısını üç cümlədə ümumiləşdirmək olar:

1) Kim hər hansı bir işdən razı qalarsa, onu yerinə yetirmiş kimidir.

2) Hər hansı bir dəstənin əməli ilə razılaşan, onlardan hesab olunur.

3) Kim hər hansı bir dəstəni müdafiə edərsə, savab və əzabda onlarla şərikdir.

Həzrəti Əli(ə) bu üç fikiri bir cümlədə çox böyük məharətlə ifadə etmişdir: "....Məhəbbət və nifrət birlik rəmzidir..."2

Yəni cəmiyyətdə hərənin bir işlə məşğul olmasına, yaşayış, adət-ənənə və rəng cəhətdən bir-birindən fərqlənməsinə baxmayaraq, onları yalnız bir şey birləşdirərək

---

"Biharül-ənvar" Beyrut çapı: LXVII c/s-255; [1]
"Üsuli-kafi" II c/s-84/İbadət fəsli / hədis №5.
«Nəhcül-Bəlağə» Feyzül İslam: Xütbə №192.[2]
"...Camaat, məhəbbət və nifrət birlik əlamətidir. Salehin dəvəsini bir nəfər öldürmüşdü. Amma əzab dəvənin öldürülməsində razı olmalarına görə hamıya nazil oldu. Buna görə də Allah-təala buyurur: "Dəvəni öldürəndən sonra peşman oldular."..."

cəmiyyət, millət və dəstə halına salır: maraqlar. Birlik əqidə və məqsəddir.

Bu qanun əqidə, əməl, ictimai, mədəni və milli baxımdan insanları birləşdirib cəmiyyət halına salan amildir. Həzrəti Əli(ə)-nin fikrincə, bir millətin vəhdətinin meyarı yalnız razılıq və narazılıqlardır. Nəsil, dil, irq və coğrafi mühitlər kimi meyarlar ikinci dərəcəli amil qəbul olunmalıdır. Başqa sözlə desək, etiqad, mədəniyyət və məqsəddə yekdil olmaqdan xəbər verən məhəbbət və nifrət ayrı-ayrı adamları vahid bir millət kimi birləşdirib onların taleyini bir-birinə bağlayan yeganə meyardır. Yerdə qalanlar isə ikinci dərəcəlidir.

Burada bir neçə nüansa toxunmağı özümüzə lazım bilirik:

1) Bu bəhsdə «maraq» sözünün işlədilməsində məqsəd insanda ötəri emosiyaların təsirindən əmələ gəlib tez də yox olan səthi həvəs və meyllər deyildir. Əksinə, burada söhbət yekdil ideologiya ilə bağlı olan meyllərdən gedir, yəni bu faktorlar insan psixologiyasında təsir qoyan və onu öz silahdaşları ilə həmfikir edən insan təbiətindən irəli gələn amillərdir. Bu qəbildən olan meyllərin inikası insan əməlində köklü təsirə malikdir. Əgər şərait yaranarsa və heç bir maneə olmasa, insan dərhal başqalarının təsiri altına düşüb onların etdiklərini o da yerinə yetirər. Hər hansı bir hərəkətə münasibət (istər yaxşı olsun, istər pis) əməl formasında gerçəkləşməsədə, qəlbin dərinliklərində kül altda olan köz kimidir, küləyin əsməsini gözləyir ki, alovlanıb ətrafını da yandırsın, yəni şərait yaranarsa, fikir əməli olaraq reallaşacaq.

2)Hüquqi cəhətdən belə bir asılılığın ədalət normalarına zidd olması mümkündür. “Qurani-Kərim”də bu barədə də buyurulur:

***“...Heç bir günahkar başqasının günahını daşımaz...”(«İsra»-15).***

***“Hər kəs öz əməlinin girovudur!” («Muddəssir»-38).***

Bundan əlavə hüquq elmində günah etmək niyyəti və cinayət fikri cinayət sayılmadığı halda, necə ola bilər ki, insan yalnız niyyətinə görə (yaxşı, yaxud pis) şəri cəhətdən məhkum olunsun və ya mükafatlandırılsın?

Bu suala cavab olaraq deyilməlidir:

Cinayəti düşünmək, yaxud onu həyata keçirənə fikrən dəstək vermək, əlbəttə, cinayət sayılmır, lakin güclü əxlaqi təsirlərə malikdir. Məsələn, günahsız bir insanın öldürülməsinə razılığını bildirən, şübhəsiz, qatillərlə həmfikir sayılır.

İnsanın hüquqi məsələdə cinayəti inkar etməsi kifayət qədər dəlil-sübutun olmamasından irəli gələ bilər, lakin yaradılış qayda-qanunundan qaçmaq qeyri-mümkündür:

“Sənin hakimiyyətindən boyun qaçırmaq olmaz.”

Allah Təala “Qurani-Kərim”də buyurur:

***“ Özlərindən sonra (aciz və) zəif övladlar qoyub gedəsi olan şəxslər, onlardan ötəri necə qorxurlarsa, (yetimlərdən ötrü də) o cür qorxsunlar!...”(«Nisa»-9).***

Ataların keçmişdə göstərdiyi amansızlığın gələcəkdə övladlarını necə də haqladığını görürsünüzmü? Halbuki övladların heç bir günahı yoxdur. Çünki bu, varlıq aləmində sabit olaraq dəyişilməz qalan yaradılış qanun qaydasıdır. Onun təhqiqatı və mühakimə qaydası adi məhkəmə orqanlarının mühakiməsindən tam fərqlənir. Bu məhkəmədə haqq, ədalət məfhumu çox əhatəli və genişdir.1

3)Hərəkət (razılıqla baş verən) özü də iki xarakterə malikdir: fərdi və ictimai. Fərdi hərəkət yalnız bir nəfərin istəyi ilə baş verir və ancaq həmin şəxs üçün müəyyən bir əhəmiyyət kəsb edir. İctimai əməl bir nəfər tərəfindən həyata keçirilsə də, böyük ictimai əhəmiyyətə malikdir. Məsələn, baxmayaraq ki, Saleh peyğəmbər(ə)-in dəvəsi bir nəfər

---

Bu məsələlərlə maraqlanmaq istəyənlər ustad Əllamə Təbatəbainin əsərlərinə və şəhid [1] Mütəhhərinin 147“İnsan və tale”, «İlahi ədalət” kitablarına müraciət edə bilərlər.

tərəfindən təqib edilib öldürülmüşdü, lakin başqaları da onunla həmfikir olduğu üçün Allah-təala bu əməli ümumilikdə Səmud qövmünə aid edərək buyurur:

***"...Onu (dəvəni) tutub kəsdilər. Rəbbi də bu günahlarına görə onların kökünü kəsib yerlə yeksan etdi."(«Şəms»-14).***

İctimai işlərdə fikiri və əməli asılılıq əsas deyil, yetər ki, qəlbən və ruhən razılıq olsun.000 Cəmiyyətin bir nümayəndəsi olan icraçı cəmiyyətə arxalanır, buna görə də onun törətdikləri cəmiyyətin hesabına keçərək, ictimai məzmun daşıyır.

İslam mədəniyyətində bu ortaqlıq üçün zaman və məkan, uzaq-yaxınlıq şərt deyildir, yəni bu ictimai ortaqlıqda gələcəkdəkilər keçmişdəkilərlə oxşar olacaqlar. Buna görə də cəmiyyət ictimai rəqabətlər və ziddiyyətlərdə qarşılıqlı əməllərin cəriməsini ödəyir. Nə üçün? Ona görə ki, əqidə və məqsəddə onlarla ortaqdırlar. Əməllərinə qarşı razılıqlarını izhar edirlər. Ümumiyyətlə, məhəbbət və nifrətdə şərikdirlər. Bunu şərh etməklə ümumi ictimai əməllərdə tabelik fəlsəfəsi aydın olur. Təsadüfi deyildir ki, ayə və rəvayətlərin çoxu asılılığın fərdi əməllərdə yox, ictimai əməllərdə daha çox özünü biruzə verməsini qeyd edir:

"Kim bir qövmün əməli ilə razı qalarsa...." və ya "Hər hansı bir qövmün əməlindən razı qalan onlardan sayılır və s."

Bu hədislərdə fərdin yox, cəmiyyətin hərəkəti müzakirə olunur, çünki ictimai təsir fərdi təsirdən daha güclüdür.

Yuxarıda sözügedən asılılıq icraçı və həmrəy tərəflər arasındakı mənəvi və mədəni bağlılığın ifadəsidir. Bu cəhətdən fərdi hərəktlə ictimai hərəkət arasında heç bir fərq yoxdur. Bunlar yalnız əhatə dairəsinə görə fərqlənirlər.

Şübhəsiz, hər hansı bir hərəkətə müsbət münasibət bəsləyən onun icraçısının savab və əzabı ilə şərikdir.

4)Dördüncü mətləb niyyətin mənəvi və əxlaqi inikaslarıdır. Məhəbbətin və nifrətin yaxşı və pis düşüncələrin insan mənəviyyatının və ruhiyyəsinin formalaşmasında təsiri olmayıb onun xoşbəxt və ya bədbəxt olacağını qabaqcadan xəbər verməsi.

İmam Sadiq(ə) məhəbbət və nifrətin imandan olmasını xəbər alan şəxsə belə cavab verir:

"Məgər iman məhəbbət və nifrətdən başqa bir şey deyilmi?"1

Məhəbbət və nifrət bir-birlərindən ayrılmazdırlar. Bunlar, təqribən eyni təsirə malikdirlər. Niyyət məhəbbət və nifrətin əlaməti, məhəbbət və nifrət imanın nişanəsi, iman isə inam və əqidənin göstəricisidir. İnsanın inam və əqidəsi onun daxili aləmi və spesfik xüsusiyyəti olduğundan, həqiqətdə, niyyətin bu zəncirin bir halqası olduğunu söyləmək olar.

5)Üsul alimləri "təcərri" (günah etmək qəsdi) fəslində buyurmuşlar: "Günah niyyəti əmələ çevrilməzsə, bağışlanar və niyyət sahibi üçün heç bir günah yazılmaz. Bu fikrin tərəfdarları öz müddəalarının isbatı üçün rəvayətlər qeyd etmişlər.

- **Quranda mövzumuz haqda ayələrin izahı**

**Bəni-İsrail barədə ayələr:**

"Qurani-Kərim"də bəni İsrail barədə buyurulur:

***"(Ey İsrail oğulları! Yadınıza gətirin o vaxtı ki) Firon əhli sizə (babalarınıza) ən ağır işgəncələr verdikləri, oğlan uşaqlarınızı (kəniz etmək məqsədilə) sağ buraxdıqları zaman Biz sizi onların əlindən xilas etdik. Bunda (sizdən ötrü)***

«Üsul Kafi» II c/s-125/ hədis №5.[1]

***Rəbbiniz tərəfindən böyük bir imtahan var idi."(«Bəqərə»-49).***

***"(Yadınıza salın ki) Biz sizdən ötrü dənizi yarıb sizə nicat verdik və Fironun adamlarını siz baxa-baxa suda qərq etdik."(«Bəqərə»-50).***

***"(Bir daha) xatirinizə gətirin ki, Biz Musaya (Tur dağında vəhy üçün) qırx gecəlik vədə vermişdik. (O, Tur dağına gedəndən) sonra siz buzovu özünüzə (tanrı) qəbul etdiniz və (bu hərəkətlərinizlə-Allahdan başqasına ibadət etməklə-) zalim oldunuz (özünüzə zülm etdiniz). («Bəqərə»-51).***

***" "Allah kasıbdır, biz isə dövlətliyik!"-deyənlərin sözlərini Allah, əlbəttə, eşitdi. (Ya Məhəmməd!) Biz onların dediklərini və peyğəmbərləri haqsız yerə öldürdüklərini (mələklər vasitəsilə əməl dəftərlərinə) yazacaq və (qiyamət günü) onlara: "Atəşin əzabını dadın!"-deyəcəyik."(«Ali-İmran»-181).***

***"Allah (Tövratda) bizə odun yandıracağı bir qurbanı gətirməyincə heç bir peyğəmbərə inanmayaq!"-deyənlərə belə cavab ver!: "Məndən əvvəl də sizə peyğəmbərlər açıq-aşkar möcüzələrlə və dediyinizlə gəlmişdilər. Əgər sözünüz doğrudursa, bəs nə üçün onları öldürdünüz?"(«Ali-İmran»-183).***

Sual

Axı yuxarıdakı ayələrdə sadalanan hadisə, qarət, qətl, bəlalar Rəsulullah(s)-ın dövründə yaşayan yəhudilərə deyil, onların ata- babalarına aid olmuşdur.

Cavab:

Peyğəmbər(s)-in müasiri olan yəhudilər öz əcdadlarının əməlləri ilə razılaşdıqlarına görə günahda da onlarla şərikdirlər.

İmam Sadiq(ə) bu barədə buyurur:

"“Biz Allah ilə əhd bağlamışıq ki, heç bir peyğəmbərə iman gətirməyəcəyik” deyən yəhudilərlə peyğəmbərləri öldürən yəhudilər arasındakı məsafə beş yüz il zaman məsafəsi olmuşdur. Allah Təala isə gələcəkdəkiləri keçmişdəkilərin günahına görə cəzalandırır, çünki onlar öz ulu babalarının əməlləri ilə razı idilər.”1

- ## Səmud qövmü və Salehin dəvəsi barədə ayələr

Yuxarıda qeyd etdiyimiz mətləblə əlaqədar olaraq müqəddəs Kitabımızda nəql olunan əhvalatlardan biri də Səmud qövmü və Saleh peyğəmbərin əhvalatıdır. Allah-təala “Qurani-Kərim”də buyurur:

***“Səmud qövmünə də qardaşları Salehi (peyğəmbər göndərdik). O dedi: “Ey camaatım! Allaha ibadət edin. Sizin ondan başqa heç bir Tanrınız yoxdur...”(«Hud»-61).***

Lakin Salehin müxalifləri onun dəvətini qəbul etməyib dedilər:

***“...İndi atalarımızın ibadət etdiyinə (bütlərə, tanrılara) ibadət etməyi bizə qadağanmı edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin (tövhid) üçün şəkk-şübhə içindəyik.” («Hud»-62).***

Həzrəti Saleh(ə) qövmünün ona qarşı çıxdığını gördükdə istədi ki, onları möcüzə yolu ilə Allah yoluna dəvət edib bununla da öz həqiqi çağırışını onlara isbat etsin. Buna görə də Peyğəmbər belə dedi:

---

«Təfsiri Safi» İslamiyyə çapı: I c/s-318; [1]
«Təfsiri bürhan» I c/s-328;
«Təfsiri Əlmizan» IV c/s-89;
«Vəsailüş-şiə» XI c/s-412.

***"Ey camaatım! Allahın bu dişi dəvəsi sizin üçün bir möcüzədir. Qoyun Allahın torpağında otlasın, ona bir pislik etməyin, yoxsa şiddətli bir əzaba düçar olarsınız!"(«Hud»-64).***

Lakin əfsuslar olsun ki, Saleh peyğəmbər(s)-ın nəsihətləri onlara az da olsa, təsir göstərmədi, əksinə, həzrəti-Salehi gözü götürməyən bir neçə nəfər dəvəni məhv etmək qərarına gəldi, nəhayət, öz çirkin niyyətlərinə nail olub onu öldürdü. "Qurani-Kərim"də bu barədə buyurur:

***"Sonra o dəvəni tutub kəsdilər və (bununla da) Rəbbinin əmrini saymazyana pozub (istehza ilə): "Ey Saleh! Əgər sən (həqiqi) peyğəmbərlərdənsənsə, bizi qorxutduğunu (bizi təhdid etdiyin əzabı) gətir görək!"-dedilər."(«Əraf»-77).***

Onlar dəvəni öldürəndən sonra Saleh peyğəmbər(ə) üzünü onlara tutub dedi:

***"..."Daha üç gün yurdunuzda yaşayıb kef çəkin. Bu elə bir vəddir ki, yalan çıxmaz." («Hud»-75).***

***"Amma onlar (dəvəni) tutub kəsdilər, sonra da (əzab qorxusu ilə) peşman oldular. Artıq əzab onları yaxaladı (hamısı məhv oldu). Halbuki onların əksəriyyəti iman gətirmədi." («Şuəra»-157,158).***

***"Qurani-Kərim"də bu əzab barədə bir yerdə belə buyurulur:***

***"Buna görə də onları dəhşətli bir sarsıntı (yerdən zəlzələ, göydən tükürpədici bir səs) bürüdü, öz evlərində diz üstə düşüb qaldılar (bir göz qırpımında həlak oldular." («Əraf»-78).***

Allah başqa bir yerdə isə buyurur:

***"O zülm edənləri qorxunc bir səs bürüdü və evlərində diz üstə düşüb qaldılar (bir göz qırpımında həlak oldular)" («Hud» - 67).***

Deməli, bir nəfərin etdiyi günaha görə Allah-təala bütöv bir tayfanı təqsirkar bilib onların hamısını zalım adlandıraraq buyurur:

***“........Biz Səmud tayfasına açıq-aşkar bir möcüzə olaraq dişi dəvə verdik, lakin onlar ona zülm etdilər (dəvəni tutub kəsdilər)....” («İsra»- 59).***

Dəvəni bir nəfərin öldürməsinə baxmayaraq, onun əməlindən razı qaldıqlarına görə başqaları da Allahın əzabına düçar oldular. “Qurani-Kərim”də buyurulur:

***“Sanki onlar orada heç yaşamamışdılar. Bilin ki, Səmud tayfası Rəbbini inkar etmişdi. Xəbəriniz olsun ki, Səmud tayfası (Allahın mərhəmətindən) kənar (uzaq) oldu!” («Hud» - 68).***

***Beləliklə, Allahın buyurduğu kimi, onların kökü kəsildi:***

***“Artıq o zalım tayfanın kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi Allaha!” («Ənam» - 45).***

## • Rəvayətlərdə bu hadisə necə təsvir edilmişdir

Hədislərdə bu mühüm məsələyə çox diqqət yetirilmişdir. Onlardan bir neçəsini nümunə olaraq burada qeyd edirik.

Əmirəlmöminin Əli(ə) xütbələrinin birində Saleh peyğəmbərlə Səmud tayfası arasında baş vermiş əhvalata toxunaraq buyurur:

“Camaat, adamlar arasında birlik yaradan (əqidə və məqsəddə insanları birləşdirən) razılıq və narazılıqdır. Saleh peyğəmbərin(ə) dəvəsini təkcə bir nəfər öldürmüşdü, amma bu əməlin cəzası bütün tayfaya şamil oldu, çünki qohumları da bu işin həyata keçməsinə razılıq vermişdilər. Allah-təala buyurur:

***“Onu öldürdülər, lakin bəla nazil olandan sonra peşman oldular”.***

Onların şəhəri yumşaq yerə hopan ərimiş dəmir kimi bir dəfəyə guruldayıb yerə çökdü. Bununla da öz xilaf əməllərinin cəzasını çəkdilər.” («Nəhcül-bəlağə», Feyzül İslam, xütbə - 192).

Başqa bir hədisdə Əbdüssəlam ibn Saleh Hərəvi adlı bir nəfər səkkizinci İmam Əli ibn Musa Riza(ə)-dan belə soruşdu:

- İmam Sadiq(ə)-in buyurduğu “Həzrəti-Qaim Mehdi Sahibəzzəman (əccələllahu təala fərcəhuş-şərif) zühur edəndə İmam Hüseyn(ə)-nin qatillərinin övladlarını atalarının bu cinayətinə görə öldürəcəkdir.” - hədisi barədə siz nə deyə bilərsiniz?

Həzrət buyurdu:

- Bu, elə belə də olacaqdır.

Soruşdum:

- Belə isə bəs “Qurani-Kərim”də buyurulduğu «Heç bir günahkar başqasının günahını daşımaz» - ayəsinin mənası nədir?

Buyurdu:

-Allahın buyurduğu kəlamların hamısı düzdür. Amma İmam Hüseyn(ə)-nin qatillərinin övladları öz ata-babalarının cinayətindən razı qalıb onunla fəxr etdiklərinə görə günahda onlarla şərikdirlər, çünki başqasının əməli ilə razı olan şəxs həmin əməli yerinə yetirən insan kimidir. Məğribdə yaşayan biri məşriqdə günahsız yerə öldürülmüş şəxsin qətlinə razılıq verərsə, Allah dərgahında bu cinayətdə qatillə birgə o da şərikdir. Həzrəti-Mehdi Sahibəzzəman(ə.c.f.ş) da İmam Hüseyn(ə)-in qatillərinin övladlarını öz əcdadlarının cinayəti ilə razı olduqlarına görə məhv edəcək.1

Başqa bir hədisdə Peyğəmbər(s) buyurur:

---

«Vəsailüş-şiə» XI c/ s - 409; [1]
«Təfsiri Bürhan» I c/ səh-568;
«Üyuni-əxbari-Riza» Nəcəf çapı: I c / səh-212.

“Başqalarının işi ilə razı olan şəxs əməldə onlarla şərikdir.”1

“Hər hansı bir hadisənin şahidi olan, lakin ona nifrət bəsləyən orada iştirak etməyən şəxs kimidir, yaxud əksinə, hər hansı bir əməliyyatda olmayıb lakin qəlbən o işə öz razılığını bildirən insan orada iştirak edənlərdən hesab edilər.”2

Həzrəti-Əli(ə) bir hədisdə buyurur:

“Hər hansı bir dəstənin gördüyü işlə (günahla) razı olan şəxs o işdə şərik kimidir. İcraçı ikiqat günaha batır (niyyət və əməlinə görə), rizayəti olan isə (niyyətinə görə) bir günaha batır.”3

## Bir suala cavab

Əvvəlki bəhslərdə gözəllik, qəbihlik, savab və əzabın meyarının niyyət olduğundan danışdıq. Birinin qəlbən başqalarının əməlilə razılaşması onu savab və əzabda onlarla şərik edir. Belə isə bu, yuxarıda qeyd etdiyimiz məsələ (niyyətin əmələ çevrilməzsə, bağışlanması) ilə zidd olmurmu?

İslam alimləri bu suala bir neçə şəkildə cavab vermişlər:

a) Təcərri (günah etmək qəsdi) iki cürdür: birinci, əməli yerinə yetirməmiş peşman olub daxili çarpışma nəticəsində öz ixtiyarı ilə günahdan çəkinmə; ikincisi isə, müəyyən həddə qədər gəlib xarici amillərin təsiri ilə günahdan çəkinmə. Birinci halda (günahın niyyəti) günahkar bağışlanır, çünki peşmançılıq onun ruhunun və təbiətinin paklığına dəlildir. Belə bir şəxs bağışlanmağa layiqdir. Amma ikincidə bağışlanmır. Belə şəxs üsyankar ruha malik olduğuna və

---

«Səfinətül-bihar» II c/ səh-629.[1]
«Vəsailüş-şiə» XI c/ səh-409; [2]
«Təfsiri-Qürtəbi» IV c/ səh-294.
«Ali-İmran» 183-ün təfsiri.
«Vəsailüş-şiə» XI c/ səh-411.[3]

Allahına qarşı təqvasızlığından günaha yaxınlaşdığına görə tənqidə və cəzaya layiqdir. O öz-özünə günahdan çəkinməmiş, əksinə, xarici maneələr onu günah etməkdən çəkindirmişdir.

b) Təcərri bəzən günahı fikirləşib etməmək və bəzən də təşəbbüs göstərməklə bitir. Birinci cəhd insanın əməllər kitabçasında günah kimi qeyd olunmur. İkinci isə haramdır və bu əməlin sahibi cəzalandırılmalıdır, ona görə ki niyyət təşəbbüslə yanaşı olarsa, (Allah qarşısında) üsyankarlıq, dikbaşlıq və təqvasızlığa dəlildir. Birinci halda Allah qarşısında dikbaşlıq və üsyankarlığa dəlil olan heç bir təşəbbüs yoxdur.

v) Müəllifin nəzərincə, təcərrini (günahı fikirləşmək) başqa cür də təsnif etmək olar. Niyyət iki formada ola bilər: ötəri və sabit niyyət (dəyişilməz niyyət).

Nəfsani qüvvələrin coşub-daşması ilə insan nəfsində yaranan və heç bir əxlaqi, etiqadi kökü olmayan niyyətə ötəri niyyət deyilir. Bu cür niyyətlər xatirə, arzu, ani həvəsin nəticəsində meydana gəlib, tez də ötüb keçir, öz yerini isə yaxşı və müsbət düşüncələrə verir. Məsələn, Ramazan ayında biri ləzətli xörək gördükdə orucunu pozub iftar etmək istəyir, lakin bilavasitə bu fikirdən dönür.

İnsanın ruhi dərinliklərindən axıb gələn, onun etiqad, xasiyyət və xarakterindən irəli gələn niyyətə sabit niyyət (dəyişilməz niyyət) deyilir.Bu növ niyyət insanın həqiqi simasını üzə çıxarır. "Qurani-Kərim"də «şakilə» (xislət) adlandırılaraq buyurulur:

***«De: «Hərə öz xislətinə1 görə iş görər...» («İsra»-84).***

Ötəri niyyət nəfsani qüvvələrin ani reaksiyası olub təqvasızlıq və gizli, xəbis fikir olmadığından bağışlanmağa layiqdir. Bəlkə də hədislərdə «bağışlanmaq» dedikdə elə bu niyyət nəzərdə tutulur. Həmin mətləb İmam Sadiq (ə)-in

---

İmam Sadiq(ə)-dən belə nəql olunur ki, «şakilə»dən (xislətdən) məqsəd niyyətdir.[1]

«Nəcm» surəsinin 32-ci ayəsinin təfsiri ilə bağlı hədislərdə də qeyd olunmuşdur.

Bu hədislərdə nəql olunur ki, «ləməm» (xəta) sözü günahı fikirləşmək, yaxud bəzi hallarda insan əxlaqından irəli gəlməyən təsadüfi günah mənasında işlədilmişdir.1

Təfsirə görə, belə günahlar (icraçının Allah qarşısında inadkarlığını və dikbaşlığını göstərmədiyindən) Allahın geniş rəhmət və məğfirətinə şamil olur. Belə bir əməl bağışlanarsa, təbii ki, bu keyfiyyətdə olan niyyət də bağışlanacaqdır, çünki onların hər ikisi dikbaşlıq və üsyankarlıqdan uzaqdır.

Sabit niyyət (dəyişilməz niyyət) adətən təşəbbüs və əməllə nəticələnir. Əgər nə vaxtsa sabit niyyət əməl formasında gerçəkləşməyibsə, bu, icraçı insanın vicdanının yox, kənar faktorların təsirindəndir. Belə olduqda niyyət Allah qarşısında dikbaşlıq və üsyankarlıq sayıldığından günah hesab edilib cəzaya layiq görüləcəkdir. Niyyət barədə danışdığımız bu bölüm əsasən "Möminin niyyəti əməlindən daha yaxşı, kafirin niyyəti isə əməlindən daha pisdir" hədisi kimi diqqəti cəlb edir. Lakin buradakı niyyət sözündən də məqsəd elə sabit (dəyişilməz) niyyətdir, yəni bu niyyət möminin imanından, kafirin isə küfründən əmələ gəlir. Bir sözlə, möminin (əxlaqı və imanı ilə bağlı) niyyəti əməlindən daha yaxşı, kafirin (küfr ilə bağlı) niyyəti isə əməlindən daha pisdir, çünki belə niyyət mömində nuranilik, sədaqət və iman, kafirdə isə inadkarlıq, küfr və üsyankarlıq əlamətidir.

Bu açıqlamalarla "Bir kimsə hər hansı bir qövmün əməli ilə razılaşarsa,..." və "hər hansı bir qövmün əməlindən razı qalan..." hədislərində məhəbbət və nifrət məsələsi tamamilə

1 «Təfsiri Əlmizan» XIX c/s-45;
«Üsul Kafi» II c/s-442; Ləməm fəsli/hədis №3,5. Bu fəsildə imam Sadiq(ə)-dən bir neçə hədis nəql olunmuşdur. Onların hamısında «ləməm» (xəta) sözü günahı fikirləşmə və ya təsadüfi günahlar kimi təfsir olunmuşdur.

aydın olur. Həm də məhəbbət və nifrət, razılıq və narazılıqdan sözü səthi, ötəri emosiyalar yox, insan daxilindən axıb gedən, onun şəxsiyyəti və təbiəti ilə sıx bağlı olan nəfsani halətlər məqsədi ilə işlənmişdir. Bu halda başqasının əməli ilə həmfikir olan şəxs əslində onunla həmrəydir. Təbii surətdə əməlin nəticələrində də onunla şərik olacaqdır.

6. Əxlaq normalarında əməlin təsirli olmasına baxmayaraq, əsas niyyət və düşüncədir. Hüquqi normalarda isə bunun tam əksi olaraq niyyət ikinci dərəcəli olub əməl əsas təşkil edir.1

Məsələn, əgər bir nəfər düşmənçilik üzündən öldürülərsə və sonradan qətlə yetirilmiş şəxsin qanının halal olması (yəni qatilin haqlı olması) məlum olarsa, hüquqi cəhətdən qatil günahkar sayılmayıb cəzalandırılmır, lakin əxlaq baxımından bu şəxs cəzaya layiqdir. Çünki əməlin feli cəhətdən qəbih olmamasına baxmayaraq icraçı cəhətdən qəbihdir. Buna görə də qatil cəzaya və tənbehə layiqdir. Bəzi fəqihlərin də bu kimi məsələlərdə icraçını cəzaya layiq hesab etməsi ehtimal olunur, çünki bu cinayət hüquqi cəhətdən yox, əxlaqi baxımdan qəbahət sayılır. Bizim fikirimizcə, hüquqi və əxlaqi məsələlər arasındakı bu yaxınlıq təbii haldır, çünki islam hüquqi islam əxlaqından ayrılmazdır.

Buna əsasən əxlaqi və hüquqi məsələlərdən hər birinin yeri aydınlaşaraq hüquqi cəhətdən məsuliyyətsizin əxlaqi cəhətdən məsuliyyətsiz olduğunu sübut edə bilmədiyi məlum olur. Həmçinin, əxlaqi vacib və haramlıq şəri vacib və haramlıq məfhumundan başqa bir şey olmadığı da məlum olur. Əxlaqi vacib və haramlıqdan fərqləndirən təkcə hökmün əsli yox, mahiyyətlidir. Buna əsasən əxlaqi haramlıq əxlaqi cəhətdən haramdır. Bu, hüquqi cəhətdən heç də haram olmaya

---

1 Əlbəttə, hüquqi məsələlərdə niyyət əmələ çevrilməzsə, ikinci dərəcəli hesab olunur. Əks təqdirdə isə əsası elə niyyət təşkil edir.

bilər. Şübhəsiz, əxlaqi vacib və haramın hüquqi vacib və haram kimi özünə münasib təsiri vardır. Buna görə hər hansı bir günahsız insanın qətlinə razı olan şəxs əxlaqi cəhətdən bu cinayətdə iştirak etmişdir. Yəni hüquqi cəhətdən cinayətdə iştirak etməməsinə baxmayaraq, Allah qarşısında o da bu məsuliyyətə cəlb olunur. Allah-təala buyurur:

***"...Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər..."(«Bəqərə»-284).***

Deməli, düşüncə və meyllər də insan əməllərinin bir hissəsi kimi hesab olunub Allah-təala dərgahında araşdırılacaqdır.

"Günaha razı olan şəxsə bir, əməli surətdə onu həyata keçirənə isə iki günah yazılır" kimi bəzi hədislər mövcuddur. Buradan məlum olur ki, günah işlədən iki, günahın gerçəkləşməsinə qəlbən razılıq verən isə bir günaha batmışdır.

Bu mövzuya aid aşağıdakı ayə və rəvayətlərə diqqət yetirin.

- **İnancın niyyətdə təsiri**

Hədislərdə söylənildiyi kimi, möminin niyyəti əməlindən daha yaxşı, kafirin niyyəti isə əməlindən daha pisdir.1

İndi isə belə bir sual meydana çıxır. Əgər niyyət əməlin başlanğıcı, əməl isə pis və ya yaxşı təsir bağışlayan əsas amildirsə, onda niyyət əməldən necə pis, yaxud yaxşı ola bilər? Əgər niyyət əməldən yaxşıdırsa, onda biz hər gün dəfələrlə cihad və şəhadət, fədakarlıq, gecələri oyaq qalıb ibadət niyyəti etsək, əmələ bir daha ehtiyac qalmırmı?

Cavab:

---

"Üsuli-kafi" II c/ səh-84.[1]

Əvvəla, niyyət dedikdə əməl üçün həqiqi iradə və qəti qərar nəzərdə tutulur. Beynimizdə ani olaraq meydana çıxıb hələ icrasına tərəddüd etdiyimiz fikirləri niyyət adlandırmaq olmaz, çünki niyyətlə xəyal arasında fərq vardır. Bəzən insan namaz, oruc, həcc və s.-ni niyyət edir, amma bu işləri yerinə yetirmək üçün heç bir ciddi qərara gəlmir. Yaxud biri gecə namazı, döyüş meydanı, cihad və şəhid olmağı təsəvvürünə gətirir, ancaq özünü gecə namazı qılmağa, cəbhəyə getməyə hazırlamayıb heç bir tədbirə əl atmır. Şübhəsiz, belə təsəvvürlər ilğım və xəyaldan başqa bir şey olmayıb heç bir dəyərə malik deyildir. Allah-təala bu cür təsəvvür və xəyallara görə heç kimə mükafat vermir.

Savab və əzabın meyarı insanı əmələ sövq edən ciddi düşüncə və qəti qərardır. Uca Yaradan insan iradəsini çalışmaq şərtilə dəyərləndirərək qiymətləndirmişdir. Allah-təala buyurur:

***"Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti (Allah dərgahında) qəbul olunar." («İsra» - 19).***

Allah-təala iman və saleh əməllə birgə olan istəyi qiymətləndirmişdir.

Qəti qərar əmələ çevrilərkən iki cür təzahür edir: bəzən müvəffəqiyyətlə qurtarır və bəzən də məğlubiyyətə uğrayır. İnsan öz niyyətini həyata keçirmək üçün həmişə müvəffəq olmur. Bəzi hallarda obyektiv səbəblər üzündən niyyət həyata keçməsə də, hər iki surətdə (müvəffəqiyyət və məğlubiyyət) niyyət ciddi olduğundan dəyərlidir. Bu isə əməldən daha yaxşı hesab edilən elə həmin niyyətdir.

Üçüncüsü, möminin niyyəti səmimi olduqda əhəmiyyət kəsb edir. Başqa sözlə, icraçı gözəlliyi əməl gözəlliyindən yaxşıdır. Çünki icraçı gözəlliyinin iki xüsusiyyəti vardır: əməli gözəl, icraçını isə əməlisaleh edir. Əməl gözəlliyi isə bunun

əksi olaraq icraçıya heç bir təsir bağışlamır, yəni hər kim qeyri-səmimi gözəl bir iş görərsə, niyyətinin səmimiyyəti olmadığından həmin xeyir əməlin ona heç bir faydası yoxdur. Buna görə də Allah-təala "Qurani-Kərim"də buyurur:

***"Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti (Allah dərgahında) qəbul olunar." («İsra» - 19).***

Peyğəmbər(s) buyurmuşdur:

"Hər kim Allahdan sidq ürəklə şəhadətə yetməyi diləyərsə, Allah-təala onu evində vəfat etsə belə, şəhidlər məqamına yüksəldər."1

Həzrəti-Əli(ə) buyurur:

"......... Allah-təala bəndələrindən kimi istəyərsə, saf niyyəti və təmiz ürəyinə görə behiştə daxil edər."2

İmam Sadiq(ə) buyurur:

«Fəqir mömin bəndə deyər: «İlahi! Xeyir işlər görmək üçün mənə bir vasitə göndər.» Əgər Allah-təala onun bu diləyinin saf niyyətlə olduğunu görərsə, o xeyir əməlin əcr və savabını onun əməllər kitabçasına yazar. Həqiqətən, Allah-təala ehtiyacsız və kərimdir."3

Bu şərtlər bir yerdə cəmləşdikdə möminin niyyətinin niyə görə əməlindən yaxşı olduğunu bir daha sübut edir:

1)niyyət əməlin təməli və qayəsidir. Səbəb isə bir şeyin nəticəsindən daha əsas və üstündür;

2)niyyət əməlin canı və ruhudur. Ruh isə cisimdən irəlidir;

---

1 «Səhih Müslim» II c/ səh-103;
«Sünəni ibn Macə» II c/səh-539 / hədis №2797.
2 «Nəhcül bəlağə» Sübhi Salehi: Hikmət №42
3 "Üsuli-kafi" İslamiyyə çapı: II c/səh-69;
«Səfinətül bihar» II c /səh-628;
«Vəsailüş-şiə» II c/səh-35.

3)niyyətdə riya ola bilməz, lakin əməldə riyanın olması mümkündür;

4)mömininin əməli səhv olduğuna görə özünə, yaxud başqalarına zərər yetirə bilər. Bu halda əməlin ona heç bir xeyri olmaz, amma niyyəti saf olduğu üçün mükafat və savab qazanar;

5)mömin çalışdıqca öz qüdrətindən artıq şeylər istəyir. Demək, mömininin niyyəti hər cəhətdən əməlindən üstündür.

Bir gün Zeyd Şiham İmam Sadiq(ə)-in hüzuruna gəlib soruşdu:

-Ağa, sizdən eşitdim ki, niyyət əməldən daha yaxşıdır. Bu necə ola bilər?

İmam Sadiq (ə) buyurdu:

-Bəzən insan riyakarlıq edərək tərif xatirinə bir işi görür. Ancaq saf niyyətin əsasında ilahi eşq və ulu Tanrıya sonsuz məhəbbət olduğundan riyaya bulaşmır. Nəticədə isə Allah-təala insana əməlinə görə vermədiyi neməti niyyətinə görə əta edir. Ola bilsin ki, bəndə gecənin son saatlarında gecə namazı qılmaq niyyətilə yatıb yuxuya qalsın. Allah-təala isə gecə namazının savabını onun əməllər kitabçasına yazar, yuxuda olduğu zaman onun nəfəsini zikr, yuxusunu isə sədəqə hesab edər.1

Allahdan başqa heç kim başqasının niyyətindən xəbərdar deyildir. Deməh, niyyətdə heç vaxt riya ola bilməz. Niyyət əmələ çevriləndə onun riyaya qarışması mümkündür. Buna görə də deyiblər: «Mömininin niyyəti əməlindən daha yaxşıdır.»

Amma kafirin niyyətinin əməlindən daha pis olmasının səbəbi yerinə yetirmiş olduğu işin əslində yaxşı və faydalı olmasındadır. Lakin yaxşı işlər görərkən onun niyyətində hiylə, maddi mənfəət, riya və kələk olduğundan niyyəti əməlindən pisdir. Çünki onun əməlindən başqalarına xeyir

---

«İləlüş-şəraye» Nəcəf çapı: II c/səh-524: Fəsil - 301: hədis №1.[1]

dəyir, amma özü günahdan başqa bir şey qazanmır. Deməli, kafirin niyyəti hər cəhətdən əməlindən daha pisdir.

## • Nəticə

İxlas bütün ibadətlərin ümumi şərtlərindəndir. Fəqihlər onu əməlin düzgünlüyü, həkimlər ruhun qidası, ariflər isə vüsala yetişməyin şərti hesab etmişlər.1 Əməl ilahi və səmavi rəngə boyanmayınca ucalmayıb məşuqun vüsalına yetişmək olmaz. Riyaya boyanmış əməllərin Allah və ülvi aləmlə heç bir əlaqəsi olmadığından bəndə və Yaradan arasında vasitə ola bilməz.

### «Quran» və ixlas (saf niyyət)

«Qurani-Məcid»də bu barədə buyurulur:

***“Allaha saf niyyətlə (riyasız, şirksiz) ibadət etməkdən başqa onlara heç nə buyurulmamışdır...” («Bəyyinə» - 5).2***

***“...... Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın.” («Kəhf» - 110).***

Ayənin son hissəsi saleh əməlin şirk və riya ilə qarışıq olmamasına işarədir. Deməki, Allaha ibadət edərkən başqalarını da ona şərik etsək, ixlas yox olaraq ibadətin yalnız zahiri görkəmi qalar. Əməl isə öz mahiyyətini itirdikdə,

---

1 Şərtlər iki cürdür: Düzgünlük və qəbulolma şərtləri. Şərtlərdən bəzisi düzgünlük şərtinə yox, yalnız qəbul olma şərtinə aiddir. Məsələn, namazda fikrin yayınmaması kimi. Namazın əsas təsiri Allaha yaxınlaşmaq və möminin meracı olduğundan fikir yayınarsa, bu mümkün olmaz. Amma bəzi əməllər əməlin düzgünlük şərtidir. Məsələn, dəstəmaz və niyyət kimi. Çünki dəstəmazsız və niyyətsiz namaz batildir. Hətta namazı səhv edərək dəstəmazsız və niyyətsiz qılsa belə ikinci dəfə namaz qılmalıdır.

2 Bu və bu kimi ayələrin üsuliddin, ibadətdə tövhid, şirk və bütpərəstliyə aid olmasına baxmayaraq, riyakarın ibadət edərkən Allahdan başqasını nəzərdə tutduğuna görə əməlində şirk vardır. Buna görə də hədislərdə riyanı gizli şirk adlandırmışlar.

nəticədə, insana bir faydası olmaz. Necə ki bu ayənin nazilolma səbəbi haqda oxuyuruq:

Bir şəxs Peyğəmbər(s)-in hüzuruna gəlib dedi: «Ey Allahın Rəsulu! Mən Allah yolunda ehsan verib yaxın qohum-əqrabalarımı başa çıxıram, amma camaat mənim bu əməllərimi danışıb tərifləyəndə çox xoşhal oluram. Mənim bu əməllərimin dərəcəsi nədir?» Peyğəmbər(s) heç bir söz deməyib dinmədi. Nəhayət, bu ayə («Kəhf» - 110) nazil oldu.1

**Müxləs (saflaşmış) bəndələr**

Allah-təala saleh bəndələri saf niyyətlərinə görə tərifləyir. Məsələn, Yusif peyğəmbəri(ə) tərifləyərkən onu "müxləs" (saflaşmış)- deyə yad edir:

***"Doğrudan da, (qadın) ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini görməsəydi, (Yusif də) ona meyl edərdi. Biz pisliyi və biabırçılığı (zinanı) ondan sovuşdurmaq üçün belə etdik. Çünki o, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir." («Yusif» - 24).***

Həzrət Musa(ə) barədə buyurur:

***"(Ya Mühəmməd!) Kitabda (Quranda) Musanı da yad et! Həqiqətən, o (öz ibadətində) çox səmimi idi. O bir elçi, bir peyğəmbər idi." («Məryəm» - 51).***

Diqqətəlayiq məsələ

Müxləs feli sifət olub "saflaşdırılmış" mənasını ifadə edir. Allah-təala bu iki peyğəmbəri (Musa və Yüsif) vəsf edərkən onları "müxləs" adlandırır. "Müxləs" sözü ilə "müxlis" sözü arasında böyük fərq vardır. «Müxlis» sözü ötəri sədaqəti olan adama da deyilir. Məsələn, dəniz tufanında hər şeydən əli

1 «Təfsiri-Qürtəbi» Beyrut çapı (1965, 1966): XI c/ s.69;
«Təfsiri-məcməül-bəyan» Beyrut çapı:VI c / s.499;
"Biharül-ənvar": Beyrut çapı: LXVII / s.222;
«İddətüd-dən» Beyrut çapı: s.223.

üzülmüş adamlar Allahı ixlasla köməyə çağıraraq imdad diləyirlər:

***“(Müşriklər) gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) dini (ibadəti) yalnız Ona məxsus edərək (ixlasla) Allaha dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi yenə də (Ona) şərik qoşarlar.” («Ənkəbut» - 65).***

***“(Kafirləri) ətrafına kölgə salan uca dağlar (yaxud qara buludlar) kimi dalğalar bürüdüyü zaman onlar dini (ibadəti) Allaha məxsus edərək yalnız Ona dua edərlər. Allah onları sağ-salamat quruya çıxartdıqda içərilərindən bəziləri (küfrlə iman arasında) orta mövqe tutar. (Bəziləri isə öz küfründə qalar). Ayələrimizi yalnız çox xain, nankor olanlar danarlar!” («Loğman» - 32).***

***“Sizi suda və quruda gəzdirən Odur. Siz gəmidə olduğunuz, gəmilər gözəl bir külək vasitəsilə içərisində olanları apardığı, onlar da sevindikləri vaxt birdən fırtına qopub dalğalar hər tərəfdən gəmilərin üzərinə hücum etdikdə və sərnişinlər dalğaların onları bürüdüyünü (həlak edəcəyini) başa düşdükdə sidqi-ürəkdən Allahın dininə sarılaraq ona belə dua edərlər: «Əgər bizi bu təhlükədən qurtarsan, Sənə şükr edənlərdən olarıq!» Onları xilas edincə yer üzündə haqsız yerə zülm etməyə, azğınlığa başlayarlar! Etdiyiniz zülm, haqsızlıq fani dünya malı kimi öz əleyhinizədir. Sonra hüzurumuza qayıdacaqsınız. Biz də nə etdiklərinizi sizə xəbər verəcəyik” («Yunus» - 22,23).***

Bu ayələrdən “müxlis” sözünün mahiyyəti müəyyən olur. Bu söz sədaqət məktəbinin öncüllərini, hətta (dəryada tufana uğradıqları zaman ümidləri hər yerdən üzülüb Allahı saf niyyətlə, ixlasla çağıran) bütpərəst müşriklər və dünyapərəstləri də əhatə edir, halbuki onlar az keçməmiş, sahilə çatdıqdan sonra Allahı yaddan çıxarıb ikinci dəfə

müşrik olurlar. Təbii ki, yolun ilkin mərhələsində olanlar şeytani vəsvəsə və nəfsani həvəslər qarşısında acizdirlər. Bu təhlükələr qarşısında möhkəm durub özlərini günahdan qoruyanlar isə çoxdurlar. Amma müxləslər (saflaşmışlar) ixlasın ilkin mərhələlərini uğurla başa vuranlardır. Onlar günahsızlıq məqamına nail olaraq şeytan və nəfsi əmmarənin (pisliklərə sövq edən nəfs) hökmranlığından qurtulmuş və Allah hökmranlığına daxil olmuşlar. Yusif peyğəmbər də belələrindən idi, çünki Yusif o çətin və çıxılmaz böhranlı hallarda dağ kimi dayanaraq çətinliklərə sinə gərdi. O qadın (Zuleyxa) Yusifdən kam almaq üçün nə qədər çalışdısa da, yenə Yusif ona: “Allaha pənah aparıram,”-deyə rədd cavabı verdi. Qətiyyətlə onun qanunsuz istəyini rədd edərək qadının şərindən özünü qurtarmaq üçün qapıya tərəf yüyürdü. Bağlı qapı Yusifin üzünə açıldı, Allah ondan öz qeybi yardımlarını əsirgəmədi.

Şübhəsiz, nəfsi saflaşdırmanın bu mərhələsinə çatmaq üçün ilahi yardımlardan əlavə ehtiras və şəhvətlə də (həvayi-nəfslə) möhkəm mübarizə lazımdır. Öz daxili istəklərinə göz yuma bilməyib istədiyini edən şəxs heç vaxt bu məqama yetişə bilməz.

Bir sözlə, yalnız Allah istəyini öz istəyindən üstün tutub başında başqa fikirlər dolandırmayan qəlb belə ali dərəcələrə yetişərək nurani ola bilər.

## Ədəbiyyat

1- ***Qurani-kərim***

2- ***Nəhcül-bəlağə***

3-Amedi, Əfulfəth, ***Qürərül-hikəm və dürəül-kərim, ,*** Qahirə: Darul-kotobil-İslamiyyə, 1380 h.ş.

4- Amoli, Hürr, Məhəmməd ibn Həsən, ***Təfsili-vəsailüş-şiə, fit-təhsili-məsailiş-şəriə,*** Qum: Alul-beyt müəssisəsi, 1367 h.ş.

5- Beyhəqi, İbrahim ibn Muhəmməd, ***əl-Məhasin vəl-Müsavi,*** Beyrut: Daru Sədud-din, 2009

6- Bürucerdi, Seyid Hüseyin, ***Camei-əhadisiş-şiə,*** Qum: əl-Mətbəul-elmiyyə, 1379 h.ş.

7- Cəzayeri, Nemətullah ***Ənvari-Nomaniyyə,*** Qahirə: Darol-kotobel-İlahiyyə, 1355 h.ş.

8- Feyz Kaşani, Möhsin, ***Məhəccətül-beyza,*** Qəzvin: İntişarate həkim, 1963

9- Hakim Nişapuri, Məhəmməd ibn Abdullah, ***Müstədrəku ələs-səhiheyn,*** Beyrut: Darut-tasil, 1335 h.q.

10-Helli, Vəram ibn Əbi Feras, ***Tənbihül-xəvatir,*** **Qahirə:** Darul-afaqil-ərəbiyyə, 1430 h.q.

11- Hərani, Həsən ibn Əli, ***Tuhəful-üqul,*** Beyrut: Darul-elmil-ərəbiyyə, 1434 h.q.

12- Həmiri, Abdullah ibn Cəfər, ***Qürbul-isnad,*** Beyrut: Darul-elmil-ərəbiyyə, 1435 h.q.

13- Xarəzmi, İbn Əhməd, ***əl-Mənaqib,*** İstanbul: Darol-fikr, 1358 h.ş.

14- İbn Babəveyh, Səduq, ***əl-Xisal,*** Qum: Muəssieye nəşre İslami, 1380 h.ş.

15 -İbn Babəveyh, Səduq, ***Əmali,*** Tehran:Ərməğane Tuba, 2017

16- İbn Babəveyh, Səduq, ***Mən la yəhzəruhul-fəqih,*** Qum: Muəssieye nəşre İslami, 1363 h.ş.

17- İbn Babəveyh, Səduq, ***Məaniul-əxbar,*** Tehran:Muəssieye nəşre İslami, 1370

18- İbn Əbil Hədid, ***Nəhcül-bəlağənin şərhi,*** Beyrut: əl-Mətbəul-elmiyyə, 1374 h.ş.

19- İbn Əsakir, Əbu Qasim, ***Tarixi-Dəmeşq,*** Qahirə:Darul-kotobel-elmiyyə, 1983

20- İbn Əsir, İzzuddin, ***əl-Kamil fit-tarix,*** Qahirə: Darul-kotobel-elmiyyə, 1987

21- İbn Əsir, Cəzri, ***Üsdül-ğabə,*** Qahirə: Darul-kotobel-elmiyyə, 1989

22- İbn Hənbəl, Əhməd, ***əz-Zöhd,*** Qahirə: Darul-ketabil-İslami, 1380 h.ş.

23 -İbn Hişam, Əbu Məhəmməd, Beyrut: ***Sirətun-nəbəvi,*** 1994

24- İbn Şəhri Aşub, ***Mənaqib,*** Qahirə: Darul-kotobel-elmiyyə, 1983

25-İbn Qəyyim Cuzi, Muhəmməd bin Əbibəkr, ***Zadül-məad fi huda xeyril-ibad,*** Qahirə: Darul-afaqil-ərəbiyyə, 1428 h.q.

26- Məclisi, Məhəmməd Baqir, ***Biharül-ənvar,*** Qahirə: Darol-kotobel-İslamiyyə, 1315 h.ş.

27- Müfid, Məhəmməd ibn Məhəmməd, ***əl-İrşad,*** Qahirə: Darol-kotobel-İlahiyyə, 1355 h.ş.

28- Məhəmməd Baqir Məhmudi, ***Nəhcüs-səadə,*** Bağdad: Nəşrul-elm, 1984

29- Məhmud Şərifi və başqaları, ***Musuətu-kəlimatil-İmamil- Hüseyn (ə),*** Qum: Usvə, 1383 h.ş.

# Quran elmləri barədə araşdırma

Kamran Babayev[1]

## Abstarkt

Biz müsəlmanların Quranı diqqətdə saxlaması, əslində düzgün Allahı tanıma yollarına yönəlmək, digər tərəfdən şirk və nadanlıqdan uzaqlaşmaqdır. Qurana əhəmiyyət vermək və onu öyrənmək fironsayağı, allahvari yaşamı inkar etməkdir. Şübhəsiz, Quranda dəfələrlə işarə olunan ən önəmli mövzulardan biri tövhiddir. Tövhidi bilmək, əslində Allah yolunda olmaqdır. Quranla ünsiyyət və onu öyrənməyimiz, həqiqətdə özümüzü ilahi yolda qərarlaşdırmaqdır. Quranı öyrənməyin ən mühüm hədəfi, şübhəsiz elə budur. Quranın təfəkkür və idraka hədsiz diqqəti və idrak vasitəsilə insanın təkamülü nazil olmanın başlıca məqsədlərindəndir. Ona görə də biz hər keçən gün Qurandan möhkəm yapışmalı və allahçı olmağın yollarını zikr əhlindən – *"Zikir əhlindən soruşun!"* – soruşmalıyıq. Bəlkə bununla hər keçən gün Quranın göstərişlərinə, tərbiyə prinsiplərinə əməl etməkdə səy göstərək.

**Açar kəlmələr:** Quran elmləri, zikr, vəhy, möhkəm, mütəşabih, nəsx

## Giriş

[1] İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

Bəlkə də güman oluna bilər ki, insanların, başlanğıcı elə də aydın olmayan çox qədim zamandan fiziki və ruhi məşqlərin, xüsusi çalışmaların nəticəsində qeybə doğru yol açdıqlarını, yəni adi təlim-tərbiyə yolu ilə əldə olunmayan bir sıra işlərin onlara aydınlaşdığını nəzərə alarkən görürük ki, vəhy və nübuvvət məsələsini də bu yolla izah etmək mümkündür. Qədim əsərlərdə və səyyahların səyahətnamələrində asketizm mövzusuna aid çoxlu nümunələr tapılır, hətta bu günkü qəzet və jurnallarda müntəzəm surətdə hindistanlı, afrikalı, avropalı və başqa asketlər barəsində hadisələr oxuyuruq. Eləcə də keçən fəsillərdə işarə olunduğu kimi qədim və müasir psixoloqlar da bu reallığı təsdiq ediblər. Məlum olduğu kimi asketlər qeybi məlumatları kəşf edərkən onlara üz verən ruhi hallar peyğəmbərlərdəki vəhy adlandırılan ruhi halla eynidir. Buna görə də peyğəmbərlərin vəhyini də bu yolda izah etmək mümkündür. İslam peyğəmbərinin peyğəmbərlikdən öncə tənhalığa çəkilmə hadisəsi, həmçinin buna bənzər işlərin Məsihdən nəql edilməsi bu fikri təsdiq edir. Deməli peyğəmbərlik bir sıra asketik məşqlər nəticəsində yaranan qeyblə bağlılıq vəziyyətidir.
Lakin vəhyin varlığı sübut edib daha sonra peyğəmbərlərin öz sözləri ilə təsdiq etdiyimiz keçən izahatlardan bu təsəvvürün batilliyi aydın olur.
Asketlərin ruhi hallarında səhv və yanlışlıq da ola bilər. Halbuki, peyğəmbərlərin hallarında heç bir səhv ola bilməz. Asketlər ilə az-çox əlaqəsi olan şəxslər bilirlər və hətta asketlərin özləri belə etiraf edirlər ki, ruhi məşqlər nəticəsində onlara gələn qəlbi ilhamlar bəzən səhv də ola bilər, həmçinin bu yoldan əldə edilən nəticələr həmişə bəşəriyyətin və insan cəmiyyətinin xeyrinə olmur. Hətta çox vaxt insan yaşayışının ehtiyac duymadığı faydasız və əyləncəli şeylərlə bağlı olur. Bunlar asketlərin ilhamlarının aşkar xüsusiyyətləri və

nəticələridir. Peyğəmbərliyin xüsusiyyətləri və nəticələri isə yüz faiz onların əksinə olur. Peyğəmbər qavradığı vəhydə heç vaxt şübhə və səhv etmir. Peyğəmbərlik insan yaşamı üçün birinci dərəcəli əhəmiyyətə malik olan bir sıra hədəflərlə bağlıdır. Çünki, deyildiyi kimi insanın özünün dəyişilməz məqsədinə çatması üçün "nübuvvət" yolunu ona açan, təkvin və yaradılış sistemidir. Heç zaman yaradılış sistemi və obyektiv gerçəklik səhvə yol vermir. Heç zaman obyektiv varlıqlar "yanlışlıq" xüsusiyyətilə xarakterizə olunmur. Əksinə yanlışlıq nisbi bir şeydir, yəni zehnlə obyektiv aləmi, fikirlə əməli və işlə hədəfi müqayisə edərkən ortalığa çıxır.

Heç vaxt demək olmaz ki, yaradılış sistemi insanı yeməyə, evliliyə, gözlə görməyə, qulaqla eşitməyə yaxud düşünməyə yönəltməkdə səhvə yol vermişdir, əksinə məsələn, fikri obyektiv aləmə tətbiq edərkən bəzən səhv yaranır (doğru düşünülsün).

Yaradılış sistemi insanları öz son hədəflərinə istiqamətləndirmək üçün onları fitri ictimai ixtilafların aradan götürülməsinə doğru yönəldəcəkdir. Necə ki, onu yemək və nəsil artımı ehtiyacı kimi bioloji ehtiyacların təmin edilməsinə, zərər və ziyanların aradan götürülməsinə doğru istiqamətləndirir və bu istiqamətləndirmədə səhv etmir.

Bu izahla aydın olur ki, peyğəmbərlik və vəhy yolu təfəkkür yolu deyildir. Çünki, adətən fikirdə səhv olması mümkündür, digər tərəfdən isə bəşərin bütün qazanıla bilən kamillikləri təfəkkür yolu ilə olur. Bu müqəddimələrdən açıq-aydın nəticə alınır ki: Nübuvvət ilahi nemətdir, qazanılası deyil.

## 1- Quran elmlərinin tərifi

Quranın tanışlığı ilə bağlı bir-birilə rabitədə olan və onun müxtəlif mövzu və xüsusiyyətlərini əhatə edən məsələlər toplusu “Quran elmləri” adlanır. Yəni “Quran elmləri” Quranın zahiri elmləri barədə bəhs edir. Quran elmləri təfsir elminin müqəddiməsi sayılır.

Bu bəhslərin “Quran elmləri” adı ilə və cəm şəkildə (elmlər) işlədilməsinin səbəbi nədir?

Cavab: Quran elmlərində bəyan edilən hər bir məsələ öz çərçivəsi daxilində müstəqilliyə malikdir və adətən, həmin elmin digər məsələləri ilə o qədər də yaxın rabitəsi yoxdur. Misal olaraq “Təcvid”, “Quranın tarixi”, “Qiraət” və s. elmlərin adını çəkə bilərik.

**Mövzusu:** Qurani-kərim

- **Əhəmiyyəti:**

a) İnsanda Quranın tədqiq və araşdırılması ilə bağlı maraq yaranır. Eyni zamanda, onun mövzuları ilə daha yaxından tanış olmağa səbəb olur.

b) Quranın düzgün şəkildə başa düşülməsi Quran ayələrinin “məkki-mədəni”, “möhkəm-mütəşabih” olmasını bilmək, Quranın düzgün şəkildə oxunuşu və s. bir sıra müqəddimə məsələlərə əsaslanır.

c) İnsan Quranı təfsir etmək üçün özündə hazırlıq və güc tapır.

**Zəruriliyi:** İlahi məqsədləri düzgün və dərin anlamaq üçün Quran elmlərini bilmək lazımdır.

İlahi kitabın hüdudlarını qorumaq üçün onu daha çox tanımalıyıq.

## Quran elmləri tarixçəsi

Quran əbədi möcüzə, ilahi vəhy və sonuncu dinin – İslamın yazılı salnaməsi olduğundan daima müsəlmanların diqqət mərkəzində olmuş və ona xüsusi önəm verilmişdir. Hicrətin birinci yüzilliyində Peyğəmbərin (s) səhabələri, tabeinlər, ardınca isə din alimləri Quran və onunla əlaqədar mövzulara, elmlərə xüsusu diqqət sərgiləmişlər. Bu da, "Quran elmləri" adlı yeni bir ixtisasın meydana gəlməsi ilə nəticələnmişditr. Sözügedən elm, Qurandaxili və Quranxarici mövzuları araşdıraraq, vəhyin bizə məlum olmayan tərəflərini, ilk baxışda nəzərə çarpmayan incəliklərini, habelə hər ağlın və qəlbin vara bilmədiyi məna dərinliklərini kəşf edib ortaya çıxarmağa, nəticədə kəşf edilən gövhərləri Quran oxucularına töhfə verməyə çalışır.

Peyğəmbər (s) əsrində digər elmlər, o cümlədən kəlam, fiqh, əxlaq, təfsir, qiraət elmi kimi Quran elmləri adlı rəsmi bir elm formalaşmasa da, səhabələr arasında bu elmin qığılcımlarına rast gəlmək olur. Bu istiqamətdə həzrət Əlinin (ə) rolu əvəzsiz və danılmazdır. Nümunə olaraq qeyd edək ki, alimlərin fikrincə, Rəsulullahın (s) səhabələri arasında Quranı təfsir edən və Quran elmlərini bilən ilk şəxs Əli ibn Əbu Talib (ə) olmuşdur. İbn Abbas kimi dahi şəxsiyyət də təfsir elmini o həzrətdən mənimsəyib öyrənmişdir.1

Həmçinin, xəlifələr arasında Quran elmləri mövzusunda ən çox hədis nəql edən şəxs Əli ibn Əbu Talib (ə) olub.

Bundan əlavə, Abdullah ibn Abbas, Abdullah ibn Məsud və Ubəyy ibn Kəb ibn Qeys Quranın təfsiri və qiraətində özlərinə görə xüsusi yerləri olub və digərləri Quranı onlardan əxz ediblər.

Quran elmləri haqqında kitab yazmaq hicri tarixlə birinci əsrdən başlayıb. O dövrdən etibarən bir çox alim

---

"Əl-Burhan fi-ulumil-Quran", c. 2, səh. 157. [1]

Quranla bağlı müxtəlif mövzular haqqında kitablar yazıblar. Onlardan bəzilərinin adlarını qeyd edirik:

- **Birinci əsrə aid:**

1. Həzrəti Əli (ə)

2. Əbul-Əsvəd Duəli həzərt Əlinin (ə) göstərişi ilə “Nəhv” elmi (ərəb dili qrammatikası) haqqında ilk əsəri yazmışdır.1

3. Əbul-Əsvəd Duəlinin şagirdlərindən olan Yəhya ibn Yəmur “Qiraət” elmi haqqında kitab yazmışdır.

- **İkinci əsrə aid:**

1. Həsən ibn Həsən Yəsar Bəsri “Nuzulul-Quran və ədədu ayil-Quran” kitabını yazmışdır.

2. İmam Səccadın (ə) tələbələrindən olan Əban ibn Təğlib Quranın qiraəti, mənaları və ğəribul Quran haqda kitablar yazmışdır.

3. Məqatil ibn Süleyman, “Əl-Ayətul-mutəşabihat” kitabını yazmışdır.

4. Əbu-Əmr Təmimi, “Əl-Vəqfu vəl-ibtida” və “Əl-Qiraat” adlı kitabları yazmışdır.

5. Xəlil ibn Əhməd Fərahidi, Quranın xətti haqda ilk kitabı yazmışdır.

- **Üçüncü əsrə aid:**

1. Yəhya ibn Ziyad, Quranın mənaları haqqında kitab yazmışdır.

2. Əbu-Ubeyd ibn Səlam, “Fəzailul-Quran”, “Ğəribul-Quran” və “Ecazul-Quran” kitablarını yazmışdır.

3. Şeyx Məhəmməd ibn Cərir Təbəri, “Camiul-bəyan ən-təvili ayil-Quran” təfsirini yazmışdır.

4. Məhəmməd ibn Məsud Səmərqəndi, “Təfsirul-Əyyaşi” kitabını tərtib etmişdir.

---

“Tədvinus-sunnətiş-şərifə”, Seyid Cəlali, səh. 137.[1]

5. Əli ibn İbrahim Qumi, “Təfsirul-Qumi” əsərini yazmışdır.

## 2- Quran elmlərinin əhatə etdiyi bir sıra mövzular

1. Vəhy
2. Quranın nazil olması
3. Quranın ad və sifətləri
4. Qurani-kərimin hissələri
5. Müqəttəə hərflər
6. Məkki və mədəni surə və ayələr
7. Quranın qiraət növləri
8. Quranın toplanıb kitab halına salınması
9. Quranın təhrif olunmaması
10. Möhkəm və mütəşabih ayələr

## 3- “Quran elmləri” barədə yazılan kitablardan bir neçə nümunə

1. “ət-Təmhid fi ulumil-Quran”, Ayətullah Şeyx Məhəmməd Hadi Mərifət, (vəfatı 1427 h.q) 10 cild, ərəb dilində.
2. “Quran elmləri ensiklopediyası”, Hacı İlqar İsmayılzadə, 1 cild, Azərbaycan dilində.
3. “əl-İtqan fi ulumil-Quran”, Cəlaləddin Süyuti, (vəfatı 911 h.q) 7 cild, ərəb dilində.
4. “əl-Burhan fi ulumil-Quran”, Bədrəddin Məhəmməd ibn Abdullah Zərkeşi, (vəfatı 794 h.q), 4 cild, ərəb dilində.
5. “Ulumi-Quran”, Ayətullah Mərifət, (Doktor Cavad İrəvani tərcümə etmişdir), 3 cild, fars dilində.
6. “Tarixi-Quran”, Məhəmməd Hüseyn Məhəmmədi, 1 cild, fars dilində.

## “Quran” sözü lüğətdə

Bu barədə Quran və lüğət alimləri tərəfindən müxtəlif fikirlər irəli sürülmüşdür:

1. “Quran” sözü, əslində “qərəə” (قَرَءَ) kökündən olub, “tilavət” (oxumaq) mənası daşıyır. Şeyx Təbərsi bu barədə yazır: “Quran sözü əslində oxumaq mənasını bildirən və oxumaq sözünün məsdəri sayılan “qiraət” kökündəndir.”1

2. “Quran” sözü əslində “qərən” (قرى) kökündən olub “cəm” və “toplamaq” mənasına malikdir.

Belə ki, Qurani-kərim öncə nazil olmuş bütün səmavi kitablardakı bütün həqiqətləri və maarifi özündə toplamışdır.2

3. Yəhudilərin kitabı “Tövrat” və məsihilərin kitabı “İncil” adlandığı kimi, müsəlmanların kitabı da “Quran” adlandırılmışdır və bu ad hansısa sözdən alınmamışdır.

4. “Quran” sözü əslində “qərain” (قَرائن) kökündən olub, “oxşar əlamətlər və nişanələr” mənasına malikdir. Çünki bu müqəddəs kitabın ayələri bir-birini təsdiq edir və bir-birinə bənzəyirlər.

5. “Quran” sözü əslində “qərənə” (قرن) kökündən olub, “dəlalət” və “işarə” mənasını daşıyır. Çünki bu müqəddəs kitab bütün insanların səadət və hidayəti üçün dəlil və işarə sayılır.

**Qeyd:** Yuxarıdakı mənalardan daha çox birinci məna məqsədə uyğundur. Deməli, “Quran” sözü müqəddəs kitabımız çox oxunduğu üçün əslində “qərəə” kökündən olmuş və “tilavət” (oxunmuş) mənasını daşıyır.

القرآن معناه القراءة فی الاصل و هو مصدر قراءت ای تلاوت**1**

---

1 “Məcməul-bəyan” təfsiri, Təbərsi, c.1, səh.82.

2 “Mufrədat”, Rağib İsfahani, səh.688.

## Qurani-kərim

–İslam dinində Quran peyğəmbərlərin sonuncusu həzrət Məhəmməd (s) vasitəsilə Allah tərəfindən bəşərin hidayətindən ötrü müsəlmanlara göndərilən səmavi və müqəddəs kitabın adıdır.

–Quran müsəlmanlar, hətta qeyri-müsəlmanlar arasında Allah tərəfindən İslam peyğəmbəri həzrət Məhəmmədə (s) nazil olmuş səmavi və müqəddəs kitabın adıdır.

–Quran İslam dininin ən mötəbər mənbəyi, İslam maarifinin ilk qaynağı, fərqli – fəsahət (fikri səlislik), bəlağət (fikri incəlik), ritorika, qədim tarix, tərbiyə və əxlaqa dair mövzularla bağlı göstərişlər – cəhətlərdən misilsiz bir kitabdır.

–Quran həzrət Məhəmmədin (s) ən böyük möcüzəsi və İslamın canlı və əbədiyaşar sənədidir. Endiyi gündən etibarən öz əsalətini (orijinallığını) qoruyub saxlamış və qiyamətədək toxunulmaz olan tək səmavi kitabdır.

## "QURAN"_ QURAN VƏ HƏDİS BAXIMINDAN

Söhbət Quranın fəzilətindən düşsə, yaxşı olar ki, bu barədə danışmaq istəyən özünü onun əzəməti qarşısında kiçik saysın, onun dərin mənalarını dərk etməkdə aciz olduğunu etiraf etsin. Bəlkə də bu, səmimi bir etiraf Quran barəsində nə isə deməkdən daha münasib olardı?!

İnsan müvəqqəti, (əql və qüdrət baxımından) məhdud və naqis varlıq olduğu bir halda, özünün elm və qüdrəti hər şeyi əhatə edən mütləqiyyəti, hər şeyi yoxdan yaradan kamil bir varlığı dərk edə bilərmi?

---

[1] "Məcməul-bəyan" təfsiri, Təbərsi, c. 1, səh. 82.

Hər hansı bir yazıçının qələmi və ya çıxış edən natiqin bəyan tərzi nə qədər güclü olsa da, Qurandan üstün və ya ona bərabər bir şey ifadə edə bilərmi? Məhdud bir varlıq özü kimi məhdud varlıqdan başqa bir vücudu vəsf və ya tərif etməyi bacararmı?

Quranın əzəmətini layiqincə bəyan etməyə qadir olan yalnız onun öz ayələri və bəşəriyyətin (həzrət Peyğəmbər (s)) vasitəsilə haqqa hidayət, habelə xoşbəxt həyatlarının təmin olunmalarının möcüzəsi ola bilər.

Bu asimani kitab əsrlər boyu bəşəriyyətin xoşbəxt həyat təminatçılığını və eyni zamanda onların üzərində olan rəhbərliyi öz öhdəsinə götürmüşdür.

Quranın bir çox ayələrində bu haqda deyilir:

«Həqiqətən, bu Quran [bütün bəşəriyyəti] ən doğru yola [islama] yönəldir». (9/17).

«Bu Quran elə bir kitabdır ki, onu sənə, insanların öz Rəbbinin izni ilə zülmətlərdən nura [küfrdən imana], həm də yenilməz qüvvət sahibi və hər cür tərifə, şükrə layiq olan Allahın yoluna [islam dininə] çıxartmaq üçün nazil etmişdir». (1/14).

«Bu, [belə əhvalatlar] insanlardan [xalqdan] ötrü [olub keçənlərə dair] bir xəbər, müttəqilərdən ötrü isə doğru yola göstəriş və nəsihətdir». (138/9).

Peyğəmbər (s)-dan bu haqda nəql olunmuş hədisdə deyilir:

«Allah-taala bütün varlıqlardan üstün olduğu kimi, Onun buyurduqları da bütün söylənilənlərdən üstün və fəzilətlidir.»

Deməkk, Quranın fəziləti haqda nəyi isə söyləmək insanların bacarıq və qüdrətindən xaricdir. Və belə olduğu bir halda, bu işi Quranın özündə yaşayan, onunla hidayət olub başqalarını da hidayət edən Əhli-beytin (ə) və Quran həqiqi mütəxəssislərinin öhdəsinə qoymaq lazımdır.

Quranın əzəmət və fəzilətini dərk edən həqiqi şəxslər məhz onlardır.

Belə ki, Quranı bəşəriyyətə çatdıran və onları şəri hökmlərlə tanış edən şəxs, onların (Əhli-beytin) cəddi həzrət Məhəmməd (s) olmuşdur. Onun, Quranın fəziləti haqqında buyurduğu hədislərdən birində deyilir:

«Mən özümdən sonra sizin üçün iki ədəd çox qiymətli və ağır əmanət qoyub gedirəm. Quran və Əhli-beytimi. Bu iki əmanət qiyamət gününədək bir-birindən ayrılmayacaqdır və o gün Kovsər hovuzunun kənarında mənə qovuşacaqlar.»

Buradan belə məlum olur ki, Peyğəmbər (s) və onun Əhli-beyti Quranı hamıdan daha çox dərk etmiş, özlərində yaşadaraq ona iman gətirmiş və bundan sonra xalqı haqqa doğru hidayət etmişlər. Belə isə, Quranı yaxından dərk etmək üçün onlar tərəfindən nəql olunmuş hədisləri nəzərdən keçirib, onların haqq yoluna qoşulmalıyıq.

Quranın fəziləti haqqında Əhli-beyt (ə) tərəfindən onlarlca hədis və rəvayət nəql olunmuşdur. Əllamə Məclisi bu hədisləri «Biharul-ənvar»ın 19-cu cildində bir yerə toplayaraq ayrıca bir fəsil tərtib etmişdir. Burada həmin hədislərdən bir neçəsini təqdim edirik:

Birinci hədis:

Haris Həmdani deyir: «Günlərin bir günündə məscidə daxil olub orada bir dəstə şəxsin faydasız mübahisələrə məşğul olduğunu gördüm. Əli (ə)-ın yanına gedib gördüklərimi ona danışdım. Buyurdu: Doğrudanmı sən bunları özün müşahidə etdin? Dedim: Bəli. Sonra buyurdu: Haris! Bir gün Peyğəmbər (s) mənə bu sözləri dedi: «Çox keçməz (müsəlmanlar arasında) fitnə və qarşıdurmalar yaranar.» Dedim: Ya Rəsuləllah! Bunlardan necə yaxa qurtara bilərik? Buyurdu: «Siz Allahın nazil etdiyi Quranla bütün ixtilaf və qarşıdurmalarınızı aradan qaldıra bilərsiniz. Onun vasitəsilə haqq ilə batil bir-birindən

asanlıqla ayrılar. Quran elə bir kitabdır ki, orada nə bir kəlmə zarafat, nə də bir mənasız ifadələrə rast gəlmək olar. O elə bir kitabdır ki, zalım və sitəmkarlar onu özlərindən uzaq etmək istəyirlər. Allah-taala da onları xar edərək fəlakətə düçar edər. Hər kim hidayət yolunu Qurandan ayrı bir vasitələrlə axtararsa, şübhəsiz, yolunu azacaq və zəlalətə düçar olacaqdır. Quran Allahla insanlar arasında olan qırılmaz rabitədir. Bəşəriyyəti haqqa hidayət edən Quran, nəfsani istəklər və əhrimənlər tərəfindən dəyişilməsi mümkün olmayan hikmətlə dolu bir kitabdır. Quran keçmişdə və gələcəkdə baş verən əhvalatları əhatə edir.

Quran vasitəsilə dillər təhrif və dəyişikliklərdən qorunar və heç bir faydası olmayan mübahisələrə birdəfəlik son qoyular. Alim və mütəfəkkirlər Quran ayələri ətrafında araşdırmalar aparar və heç vaxt yoruldum deməzlər. İllər, əsrlər keçdikcə, Quran öz möcüzəsini saxlayar və aşiqlərinin qəlbində daha dərin izlər qoyar.

Quran hətta cinləri belə, heyrətə gətirmiş və onlar Quran haqqında bu sözləri demişlər:

«Biz çox qəribə, təsəvvüredilməz dərəcədə gözəl olan bir Quran eşitdik. O, [xalqa] haqq yolu göstərir. Biz ona iman gətirdik».

Quranla danışanların sözü kəsərli və məntiqli olacaqdır. Onunla qəzavət edən şəxsin çıxardığı hökm ədalətli, öz əməllərini onunla tətbiq edən şəxslərin aqibəti isə xeyirlə nəticələnəcəkdir. Hər kim insanları Qurana doğru çağırarsa, onları haqqa hidayət etmiş olar.

Nəsihətlərin sonunda Əli (ə), Harisə bu sözləri buyurdu: **«**Ey Əvər, bu hədisi məndən yadigar saxla.» **(Sünən Darəmi, 2/435, Səhih Termizi, 11/30).**

Hədisin izahı:

Hədisdə bir neçə maraqlı mətləbə toxunulur:

«Quran keçmişdə və gələcəkdə baş verən əhvalatları əhatə edir.» Burada bir neçə mətləb nəzərə çarpır:

a) Bəlkə də «gələcəkdə baş verən əhvalatlar» deyildikdə, qiyamət günü nəzərdə tutulur. Çünki, Quranın bir çox ayələrində insanın qiyamət gününə, məhşərdə aparılacaq sorğu-suallara, onların gördükləri işlərə müvafiq olaraq mükafatlandırılıb-cəzalandırılacaqlarına əhəmiyyət verməlƏrinə xüsusi diqqət yetirilmişdir. Və eyni zamanda Əli (ə)-ın buyurduğu «Quranla siz bütün ixtilaf və qarşıdurmalarınızı aradan qaldıra bilərsiniz. Quran sizin axirət dünyanızı və öldükdən sonra bir daha diriləcəyinizi belə bəyan edir» sözləri bir daha bunları sübuta yetirir.

b) Bəlkə də «gələcək» deyildikdə məqsəd, Quranın gələcək hadisələr barəsində əvvəlcədən xəbər verməsidir. Belə ki, bir çox hadisələr Quran ayələri nazil olduqdan sonra baş vermişdir.

v) Bu barədə verilən üçüncü nəzəriyyə Quranın keçmiş qövm və millətlər barəsində xəbər verməsidir. Quran onların keçmiş tarixinə nəzər salaraq gələcək millət və nəsillərin bu yolu keçəcəklərinə işarə etmişdir. Bu ehtimala əsasən deyə bilərik ki, yuxarıdakı hədislərdə İnşiqaq surəsinin 19-cu ayəsi nəzərdə tutulur. Orada deyilir:

«Siz [ey kafirlər, qiyamət günü] haldan-hala düşəcəksiniz».

Yəni, siz də özünüzdən əvvəlki qövmlərin getdikləri batil yolu gedəcək və özünüzü ağır həlakətə düçar edəcəksiniz.

Eyni zamanda bu hədis Peyğəmbər (s)-dan nəql olunmuş hədisə də dəlalət edə bilər. Hədisdə deyilir: «Siz də özünüzdən əvvəlkilərin puç və batil həyat tərzini dirildəcək və onların adət-ənənələrini davam etdirəcəksiniz.» **(Kənzul ummal, 6/40).**

2. «Quran elə bir kitabdır ki, zalım və sitəmkarlar onu özlərindən uzaq etmək istərlər. Allah-taala da onları xar və

böyük fəlakətə düçar edər» deməklə, Peyğəmbər (s) Quranın zalım və bidətçilər tərəfindən təhrif olunmayacağını və əbədi olaraq öz əzəmətini saxlayacağını bəyan etmək istəmişdir.

Onlar əvvəlki səmavi kitabları təhrif etdikləri kimi, heç vaxt Quranı əyləncə vasitəsinə çevirməyə və onun hökümlərini dəyişməyə nail olmayacaqlar. («Əlhuda ila dinul Mustəfa», 1/34).

«Şəxsi meyl və istəklər orada dəyişikliklər apararaq onun həqqaniyyətinə xələl gətirə bilməzlər.»

Biz bilirik ki, bəşər Quran ayələrini öz şəxsi rəy və nəzərləri ilə təfsir etmiş və oradan müxtəlif mənalar əldə etmişlər. Amma bütün bunlara baxmayaraq, onun həqiqi mənası öz dəyişilməzliyini saxlamış və qiyamət gününə qədər də toxunulmaz olaraq qalacaqdır.

3. Hədisdən əldə etdiyimiz üçüncü mühüm mətləb Quranın bütün ixtilaf və keşməkeşləri həll etməsidir. Belə ki, hədisdə deyilir «Allahın nazil etdiyi Quranla siz bütün ixtilaf və qarşıdurmalarınızı aradan qaldıra bilərsiniz.» Bu bir daha Quranın qəzavət və ictimai ədalətin bərqərar olunması üçün ən gözəl vasitə olduğunu sübuta yetirir.

Bəli, əgər müsəlmanlar öz maddi və mənəvi həyatlarında Qurana sığınaraq onun hökmlərindən lazımı qaydada istifadə etsəydilər, həqiqəti tamamilə dərk edər və Peyğəmbər (s)-ın Əhli-beytinin (ə) məqamından agah olardılar. O Əhli-beyt ki, Peyğəmbər (s) onların əhəmiyyətini Quranla eyni səviyyədə tutmuş və özündən sonra məhz onları canişin təyin etmişdir.

Həqiqətən, əgər müsəlmanlar Quranı özləri üçün haqq və ədalət şüarı bilsəydilər, bu gün belə bir çıxılmaz vəziyyətə düşməzdilər. Əgər onlar Quran nuru altında hərəkət etsəydilər, hər bir ali hədəflərinə çatar və bir daha haqq yoldan azmazdılar.

Amma təəssüflər olsun ki, müsəlmanlar Qurana arxa çevirib cahiliyyət dövrünün adət-ənənələrinə üz tutmuşlar. Onlar zəlalət bayrağı altına pənah aparmış və nəticədə din, əqidə, təriqət və s. bu kimi ixtilaflara düçar olmuşlar. Bu ixtilaflar günbəgün böyüyərək müxtəlif cərəyanların yaranmasına səbəb olmuşdur. Biri digərini küfr və itaətsizlikdə təqsirləndirir, nahaq qanını tökür və var-dövlətini haqsız olaraq qarət edir. Onlar müxalif təriqətləri təhqir və tənqid etməyi, hətta lənət oxumağı belə özləri üçün ibadət sanır və bununla Allaha yaxınlaşmaq istəyirlər. Bütün bunların səbəbi isə bizə məlumdur. Qurandan uzaq düşmək, onu şəxsi rəy, yaxud müəyyən nəzərə əsaslanaraq təfsir etmək bütün fəsadların mənşəyidir.

İkinci hədis:

Əli (ə)-dan nəql olunmuş ikinci hədisdə Quran belə vəsf edilir: «Quran sönməz əbədi nur və dərinliyi bilinməyən böyük bir dənizdir. Quran haqq yolu və ümid mənbəyidir. Bu yolun yolçuları qət etdikləri mərhələdə zülmət və qarnlıqlarla qarşılaşmaz və haqq yoluna hidayət olunarlar. Quranın gətirdiyi dəlil və sübutlar dəyişilməz və əbədidir. Quran bütün dərdlərin dərmanı və şəfa mənbəyidir. Quranı özündə yaşadan şəxslər daim alnıaçıq və vüqarlı olarlar. Quranın tərəfdarları bir an olsun belə, himayəsiz qalmaz və onu özlərinə ən böyük hami və dayaq hesab edərlər. Quran iman xəzinəsi, tükənməz elm mənbəyi, ədalət və qəzavət gülüstanıdır.

Quran islamın təməli və geniş həqiqət düzənliyidir. Quran suyu tükənmək bilməyən dəniz və bulanmayan bir çeşmədir. Quran öz yolçularının yoluna nur saçan hidayət carçısıdır. Onun yolçuları qəflət və cəhalətdən uzaq olar və haqq yoldan bir an olsun belə, sapınmazlar. Allah-taala Quranla elm susuzlarının susuzluğunu yatırar, fiqh alimlərinin qəlblərinə təravət bəxş edər və əməli-saleh insanları öz məqsədlərinə

çatdırar. Qurana iman gətirənlər ömürlərini izzət və əmin-amanlıqla başa vurarlar. Quran ona pənah gətirmiş şəxsləri ümidsiz qoymaz və onları özünün səadət və xoşbəxtlik yoluna hidayət edər. Quran dəlil axtaranlar üçün ən tutarlı sübut və istidlal mənbəyidir. Quran mütəfəkkirlər üçün əlamət və nişanələr, silaha ehtiyacları olanlar üçün ən gözəl sığınacaq, alimlər üçün tükənməz elm mənbəyi, onu nəql edən kəslər üçün ən böyük hədis, hökm çıxaran qazilər üçün isə ən gözəl ədalət nümunəsidir. (Nəhcül-bəlağə, 198-ci səh.)

Bu xütbədə də bir neçə mühüm məsələyə işarə olunmuşdur və biz onlardan bəzilərini şərh edirik.

«Quran nuru sönməyən əbədi hidayət çırağıdır». Hədisdə buna oxşar ifadələrlə dəfələrlə qarşılaşırıq. Buradan məqsəd, Quranın həqqaniyyətinin müvəqqəti olmamasıdır. Onun ayələrinin əbədi verdiyi hökmlər isə, həmişəlik qüvvə və icra məqamında qalacaqdır. Məsələn, Quranın bəzi ayələri müəyyən şəxs və ya hadisələr barəsində nazil olmuşdur, amma buna baxmayaraq, onun ümumi məfhum və mənası qiyamət gününədək müəyyən şəxs və ya hadisələrə deyil, ümumi şeylərə aid olacaqdır.

Əyaş, İmam Baqir (ə)-ın **«Hər tayfanın [doğru yol göstərən] bir rəhbəri vardır» (Rəd-7)** ayəsinə verdiyi təfsir haqda nəql etdiyi rəvyətlərdən birində bu mətləbə işarə edərək deyir: «Ayədə rəhbər [yol göstərən] deyildikdə, Əli ibni Əbu Talib (ə) nəzərdə tutulur. Və rəhbər hər zaman bizim Əhli-beytimizdən olacaqdır.»

Ravi deyir: Demək bu ayə sizə də şamil olunur. Və siz də ayədə işarə olunan rəhbərlərdənsiniz.

Buyurdu: Bəli, ayə mənə də şamil olunur. Quran ayələri hər zaman qüvvədə olduğu üçün mən də ayənin aid olduğu nümunələrdən biriyəm. Fəna və məhdudiyyət Quran üçün heç bir əhəmiyyət kəsb etməyir. Əgər hər hansı bir ayə yalnız

müəyyən qövm və ya millət barəsində nazil olsaydı, bu günə kimi Qurandan heç bir əsər-əlamət qalmazdı. Halbuki belə deyildir. Quran ayələri əbədi olaraq keçmiş qövm və millətlərə şamil olduğu kimi, gələcək nəsillərə də şamil olunur və bu məlumatlar onlar üçün də etibarlı sayılır.

İmam Sadiq (ə)-dan bu məzmunda nəql olunmuş hədislərdən birində deyilir:

«Quran, diri və əbədi bir kitabdır. O, heç vaxt məhv olub aradan getməyəcəkdir. Gecə və gündüz əsrlər boyu eyni cərəyanda olduğu kimi və günəş əsrlər boyu aləmi işıqlandırdığı kimi, Quran da həm keçmişdə, həm də gələcəkdə müsəlmanlar üçün əbədi mənəviyyat nuru olmuş və olacaqdır.»

Üsuli-kafidə Ömər ibni Yəziddən nəql olunmuş hədisdə deyilir:

«O kəslər ki, Allahın, birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir [qohumluq əlaqələrini qoruyub saxlayır, möminlərə hörmət edir]» (Rəd-21) ayəsinin mənasını imam Sadiq (ə)-dan soruşduqda buyurdu: «Bu ayə Peyğəmbər (s)-ın Əhli-beyti haqda nazil olmuşdur. Möminlər onları sevməli və onlarla əlaqələrini kəsməməlidirlər. Sonra sözünə davam edərək buyurdu: Ayə Peyğəmbər (s)-ın Əhli-beyti barəsində nazil olsa da, sənə yaxın olan qohum-əqrəbaya da şamil ola bilər. Sənə tövsiyə edəcəyim şey budur ki, müəyyən şəxslər barəsində nazil olmuş ayələri yalnız onların özlərinə aid etməyəsən».

Fərat Kufinin təfsirində deyilir: «Əgər hər hansı bir ayə yalnız müəyyən qövm və ya millət barəsində nazil olsaydı, indi Qurandan heç bir əsər-əlamət qalmazdı. Amma bu bir həqiqətdir ki, yer və göylər durduqca, Quran da duracaq və dünyanın ömrü qədər bəşəriyyətin həyatında aparıcı rol oynayacaqdır. Belə ki, Quran bütün qövm və millətlərin istər

müsbət və istərsə də mənfi xüsusiyyətlərini açıq-aşkar tərzdə bəyan etmişdir.» «Miratul-ənvar, 3-4-cü səh».

Bu məzmunda istənilən qədər hədis və rəvayət nəql olunmuşdur, amma bu bir neçə hədislə kifayətlənib xütbənin izahını davam etdiririk.

2. «Bu yolun davamçıları qət etdikləri mərhələlərdə zülmət və qaranlıqlarla qarşılaşmaz və haqq yoluna hidayət olunarlar:» Buradan məqsəd Quranın insanları haqq yola hidayət etməsidir. Hər kəs bu yolun yolçusu olsa, bir daha cəhalət və nadanlığa üz tutmaz. Çünki, Allah-taala Quranı bəşəriyyətin haqq yola hidayəti və xoşbəxt həyatının təmin olunması üçün nazil etmişdir. Beləliklə, haqq və ədalətsevər insanlar zəlalətdən üz çevirib əbədi xoşbəxt həyata qovuşarlar.

3. «Quranın ayələri açıq-aşkar, verdiyi hökmlər isə dəyişilməzdir.»

Burada iki ehtimal vermək olar:

a). Quranın maarif və təlim prinsiplərinin əsasını bəşəri fitrət və təbii qanunlar təşkil edir. Belə ki, bu prinsiplər sabit və dəyişilməz qanunlar üzərində qurulmuşdur.

b). Quranın həqiqi formasını təşkil edən kəlmə və ifadələr öz orjinallığını itirmədən qorunub saxlanmış, hətta cüzi əlavə və ya ixtisara yol verilməmişdir.

4. «Quran haqq-ədalət gülüstanıdır» deyildikdə, əqidə və təfəkkür, əməl və əxlaq, qəzavət və mühakimə, ictimai ədalət və s. sahələrdə ədalətə ayırdığı xüsusi diqqət nəzərdə tutulur. Bu səbəbdən də Quran ədalət ağaclarının becərildiyi «gülüstan» adlanır.

5. «Quran imanın təməlidir». Buradan məqsəd islam dininin istər əxlaqi, istərsə də əməli hökmlərinin Quran ayələrinə əsasən vahid formada qorunub saxlanılmasıdır.

6. «Quran geniş həqiqət düzənliyidir.» Düzənlikdə hər şey maneə olmadan necə varsa elə də göründüyü kimi, Quran da

bütün həqiqətləri açıq-aşkar bəyan edir. Bu səbəbdən də Quran burada geniş səhra və düzənliyə və orada maniəsiz görünən şeylər isə həqiqətə oxşadılmışdır. Burada başqa bir mətləbə də işarə olunmuşdur. O da insanların haqq-ədalətə nail olmaq üçün yalnız Qurana üz tutmalarıdır. Hər kim həqiqəti Quranda deyil, ayrı yerlərdə axtararsa, istəyinə nail ola bilməyəcəyini yəqin etməlidir.

7. «Quran suyu tükənmyən bir dənizdir.» Yəni, hər kim Quranın bütün sirlərinə yiyələnmək istəsə, buna tam şəkildə nail ola bilməyəcəkdir. Çünki, onun kəşf olunan sirləri nə tükənmək bilir, nə də öz etibarını itirir. Yerin dərin qatlarından qaynayan bulaqların suyu tükənmədiyi kimi, Quranın da əsrarəngiz sirləri tükənmək bilmir.

Quranın əhatə dairəsi o qədər genişdir ki, onun hər hansı bir mövzusu haqqında araşdırma aparan tədqiqatçılar, ondan yalnız öz şüur və düşüncələri qəbul etdiyi səviyyədə bəhrələnə bilərlər.

Elm şahinləri nə qədər çalışsalar da, onun yüksəkliyinin qülləsinə çatmazdan əvvəl özlərində yorğunluq hiss edir, çatdıqları mərhələyə qənaət etməli olurlar. Onlar bu mərhələyə çatmaqla öz məqsədlərinə nail olduqlarını zənn edir, amma bir addım irəli getdikdə qarşılarında yeni-yeni mətləblərin açıldığının şahidi olurlar.

## 4- Vəhyin mənası

Allah-taalanın insanları yaratmaqdan məqsədi onların kamilliyə çatması və ilahi-əxlaqi dəyərlərə yetişmələri olmuşdur. Və buna görə də Allah-taala bəndələrilə öz arasında müxtəlif vasitələrlə əlaqə saxlamışdır. Bu mənəvi əlaqə və rabitələrin hamısının kökü «vəhy» deyilən ilham qüvvəsinə qayıdır. Başqa dillə desək, tanrının insanların haqqa yönəlmələri və vicdanlarının oyanması üçün onlara mənəvi qüvvələr ilə ilham etməsinə

«vəhy» deyilir.1 Başqa ibarətlə desək, İslam dinində İlahi xəbərlərin peyğəmbərlərin vasitəsilə dərk olunmasına «vəhy» deyilir. Buna əsasən «vəhy» üç qismə bölünür:
1. Allahın heç bir vasitə olmadan, yəni birbaşa peyğəmbər ilə söhbəti. (Allah-taalanın «merac»da heç bir vasitə olmadan Məhəmməd peyğəmbərlə (s) söhbətini buna misal çəkmək olar).
2. Allahın hansısa bir vasitə ilə peyğəmbərlərlə söhbəti (Allahın «Tur» ağacına vəhy etmək yolu ilə Musa peyğəmbərlə (ə) danışığı kimi).
3. Allahın peyğəmbərlərə mələk nazil edərək xəbər göndərməsi
İslam alimlərinin nəzəri budur ki, Qurani-kərimin Məhəmməd peyğəmbərə (s) nazil olması vəhyin üçüncü qisminə aid olunur. Qurani-kərim bu məsələyə belə işarə edir:
**«Ruhul-Əmin (Cəbrayıl adlı mələk) sənin qəlbinə vəhy edir»** *(Şüəra, 194)*
Burada belə bir sual meydana çıxır ki, İslam baxımında Həzrət Məhəmməd (s) vəhy aldığı üçün nə sayılır? Məsihiyyətdə olduğu kimi Allah, yoxsa sadəcə olaraq bəndə?
Cavab: İslamda xristianlıqdan fərqli olaraq dinin banisi başqaları kimi Allahın bəndəsi və qulu sayılır. Onun başqa bəndələrlə fərqi Allah tərəfindən xəbər gətirməsi və peyğəmbər olmasındadır. Qurani-kərim bu barədə belə buyurur:
**«Məhəmməd yalnız Allahın peyğəmbəridir, necə ki, ondan qabaq bir sıra peyğəmbərlər gəlib-getdilər.» (Ali-İmran, 141)**
**Başqa bir ayədə deyilir ki, peyğəmbərlərin məmuriyyətinin əsası insanları Allah bəndəçiliyinə dəvət etməkdir. Necə ki, buyurur: «Biz hər bir ümmətə peyğəmbər göndərdik ki, onları Tanrıya itaət və ibadətə dəvət etsinlər.» (Nəhl, 36) Həmçinin buyurur: «Biz insanları və cinləri ona görə ya-**

---

«Vəhy» lüğətdə «işarə», «ilham», «sirr» və «yazmaq» mənasınadır[1]

**ratdıq ki, yalnız Allaha bəndəçilik etsinlər.» (Zariyat, 56) Qurani-kərim peyğəmbərlərin də bəndə olmalarına bir neçə yerdə israr etməklə müsəlmanları məsihilərin getdiyi yoldan çəkindirir: «Allah öz bəndəsinə (Məhəmmədə aydın şəkildə ayələr vəhy etdi ki, sizi qaranlıqdan çıxarıb işıqlığa yönəltsin.» (Hədid, 9) «Allah öz bəndəsinə lazım olan ayələri vəhy etdi.» (Nəcm, 10)**

Deməli, İslam dinində «vəhy» yalnız Allahın bəndəsinə gəlir. Bu dində bütün insanlar Allaha bəndə və qul olmağa çağırılır. İslam dini Yaradanın vahid olmasına təkid etməklə, onun heç vaxt övladı olmamasını da möhkəm şəkildə bəyan edir. Qurani-kərimin buyurduğuna əsasən, hətta Həzrət İsanın (ə) özü, Məsihilərin ona səbəb dedikləri üçün Allahın yanında xəcalət çəkirdi. Uca Tanrı Qurani-kərimdə buyurur:

**«Ey Məryəm (ə) oğlu İsa, sən camaata dedin ki, Allahın kənarında məni və anamı özünüzə Tanrı qərar verin?! (İsa) dedi: İlahi sən bu sözlərdən paksan, mənimsə elmim olmadığı şey barəsində söz deməyə haqqım yoxdur. Və əgər mən belə bir söz desəydim, sən mütləq onu bilərdin. Sən mənim zatımdan xəbərdarsan, mən isə zatından agah deyiləm, yalnız sən bütün qeyblərə agahsan.»** *(Maidə, 116)*

## Vəhy və ya gizli idrak

- **1- Yaradılış sistemi növləri kamala doğru sövq etdirir:**

Yerə düşmüş, əlverişli şəraitlə yarılıb cücərməyə başlayan buğda dənəsi şübhəsiz ki, öz inkişafını kamilliyə çatdırıb sünbülə çevrilməyə və çoxsaylı dənələr bəhrə verməyə doğru hərəkət edir.

Həmçinin yerin bətnində gizlənmiş, sonra isə öz qabığını soyub yaşıl gövdəsini çölə çıxaran meyvə tumu həmin andan

yaşıl və məhsuldar ağac olmağa, yəni kamilliyinin son dərəcəsinə doğru üz tutur.

Yumurta içərisində olan cücə və ya ana bətnində formalaşan insan rüşeymi də həmin vaxtdan varlığın imtiyazlarından bəhrələnən və öz vücudi təsirini bağışlayan bir toyuq və ya insan olmağa doğru hərəkət edir.

Bu kimi yüzlərlə, minlərlə nümunələrdən aydın olur ki, yaranış sistemi təkvini1 tərbiyə ilə xaricdə olan növlərin hər birini özünə uyğun kamilliyə doğru sövq etdirir və bu növlər arasındakı fərdlərin öz təkvini trayektoriyasında bir sıra ziyanlarla qarşılaşmasına və yoldan qalıb yoxluğa yuvarlanmasına baxmayaraq yaranış sistemi öz yolundan əl çəkməyib işini davam etdirir və varlıq karvanını özlərinə məxsus hədəflərə yönəldir.

- **2- İnsan başqalarını istixdam2 (istismar) etməklə mədəniyyət yaradır.**

Şübhəsiz ki, insan yaşayışın bütün sahələrində mədəni və ictimai bir varlıqdır. İnsanın başdan-başa ehtiyac içində olan vücudunun quruluşu, keçmişdəkilərdən gəlib çatan tarix, həmçinin insanların təcrübəsi və indiki nəslin sinif və fərdləri bu həqiqəti təsdiqləyir.

---

Yaranışa aid olan. Azərbaycan dilində, xüsusilə fəlsəfi ədəbiyyatda bu mənanı ifadə 1 etmək üçün çox vaxt yunan mənşəli "genetik" sözündən istifadə olunur. (tərcüməçi)

Əllamə Təbatəbai "istixdam" nəzəriyyəsini "əl-Mizan" adlı kitabında Bəqərə 2 surəsinin 213-cü ayəsinin təfsirində, eləcə də "Fəlsəfənin əsasları və realizm metodu" kitabında ortalığa atıb elmi şəkildə əsaslandırmışdır. Bu nəzəriyyədə deyilir ki, insan ətrafındakı hər bir şeyə, hətta başqa insanlara belə, alət gözü ilə baxaraq öz mənafeyi üçün onlardan istifadə etməyə və faydalanmağa çalışır, bu da öz növbəsində bir sıra ictimai proseslərə səbəb olur. Leksik baxımdan "xidmət" sözündən olan və "başqalarını özü üçün işlətmək", "başqalarından xitmət tələb etmək" mənasını daşıyan "istixdam" sözü "istismar" sözünə yaxın olduğu üçün tərcümədə "istismar" sözündən istifadə etməyi münasib bildik. (tərcüməçi).

Lakin diqqət etmək lazımdır ki, insan növü yaranış baxımından elə qurulmuşdur ki, hər şeyi özü üçün istəyir. Insan təbiətin enerjisindən, bütün elementlərin fiziki və kimyəvi faydalarından öz mənfəəti üçün istifadə edir.

İnsan bütün bitki və ağaclardan onların meyvə, gövdə, yarpaq, kök, budaq və tumundan öz yaşayışının ehtiyaclarını ödəyib onları uzaq məqsədlər yolunda vasitə edir. Insan heyvanın müxtəlif növlərinin ət, dəri, yun, qan, süd və buynuzundan, hətta ifrazatlarından belə faydalanıb, onları bəsləyərək öz yaşayşının məqsədləri yolunda işlədir. Görəsən insan hər şeydə tətbiq etdiyi bu istismarçılıq instinktini öz həmnövlərində, yəni insanlar üzərində tətbiq etməyib onları istisna edirmi?

İnsan ailə cəmiyyətini (evliliyi) öz həyat yoldaşından ləzzət və fayda almaq üçünmü istəyir, yoxsa öz ləzzətini ailə üçün istəyir? Insan mədəni toplumu öz yaşayışının ehtiyaclarını təmin etmək üçün ən gözəl vasitə olduğuna görəmi istəyir, yoxsa özünü mədəniyyətdən ötrü istəyir? İnsan özü üçün ailə cəmiyyətində və ya mədəni toplumda heç bir xoşbəxtlik görməsə, yenə də bu cəmiyyəti istəyəcəkmi? (Şübhəsiz, bu suallar fərdin mənafeyi ilə toplumun mənafeyinin üst-üstə düşdüyü yerlərə aid deyil)1*. Aydındır ki, insan bütün varlıqlarda tətbiq etdiyi bu istismarçılıq instinktini öz həmnövlərində də tətbiq edəcəkdir. Deməli, insan istismarçı bir varlıq olub cəmiyyəti özünə xidmət üçün seçmişdir.2، 1*

---

* Əllamə Təbatəbai bildirmək istəyir ki, fərd cəmiyyətdən ayrı olmadığı üçün onun [1] mənafeyi cəmiyyətin mənafeyi ilə üst-üstə düşdüyü cəhətdən öz mənafeyini cəmiyyətin mənafeyində də görə bilər. Lakin bununla belə, insan cəmiyyət və mədəniyyətin özünü istəmir. Bütün bunları yalnız öz mənafeyinə xatir istəyir. ***(Ulduz işarəsi ilə göstərilən izahlar ayətullah Məkarim Şirazidəndir)***

* Sosiologiya və hüquq kitablarında müzakirə obyekti olan fərdin və ya cəmiyyətin 2 əsas götürülməsi, başqa sözlə, individualizm və kollektivizm adlı məsələ gözə çarpır. Individualistlər inanırlar ki, hər bir fərd ixtiyar sahibidir, öz mənafeyini hamıdan yaxşı bilir və başqalarına maneəçilik törətməyəcəyi təqdirdə bu mənafeləri müəyyənləşdirib

### ▪ 3- İnsanların qarşılıqlı əməkdaşlıq cəmiyyəti

Elə buradan da əməkdaşlıq cəmiyyəti qurulur. Çünki aydın olduğu kimi insan əməkdaşlıq cəmiyyətini buna görə qəbul edir ki, təklikdə və başqalarının səylərindən istifadə etmədən öz çalışmaları nəticəsində yaşayışının ehtiyaclarını təmin edə bilmədiyini görür. Digər cəhətdən isə, başqalarının çalışmalarına əvəzsiz və müftə sahib olmaq mümkün deyildir. Çünki başqaları da onun kimi insandır və onun digərlərindən istədiyini onlar da ondan istəyirlər. Çarəsiz qalaraq əməkdaşlıq cəmiyyətini ən gözəl vasitə görərək onu seçir. Nəticədə öz çalışma və cəhdlərinin nəticəsinin bir miqdarını başqalarına verərək əvəzində onların işlərinin nəticəsindən faydalanır. Yəni bütün fərdlər öz işlərinin məhsulunun məcmusunu bir yerə toplayır, sonra ictimai ölçüsünə uyğun olaraq öz ehtiyacını təmin edir.2*

---

əldə etməkdə tam azaddır. Bunun əksinə olaraq, cəmiyyəti əsas götürən kollektivistlərin fikrincə fərdin mənafeləri cəmiyyətin mənafelərinə tabedir, hökumət fərdlərin bütün işlədinə müdaxilə edib onlar üçün qanunlar qoya bilər.

Burada deyilənlərdən aydın olur ki, ümumiyyətlə bu müzakirə yersizdir. Çünki cəmiyyət, fərdlər tərəfindən onların xeyrinə olan qarşılıqlı müqavilə və müahidədən başqa bir şey deyildir. Şübhəsiz ki, hər bir fərdin ictimai qanunlara tabe olması onun öz xeyrinədir. Heç kəs onun istəyinin əksinə hərəkət edən cəmiyyətin tərəfdarı deyildir. Cəmiyyət sözün tam mənasında bundan başqa şəkildə ola bilməz. Bundan başqa şəkildə olan köləlik və əsarətdir.

[1] * Burada kimsə "istismar" (başqalarından faydalanma) işinin bir instinkt yox, "özünüsevmə" instinktini təmin etmək üçün əqli bir yol olduğunu qəbul edə bilər. Çünki insan hər şeydən əvvəl özünü sevir və öz həyatı, öz səadəti onun üçün maraqlıdır. Bu instinkt onu başqa varlıqlarından öz xeyrinə istifadə etməyə vadar edir. Deməli "istismar", "özünüsevmə" adlı instinktə əsaslanan əqli bir dəlilin nəticəsidir. Lakin burada əsas məqsəd "istismar" işinin instinkt, yaxud əqlin hökmü olması yox, onun heç zaman insandan ayrılmayan və onun istisnasız olaraq bütün varlıqlarda tətbiq etdiyi bir məsələ olmasıdır.

[2] * Həqiqətdə, əməkdaşlıq əsasında qurulan cəmiyyət fərdlərin, mötədil formaya düşmüş qarşılıqlı "istismar"ından başqa bir şey deyildir. Bir çox sosioloqların cəmiyyətin başlanğıcı haqqındakı nəzəriyyələri də bunu təsdiq edir. Çünki onların fikrincə ictimai yaşayışın mənşəyi ilk günlərdə yırtıcı heyvanlardan qorxu olmuş və ibtidai insanlar bir-birinin gücündən istifadə edib bu heyvanların qarşısında özlərini müdafiə etmək üçün

▪ **Fərdlərin ixtilafının üzə çıxması**

Əməkdaşlıq cəmiyyəti, deyilən amillər nəticəsində fərdlər arasında zəruri şəkildə yaransa da insan bu əməkdaşlıq cəmiyyətini və bu cəmiyyətin nəticəsində yaranan ictimai ədaləti çarəsizlik üzündən qəbul etdiyi üçün həmişə qəlbinin dərinliklərində bu ictimai bağlılığı qırıb onun yaratdığı məhdudiyyətlərdən azad olmaq fikrindədir. Bu görə də, gücləndiyi və özündə qüdrət tapdığı zaman başqalarının haqlarını tapdamaqdan çəkinməyəcək.1*

İnsan barəsində gəlib çatan tarixi faktlar təsdiq edir ki, həmişə güclülər zəifləri əzmiş və onların bütün varlığını qarət etmişlər. Həmişə güclü fərdlər zəif fərdləri alçaldıb boyunduruq altında saxlamış, onlardan da digər canlı və cansız varlıqlar kimi öz mənfəətləri üçün qeydsiz-şərtsiz istifadə etmişlər.

---

ictimai yaşayışı qəbul etmişlər. Bunun özü də çatdırır ki, ictimai yaşayış əməkdaşlıq əsasında qurulmuşdur.

* Deyildiyi kimi insan hər şeydən əvvəl özü və öz səadəti ilə maraqlanır və başqa hər [1] bir şeyi özünə xatir istəyir. Fərdlərin ağır ictimai qanunlar qarşısında təslim olub ictimai ədaləti qəbul etməyə məcbur olmaları onların özünüsevmə hissinin mötədil şəklə salınmasının nəticəsidir. Buna görə də bu qanunlara tabe olmaq insanın özünüsevmə hissi ilə müəyyən qədər ziddiyyət təşkil edir və bu tabeçilik onun təbiəti ilə uyğun olmadığı üçün həmişə bu qanunlardan qaçmağa çalışır. Burada kimsə irad tutub deyə bilər ki, "insan öz şəxsi mənafeyini qorumaq üçün də olsa, ictimai ədalət qanunlarına riayət etməlidir. Çünki bu itaətsizliyin mənfi nəticələri dolayı yolla onun özünün də ziyanınadır. Belə ki, bu qanunlara riayət etmək əslində bir növ qarşılıqlı müahidədir və müəyyən bir şəxsin onu pozması başqaları tərəfindən də onun pozulmasına səbəb olur. Odur ki, istismar hissi ilə iş görən insanın ictimai ədalət qanunlarından boyun qaçırmağa haqqı yoxdur. Çünki öz hüquqlarını qorumaq üçün başqalarının hüquqlarına ehtiramla yanaşmalıdır. Başqa sözlə desək, özünüsevmə hissi onu insansevərliyə tərəf sövq edir."

Lakin müqəddimədə buna oxşar bir iradın cavabını geniş şəkildə izah etmişik, burada isə əlavə etməliyik ki, bu söz fərdlərin ictimai qüdrətlərinin bərabər fərz olunduğu zaman, yəni bir şəxsin qanunu pozarkən başqalarının da qanundan boyun qaçıra biləcəyi surətdə düz ola bilər. Lakin əksər hallarda ictimai qüvvələr bərabər səviyyədə olmur və belə bir zamanda güclülər qanunlara riayət etməkdən imtina edilər, başqalarını isə qanunlara riayət etməyə məcbur edirlər.

Tədqiqatlar göstərir ki, insan cəmiyyətindəki bu vəziyyət həmişə olmuş və olmaqdadır. Bu fərqlə ki, keçmişdə müxtəlif növ zorakılıq və təcavüzkarlıqlar fərdi şəkildə və fərdlə fərd, yaxud fərdlə cəmiyyət arasında halında həyata keçirilirdisə, bu gün güclü və zəif cəmiyyətlər arasında həyata keçirilir!!.
Elə buradandır ki, insan, fərdlərin hüquqlarını təmin edəcək hakim bir qanun olmadan cəmiyyətin yaşayışının, qalmasının və insan növünün həyatının imkansız olacağını hiss edir. Odur ki, insan cəmiyyətində müntəzəm surətdə qanunlar qoyulmuşdur. Yalnız bu fərqlə ki, qeyri-mütərəqqi cəmiyyətlərdə qanunlar siniflərarası çəkişmələr vasitəsilə öz-özünə güclülərin xeyrinə nəticələnir və cəmiyyətdə nizamsız şəkildə həyata keçirilir. Mütərəqqi cəmiyyətlərdə isə ölçülüb biçilmiş şəkildə qanunlar verilərək xalqa zorla qəbul etdirilir nisbətən nizamlı formada icra olunur. Eyni zamanda öncə güclü fərdlə zəif fərdlər və ya güclü fərdlə zəif cəmiyyətlər arasında olan zorakılıqlar hazırda qüdrətli cəmiyyətlərlə zəif cəmiyyətlər arasında davam etməkdədir.

- **5-İxtilafın çarəsi**

a) Bu ixtilafı insan öz formalaşdırdığı qanunlarla aradan götürə bilərmi?
Yaxud insanın hansısa bir gün öz istismarçılıq ruhundan əl çəkəcəyini və əməkdaşlıq cəmiyyətini öz şəxsi mənfəətləri üçün deyil, cəmiyyətin və ədalətin özü üçün istədiyini fərz etmək olarmı?
Şübhəsiz ki, yox.1* Çünki deyildiyi kimi insan öz istismarçılıq ruhunun və təhtəlşüurunun təsiri ilə cəmiyyəti öz mənafeyi

---

* Şübhəsiz insaf və ədalətsevərlik hissi o qədər güclü, vicdanı o qədər ayıq olan nadir [1] şəxslər tapıla bilər ki, eqoizm hissini özündən uzaqlaşdırıb ədaləti ədalətə və cəmiyyəti cəmiyyətə xatir sevsinlər. Lakin sözsüz ki, bu nümunəvi şəxslər heç vaxt ümumi təfəkkür tərzinə əsaslanan ictimai hesablamalarda əsas götürülə bilməz. Çünki elmi şəkildə bildiyimiz kimi və təcrübənin sübut etdiyinə görə, hər bir şeydən daha artıq insanın vücuduna hakim olan özünüsevmə hissidir və həqiqətdə haqqında danışılan

üçün istəyir və nə qədər ki, insan insandır o, öz təhtəlşüurunu, yəni xüsusi quruluşunun məhsulu olan öz subyektiv hissiyyatlarını itirməyəcək. Dünyanın ən sınanmış təcrübəsi sayılan bəşər tarixinin neçə min illik təcrübəsi bu mətləbi təsdiq edir. İnsan bu ixtilafın bataqlığından qurtarmağa can atdıqca daha çox zəncirlənir. Keçmiş dövrlərdə bir daş tullamaqla bir nəfər öldürən insan indi bir bomba atmaqla bir "Herosima" şəhərini yox edir. Bir gün bir gücsüz insanı əsir edib öz quluna çevirən və onun zəhməti ilə bir az qəpik-quruş qazanan insan hal-hazırda milyonlarla qula və milyardlarla lirəyə və dollara qane olmur...

Ümumiyyətlə insanın ixtilaf və fəsada səbəb olan instinktiv şüuru eyni zamanda ixtilafın aradan qaldırılmasının mənşəyi və fəsadın yox edilməsinin amili də ola bilərmi? Halbuki, varlıq aləmində müəyyən bir şeyin yaranmasına və eyni zamanda həmin şeyin məhv edilməsinə sövq edən heç bir amil yoxdur.

Bundan əlavə, bu qanunlar insanın təhtəlşüuruna və gizli hissiyyatına deyil, xalqın ictimai iş və rəftarlarına nəzarət edir. Halbuki, ixtilaf insanın təhtəlşüurundan və gizli hissiyyatından baş qaldırır.1* Bu izahla tam aydın olur ki, bu ixtilafın həlli

---

nümunəvi nadir şəxslər "Bir gül ilə bahar olmaz" məşhur zərbülməsəlin ən bariz nümunələridir.

* Burada bəşər qanunları ilə ixtilafların həll ola bilməməsi iki yolla isbat olunmuşdur:[1]

1) İctimai ixtilafların və təzavüzkarlıqların amili adətən insana hakim olan eqoizm hissidir. Odur ki, istər-istəməz bu hissin hakim olduğu insan özü ixtilafları həll edən və təzavüzkarlıqların qarşısını alan amil ola bilərmi? Necə ki, münaqişə edən iki tərəf özləri heç vaxt vasitəçi rolunu oynaya bilməzlər.

Bu qanun fəlsəfədə "Bir şeyin bir iki zidd obyektə səbəb olmasının qeyri-mümkünlüyü" adı ilə tanınmışdır. Bundan əlavə, insanın öz fikri ilə belə bir qanunları qoya biləcəyini fərz etsək də, müqəddimələrdə dediyimiz kimi onun icrası mümkün olmayacaqdır.

2) Bəşər qanunları fikirlərə, əxlaqa və hisslərə deyil, əməllərə nəzarət edir. Halbuki insanların əməlləri onların daxili hisslərindən və fikirlərindən qaynaqlanır və bunları düzəltmədən əməlləri düzəltmək mümkün deyildir.

Bu günkü cəmiyyətlərdə insanların fikirləri və hissləri ilə məşğul olan mədəniyyət mərkəzləri olsa da, mədəniyyətin digər ictimai sistemlərdən ayrıca bir sistem olduğunu

yolu insanın daxili hisslərinin islah edilməsidir. Insanın daxili hisslərini gücləndirərək qanunların islah edilməsi ilə ixtilafın aradan qaldırılması mümkün deyil.

Ümumiyyətlə bəşər arasında yalnız üç ictimai üsul olmuş və olmaqdadır:

1- Xalqın müqəddəratını hikmətsiz iradənin ixtiyarına buraxan mütləqiyyət üsulu. Onun könlündən keçən hər şey camaata qəbul etdirilməlidir.

2- Xalqın işlərinin idarəçiliyini qanuna tapşıran və bir fərdin, yaxud bir qrupun vasitəsilə bu qanunların icra olunduğu ictimai hökumət üsulu.

3- Yaradanın təşrii iradəsinin xalq arasında bütün camaatın əli ilə hakim olduğu və tövhid, əxlaq və ictimai ədalət prinsiplərinə zəmanət verən dini üsul.

Birinci və ikinci üsul xalqın yalnız işlərinə nəzarət edir, etiqad və əxlaqla işi yoxdur. Bu iki üsula əsasən insan qanun maddələrindən kənarda, yəni etiqad və əxlaqda azad olur. Çünki, bu cür cəmiyyətlərdə ictimai qanunların fövqündə etiqad və əxlaqın icra olunmasına zəmanət verən bir qüvvə yoxdur. İnsanın daxili sifətlərinə və etiqada zəmanət vermək və islah etmək əzmində olan yeganə üslub din üslubudur ki, hər üç cəhətə: etiqad, əxlaq və rəftarlara nəzarət olunur.

Nəticə: ictimai ixtilafların həqiqi həlli yalnız dini üsuldadır.

---

güman etmək və onun fikirlərə, hisslərə hakim olub onlarda daxili və vicdani məsuliyyət yaradacağını gözləmək olmaz. Çünki o mədəniyyətin başçıları da həmin cəmiyyətin fərdləridir və onların ən çoxu edə biləcəyi iş öz fikirlərini öz əlaltılarına aşılamaq və özləri kimi şəxslər yaratmaqdır. Buna görə də əgər onların özləri gizlində qayda-qanunlara tabe olmasalar, başqalarını necə qanunlara tabe edə bilərlər. Bundan əlavə, iman və əqidə olmadan mədəni təlim-tərbiyələrin icrası mümkün deyildir. Çünki indiki cəmiyyətlərin hüquq qanunlarında əxlaq və düşüncə üçün heç bir hökm yoxdur və mədəni təlim-tərbiyələr ümumi şəkildə xəbərdarlıq xarakteri daşıyır.

- **6-Din ağıl və zəkadan deyil, səmavi vəhydən qidalanır.**

Insan cəmiyyətindən ixtilafların qaldırılmasının insan təkamülünün xeyrinə olduğunu, digər yöndən dinin, ixtilafların həll edilməsinin yeganə yolu olduğunu, başqa bir baxımdan isə yaradılış sisteminin, hər növü onun həqiqi kamilliyinə doğru yönəltdiyini nəzərə alaraq qəti şəkildə demək olar ki, yaranış sistemi insaniyyət üçün haqq və layiqli dini təyin edib insanlıq aləminə vəhy etməlidir. Bu isə cəmiyyətdə olması lazım olan həmin haqq dindir.

- **Etiraz**

İxtilafların həllinin dinlə yerinə yetirilməli olması doğrudur, lakin yaranış sistemi ictimai şüur vasitəsi ilə etdiyi ilhamla xalqı doğru əqidə, bəyənilmiş əxlaq və gözəl işlərə dəvət edən dahi və xeyrxah şəxslər formalaşdırır. Peyğəmbər adlanan şəxslər elə bunlardır.1*

**Cavab**

Deyildiyi kimi öz fikri qüvvəsinə və daxili hissiyyatlara əsaslanaraq ixtilafa sövq edən elə amil insanın ictimai

---

* Bu iradı söyləyən şəxs təkamül qanununun yaradılış sisteminin əsası olmasını etiraf [1] edir. Çünki öncə deyilənlər əsasında bu məsələ sübut olundu və onu həm dindarlar, həm də qeyri-dindarlar qəbul edir. Lakin dinlə zidd olan bir qrup deyir: "Təkamül prosesinə yaradılış sistemi tərəfindən zəmanət verilməsinə baxmayaraq, bu məsələ cəmiyyətlərdə dahi şəxslər yetişdirmək yolu ilə həyata keçə bilər ki, öz fitri dühası və yüksək fikirləri ilə cəmiyyətləri əxlaqa və ictimai ədaləti riayət etməyə dəvət etsinlər. Bunlardan başqa peyğəmbər adlı şəxslərə isə lüzum olmaz. Tarix boyu peyğəmbər adalnan şəxslər əslində bu cür dahi şəxslər olmuş və öz pak düşüncələri ilə müsbət islahat aparmışlar. Vəhy və yuxarı aləmlə əlaqə məsələsinə isə heç bir lüzum yoxdur."

Bu iradın cavabında deyilir ki, dahi şəxslər əqli yolla bu işə nail olmaq istəsələr, şübhəsiz ki, hədəfə çatmayacaqlar. Çünki öncə deyildiyi kimi, əqli yol insanı özünü sevməyə və başqalarını istismara, nəticə etibarı ilə mövcud ixtilafların daha da güclənməsinə çağırır. Buna görə də bu işi həyata keçirmək istəyən şəxslər bəşərin əqli idraklarına malik olmalı, lakin onu əqli yox, başqa mənbədən almış olmalıdırlar. Bu isə vəhy adlandırdığımız yoldan ibarətdir.

şüurudur. Şübhəsiz ki, belə bir amil ixtilafın həll edilməsinə vasitə ola bilməz.

Buradan da aydın olur ki, yaranış sistemindən dini ilham yolu ilə alınan bu insani idrak, adi fərdlərdə mövcud olan əqli idrakdan fərqlənir. Bu xüsusi idrak "vəhy" adlanandır.

**Etiraz**

Insanda belə bir idrak olsaydı, bütün fərdlərdə olardı və peyğəmbər adlanan xüsusi bir qrupa məxsus olmazdı.

**Cavab**

Fərdlərdə potensial şəkildə olan üstünlük və kamilliklər bəzən reallaşmaya da bilər. Necə ki, şəhvət və cinsi meyl bütün fərdlərdə potensial şəkildə vardır, bununla belə bütün fərdlərdə deyil, yetkinliyə çatmış fərdlərdə özünü büruzə verir və reallaşır.

Istər keçmiş, istərsə də bir çox müasir psixoloqlar (misal olaraq ingiltərəli Ceyms öz psixologiya kitabında) aydınlaşdırmışlar ki, insanın, bu ruhundan əlavə "səhnə" arxasında başqa ruhu (yaxud ruhun digər bir mərtəbəsi) vardır ki, ona doğru yol açsa, (asketlərdə təsadüf olduğu kimi), başqalarına gizli olan bir çox qeybi sirlər onun üçün aydın olar.

- **7- Peyğəmbərlərin sözləri vəhy nəzəriyyəsini təsdiq edir.**

Dəlil vasitəsilə aldığımız nəticə budur ki, bəşərdə zehni idrakdan əlavə insan cəmiyyətini ixtilaf və çəkişmələrdən xilas edə bilən və layiqli fərdlər yetişdirən başqa batini idrak da olmalıdır.

Peyğəmbərlərdən nəql edilmiş sözlərə müraciət edərkən görürük ki, onların kəlamları da həmin nəzəriyyəni təsdiq edir və aydın şəkildə bildirir ki, nübuvvət sirli bir Allah vergisi və xüsusi idrak olaraq peyğəmbərlərdə mövcud olmuş və peyğəmbərlər onun vasitəsilə haqq tərəfindən olan dini bilgilər

və səmavi şəriətlər almışlar. Həmçinin deyilən dəlilin peyğəmbərlərin çağırışı ilə uyğunluğu onların çağırışının da doğruluğunu sübuta yetirir.1*

Buradan da aydın olur ki, nübuvvət sosioloqların fikirləşdikləri kimi bir növ ictimai fikrin dühası deyil. Həmçinin vəhy ictimai bir dahinin pak fikirləri də deyil. Əksinə deyildiyi kimi nübuvvət qeyri-fikri sirli idrak, vəhy isə bu idrak vasitəsi ilə əldə olunan həqiqətlərdir.

**Etiraz**

Mümkündür deyilsin ki, əqldən başqa vəhy adlı bir yolun da olduğunu sübut edən keçən nəzəriyyə buna əsaslanır ki, yaradılış sistemi bütün növlərdəki metoduna uyğun olaraq insan növünü də öz kamilliyinə, yəni ictimai ixtilafların həllinə çatdırmalı olduğu üçün əqldən başqa vəhy adlı bir yolla bu ixtilafların aradan qaldırılması yollarını insanlara çatdırır.

Amma biz din və nübuvvətin bəşəriyyət arasında ömür sürdüyü bu uzun müddət ərzində ixtilafların aradan götürülməsinə nail olmadıqlarını görürük və əgər deyildiyi kimi vəhy təkvini bir mərhəmət olsaydı, heç vaxt təsirsiz olmazdı. Əsasən bu günün mədəni dünyası dini qəbul etmir və mədəniyyət inkişaf etdikcə din bir o qədər geriyə çəkilir.2*

---

* Peyğəmbərlərin sözlərinə diqqət edərkən görürük ki, onlar da həmişə maddi aləmdən [1] üstün bir aləmlə əlaqə barəsində danışırlar və öz göstərişlərini və təlimlərini ümumi şəkildə o aləmdən bilirlər. Onların danışıqlarından və rəftarlarından aydın olur ki, vəhy məsələsində azacıq belə şəkləri olmamış, son nəfəsədək o aləmdən aldıqları göstərişlirin həyata keçirilməsi yolunda fədakarlıq edərək qəribə müqavimət göstərmişlər. Peyğəmbərlər heç zaman bir islahatçı, yüksək fikirlərə malik olan bir dahi dili ilə danışmamışlar. Bu mətləb onların sözlərindən və əməllərindən o qədər aydındır ki, başqa heç bir ehtimal yeri qalmır. Keçən mətləblər ilə peyğəmbərlərin sözləri arasındakı uyğunluq onların bir-birini təsdiqləməsinə səbəb olur. Yəni bir tərəfdən peyğəmbərlərin, vəhyin adi bir əqli yol deyil, sirli yol və aləmin idarəçisi olan Allahla rabitə olması haqqındakı sözləri bizim öncə dediklərimizi təsdiqləyir, digər tərəfdən isə, peyğəmbərlərin sözlərininin vəhyin sirli bir rabitə olması barəsində öncə qeyd etdiyimiz dəlillərlə uyğunluğu onların düz danışmasına dəlildir.

* Bu iradı irəli sürən şəxs demək istəyir ki, əvvəla din və nübüvvət də insan [2] cəmiyyətlərindəki ixtilafları aradan qaldırmağa nail olmamış və üst-üstə götürdükdə

## Cavab

“Ixtilafların həlli yolunda dinin heç bir rolu olmamışdır” sözünə gəldikdə isə, nəzərə alınmalıdır ki, əvvəla yaradılış sisteminin insan cəmiyyətini islah etməyə olan xüsusi diqqəti insan fərdlərinin təkamülü üçündür və din uzun illər boyunca milyonlarla saleh insanı kamilləşdirib cəmiyyətə təhvil vermişdir. Ikincisi cəmiyyətdə dinin üzə çıxması və dini

---

insan cəmiyyətinin təkamülünə kömək etməmişdir. Bundan əlavə, əgər dinlər belə bir təsirə malik olsaydı, mədəni cəmiyyətlər dini xoş qarşılayardılar. Çünki elə onlar da belə bir şey axtarırlar.

Bu iradın cavabında üç məsələyə işarə olunmuşdur:

1) Dinlər tarix boyu minlərlə yüksək əxlaqa sahib olan fəzilətli insan yetişdirmişdir. Odur ki, insanlığın təkamülünə kömək etmişdir.

2) Insan cəmiyyətlərində ədalət, məhəbbət, fədakarlıq, iffət, düzgünlük, doğruluq, əmanətdarlıq və s. kimi yüksək əxlaqın və insani duyğuların müxtəlif nəticələri görünür (Hərçənd hələ ki öz kamilliyinin son mərhələsinə çatmamışdır). Bu əxlaqi xüsusiyyətlərin ixtilafların azaldılmasında və onların həll olmasında diqqətəlayiq rolu vardır. Məsələ o qədər aydındır ki, bəlkə də bundan artıq izaha ehtiyacı yoxdur. Digər tərəfgən isə, bu əxlaqi xüsusiyyətlərin yaranmasında dinlərdən başqa bir amil görünməmişdir. Çünki tarix bizə əxlaq üçün dinlərdən başqa bir zəmanətçi göstərmir. Odur ki, ictimai ixtilafların aradan qaldırılmasının əsas amili olan əxlaqın müəyyən qədər təkamülü yalnız peyğəmbərlərin və dinlərin sayəsində baş vermişdir. Buna görə də maddiyyata tərəf gedən cəmiyyətlər tədricən əxlaqi fəzilətləri itirirlər və zərif insani duyğular onlarda aşkar şəkildə zəifləyir, kobudluq və mənfəətpərəstlik hissi onların yerini doldurur.

3) Dinlərin indiyədək ixtilafları tam şəkildə aradan qaldıra bilməməsi (hərçənd müəyyən qədər buna nail olmuşdur) o demək deyildir ki, gələcəkdə də bu iş həyata keçməyəcəkdir. Çünki yaradılış sisteminin öz üzərinə götürdüyü təkamül qanununa əsasən nəhayət bu iş baş verəcəkdir və əvvəlcə deyildiyi kimi bunun dindən başqa yolu yoxdur. Müasir mədəni cəmiyyətlərin dinin proqramlarını qəbul etməkdən imtina etməsi isə heç də o demək deyildir ki, din ictimai ixtilafları həll etməyə qadir deyildir. Çünki gözlə görürük ki, bu cəmiyyətlər insanın elminin və əqlinin hökm etdiyi bir çox ictimai normaları qəbul etmirlər və bunun nəticəsində bütün bu cəmiyyətlərdə xüsusi bir iztirab və təşviş müşahidə olunur. Məsələn, heç kəsin düzlüyündə şübhə etmədiyi ədalət prinsipi cəmiyyətlərin əksəriyyətində riayət olunmur və həmişə müxtəlif cəmiyyətlər və fərdlər tərəfindən pozulur. Indiki cəmiyyətlərin bu prinsiplərə etinasızlığını prinsiplərin düz olmamasına dəlil hesab etmək olarmı?

Biz bu müqəddimələrdə aydın və canlı sənədlərə əsaslanaraq indiki mədəni cəmiyyətlərin dini və əxlaqi normalardan uzaqlaşmasının əsas səbəblərini geniş şəkildə izah etdik və bir daha sizə bu barədə diqqətli olmağı və mütaliə etməyi tövsiyə edirik.

şəxsiyyətlərin yaşayışı əxlaqi sirayət etmə və əxlaqi irsiyyət yolu ilə insan cəmiyyətinin hər bir tərəfinə yayılaraq şücaət, igidlik, mərdlik, şəfqət, iffət, səxavət, hikmət və ədaləti kimi gözəl insani xüsusiyyətləri könüllərdə becərmiş və indi də dindar və ya dinsiz olmasından asılı olmayaraq bütün insanlar onların şirin meyvələrindən bəhrələnirlər.

Şübhəsiz ki, ən qədim insanlıq dövrlərindən indiyədək həmişə fəal olan dini çağırış cəmiyyət arasında əxlaqi cəhətdən təsiri olmuşdur və dindən başqa heç bir həyat tərzi bəşəriyyət arasında əxlaqi xüsusiyyətlərə zəmanətçi  olmadığı üçün bu xüsusiyyətlərin onlardan qaynaqlandığını söyləmək olmaz və heç vaxt bəşər dindən başqa yolla əxlaqi xüsusiyyətləri qoruya bilməz. Çünki dinə zidd həyat tərzini seçən millətlər yarım əsrdən az müddət ərzində şəfqət, rəhm, ədalət və s. kimi əxlaqi xüsusiyyətlərini itirdilər. Deməli hər halda əxlaqi fəzilətlərin bəşər arasında varlığını dini çağırışın nəticələrindən bilmək lazımdır. Bundan əlavə, hələ dünyanın ömrü sona yetməmişdir və haradan məlumdur ki, bir gün haqq din yer üzünü bürüməyəcək, bəşəriyyət doğruluq və əmin-amanlıq içində yaşamayacaq?

"Bu günkü dünya dini qəbul etmir" sözünə gəlincə, xatırlatmaq lazımdır ki, dünyanın gecə-gündüz ictimai ədalət, sülh, asayiş və doğru cəmiyyət bərqərar etməyə çalışmasına baxmayaraq bəşər bütün bunları da qəbul etmir və dünya insaniyyətin ilk mərhələsindən indiyədək öz məqsədinə hələ də nail ola bilməmişdir. Halbuki, doğru cəmiyyət yaradılış sisteminin hədəflərindəndir və nübuvvət yolu ilə də təmin olunmasa, ən azı qəti fikir yolu ilə təmin edilməlidir.

## Ədəbiyyat

1-Qurani-Kərim
2- Nəhcül-Bəlağə
3-Səhifeyi-Səccadiyyə
4- Məclisi, Məhəmməd Baqir, Biharul-ənvaril-camiəti lidurəri əxbaril-əimmətil-əthar.
5- Nuri, Hüseyn, Müstədrakül-Vasail.
6- ibni Yəqub, Kuleyni, Məhəmməd, Üsuli-Kafi.
7- Hurr Amili, Əbu Cəfər, Məhəmməd, Vəsaiuş-Şiə.
8- İbni Əbi Əhməd, Seyyid Rəzi, Məhəmməd, Nəhcül-Bəlağə.
9- Əbdül-Vahid, Əbulfəth Nasihuddin, Ğurərul-Hikəm.
10- İbni Yəqub, Siqətul-İslam, Kuleyni, Muhəmməd, Furuul-Kafi.
11- İbn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, Məhəmməd ibn Əli, Məanil-Əxbar.
12- Təbərsi, ibni Həsən, Fəzl, Məkarimul-Əxlaq.
13- Təbərsi, ibni Həsən, Fəzl, Məcməul-Bəyan.
14- İbni Hüseyn ibni Musa Bəbaveyhi əl-Qummi , Məhəmməd ibn Əli, İləluş-Şərayi.
15- Razi, Fəxruddin, Təfsiri-Kəbir.
16- Zeynul-Abidin, Əli ibni Huseyn, Səhifə Səccadiyyə.
17- Məkarim Şirazi, Nasir, Quranda Əxlaq.
18- Qummi, Şeyx Abbas, Məfatihul-Cinan.
19- Məğribi, Qazi Əbu Əbdullah, Muhəmməd, Şəhabul-Əxbar.
20- Qiraəti, Muhsin, Nur təfsiri.
21- Beyhəqi, İbni Huseyn, Əbul-Fəzl, Muhəmməd, Tarix Beyhəqi.
22- İbni Cümə Huvəyzi, Əbdu-Əli, Nurus-Səqələyn.
23- Tusi, Xacə Nəsruddin, Adabul-Mutəəllimin.
24- İbni Əbdul-Məlik Hindi,Əlauddin Əli, Kənzul-Ummal.
25- İbni Muhəmməd Şuəyri, Şeyx Tacəddin, Muhəmməd, Camiul-Əxbar.
26- Nəraqi, Muhəmməd Məhdi, Camius-saadat, Qum, çap 1998

# Din, Qərbin fəlsəfi atmosferində

Kəmalə Mahmudova[1]

**Abstrakt**

Dini dünyagörüşün tarixi və insan zehniyyətində ilk dini təsəvvürlərin meydana gəlməsi ibtidai dövrlərə təsadüf edir. Dinə meylliliyin səbəbini araşdıran tədqiqatçı alimlər bir sıra nəzəriyyələr irəli sürmüşlər ki, bu nəzəriyyələrin əsas motivi ibtidai dövrün həyat tərzi ilə ölçülür. Belə ki, sivilizasiyanın yoxluğu və elmsizlikdən dolayı ibtidai insanların həyat və onu əhatə edən ətraf aləm haqqında təsəvvürləri zəif idi. Belə bir yaşam tərzində qarşıya çıxan müxtəlif motivli hadisələri izah etməyə çalışa- çalışa dinə meyllik yaranmış, habelə mifoloji təsəvvürlər formalaşmışdır.

**Açar sözlər**

Fəlsəfə, xristianlıq, monoteizm, İncil, kilsə

## Giriş

Dini- teoloji nöqteyi- nəzərdən aləmin yaradanı və idarə edəni bir olan Allah qəbul edilir. İlahi dinlərin təlimi monoteist prinsipə əsaslanaraq peyğəmbərlər vasitəsilə insanlara çatdırılır. Peyğəmbərlik islam əqidəsində üsuliddin məsələlərindən biridir ki, bütün ilahi dinlərdə qeydsiz- şərtsiz qəbul olunur. Bu zəmində yazılmış hazırkı məqalənin ana mövzusu xristianlıq dini təliminin mahiyyəti və onun keşməkeşli yoluna həsr olunub. Xristianlıq dini ilə bağlı bir

---

1 - İslam araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

sıra məsələlərə məqalənin həcminə uyğun şəkildə aydınlıq gətirilməyə çalışılıb. Bundan əlavə o dövrün  xristian dini-fəlsəfi düşüncələri qısa da olsa açıqlanıb.
Quldarlıq dövrü ilkin fəlsəfi təfəkkürün meydana gəlməsi ilə xarakterizə olunur. İnsan cəmiyyətinin dəyişməsi ilə proseslərdə bir sıra suallar əmələ gəlirdi ki, buna da “antik fəlsəfə” deyilən fəlsəfi sistem cavab verirdi. Fəlsəfə tarixi kitablarında “fəlsəfə” sözü “filo”- hikmət, “sofiya”- sevirəm kimi izah olunur. O dövrün bir çox elmlərini özündə ehtiva edən fəlsəfə uzun bir yol keçərək bu günümüzə qədər gəlib çıxmışdır. Beləliklə, dini- fəlsəfi görüşlərin ifadəsi müxtəlif cizgilərdə təşəkkül taparaq zaman- zaman dəyişmiş, insan təfəkkürünün güzgüsü olmuşdur.
Orta əsrlər məfkurəsi özünəməxsus çalarları ııə seçilir. Bu, istər Qərb, istərsə də Şərq tairixində dini- fəlsəfi görüşlərin formalaşması ilə özünü büruzə verir. Qədim dinlərdən fərqli olaraq istər xristian, istərsə də islam dini səmavi dinlərdən olmaqla monoteist dinlər sırasına daxildir. Bir- birindən fərqli inkişaf dinamikası, düşüncələrə, ictimai- siyasi, elmi- fəlsəfi müstəvidə təsir baxımından xristianlıq dini islam dinindən fərqli yol keçmişdir.Bu məqalədə xristianlıq dininin meydana gəlməsi, tarixi- ictimai şərait təhlil olunmuş, Avropada trayektoriyası izlənilmiş, dini- fəlsəfi görüşlərin formalaşma prosesi səciyyələndirilmişdir.

## Xristianlığın xronoloji fəlsəfi tarixi

Bütün peyğəmbərlər insanları təkallahlığa, şirk və bütpərəstlikdən uzaq olmağa çağışmışlar.
“ Biz hər ümmətə rəsul məbus etdik ki, Allaha sitayiş etsinlər və bütdən uzaqlaşsınlar. Allah bir parasını hidayət etdi və bir

parasını azğın etdi.Bəs yer üzündə gəzib dolanın və baxın ki, rəsullara yalan yaxanların sonu hara çatıbdır."[1]
Peyğəmbərlər eyni zamanda cəmiyyətdə haqq- ədalətin bərpası və mövcud olması üçün fitnəkarlara qarşı mübarizə aparırdılar. Peyğəmbərlərin təlimində haqq və ədalət geniş məna daşıyır və onların bütün ictimai fəaliyyətlərini əhatə edirdi. Onların baxışı ilə haqq, ədalət o zaman bərpa oluna bilər ki, mənəvi-əxlaqi, ictimai- siyasi, sosial- iqtisadi və hətta cinsi fəsadlar belə aradan qalxsın və ilahi dəyərlər bütün dünyada hakim olsun.[2]
Bütün ilahi dinlərin prinsiplərindən biri də bəşər cəmiyyətinin tərbiyə olunaraq əxlaqi dəyərlərə sahib çıxması olmuşdur. İslam peyğəmbərinin "mən sizin əxlaqınızı kamilləşdirmək üçün bir peyğəmbər olaraq göndərilmişəm" kəlamı da elə bu prinsipdən irəli gəlir. İlahi dəyərləri tanımağın yolu yüksək əxlaqi keyfiyyətlərə malik olmaqdan keçdiyindən peyğəmbərlərin vacib missiyalarından biri də təzkiyə və təqvadır. Peyğəmbərlər sanki bir həkim idilər ki, mənəvi xəstəliyə düçar olmuş cəmiyyəti bu mərəzdən xilas etmək üçün gəlmişlər. Bütün müqəddəs kitablarda, o cümlədən Quranda peyğəmbərə itaət etmək və onun sözündən çıxmamaq əmr olunmuşdur.

## Quranda məsihiyyət anlayışı

Orta əsr Avropasında xristianlıq təliminin formalaşması birbaşa İsa Məsihin gətirdiyi təlimlərə bağlıdır. İsa Məsih ulul-əzm və şəriət sahibi olan peyğənbərlərdən hesab olunur. Qurani Kərim Hz. İsa peyğəmbərə tərif verərək Məryəm

1 Eyni mənbə, Nəhl surəsi, 36
2 Əzəm Pərçəm. " Vəhy və Peyğəmbərlik mövzusunda səmavi kitabların uzlaşması", səh 36

surəsində onun bakirə və pak Məryəmdən dünyaya gəlməsini təfsilatı ilə nəql edir. Məryəm surəsində buyurulur ki, Məryəm öz qohum- əqrəbasından ayrılıb şəhərdən çıxaraq şərq istiqamətində bir nöqtəyə getdiyi zaman Ruhul- Qüds bəşər sifətində onun yanında zahir oldu. Pak bir qadın olan Məryəm əvvəlcə ondan qorxub Allaha pənah apardı. Ruhul- Qüds dedi ki, mən Allahın əmri ilə gəlmişəm ki, sənə pak bir övlad əta edəm. Məryəm soruşdu ki, heç bir kişi ilə yaxınlıq etmədiyim və özüm də iffətli bir qadın olduğum halda, oğlan uşağına sahib olmağım necə mümkündür? Cavab verildi ki, bu iş hökmən olacaq və Allah üçün bu iş çox asandır. Biz istəyirik ki, onu camaat üçün ilahi bir nişanə və öz tərəfimizdən rəhmət qərar verək. Nəhayət, Hz. Məryəm İsaya hamilə oldu. Təvəllüdü yaxınlaşdığı zaman ailəsindən uzaqlaşıb bir ağacın altına getdi və övladını dünyaya gətirdi. İsa doğulduğu anlarda dil açaraq doğuşun ağrısından qıvlan anasına toxtaqlıq verib deyir ki, Allahın sənin ayaqların altında bir çeşmə qaynatmışdır.Quru xurma ağacını tərpət ki, sənin üçün təzə xurma tökülsün. Xurmadan ye, bulağın suyundan iç və öz gözünü (övladına görə) aydın et.[1]

## Həzrət İsa (ə.) xristian qaynaqlarında

İsa peyğəmbərin dünyaya gəlməsi hadisəsi İncildə Qurani Kərimdən fərqli təmsil olunur: “ İsa Məsihin təvəllüdü belə oldu Yusifin əqdinə gətirilən Məryəm ər evinə getməzdən qabaq Ruhul- Qüdsün vasitəsilə hamilə oldu. Yaxşı əməl sahibi olan və Məryəmin camaat qarşısında rüsvay olmasını istəməyən Yusif gizli şəkildə qərara aldı ki, ondan ayrılsın. Yusif hələ bu fikirdə olduğu zaman Allahın mələyi yuxuda ona zahir olub dedi: Ey Davudun oğlu Yusif! Məryəmi öz evinə

1 Qurani Kərim,Məryəm surəsi

aparmaqdan qorxma, çünki onun bətnində olan Ruhul-qüdsdəndir.O, bir oğlan dünyaya gətirəcək və sən onu İsa adlandıracaqsan, çünki o, öz qövmünü günahlardan xilas edəcəkdir.” [1]

Heç bir təhrif və dəyişikliklərə məruz qalmayan, asimani kitab olan Qurani Kərimdə öyrəndik ki, İsa Allahın qulu, bəndəsi, yer üzünə göndərdiyi peyğəmbərlərdən biridir. İsa Məsihin təvəllüdü məsələsini Quran onun bakirə Məryəmdən Allahın izni ilə Cəbrayılın vasitəsilə üfürülməklə bətninə düşməsi kimi izah edir. İsa Məsihin yer üzünə göndərilməsində məqsəd onun özündən əvvəlki peyğəmbərlər kimi insanların Allahın birliyinə iman gətirib saleh yola dəvət etmək olmuşdur. İsa Məsihin özü də dəfələrlə özünün bir bəndə olduğunu və Allahın peyğəmbəri olduğunu bəyan etmişdir. Yaşadığı dövrdə hər kəs onu belə qəbul etmişdir. Doktor Əzəm Pərçəm Ceymez Hakezdən sitat gətirərək yazır:” Məsih insan və Allahın göndərdiyi bəndədir. Çünki o, özünü ( İncildə) səksən dəfə “insanın oğlu insan” adlandırmışdır. Bundan əlavə öz şagirdlərinə və başqa ardıcıllarına özünü onların qardaşı deyə müraciət edib.”[2] Lakin İsa Məsihin çarmıx əhvalatından və gözlərdən qeyb olmasından sonra (islami nöqteyi- nəzərdən) onun zatı ilahiləşdirilmiş, üç uqnum məsələsi ortaya qoyulmuşdur.Doktor Haşimi Rəfsəncani yazır:” Əsrlər boyu böyük kilsə alimlərinin, xristianlığın dünya mıqyasında yığıncaqlarının diqqətini özünə cəlb edib, müxtəlif firqələrin yaranmasına səbəb olub, xristianlığın ən mühüm və böyük fəlsəfi və dini məsələsini təşkil edən problem “İsa “ zatının həqiqəti barəsindəki mübahisələr olmuşdur.”[3] Dr. Rəfsəncani

1 Matta İncili, səh 12
2 Əzəm Pərçəm, “ Vəhy və Peyğəmbərlik mövzusunda səmavi kitabların uzlaşması”, səh171
3 Haşımi Rəfsəncani, Məhəmməd Cavad Bahünər, “ Dünya besət dövründə”, səh 126

Vil Derantın "Dinlərin yığcam tarixi" kitabından sitat gətirərək Məsih barəsində meydana gələn əqidələri aşağıdakı kimi qeyd edir:

1.Məsih yalnız insandır.

2." Ata", " Oğul", " Ruhul-qüds" Tanrı özünü təcəssüm etdirdiyi surətlərdir. Deməli, Tanrı üç uqnumun komponentidir: " Ata", " Oğul", " Ruhul-quds".

Ata Tanrı " Ruhul- qüds şəklində aşağı enib, Məryəmin cismində insan surətinə düşmüş " İsa " surətində doğulmuşdur.

3. " Oğul" " Ata" kimi əzəli deyil, bütün dünyadan qabaq yaranmışdır, beləliklə də onun rütbəsi atadan aşağıdır və onun qarşısında təvazö edəndir.

4. " Ruhul-qüds" uqnum deyidir.

5. Miladi 325- ci ildə Niqyə qurultayı və miladi 381- ci ildə Konsinopol qurultayı bu nəzəri verdi ki, oğul və " Ruhul-qüds" Ata ilə lahuti vəhdətində bərabərdir. " Oğul" əzəldən Atadan olub və " Ruhul-qüds" Atadan bir işıqdır və ondan qaynaqlanmışdır.[1]

**İsa, onlara görə kimdir?**

Tovhid, yəni təkallahlıq ideyası bütün səmavi dinlərin yürütdüyü əsas prinsipdir. Tək vahid olan Allaha inam, Onun bütün aləmlərin yaradıcısı və xaliqi, ən gözəl sifətlərə malik olması, başqa sözlə, bütün eyiblərdən pak və münəzzəh olması monoteist dinlərin əsas müddəalarıdır. İsa Məsihin gətirdiyi xristianlıq təlimi də monoteist dinlərdən hesab olunmaqla Quran nöqteyi- nəzərindən onun öz dövründə bu istiqamətdə təşəkkül tapmışdır. Lakin ondan sonra nəinki İsa Məsih haqqında düşüncələr dəyişmiş, eyni zamanda, eyni zamanda xristianlıq təliminin özündə də təhriflər yaranmışdır. Doktor Seyid Mahmudi yazır: " Məsihilər özlərini vahid Allahın

---

1 Həmin mənbə, səh 128

ardıcılları hesab edərək inanırdılar ki, əql yolu ilə Allahı tanımaq olar. Halbuki iki qeyri- məhdud, yaxud daha çox qüdrətə malik olan varlığın eyni zamanda təsəvvür olunması əql və məntiqin ziddinədir.Allahın vahid olması dedikdə, məqsəd budur ki, yalnız bir Allah vardır və ilahi zat bölüşdürülə bilməz. Digər üç şəxsiyyətdən təşkil olunmuşdur. Bu üç varlıq əzəlilik, qüdrət və cəlalda bir- birilə bərabərdir və onlardaan hər biri ilahi sifətlərin hamısına malikdir. Amma eyni halda hər birinin müəyyən xüsusiyyətləri vardır ki, onları təslis vəhdətinin daxili bir- birindən fərqləndirir." [1] Allah haqqında yeni düşüncələrin meydana gəlməsi məsihi əqidəsində əsrlərlə formalaşma prosesi keçərək "üç uqnum" ( şəxsiyyət) əqidəsi yaranmışdır. Dr. Can Van Vurd yazır: " Bizim etiqadımız budur ki, vahid Allahda vəhdətlə eyni zamanda təslis də mövcuddur. Üçlük uqnum bir- birindən seçilir, amma ilahi zat bölünməzdir: bu uqnum bir- birilə əbədiyyət və oxşarlıqda bərabərdirlər. Belə ki, təslisdə vahidliyi və kamil təslisi vahidlikdə ibadət edirik. Bu halla yanaşı, qeyd olunan həqiqətlər belə təfsir olunmamalıdır ki, üçlük uqnumları arasında ilkin olmaq haqqı mövcud deyildir, əksinə, bilmək lazımdır ki, ata birinci yer, oğul ikinci yer, Ruhul-qüds üçüncü yerdə qərarlaşır. Bu ilkin olmaq haqqı tərtiblədir. Ruhul- qüds və oğul bərabərdir, bununla eyni zamanda ataya mütidirlər.Bu itaət icbari deyil, iradə və ixtiyar üzündəndir.[2] Məsihilər Rəbbani gecə mərasimində oxuyurlar:" Bizim vahid Allaha, mütləq qadir ataya, görünən və görünməyən bütün ilahi şeylərin xaliqinə, İsanın vadid Allahına imanımız vardır. O, Allahın oğludur ki, atadan

1 Seyid Əhməd Mahmudi, " Dinlərlə tanışlıq",səh 257
2 Eyni mənbə mənbə, səh 258

dünyaya gəlmişdir; atanın zatından dünyaya gələn övladdır, onun vasitəsilə bütün şeylərə varlıq verilmişdir."[1]
Məsihin şəxsiyyətini xristianların müqəddəs hesab etdiyi kitab olan İncil özünəməxsus şəkildə izah edir. Məsih Ata Allahın oğludur, Oğul Allahdır. Onun xüsusi qabiliyyətləri var və insanların Adəmdən miras qalmış bu günkü günahlarını yumaq və nicat vermək üçün gəlmişdir. Rəbbani gecə duasında deyilir: " Yerdə və göydə olanların hamısı biz insanların xatirinə, biz insanlara nicat vermək üçün yer üzünə enərək cism halına düşdü; insan şəklinə düşdü, əzab- əziyyət çəkdi." Miladi 451- ci ildə məsihi alimlərindən təşkil olunmuş " Çali si dun" şurası aşağıdakı etiqadnaməni qəbul etmişdir: " Müqəddəs ataya tabe olaraq, biz bütün insanlarla bu təlimdə müttəhid olmuşuq ki, bir vücuda – yalnız oğula – bizim Allahımız olan İsa Məsihə iqrar edək. Bu vahid vücud həm ilahi olmaq baxımından, həm də insani yöndən kamil bir varlıqdır. Bu vahid vücud həqiqətdə həm Allahdır, həm də bəşər. Bu yöndən mücərrəd ruh, digər bir yöndən isə cismdən ibarət olan insandır. Buna əsasən o, ilahi yönə malik olan vaxta qədər həmin ata- Allah zatı olan həqiqətə malik olur; insani yöndən də bizim kimi insanlara oxşar bir quqruluşa malikdir. Hər bir cəhətdən bizə oxşardır, yalnız məsum olmamaq və günah ehtimalında oxşarlığımız yoxdur. O, zamanın meydana gəlməsindən qabaq özünün ilahi yönü cəhətindən ata vasitəsilə icad olunmuşdur. İndi də insanlara görə və bizim nicat tapıb qurtuluşa çıxmağımız üçün bakirə və müqəddəs Məryəmdən dünyaya gəlmişdir ki, bu baxımdan özünün insani yönündən ilahi xüsusiyyət daşıyır."[2]

---

1 Eyni mənbə, səh 259
2 Eyni mənbə, səh 261

## İsanın qayıdışı

Dr. Mahmudi yazır: “ Məsihilərin inancına görə, həzrət Adəmin mürtəkib olduğu xəta və bunun nəticəsində behiştdən qovulması, əvvəla, Adəm övladının Allahdan uzaqlaşmasına səbəb oldu, ikincisi də günüh və xətalar irsi yolla sonrakı nəsillərə ötürüldü və nəticədə bəşər nəslində günahın bünövrəsi qoyuldu; insanlar günah işlər görməyə başladılar.”[1] İncildə yazılır: “ Amma Allah bizə olan məhəbbətini tam mənada sübut etmişdir, çünki biz hələ günahkar olduğumuz vaxtda Məsih bizim xatirimizə öldü. Onun qanının tökülməsinə görə biz tam mənada yaxşı adamlar sayılacağıq və buna görə də onun vasitəsilə Allahın qəzəbindən uzaq olacağıq. Biz Allahla düşmən olduğumuz vaxt O, Öz oğlunun ölümü ilə bizim düşmənçiliyimizi dostluğa çevirdi.”[2] Yahya öz İnclində İsanın ölümü barəsində olan ixtiyarının öz əlində olduğunu qeyd edir: “ Mən canımı qurban verirəm ki, sonra onu geri alim. Canımı məndən heç kəs ala bilməz, amma onu öz ixtiyarımla verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var. Bu əmri Atamdan almışam.”[3]

## İncil

Xristianlıq dininin təlim və əsasnaməsi Bibliyanın Əhdi- cədid bölməsində toplanmışdır.
Əhdi- cədid 27 kitab və risalədən ibarətdir.

1. Mata İncili
2. Markos İncili
3. Luka İncili

---

Eyni Mənbə, səh 262[1]
Eyni mənbə, ( İncil səh 263,Rumlular 5- ci fəsil, ayə 8-10)[2]
Əzəm Pərçəm,səh 186 ( yəhya 10 )[3]

4. Yuhənna İncili
5. Rəsulların əməlləri
6. Pulsun romalılara məktubu
7. Pulsun Qorintiyana olan ilk məktubu
8. Pulsun Qorintiyana olan ikinci məktubu
9. Pulsun Ğəlatilərə məktubu
10. Pulsun Əfisusyana olan məktubu
11. Pulsun Filiplərə məktubu
12. Pulsun Kulsiyana məktubu
13. Pulsun Tesalunukilərə məktubu
14. Pulsun Tesalunukilərə ikinci məktubu
15. Pulsun Timutalbusa birinci məktubu
16. Pulsun Timutalbusa ikinci məktubu
17. Pulsun Teytəsə məktubu
18. Pulsun Felimuna məktubu
19. Pulsun İbranilərə məktubu
20. Yəqubun məktubu
21. Petrosun birinci məktubu
22. Petrosun ikinci məktubu
23. Yuhənnanın birinci məktubu
24. Yuhənnanın ikinci məktubu
25. Yuhənnanın üçüncü məktubu
26. Yəhudanın məktubu
27. Yuhənnanın kəramətləri

İncilin mətni ilə tanış olduqda məlum olur ki, İsa Məsihdən sonra toplanmış bu kitab İsa Məsihin gətirdiyi əsil səmavi kitabdan fərqlənərək sonrakı ardıcıllarının yanlış düşüncəsinə uyğun yazılmışdır.

## Qədim Romada dini vəziyyət

Xristianlıq zaman-zaman müxtəlif tədqiqatçılar tərəfindən təhqiq olunmuş, keçdiyi yol araşdırılmış, ictimai-siyasi proseslərdə iştirakı izlənilmişdir. Tədqiqatçıların bir çoxu xristianlığı 4 dövrə bölür:

1.Həvarilər tərəfindən yayılan və Qərb Roma imperatorluğunun yıxılmasına qədər davam edən dövr. Xristianlıq bu dövrdə geniş yayılma sahəsi tapmışdır.

2. V əsr- XVI əsrin əvvəllərinə qədər davam edən dövr. Şərq kilsəsinin Qərb kilsəsindən ayrıldığı dövrdə xristıanlıq Avropanın şimal bölgəsində yayılmışdır.

3. XVI və XVII əsrləri əhatə edən dövr xristianlıq üçün çox əhəmiyyətli olan dövrdə Protestantlıq ortaya çıxmış, katolik məzhəbi ilə qarşıdurma nəticəsində Qərb kilsəsi bölünmüşdür. Cünki Roma Katolik kilsəsinin göstərdiyi xilas yəni, qurtuluş fikri o dövr xristianlarını razı salmırdı.

4. XVIII əsrdən etibarən başlayan və xristianlığın qarışıqlıqlar içində keçdiyi bir dövr olaraq bilinən bu dövrədə xristianlıq üzərindəki münaqişələr kilsə xaricinə daşınmışdır.

Xristianlığın Avropada təşəkkül tapıb yayılmasında dini- etnik, ictimai-siyasi proseslər durmasına artıq toxunmuşduq. Aşağıda bir sıra tədqiqatçı alimlərin fikirlərini qeyd edib mövzumuza aydınlıq gətirməyə çalışacam.

S.Əliyeva: “ Xristianlıq Roma imperiyasının şərq əyalətlərində yayılmış messiya- xilasolma ideyalarının yaradılması ilə təşəkkül tapmağa başlayır. Xristianlıq sisteminin mərkəzində İsa peyğəmbərin simasında allahın insan şəklində təzahür etməsi əqidəsi başlıca yer tutur. Beləliklə, xristianlıq bərabərhüquqlu din kimi tanınaraq bir qədər sonra dövlət dininə çevrilir.

313 – cü ildə imperator Konstantin Mediolanda (indiki Milan şəhəri) xristianlara azadlıq verən edikt imzaladı, 325- ci ildə isə Nikeydə ilk ümumdünya kilsə məclisinin əsasını qoydu."[1]
S. Şahhüseynova: "Orta əsrlər mədəniyyətində mühüm hadisələrdən biri, bəlkə də ən başlıcası xristianlığın yayılması idi. I-II əsrlərdə İsa peyğəmbər haqqındakı rəvayətlər "İncil" adı ilə (yunanca "yaxşı xəbərlər" ) yazılmağa başladı. Xristianlıq IV əsrin ortalarınadək Romanın hakim dairələri tərəfindən təqiblərə məruz qalmışdı.Bu zaman məbədlər dağıdılır, din xadimləri və hətta sadə dindarlar həbs edilirdi. Təqiblərin ilk dövründə Romanın hakim dairələri yəhudilərlə xristianlar arasında fərqi nəzərə almırdılar. Çox keçmədi ki, romalılar xristianları yəhudilərdən ayırmağı öyrəndilər və xristianlıq nəinki milli dinlərə aid edilmədi, hətta təhlükəli təriqət hesab edilməyə başladı. Roma allahlarına sitayişdən imtina etdiklərinə görə xristianlara qarşı repressiyalar başladı.Roma imperiyasında xristianlığın təqibi tarixi IV əsrin əvvəllərinədək davam etdi. 313 –cü ilin yayında imperator Konstantin və Lisini İtaliyanın Mediolanum ( indiki Milan) şəhərində görüşərək xristianlığın digər dinlərlə bərabər hüquqa malik olması haqda müştərək fərman imzaladılar. Bu tarixi fərman bütün müsadirə edilmiş əmlakın kilsəyə qaytarılmasını və ya əvəzini verilməsini nəzərdə tuturdu. Artıq zülm və təqiblər arxada qaldı. Milan fərmanı xristianlıq tarixinə yeni dövr açdı."[2]
Hüseyn Tofiqi:" Xristian dini təxminən 300 ilə yaxın əzab-əziyyətlərə qatlaşıb bu yolda şəhidlər vermişdir. Bu dinin təməli məhz həmin 300 il ərzində qoyuldu və müxtəlif millətlərin xristian dininə dəvət edilməsi bir sıra müvəffəqiyyətlərlə nəticələndi. Roma İmperiyası ərazilərində

1 Kulturologiya, səh 214
2 Eyni mənbə, səh 222

xristianların sayca çoxalması nəticəsində miladi təqvimi ilə 4-cü əsrin birinci yarısında  xristian dini orada rəsmi din olaraq qəbul edildi. Həmçinin təbliğ nəticəsində bu din həmin dövrdə dünyanın bir çox ölkələrinə doğru genişləndirilmişdir.Əlbəttə, bu arada hərbi yürüşlər və ölkələrin fəth edilməsi də təsirli olmuşdur."[1]

Marksizm təhsilindən faydalanmış ateist tarixçi alim B.Y. Ralen isə daha fərqli bir fikir izhar edirək yazır: " Xristianlıq formalaşmış bir dini məfkurə kimi feodolizm cəmiyyətinin beşiyi başında durmuşdu. Roma imperiyası varlığının son yüzilliklərində bu din, artıq, məzlumların dinindən hakim quldarlar sinfinin əlində zəhmətkeş kütlələri əsarət altına salmaq vasitəsinə çevrildi.

Xristian təbliğatı zəhmətkeşlərə mistiklik etiqadı aşılayırdı. Həmin etiqada görə bu dünyada həyata keçməsi baş tutmayan ədalət və xeyirxahlıq, yeni dinin bütün tərəfdarları üçün, axirət səltənətində zəfər çalacaqdır. Bütün insanların allah qarşısında bərabər olması barədə uydurma ideya ilə xristianlıq real varlıqda nəzərə çarpan ictimai ziddiyyətlər uçurumunu ört-basdır etməyə cəhd göstərirdi. Xristianlıq "cəfakeşlərə və məşəqqətdə olanlara" dini təsəlli verməklə istismar olunanların ictimai etirazını söndürməyə çalışır, onlara çəkdikləri əzab müqabilində "axirət dünyası"nda mükafat vəd edirdi. Özünün bu ictimai və ideoloji roluna görə xristianlıq quldarlıq quruluşu dağıldıqdan sonra da yaşadı və feodolizm cəmiyyətində də zəhmətkeşləri mənəvi əsarət altına salmaq üçün mühüm vasitə olaraq qaldı."[2]

Aydın Əlizadə: "IV əsrin əvvəllərində, Roma imperiyasında Xristianlığa, əvvəlcə, başqa dinlərlə bərabər hüquqlar verilmişdi, sonra isə bu din imperiyanın rəsmi dininə

---

[1] Hüseyn Tofiqi, " Böyük dinlərlə tanışlıq", səh 169
2 Orta əsrlər tarixi, səh 417

çevrilmişdir. Xristiianlığın dövlət dini səviyyəsinə qaldırılması imperator Konstantinusun adı ilə bağlıdır. O, bu addımı siyasi səbəblərə görə atmışdı. Məsələ bundadır ki, IV əsrin əvvəllərində xristianlar geniş xalq kütlələrinə təsir etmə imkanı olan təşkilatlar yarada bilmişdilər. Xeyriyyə işləri və axirətdə xilas olma ideyaları imperiyanın ən kasıb təbəqələri üçün cəzbedici görsənirdi. Digər tərəfdən isə, hakimiyyətə qarşı səbrli olmaq ideyaları, onları dövlət başçılarına qarşı üsyan etmə ehtimalının qarşısını alırdı. Eyni zamanda, kilsə tərəfindən müəyyən edilmiş dini qanunları və ehkamları qəbul etmək, keşişlərə tabe olmaq Xristianlığın prinsiplərindən idi. Bu cür din monarxiya üsul- idarəsi üçün çox əlverişli idi. Bunu başa düşən imperator Konstantinus, imperiyada sabitliyə nail olmaq və öz kakimiyyətini möhkəmləndirmək üçün, xristian faktorundan istifadə etməyə başladı. İlk növbədə o, 313- cü ildə, Xristianlığı hüquqi nöqteyi nəzərdən, başqa dinlərlə bərabərləşdirən Mediolan fərmanını imzalamışdır."[1]

Beləliklə, xristianlıq artıq Avropada cücərib pöhrələnmək üçün özünəməxsus yol tapdı.Zaman-zaman sərhədləri aşaraq ölkədən- ölkəyə sıçrayan xristianlıq etiqadı təbliğ olunaraq bu günümüzə qədər gəlib çıxdı.

Tədqiqatçı Hüseyn Tofiqi haqlı olaraq yazır : " Yəhudilik və bəzi başqa dinlər öz dinlərini təbliğ etmir, ardıcıllarının çoxluğunu özləri üçün bir imtiyaz saymırlar. Lakin İslam və Xristian dinləri təbliğ məsələsinə xüsusi əhəmiyyət verirlər.

Qədim dövrlərdən etibarən xristianların təbliğ heyətləri dünyanın müxtəlif ölkələrinə getmiş və bu dini dünyanın hər tərəfinə çatdırmışlar. Bundan əlavə, son əsrlərdə qərb mədəniyyətinin çiçəklənməsi, həmçinin istismar və mədəni

1 Aydın Əlizadə, " Xristianlıq. Tarix və fəlsəfə ( ilk çağlar)", səh 68

başlıqlar nəticəsində Xristian dini şərq dünyasında da genişlənmişdir."[1]
Tədqiqatçı S. Şahhüseynova xristianların ibadət etmələri mövzusunda maraqlı faktlara toxunur : "Uzun müddət xristianların ibadət üçün xüsusi binaları olmadığından onlar dua etməyə müxtəlif yerlərə gedir, çox vaxt da varlı xristianların evlərində yığışmalı olurdular.Bəzən bu məqsədə boşalmış anbarlar və ya sənətkar emalatxanaları da xidmət edirdi. Yer olmadıqda xristianlar açıq səma altında da ibadət edirdilər. Əvvəllər xristianlar ibadət üçün sinaqoqlara da gedirdi, yəhudilərlə münasibətləri korlandıqdan sonra isə bu da mümkün olmadı. Konstantinin dövründə xristianlıq rəsmən vahid dövlət dini olmasa da ona üstünlük verilirdi. Artıq xristianların öz məbədləri var idi və onlar aşkar ibadət edə bilirdi. Konstantin özü isə artıq ölüm yatağında ikən xaç suyuna salındı."[2]
Göründüyü kimi inanclarında inadkar olan xristianlar öz etiqadlarının qorunması və ayinlərini saxlamaq mövzusunda xüsusi xidmətlər göstərmişlər. Bu barədə uyğun tarix kitablarında fikirlərə rast gəlmək olur.
Aydın Əlizadə tarixi faktlara əsaslanaraq xristianlığın dövlət dininə çevrilməsi prosesində yeganə maneəni imperator Yulianusda (Julianus ) ( 361- 363) görür: " O, bütpərəstliyi dirçəltmək istəyirdi və bütün dinlərə bərabər hüquqların verilməsinin tərəfdarı idi. Lakin Yulianus İranla savaş zamanı həlak olmuşdu və onun ölümündən sonra Xristianlığın dövlət dininə çevrilməsi prosesi məntiqi nəticəsinə çatmışdı."[3]
Aydın Əlizadə rəsmi xristian təliminin yaranması prosesini bu cür izah edir: " IV əsrdə Xristianlıq artıq bütpərəstlik üzərində

---

1 Hüseyn Tofiqi, " Böyük dinlərlə tanışlıq", səh 170
2 Kulturologiya, səh 222
3 Aydın Əlizadə, " Xristianlıq. Tarix və fəlsəfə ( ilk çağıar)", səh 73

tam qələbə çalmışdır və Roma imperiyasının rəsmi dövlət dininə çevrilmişdir. Arianlıqla Atanasiosun ardıcılları arasında gedən çəkişmələr zamanı Roma imperatorları müxtəlif dövrlərdə öz siyasi maraqlarını rəhbər tutaraq bu iki cərəyanı dəstəkləyirdilər. Lakin sonda Atanasiosun ardıcılları, Atanın oğulla bir mahiyyətə malik olması doktrinası tərəfdarları qalib gəlmişdilər. Məhz bu cərəyan dövlət tərəfindən tanınmış və imperiyanın rəsmi Kilsəsini təşkil etmişdi. Bütpərəstlərlə birlikdə bütün başqa xristian cərəyanları və təriqətləri qadağan olunmuş, onların tərəfdarları isə təqiblərə məruz qalmışdılar. Bu proseslərlə bərabər, rəsmi xristian Kilsəsinin ideologiyası da yaranmaqda idi. Dini ehkamların sabitləşməsi, onların fəlsəfi əsaslarının işlənməsi, sistemləşdirilməsi işi imperiyanın həm Şərqində, həm də Qərbində gedirdi."[1]

**Kilsə**

Xristianlıqdan söhbət getdiyi zaman kilsədən danışmamaq bu dinin ardıcıllarına qarşı məncə ədalətsizlik olardı. Axı təşəkkül tapdığı zamandan bəri mövcud feodalizm cəmiyyətində kilsənin ictimai rolu çox önəmlidir.

Tarix yazır ki, cəmiyyətin hakim sinfi xristianlığın bütün orta əsrlər boyunca feodalizm quruluşunun şəraitinə uyğunlaşdırır, hər cür yolla kilsəni iqtisadi, siyasi və ideya baxımından qüvvətləndirməyə çalışırdı.[2]

Bəs kilsə nədir və xristianlar üçün nəyi ifadə edir? Bu sualın cavabını yenə də tədqiqatçıların nəzərlərində axtaraq.

Xristianlığın yalnız kilsə formasında mövcud olması- onun əsas xüsusiyyətlərindəndir.Artıq bu dövrdən başlayaraq kilsə xristian dininin mühüm atributuna çevrilmişdi. Xristianlıqda bir neçə dini ənənə mövcuddur ki, bunların da hərəsinin öz

---

1 Eyni mənbə, səh 73- 74

2 Orta əsrlər tarixi,səh 417

mərasim, ayin və dini simvolları var. Bunlardan, Bizans ənənəsinə malik Pravoslav, Roma ənənəsinə malik Katolik XVI əsr Reformasiya ənənələrinə malik Protestant kilsələri aparıcı idi.[1]

Hüseyn Tofiqi: Əhdi- cədid kitabında sözü keçən “ Xristian toplumu” əslində “Elçilərin kilsəsi” adlanır. Bu isə, həzrət İsanın (ə.) elçiləri və xristian dininin ilk nəslidir. Həmin cəmiyyət və toplumun tarixi miladi təqvimi ilə 30- 100- cü illəri, yəni “ Gül tökmə” (Pəncahe, Pintikast) bayramı ilə İncilin sonuncu hissəsinin yazılıb sona çatdığı illəri əhatə edir.[2]

Məqaləmizin əvvəlində tarixi dövrələri ayırarkən kilsələrin ayrılması məsələsinə toxunmuşduq. Bu barədə Hüseyn Tofiqi maraqlı faktlara toxunur: “ Xristian tarixində ən mühüm ayrılıq Konstantinopol kilsəsi ilə Roma kilsəsi arasında meydana gəlmişdir. Bəzən buna “ şərqlə qərbin ayrılığı” adı verirlər. Roma kilsəsinin nəzərinə görə, kilsələrə rəhbərlik edən şəxslər yalnız Roma yepiskopunun nəzarəti altında fəaliyyət göstərən dünya yepiskoplarından olmalıdır. Lakin Konstantinopol kilsəsi Xristian dini üçün dünyada bir- biri ilə bərabər olan beş kilsənin mövcud olduğunu söyləyirdi. Həmin kilsələr isə Yerusəlim, Antakya, Roma, İsgəndəriyyə və Konstantinopol kilsələrindən ibarət idi.[3]

Kilsənin iqtidarı ilə bağlı fikir ayrılığının olmasına rəğmən Roma və Konstantinopol kilsələrinə tabe olan xristianlar arasında **birlik** olmuşdur və sonrakı əsrlərdə də iki kilsə bəzən bir- birindən ayrılır, bəzən isə barışırdılar. Nəhayət, iki kilsə arasında “ Böyük ayrılıq” ( The Great Schizm) adlanan sonuncu ayrılıq 1054- cü ildə baş verdi.[4]

---

1 Kulturologiya, səh 222- 223
2 Hüseyn Tofiqi, “ Böyük dinlərlə tanışlıq”, səh 168
3 Eyni mənbə, səh 218
4 Eyni mənbə, səh 218

Şübhəsiz, məzhəb ayrılıqları və parçalanmaların çoxu siyasi amillər nəticəsində baş verir. Lakin son ayrılıqda etiqadi bir amil mövcud olmuşdur. Katoliklər (həmçinin sonradan meydana gəlmiş Protestan məzhəbi) öz imanlarını izhar etmək hədəfi ilə Müqəddəs Ruhun Ata Allah və Oğul İsadan gəldiyini bildirir və bu barədə " və Oğul" (latın dilində Filioque) ifadəsi işlədirlər. Lakin Ortodokslar iman qanunun əsl ifadəsilə kifayətlənir və həmin sözü işlətmirlər. Onların əqidəsinə görə, Müqəddəs Ruh yalnız Ata Allahdan gəlmişdir.[1]
Son dövrlərdə kilsələr bir- biriləri arasında vəhdət yaratmaq məqsədilə görüşlər keçirir, danışıqlar aparırlar.

## Firqələr

Xristianlar məzhəb və təriqəti " Kilsə" adlandırırlar. Bugünə kimi gəlib getmiş və indi də mövcud olan dinlərin müxtəlif məzhəb və təriqətləri olmuşdur. Xristianlıq da belə dinlər sırasındadır. Yaranma tarixinə və yaşına görə xristianlıq məzhəbləri bir- birindən fərqlənir.Bəzisi köhnə və qədimliyi və bəzisi isə nisbətən təzəliyi ilə tanınır. Ardıcıllarının sayında da fərqlilik nəzərə çarpır.
Xristian dinində üç böyük məzhəb və bir neçə kiçik təriqət mövcuddur. Katolik və Ortodoks kimi bəzi məzhəblər arasında mövcud olan fərq olduqca azdır. Lakin Katolik və Protestan məzhəbləri arasında mövcud olan fərq çoxdur.[2]
Bu məzhəblər haqqında daha geniş məlumat vermək olardı. Lakin məqaləmizin tələb olunan ölçüsünə uyğun gəlmədiyi üçün bununla kifayətlənirik.

---

1 Eyni mənbə, səh 218
2 Eyni mənbə, səh 219

## Papalar

Papalığın meydana gəlməsi Qərbi Avropada kilsənin qüvvətlənməsində böyük rol oynadı. IV əsrin sonu- V əsrin əvvəlində Roma papaları, müstəsna olaraq özləri üçün, papa, yəni kilsə başçısı adlanmaq hüququna yiyələndilər. Özlərinin kilsədə başçı olmaq iddialarını papalar "apostol Pyotrun varisləri " olmaları ilə əsaslandırırdılar. Əfsanəyə görə o, Xristin Romada ilk yepiskopu- ilk canişini olmuşdu. Qərbdə, xüsusilə İtaliyada, qüvvətli dünyəvi hakimiyyətin olmamasından istifadə edən papalar V- VI əsrlərdə sürətlə yüksəldilər, faktiki olaraq, Roma yeparxlığının dünyəvi hakimlərinə çevrildilər. Qərbi Avropa ölkələrində kilsə torpaq sahibliyinin inkişafı ilə əlaqədar olaraq bu torpaqlardan papanın cərəncamına müxtəlif rüsumlar daxil olmağa başladı.Papanın əlində olan torpaqların hamısı birlikdə " Müqəddəs Pyotr mülkü", onun özü isə həmin torpaqların ali senyoru hesab olunmağa başladı. Kilsənin təşkili get- gedə feodal- iyerarxiya quruluşu kəsb etməyə başladı; ona papa başçılıq edir, ən aşağı pillələrində isə - məhəllə (prixod) keşişləri dururdu. VI əsrin sonlarına yaxın Qərbi Avropada papalıq bütün xristian kilsəsinə tamamilə başçılıq etmək iddiasını irəli sürməyə başladı.

Roma Papası- Roma Baş yepiskopu, Roma Katolik Kilsəsinin başçısı, Katolik xristianların dini lideridir. Katoliklərə görə həvari Pyotrun xələfidir.İlk zamanlar bütün yepiskoplara verilən papa ünvanı, sonrlar yalnız Roma Yepiskopu üçün istifadə edilməyə başladı. Katolik kilsəsi, kilsə çərçivəsində Pyotr və xələflərinin təmsil etdiyi ən uca vəzifə olan papalığın ilahi bir qurum olduğunu iddia edir: İsa, papalıq vəzifəsini Pyotra təhvil vermiş və Pyotr da bu vəzifəni faktiki görmüşdür. Kİlsədə yerləşmiş bir ənənəyə görə Pyotr, Romada

din qurbanı olaraq ölmüşdür, bu səbəblə də ən təbii varisləri Romalı yepiskoplardır.[1]
İndiyə kimi 265 pap katolik xristianlarına rəhbərlik etmişdir.

## Rahiblik

Rahiblik- Xristianlıqda tərkidünyalıq, həyatı Tanrıya ibadət etməyə həsr edərək abidlik həyatı sürmək deməkdir.
Nəql olunanlara görə Xristian rahibliyinin vətəni Misir hesab olunur. Rahibliyin yaradıcısı Böyük Antonius (251-356) olmuşdur. Onun həyatı haqqında İsgəndəriyyəli Afanasios məlumat vermişdir· Antonius Misirdə, xristian ailəsində anadan olmuşdu. İyirmi yaşında olarkən, onun valideynləri vəfat etmişdirlər. Bu itkidən kədərlənən Antonius kilsədə olarkən, bir keşişin "hər şeyi buraxıb İsanın ardınca getmək" çağırışını eşitmişdi. Bu çağırışa səs verən Antonius öz əmlakını kasıblara paylayıb, rahib həyatına qədəm qoymuşdur. Əvvəlcə o, bir rahibin tələbəsi olmuşdu, sonra isə onu buraxıb, səhrada həyatını davam etmişdi. Orada o təklikdə, düşüncələrə qapılaraq, 26 il ərzində, yalnız dostları tərəfindən gətirilən quru çörəklə qidalanaraq, ibadətlə məşğul olmuşdur.
306-cı ildən başlayaraq, Antonius, öz ətrafına tələbələri yığmağa başlamışdır. Tədricən o, məşhur bir insan kimi tanınmışdır. Antoniusun xeyir-duasını almaq üçün Misirin çeşidli məntəqələrindən onun yanına adamlar gəlirdilər. Daha sonra Antoniusun məşhurluğu daha da artmışdır və imperator Konstantin ona ehtiramla dolu məktub yazmışdı. Antonius 356-cı ildə 105 yaşında vəfat etmişdi.
Antoniusdan sonra Misir səhralarına çoxlu rahiblər gəlmişdirlər. Onlar orada "monasterion" (monastır) adlanan koloniyalar yaratmışdılar. Bu koloniyaların öz adətləri, qayda-

1 Vikipedia

qanunları var idi. Monasterionlar ən məşhur rahibləri tərəfindən idarə olunurdular. Antoniusun dövründə daha bir tanınmış rahib yaşamışdı. Onun adı Ammonius idi. O da Misir səhrasında öz koloniyasını yaratmışdır. Burada onlar gündəlik əmək və ibadətlərlə məşğul olmuşdurlar.
Dəyərli alim Hüseyn Tofiqi yazır: " Həvarilərin zamanından indiyədək bəzi xristianlar həzrət İsa Məsihin (ə.) ardıcılı olaraq rahiblik və tərki- dünyalıq prinsipi əsasında yaşamağı üstün tutmuşdur.Həzrət İsa (ə.) heç bir zaman evlənməmiş və bəzi şəxslərin " Səmavi Padşahlıq" üçün subay qalacağını söyləmişdir."[1]
Onu da deyək ki,Xristianlıqda qəbul edilən rahiblik islam nöqteyi- nəzərindən nəinki bəyənilməyən, hətta qəbul olunmayan bir məsələdir. İslam Peyğəmbəri Hz. Mühəmmədin (s.) " İslamda rahiblik yoxdur" ifadəsi sanki, cəmiyyətə bir mesajdır. İslam bir ictimai din olaraq gətirdiyi ehkam və qanunları ilə cəmiyyətdən təcrid olunmadan ibadət və itaətin əsaslarını öz ardıcıllarına öyrədir.Düzdür, gecə münacatları, Uca Yaradanla razu-niyaz etmək,nəfsin hesaba çəkilməsi, etikaf kimi əməllər təklikdə aparılsa da, ümumilikdə islam teologiyası islam cameəsinin əsas və prinsiplərini təqdim etməklə ictimai bir varlıq olan insanı yetişdirməklə məşğuldur. Qeyd edilən əməllər isə yorğun cəmiyyətdən qısa bir ara ilə uzaqlaşıb ruhunu sakitləşdirməklə "kamil insan olmaq" hədəfinə hesablanıb.

## Qərb dünyagörüşündə dini- fəlsəfi məfkurənin formalaşması

Orta əsr fəlsəfəsi monoteizm prinsipinə əsaslanan xristianlıq dini dünyagörüşü üzərində qurulmuşdur. Bu dövr Roma

1 Hüseyn Tofiqi, " Böyük dinlərlə tanışlıq", səh 221

imperiyasının süquta uğraması və feodal ictimai münasibətlərinin formalaşdığı dövrə təsadüf edir. Xristianlıq dinində varlıq ideyası kreasionizm düşüncəsilə uyğunlaşdırılaraq təbiət anlayışı yox, Allah anlayışı ortalığa qoyulur və bütünlüklə, orta əsr fəlsəfəsi bu konsepsiyadan çıxış edirdi.Əksər tədqiqatçıların kitabında qeyd olunduğu kimi, fəlsəfə "dinin kənizinə", başqa sözlə "dinin xidmətçisinə"çevrilmişdi. O dövrdə fəlsəfənin izah etdiyi bütün məsələlər xristianlıq düşüncəsinə uyğun gəlməli və kilsənin icazəsi olmalı idi. Antik dövrdə izah olunan təbiət qanunauyğunluqları,ümumiyyətlə varlıq və bunun ətrafındakı söhbətlər kreasionizm qanunları ilə izah edilirdi.
Xristian fəlsəfəsinin ilkin mərhələsi patristika dövrü adlandırılır ki, bu da " xristianlıq dini təliminin fəlsəfi təlimə keçdiyi dövr" hesab edilir. Patristika latın sözü olub " ata" mənası kimi tərcümə olunur.Kilsə ataları tərəfindən yazılmış ədəbiyyatın ümumi adı mənasını verir. Patristika dövrünün birinci mərhələsində xristian ehkamının əsası qoyulmuş və güclü kilsə yaradılmışdır. İkinci mərhələdə isə xristian ehkamı və fəlsəfəsi yaradılmışdır. Patristika dövrünün nümayəndəsi Avreli Avqustin (354- 430) xristian alimi və mütəfəkkiridir. O, Şimali Afrikanın Taqasta şəhərində dünyaya gəlib. Avqustinin dünyagörüşü teosentrizm (yunanca " teos"- Allah, "sentrizm"- mərkəz deməkdir) üzərində qurulmuşdu. Buna görə də onun bütün fikirləri Allah haqqında nəzəriyyəyə əsaslanmışdı. O deyirdi ki, Allahın mövcudluğunun səbəbi özündədir. Dünyada Allahdan başqa mövcud olanların hamısı Allahın iradəsi yaranmışdır. Allah bütün mövcudatın səbəbidir. O, nəinki dünyanı yaratmışdır, həm də onu saxlayır və yaratmaqda davam edir.[1]

1 Eyni mənbə, səh 548

Xristian fəlsəfəsinin ikinci mərhələsi sxolastikadır. VIII əsrdə meydana gəlmiş XIV- XV əsrlərə qədər davam etmişdir. Sxolastka yunan dilində "məktəb" deməkdir. Bu dövr xristian fəlsəfəsinin inkişaf dövrü hesab olunur. Daha doğrusu, fəlsəfənin xristianlıq təlimləri əsasında mütəşəkkil işlənib hazırlanması bu dövrə təsadüf edir. Yuxarıda qeyd etdiyimiz kimi, fəlsəfə bütün hallarda xristianlıq dini təlimləri kürsüsündən çıxış edirdi. O dövrün Eriugena, Anselm, Rosselin, Abelyar kimi nümayəndələri tanınmışdır.

Sxolastikanın ən görkəmli nümayəndəsi Akvinalı Fomadır. Onun yaradıcılığı tərəqqi dövrünə təsadüf edir. Foma Cənubi İtaliyada dünyaya gəlmiş, təhsil almağa çox diqqət yönəltmiş və bir sıra traktatların müəllifi olmuşdur. Foma katolik ehkamını tamamilə işləyib hazırlamaqla xristianlığa xidmət edən "İlahiyyatın məcmusu" kitabını yazmışdır. Fomanın fikrincə, fəlsəfə etiqada, ilahiyyata xidmət etməlidir. O, Aristotel fəlsəfəsini öyrənməklə onun ilahiyyata xidmət edəcək məqamlarından istifadə etdi. Foma Allahın varlığı, insan ruhu, gerçəkliyin dərki haqqında bir sıra fikirlər yürütmüşdür. Onun maraq doğuran etik baxışları da mövcuddur. Lakin bir cəhət də var ki, Foma sosial bərabərliyin əleyhinə çıxır, sosial fərqləri əbədi sayırdı. O, yazırdı ki, itaətdə olanlar ağalara tabeçilik göstərməlidirlər. İtaət etmək məzlumların, o cümlədən bütün xristianların başlıca xüsusiyyəti olmalıdır.[1]

Bu, Foma fəlsəfəsinin nöqsanlı mahiyyətini əks etdirir.

İlahiyyata xidmət edən fəlsəfə bu "nökərçiliyə", "tabeçiliyə" əbədi dözə bilmədi. XIV əsrdən etibarən renessans dalğası bütün Avropanı bürüyərək XV- XVI əsrlərdə intibahın yüksək mərhələsinə qədəm qoyur. İntibah dövründə mədəniyyətin bütün sahələri daxil olmaqla elm və fəlsəfə də

1 Eyni mənbə, səh 566

inkişaf etdi. Bu dövrdə əsarətdən söhbət belə gedə bilməzdi. Tarixin buna ehtiyacı vardı.

## Nəticə

Bu məqalədə bir zaman kəsiyində məskunlaşan, özünə xas yer tutan orta əsr düşüncəsi ilə tanış olduq. Eramızın I əsrindən başlanan fəlsəfi intibah, başqa sözlə, renessans deyilən dövrə qədər davam edən xristian fəlsəfəsinin qaynaqlandığı xristian düşüncəsi yəhudilikdən sonra əsrlərlə insanların həyatına, məfkurəsinə, adət- ənənələrinə təsir göstərən bütpərəstlik dünyagörüşünə yekdilliklə son qoydu. Xristianlıq dini isə İsa Məsih vasitəsilə zaman- zaman özünə tərəfdarlar toplayaraq insanlara ilahi gözəlliyin çalarlarını açaraq yaşamağın əsil qaydasını öyrətdi. Lakin İsa Məsihdən sonra onun həvariləri tərəfindən dəyişdirilən xristianlığın monoteizm xəttinə təslis prinsipini daxil edərək bu dinin ideyalarına bir növ, demək olar ki, bidət (yenilik) gətirdi. Bununla da müasir dövrümüzə qədər davam edən xristianlıq əsrlərlə insanların zehnində qeyri- düzgün mövqe nümayiş etdirərək ilahiyyatın monoteim prinsipinə xələl gətirdi. Digər məsələ isə kilsə ehkamının o zamankı dövrdə Romanın süqutundan sonra cəmiyyətdə hakim kəsilməsi elmin, mədəniyyətin, fəlsəfənin inkişafına mane oldu. Tədqiqatçıların dediyi kimi, kilsə hər bir şeyin çıxış nöqtəsi oldu. Təbii elmlərin inkişafı ləngiyərək təbiət alimlərinin həyatına belə təhlükə yarandı. Sərbəst fikrin, sərbəst düşüncənin bəyanından isə söz gedə bilməzdi. Kilsənin bu səhv mövqeyi sonradan kilsənin özündən çıxan Martin Lüterin protestanlıq hərəkatı bir növ kilsəyə və onun tutduğu xəttə protest verərək xristian kilsəsinin yeni mövqe tutmasını məcbur etdi. Tədqiqatçılar o dövrün fəlsəfəsini xarakterizə

edərkən " qaranlıq dövr" adlandıraraq sərbəst fikrin kölgədə qalmasını kilsə ehkamında görürdülər.
Xristianlığın islam dini ilə müqayisəsində fərqli bir mənzərə görürük. İslam dini monoteizm dini olmaqla zühur etdiyi gündən bu günə qədər öz xəttindən dönmədi. İslam peyğəmbərindən sonra bu dinin daxilində müxtəlif məzhəblər, firqələr yaransa da, islamın əqidəvi kökündə heç bir yad bir ünsür görünmədi. Kreasionizm nəzəriyyəsi özünü qorumaqla teoloji xətt bu günkü islama qədər davam edir. Digər tərəfdən, islam ehkamı nəinki elmin inkişafına mane oldu, hətta buna təhrik etdi. İslam peyğəmbərinin (s.) "beşikdən qəbrədək elm öyrənin" tövsiyəsini müsəlmanlar şüar tutaraq islami elmlərlə yanaşı, təbiət elmləri ilə də məşğul olmuş, elmə öz töhfələrini vermişlər. Fəlsəfə də inkişaf etdirilərək xəlifə Məmunun dövründə yeni bir inkişaf yolu tapmış, antik yunan fəlsəfəsinin müsəlman alimlərinə təqdim olunması ilə düşüncələrdə yeni fikirlər, ideyalar formalaşmış və islam ideologiyası saxlanılmaqla Aristotel fəlsəfəsinin sintezi müsəlman alimlərinin fəlsəfədə yaratdığı yeni mənzərə idi. Müsəlman fəlsəfəsinin inkişaf qanunauyğunluqları və sonrakı geriliyi böyük bir mövzu olduğundan və bu məqaləyə uyğun gəlmədiyindən yalnız bu nəticə ilə kifayətlənirik. Bir ilahiyyatçı kimi, qələmə aldığımız bu fəsildə öz mövqeyimizdən çıxış etsək də düşünürük ki, bunlar bir həqiqətdir.

## Ədəbiyyat

1. Qurani Kərim. Tərcümə. Bakı – 2005
2. İncil. Bibliya Tərcümə İnstitutu. Stokholm. 1993

3. Əzəm Pərçəm. Vəhy və Peyğəmbərlik mövzusunda səmavi kitabların uzlaşması. Bakı- 2013
4. Haşimi Rəfsəncani. Məhəmməd Bahünər. Dünya besət dövründə. Naşir Əhli- beyt.2006
5. Seyid Əhməd Mahmudi. Dinlərlə tanışlıq. Naşir Şəhriyar- 2006
6. Aydın Əlizadə. Xristianlıq. Tarix və fəlsəfə (ilk çağlar). Bakı- 2007
7. Hüseyn Tofiqi. Böyük dinlərlə tanışlıq.Bakı – 2015
8. Kulturologiya. Az.TN Az. Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı- 2003
9. Məmmədəli Zeynalov. Xarici ölkələrin fəlsəfə tarixi. Bakı- 2009
10.Orta əsrlər tarixi. (S.D. Skazkinin redaktəsi ilə). Rus dilindən tərcümə ( tərcüməçi Y. M. Mahmudov). Bakı- 1988
10. www.az.wikipedia.org

# Bədgümanlıq və onun növləri

Nəsimi Piriyev[1]

**Abstrakt**

Hüsnü-zənn, ya xoşgümanlıq İslamın insanlara tövsiyə etdiyi ən önəmli əxlaqlardan biridir. İnsanlar barəsində yaxşı və müsbət düşünmək əsas vəzifəmiz olmalıdır. Sui-zənn, başqa ibarə desək bədgümanlıq isə, bəyənilmir, hətta bəzən günah sayılır. Ümumiyyətlə, bədgümanlıq insanı qeybətə sürükləyən başlıca səbəblərdən biridir. Sui-zənn qəlbin qeybətidir və başqaları haqqında pis düşüncələrin qəlbdə özünə yer tapmasıdır. Sui-zənn qəlbi və ağılı xəstə, məzacı pozulmuş insanların mübtəla olduğu bir mərəzdir. Sağlam insan daim başqaları haqqında gözəl düşünər. Bədgümanlıq üçün ciddi səbəb lazımdır. Adi bəhanələr ilə kiməsə qarşı pis düşünə bilmərik.

**Açar sözlər**

Bədgümanlıq, bədbinlik, xoşbinlik, müsbət, mənfi

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

## Giriş

Çoxları belə təsəvvür edir ki, onların fitri istəyi olan xoşbəxtlik ötəri dünya ləzzətlərindədir. Ona görə də həqiqi səadəti tanımamış öz təsəvvürlərinin əmri ilə dünya ləzzətləri dalınca qaçırlar.

İkinci bir qism insan isə anlayır ki, ötəri dünya ləzzətləri səadət ola bilməz. Onlar açıq-aşkar görür ki, hər hansı dünya ləzzətini xoşbəxtlik bilən insan bu ləzzətə çatdıqdan bir müddət sonra nəinki özünü xoşbəxt hiss etmir, hətta bədbinliyə qapılır. Bu insanlar səadəti nədə görürlər? Bu sualın cavabında onlar da iki qrupa bölünür:

Birinci qrupa mənsub olanlar öz ağılları və ilahi peyğəmbərlərin köməyi ilə həqiqi səadəti Allaha yaxınlıqda tapırlar. Onlar əmin olurlar ki, əbədi xoşbəxtlik yalnız Allaha yaxınlıqdır. İkinci qrupa mənsub insanlar isə gecə-gündüz baş sındırır, mübahisə edir, şəkk-şübhəyə düşür və ömürlərinin son nəfəsinədək əzab çəkirlər.

Həqiqi səadəti tanımaq istəyənlər və onu Allahla yaxınlıqda görənlər əvvəlcə bu məqama aparan yolu tanımalıdırlar. Amma səadəti Allahla yaxınlıqda görənlərin əksəriyyəti bu səadət yolunu tanımaq üçün lazımınca səy göstərmirlər. Onlar cəmiyyətin təsiri altına düşərək həqiqi təkamül yolundan uzaqlaşırlar. Əlbəttə ki, bu sahədə müvəffəqiyyətlər də fərqlidir. Kimi fərdi, kimi ictimai, kimi də siyasi məsələlərdə zəruri agahlığı əldə edə bilmir. Amma doğru yolu tanımaq da azdır. Bu yolu tanıdıqdan sonra hərəkətə başlamaq lazımdır. Doğru yola düşmüş insanın səadətə çatması onun iradəsindən, ifratla təfrit arasında orta həddi tuta bilməsindən çox asılıdır.

Araşdırma aparıb doğru hədəfi tanıyan və düzgün əməl edən insan hansısa dünya və axirət nemətindən məhrum ola bilərmi? Allah-təala kainatı insanın təkamülə çatması və əbədi səadətə nail olması üçün yaratdığından doğru yol yolçusunun ilahi nemətlərindən məhrum edilməsi məntiqsiz olardı. Hətta azğın insanlar bu nemətlərdən faydalandığı halda, mömin şəxs nə üçün məhrum olmalıdır?! Allah-təala mömin üçün faydalı olan bütün nemətləri ona əta edir: «Göylər və yer qədər geniş olan behiştə nail olmaq üçün çalışın!».[1]

## Bədgümanlığın növləri

### 1) Allaha bədgüman olmaq

Yaradana inanmamaq, bağışlanmamaq və sair (forma, səbəblər, tənqid)

Allaha qarşı bədgümanlıq ilahi rəhmətdən və Onun geniş mərhəmətindən ümidsizlik və məyusluq halətidir və bu, çox böyük günahlardan biri hesab olunur. Peyğəmbəri-əkrəm (səlləllahu əleyhi və alih) buyurur: *"Böyük günahların ən böyüyü Allaha qarşı bədgüman olmaqdır."*[2]

İnsan (müəyyən bir günah etdiyi təqdirdə) ilahi əzabdan qorxmalı, bununla eyni zamanda Allahın rəhmətindən (və tövbə edəcəyi təqdirdə) bağışlanacağından məyus olmamalıdır. O öz vəzifələrinə əməl etməli, xalis niyyətə malik olmalı, günahlarından qorxmalı və bununla eyni zamanda Allah-taalanın əfv və mərhəmətinə də ümidvar olmalıdır. İmam Riza (əleyhis-salam) buyurur: *"Allah barəsində gümanını yaxşılat. Çünki Allah-taala buyurur: "Mən mömin bəndəmin Mənə*

---

- Hədid, ayə 21[1]

2 - Payəndə, Əbul-Qasim, "Nəhcul-fəsahə", səh. 236, "Dünyayi daniş" nəşriyyatı, Tehran, 1382-ci şəmsi il.

*qarşı gümanına baxıram: əgər Mənə qarşı yaxşı gümanda olsa, ona yaxşılıq edərəm, əgər pis gümanda olsa, onunla öz gümanına əsasən rəftar edərəm."*[1]
Burada təkcə Allahın bağışlamamasına bədgüman olmaq deyil, onun ruzi verən olmamasına da bədgümanlıq pislənilir.
İslam valideynləri, habelə onların simasında bütün insanları öz qız və oğlanlarını evləndirməyə sövq edir:
"Ərsiz arvadları, kənizləri və arvadsız kişiləri və öz layiqli qullarınızı (mö`minlər arasında, arvadsız kişi və ərsiz arvad qalmasın deyə) bir-biri ilə evləndirin. Əgər arvad və ya kişi kasıb olarsa, Allah Öz məhəbbəti ilə onları ehtiyacsız edəcəkdir. Allah bəndələrinin halından agahdır və Onun rəhməti böyük və tükənməzdir."
("Nur" surəsi, ayə:32)
Bu şərif ayə demək istəyir ki, kasıblıq evlənməyin qarşısına sədd çəkməməlidir. Əks halda bu şeytan vəsvəsəsidir. Şeytanın və`dəsindən qorxmaq isə, həqiqətdə mehriban Allah barəsində sui-zənn etməkdir. Allaha qarşı bədgüman olmaq haramdır. Allah evlənən yoxsullara, onların çətinliklərinini aradan qaldıracağına və onları Özköməkliyi ilə ehtiyacsız edəcəyinə söz vermişdir.(İmam Sadiq (əleyhissalam) buyurur: "Hər kəs yoxsulluq qorxusundan evlənsə, deməli Allah Taalaya qarşı sui-zənn etmişdir. Hansı ki, Allah Taala buyurur: "Allah Öz lütfü ilə oları ehtiyacsız (zəngin) edəcəkdir." ("Mən la yəhzurul-fəqih" kitabından.))

### 1) Bəndəyə bədgüman olmaq

Camaata qarşı bədgüman olmaq budur ki, başqaları həqiqi mənada pis iş görmədikləri halda insan onlara qarşı pis güman

---

1 - Səduq, Məhəmməd ibni Əli, "Üyunu əxbarir-Riza (əleyhis-salam)", 2-ci cild, səh. 20, "Cahan" nəşriyyatı, 1378-ci qəməri il.

və xəyalda olsun, həmin fikirlərə qapılaraq əks-reaksiya da göstərsin. Bədgümanlığın bu növü birinci qisimdə olduğu kimi (Allaha qarşı bədgüman olmaq), çirkin və rəzalət sifətlərdən, günahlardan hesab olunur. Həzrət Əli (əleyhis-salam) buyurur: *"Yaxşı insana qarşı bədgümanlıq ən pis günah və ən çirkin zülmdür."*[1]

## 3) Həyata baxışda bədgümanlıq

İnsan övladı bəzən həyatda qarşılaşdığı problemlər və narahatlıqdardan dolayı ümidsizlik, depressiyaya məruz qalır. Maddi və iqtisadi çətinliklər, xəstəliklər onu əzir və iradəsini sındırır. Bunun kökündə insanın ona bəxş olunan həyat fəlsəfəsini, nə üçün bu dünyada var olmasını düzgn anlamaması və dünyaya bağlılığıdır.
Əlbəttə, müharibələr, iqtisadi problemlər və sair amillər də burada rol oynaya bilir. Burada da iman qüvvəsinin iraadəni möhkənləndirməsini, səbr və təvəkkülün son ana qədər insanı mübarizəyə çəkə bilməsini qeyd etmək olar. İmam Sadiq (ə) buyurur: «Ey Cündəb oğlu, əgər bizim şiələrimiz möhkəm olsalar mələklər onlarla görüşər, buludlar onlara kölgə salar, başları üstündən və ayaqları altından onlara ruzi göndərilər, bütün istədikləri onlara əta olunar».
Bütün insanlar səadət sorağındadırlar. Onlar çətinlikdən sıxılır, xilas olmaq üçün yol axtarırlar. Amma hər zaman səadətə can atan insan həqiqi xoşbəxtliyi tanımaqda çətinlik çəkir.

## 4. Özünə qarşı bədgümanlıq

[1] - Amədi, Əbdül-Vahid, "Ğürərül-hikəm və dürərül-kiləm", səh. 263, "Dəftəri-təbliğat" nəşriyyatı, Qum, 1366-cı şəmsi il.

Yəni insan daim özünü Allah və Onun bəndələrinin hüquqlarına qarşı müqəssir hesab etsin. Birinci və ikinci qisimdə olanların əksinə olaraq bədgümanlığın bu növü günah deyil, üstəlik xalis möminlərin bariz xüsusiyyətləri və yüksək məziyyətlərindən biridir. Çünki bu halət Allaha ibadət və itaət yolunda daha artıq çalışmağa səbəb olur, insanı qəflətdən və qürur hissindən qoruyub saxlayır. İmam Əli (əleyhis-salam) buyurur: *"Ey Allah bəndələri! Bilin ki, mömin şəxs yalnız o zaman sübhü axşama və axşamı sübhə çatdırır ki, öz nəfsi barəsində bədgüman olsun, daim onun eyiblərini axtarsın və ondan daha artıq fəaliyyəti təvəqqe etsin."*[1]

Ümid və qorxunun faydalı həddi və bu həddin mərtəbələri vardır. Möminin hissləri bu mərtəbələrdən birinə uyğun olmalıdır.

İnsan Allahın mərhəmətinə həddən artıq ümid edirsə, bağışlanacağına arxayın olub böyük günahlara bata bilər. Bu həqiqi ümid deyil və olduqca zərərlidir. Çünki Allah insanı onun hansısa əməlinə görə bağışlayır. İnsan Allahdan elə bir həddə qorxmalıdır ki, bu qorxu onu günahdan çəkindirə bilsin. Qorxu və ümid arasında tarazlıq olmalıdır. Ümid qorxudan çox olsa insan günaha düşər, qorxu ümiddən çox olsa insanda bədbinlik yaranar.

İman dərəcəsi yüksək olan bir qism mömin bəzən öz gələcək taleyindən xəbərdar olur və axirət aləminin gerçəklikləri onların qəlbini titrədir.

Kamil insanın bəndəlik hissi onun bütün vücudunu bürüyür. İnsanın qorxusu bu vücuda daxildir. Demək, məsum imamlarda, günahsız insanlarda da qorxu olmuşdur. Bu insanlar Allahın mərhəmətindən xəbərdar olsalar da

---

1 - Amədi, Əbdül-Vahid, "Ğürərül-hikəm və dürərül-kiləm", səh. 90, "Dəftəri-təbliğat" nəşriyyatı, Qum, 1366-cı şəmsi il.

Onun qəhr sifətlərini xatırlayaraq qorxudan özlərini unudurlar. Amma Allahın camal sifətləri haqqında düşünmək onlara ümid verir. Əlbəttə ki, bu mərtəbədə bəzən isə ümid qorxunu üstələyə bilər. Kamil insanlarda isə ümid və qorxu arasında dəqiq tarazlıq vardır.

Bu mövzu ilə əlaqədar maraqlı bir rəvayət nəql olunmuşdur. Təqribən yaşıd olan həzrət Yəhya (ə) və həzrət İsa (ə) eyni dövrdə yaşamışlar. Bir gün Yəhya (ə) İsadan (ə) soruşur: «Necə də sakitsiniz. Yoxsa ilahi əzabdan qorxmursunuz?». Həzrət İsa buyurdu: « Nə üçün bu qədər ağlayırsınız? Məgər Allahın mərhəmətinə ümidiniz yoxdur?».

Həzrət Yəhya daim Allah qorxusundan ağlayardı. Hətta atası Zəkəriyya məsciddə moizə etmək istəyərkən baxardı ki, Yəhya orada olmasın. Həzrət Yəhyada qorxu həzrət İsada isə ümid hissi daha güclü idi. Amma bu iki sifət məsum imamlar və həzrət Məhəmməddə (s) eyni dərəcədə olmuşdur. Onlar Allahın cəlal sifətlərini düşündükdə qorxar, camal sifətlərini düşündükdə isə ümidvar olardılar. Bu hal digər övliyalarda da müşahidə oluna bilər.[1]

---

1 - Ayətullah Misbah Yəzdi, Sadiq yol axtaranlar üçün İmam Sadiqin (ə) nəsihətləri, səh. 56

## Araşdırma

Dünya həyatı qısa olsa da, bu qısa həyat insanın aqibətini təyin edir. İnsanın axirət səadəti məhz bu dünyada müəyyən olunur. Bu baxımdan dünya həyatımızın dəyəri çox böyükdür. Amma yaxşı nəticələr əldə etmək üçün dünya həyatının hər dəqiqəsinin qiymətini bilmək lazımdır. Təbii ki, insan öz ehtiyaclarını ödəmək üçün ömür boyu çalışır. Fərdi və ictimai vəzifələr olmasaydı insanın imtahanı da mümkün olmazdı. Seçim prosesini yaşayan insan təkamül yoluna qədəm qoyur. İnsan pislə yaxşı arasında yaxşını seçməklə behiştə çata bilər.

Sual oluna bilər ki, insan qarşısına çıxmış işləri planlaşdırarkən hansına üstünlük verməlidir. Məsələn, gənc iki yol ayrıcında qalıb; oxumağa getsin, yoxsa işləməyə? Quran oxusun, yoxsa ibadət etsin? İdman faydalıdır, yoxsa istirahət? Əsas suallardan biri isə budur: dünya həyatı üçün nə qədər çalışmaq olar? Bu sualın fərdi və ictimai baxımdan iki cavabı vardır. Fərdi baxımdan əsgərlə əkinçinin vəzifələri fərqlidir.

İnsan firavan həyat, var-dövlət üçün çalışmalıdırmı? İndi bütün ölkələrdə cəmiyyəti iqtisadi böhrandan çıxarmaq üçün iqtisadi inkişaf proqramları hazırlanır. İslam iqtisadi inkişaf proqramını qəbul edirmi? İnsanlar vaxtının daha çoxunu işə sərf edib nəticədə varlı olmalı, yoxsa sadə qidalarla keçinib ibadətə üstünlük verməlidirlər? Bu mövzu konfranslarda, seminarlarda çox araşdırılır. Hətta İslamı bir neçə əsr geridə görməyi öyrənənlər dini iqtisadi inkişafla üz-üzə qoydular. Onlar öz məntiqsiz fikirlərinə əsaslanaraq haray çəkirdilər ki, iqtisadi inkişaf gəlsə din əldən çıxacaq.
Bəs həqiqət necədir? Doğrudanmı insanlara səadət yolunu göstərən bir din onları kasıbçılığa çağırır? Doğrudanmı varlı adam pis adamdır? Əgər İslam var-dövlətə belə münasibət göstərirsə nə üçün Allahın peyğəmbəri Süleyman (ə) Ondan var-dövlət istəyir? «Pərvərdigara, məni bağışla və mənə kimsənin nail ola bilməyəcəyi mülk ver» («Sad» surəsi, ayə 35.). Süleymanın büllur saraylarını XXI-ci əsrin hansı tikilisi ilə müqayisə etmək olar. Bu saraya daxil olan Bəlqis islanmasın deyə, ətəklərini qaldırır. Ona belə deyilir: «Bu büllurdan tikilmiş bir saraydır»(«Nəml» surəsi, ayə 44.).
Həzrət Peyğəmbər (s) və məsum imamlar (ə) haqqında məlumat verilir ki, bu ilahi şəxsiyyətlər ildə onlarla qul azad edərmişlər. Belə bir böyük iş üçün hər insanda imkan olmayıb. İmam Hüseyn (ə) bir neçə dəfə bütün var-dövlətini kasıblara paylamış, fəqirlərə çatan qədər özünə də pay götürmüşdü. İmamların sadə geyib, sadə yaşayıb, sadə yeməsi o demək deyil ki, imamlar kasıb olub.

Deməkk, İslam müsəlmanların varlı olmasını bəyənir. Müsəlmanı zəlil, ac, savadsız, ev-eşiksiz görmək İslamın yox, İslam düşmənlərinin istəyidir. İşləmək, qazanmaq, Allah yolunda xərcləmək olduqca böyük savaba malikdir. Amma dünyaya könül verib, dünya sərvətinə çatmaq üçün bütün müqəddəslikləri ayaq altına almaq, Allahı yaddan çıxarmaq ən böyük bədbəxtçilikdir.

İctimai və iqtisadi nəzəriyyələrdən birinə görə bu gün qərbdə sənayenin inkişaf səbəbi dindar məsihilərin uzun müddət qənaət edərək sərmayə, kapital toplaması olub. Marks isə kapitalizmin yaranma səbəblərindən biri kimi məsihiliyin üç qolundan biri olan protestantlığı göstərir.

Əsas məsələ budur ki, insan dünyaya könül verməsin. Mümkündür ki, Allah rizasına görə ağa öz sürüsündən keçə, çoban isə çomağından keçməyə. Demək, qorxu varlı olmaq yox, bu vara bağlı olmaqdır. Qənaət böyük savaba məxsus xüsusiyyətlərdəndir. Heç nəyi olmayan insanın qənaət etməyə imkanı varmı?

Demək, iqtisadi inkişaf möminlik ruhuna zidd deyil. Pul məqsədə çatmaq üçün vasitədir. Amma pulu əlinə almaqdan ləzzət duyanlar onu xərcləmək yox, toplamaq barədə düşünürlər. Qəpik-qəpik yığdığı pulları xəzinələrdə dondurub Allahın hüzuruna əliboş gedən milyonçular çoxdur! Xəzinələrdə milyardlar yığılmışkən bir qarın çörəyə möhtac milyonlar çoxdur! Xoş o insanın halına ki, ibadətdən ayrılmadan zəhmət çəkib var-dövlət qazanır və bu var-dövlətdən ehtiyaclılara verdiyi qədər istifadə edir.

Ayə və hədislərdə, adətən, dünyaya bağlılıq məzəmmət olunur. Əlbəttə ki, söhbət ifrat və təfrit bağlılıqdan gedir.

Əvvəla təyin etməliyik ki, dünya nemətlərinin faydalı bir həddi varmı? Doğrudanmı ləzzətli xörəklər, gözəl geyimlər, xoş ətirlər zərərlidir? Bəziləri qəti şəkildə bildirir ki, bütün bunlar zərərlidir və onlardan istifadə edən insan mütləq cəhənnəmə gedəcəkdir. Bu olduqca yanlış fikirdir. Bəzi şəraitdə məsumlar dünyanı zəhərli ilana oxşadırlarsa, digər bir şərait barədə Quran buyurur: «Bu gün pak nemətlər sizə halal edilmişdir»(«Maidə» surəsi, ayə 5.), «Allahın öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur».[1] «Biz səmada bürclər yaratdıq, onları baxanlar üçün bəzədik».[2]

Adətən, kənddə yaşayıb heyvandarlıqla məşğul olanlar üçün öz sağlam, çox saylı sürüsünü müşahidə etməkdən ləzzətli iş yoxdur. Allah-təala buyurur: «Onları səhər naxıra, axşam axura gətirdikdə baxıb zövq alır, fərəhlənirsiniz» («Nəhl» surəsi, ayə 6.). Allah-təala hər şərait üçün xüsusi nemətlər yaradaraq dünya həyatını zinətləndirmişdir. İnsan bütün halal nemətlərdən istifadə etməli, şəxsi görünüşünə də fikir verməlidir: «Ey Adəm oğulları, hər ibadət vaxtı gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz» («Ə’raf» surəsi, ayə 31.).

İkinci mühüm məsələ insanın bu nemətlərə qəlbən bağlı olmasıdır. Hər hansı bir nemətə qəlbən bağlanmaq üçün insan çox qüdrətli olmalıdır. Ayə və rəvayətlər dünyanı yox, məhz dünyaya bağlılığı pisləyir. Dünya yox, dünyaya məşğul olub Allahı unutmaq pisdir.

1 - Əraf, ayə 32
2 - Hicr, ayə 16

İnsan öz təsiri altında olanları dünyaya bağlılıqdan xilas edə bilərmi?! Ən təsirli üsullardan biri ifrat və təfritdən çəkinib orta həddi gözləməkdir. İnsanı ifrat və təfritdən çəkindirəcək şərait lazımdır. Belə bir şərait olmadıqda orta həddi qorumaq problemə çevrilir.Məsələn, yetkinlik yaşına çatmış bir gənci tərbiyə etmək üçün onunla yumşaq rəftar edib onu mənəvi işlərə həvəsləndirəcək şərait yaratmaq lazımdır.

Hansı ki, dünya məhəbbəti nə tərbiyəçi, nə də şərait istəyir. Əgər insan tabeçiliyində olan insanlar üçün orta həddən artıq dünya şəraiti yaradarsa onları dünyapərəstliyə təşviq edir. İnsan bütün sahələrdə özünü normadan aşağı faydalanmağa öyrətməlidir. Dünya məsələlərində üstünlük qazanmaq həvəsi insanı küfrə endirə bilər. «Qəsəs» surəsinin 83-cü ayəsində buyurulur: «Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə fəsad törətməyənlərə qismət edirik».

İmam Sadiq (ə) buyurur ki, ayaqqabısına dostununkundan yaxşı bağ bağlamaq istəyən özünü yuxarı tutmaq xəstəliyinə düçar olub. İmam (ə) İbn Cündəbə buyurur: «Allahın müqəddər etdiyinə qane ol. Öz olanlarına nəzər sal. Başqalarının malik olduqlarına göz dikmə. Bax gör Allah sənə necə nemətlər verib».

Adamların xarakterinə işarə olunan bir məsəldə deyilir ki, kimi bəzi insanlar içində yarısına qədər su olan stəkanın boş yarısını, bəziləri isə dolu yarısını görür. Allah istəyir ki, insan dolu yarısına nəzər salıb şükr etsin. Bəzən insan heç vaxt çata bilməyəcəyi şeyləri ələ gətirməkdən ötrü daim götür-qoy edir. Qənaət ruhiyyəsində olan heç zaman acımadığı kimi bu ruhiyyədə olmayanlar da heç zaman doymur. Onlar hesablarında pul, süfrələrində dadlı təamlar olduğu halda, ehtiyac və aclıq hissi ilə əriyirlər. Dünya şor suya bənzəyir. Onu içənin ciyəri yanır. İnsan malik olduğu şeylərin qədrini bilib qane olarsa hər zaman şad olar. Amma öz olanlarına qane olmayıb əlçatmaz arzularla qovrulanlar sevinc üzünə həsrətdir. İmam (ə) «əlində olanlardan axirət səadətin üçün də faydalan» buyurur.

İnsanın dünya malına münasibəti bir neçə baxımdan araşdırıla bilər. Məsələn, əgər söhbət insanın dünya malına məhəbbətindən gedirsə, bu malın az və ya çox olmasının heç bir əhəmiyyəti yoxdur. Əgər dünya malına məhəbbət insanın ibadəti və ictimai vəzifələrinə zərər vurursa, bu çox təhlükəli haldır. Ona görə də insan belə bağlılıqlardan qorunmalıdır. İnsan bir şey əlindən çıxdıqda qəmlənməməli, bir şey qazandıqda da sevinməməlidir. «Hədid» surəsinin 23-cü ayəsində buyurulur: «Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə verilənə də sevinməməyiniz üçündür». Əlbəttə ki, bu sözləri demək çox asandır.

İnsan özünü belə bir məqama çatdırmaq üçün müxtəlif üsullardan istifadə edə bilər. O öz nəfsini tərbiyələndirmək üçün ən çox sevdiyi bir şeyi başqasına bağışlaya bilər. «Ali-imran» surəsinin 92-ci ayəsində oxuyuruq: «Sevdiyiniz şeylərdən sərf etməyincə savaba çatmazsınız. Şübhəsiz ki, Allah xərclədiyinizi biləndir».

İnsanlara əl tutmaq üçün çalışmağın bir şərti var. Aydındır ki, başqalarına əl tutmaq müstəhəb, bir çox vəzifələr isə vacibdir. Müstəhəb iş vacib işə mane olmamalıdır. Məsələn, təhsili buraxıb pul qazanmaq və onu başqalarına paylamaq düzgün sayılmır. Vacib işin tərk olunmasına gətirən müstəhəb işə icazə verilmir.

Mümkündür insan ixtiyarında olan var-dövlətdən istifadə etməsin. Burada müxtəlif məqsədlər ola bilər. İnsan paxıl olduğu üçün yığdığı var-dövlətdən istifadə etməyə qıymaz. Amma başqa bir səbəb də ola bilər. Mümkündür ki, insan dünya ləzzətlərinə adət etməmək üçün qazancına toxunmasın. İnsan birdən-birə qula çevrilmir. O, öz bütünə asta-asta vərdiş verir. İnsan dünya malından az istifadə etməklə onun məhəbbətindən amanda qala bilər. Ümumiyyətlə, qənaət və az xərclə dolanmaq övliya sifətidir. Sərvətli adam zahid də ola bilər. Misilsiz var-dövlətə malik olan həzrət Süleyman öz əlinin zəhməti ilə ərsəyə gətirdiyi arpa çörəyi yeyərdi.

İnsanı dünya malına bağlayan digər bir əlaqə zəif əxlaqi sifətlərdir. Yalnız zəif əxlaqlı insanlar dünya malını dəyərli bilib onun ardınca qaça bilərlər. Hər hansı itki səbəbindən qəm-qüssəyə batmağın da bir səbəbi zəif əxlaqdır.

Əgər insanın dünya malına məhəbbəti olmasa və yalnız vəzifələrinin icrası üçün dünyadan istifadə etsə heç zaman dünyaya könül verməz. İstər varlı insanın Allah yolunda infaqı, istərsə də imkansızlıq qarşısında insanın səbri böyük ibadətlərdən sayılır. Axirəti düşünən insan var-dövlət tapıb onu itirməkdən qorxmur. İmam Sadiq (ə) buyurur: «Böyük var-dövlət və güc səni məst etməsin».[1]

---

1 - Misbah Yəzdi, Sadiq yol axtaranlar üçün İmam Sadiqin (ə) nəsihətləri, səh. 61

«Allah sevincdən özünü itirənləri xoşlamır» («Qəsəs» surəsi, ayə 76.). İnsan var-dövlətini əldən verdikdən sonra bədbin olarsa Allahın sevgisindən məhrum olar. «Məaric» surəsinin 19-22-ci ayələrində buyurulur: «Həqiqətən insan çox həris və tamahkar yaradılmışdır; ona bir pislik üz verdikdə fəryad qoparır, xeyir nəsib olduqda isə xəsislik göstərir. Namaz qılanlar istisnadır».

Nə üçün insanların bir qismi dövlətli, digər bir qismi isə kasıbdır? Əvvəla var-dövlətin çoxluğu Allahla dostluq yox, imtahan əlamətidir. «Ənfal» surəsinin 28-ci ayəsində buyurulur: «Bilin ki, var-dövlət və övlad sizin üçün yalnız bir imtahandır». Başqa bir ayədə oxuyuruq: «Biz sizi xeyir və şərlə sınağa çəkərik»(«Ənbiya» surəsi, ayə 35.). Dilimizə sınaq mənasında tərcümə olunmuş sözə Quranda «fitnə» kimi işarə olunub. Ayələrdə var-dövlət fitnə, başqa sözlə, sınaq kimi tanıtdırılır. İnsan var-dövlət qazanıb onu sərf edərkən ilahi göstərişlərə əməl edə biləcəkmi? Bir halda ki, dünya imtahandır, ona vurulmağa dəyərmi?! Əlbəttə ki, dünya son məqsəd olsaydı onun haqqında düşünməyə dəyərdi. Bir halda ki, dünyanın ömrü imtahan bitənədəkdir, ona könül verməyə də dəyməz. Dünya, üzərində suallar yazılmış imtahan vərəqi kimidir. Bu kağızın gözəl olub-olmamasının əsl məqsədə heç bir dəxli yoxdur. Əsl məqsəd suallara düzgün cavab yazmaqdır.

Yuxarıda qeyd olunan bərabərsizliyin ikinci səbəbi budur ki, dünya nemətləri Allah nəzərində biz düşünmədiyimiz kimi dəyərli deyil. Qurani-Kərimin bir çox ayələrində dünya nemətləri axirət nemətləri ilə müqayisə olunur və təbii ki, axirət nemətlərinə üstünlük verilir. «Axirət ruzisi daha xeyirlidir» buyurulur. İnsana dünya nemətlərinə uymayıb axirət nemətləri haqqında düşünmək tapşırılır. Bəli, əsl ruzi olan, yəni «Allah ruzisi» adlandırılan əbədi axirət nemətlərinin ardınca getməyə dəyər.

## *GÖZƏLLƏRİN ƏN ÜSTÜNÜ, GÖZƏL ƏXLAQDIR*

### “*Əxlaq*” lüğətdə və terminologiyada

“Əxlaq” lüğətdə “*xulq*” sözünün cəmidir və “xulq” sözü “*xəlq*” sözü ilə müqayisə oluna bilər. Ərəb dilində “xəlq” sözü insanın zahiri gözü ilə gördüyü forma, surət, şəkil mənasındadır. “Xulq” isə qəlbin gözü ilə müşahidə olunan daxili qüvvələr, xüsusiyyətlər, keyfiyyətlər mənasındadır.[1] İbn Moskəveyh “*əxlaqi əməllər*”i məşq, adət və insanın ruhuna nüfuz etmiş vərdiş ilə yanaşı əməllər olduğunu qeyd edir. O deyir: “Xulq, həmin nəfsani bir haldır ki, təfəkkürə və düşünməyə ehtiyac olmadan insanı müəyyən əməlləri etməyə dəvət edir”[2].

Buna əsasən, “əxlaq” insanın ruhi və batini sifətlər, keyfiyyətlər toplusudur.

Əxlaq elminin predmeti və əsas müzakirə obyekti “insan” və onun “rəftarlar”ı, “hallar”ıdır. Bu rəftar və hallar insanın səadətində və pis aqibətində təsirə malikdir və hər bir şəxsin də dəyəri onun müsbət əxlaqi keyfiyyətlərində

---

1- Rağib İsfahani, ***Mocəmu-Mufrədati-Əlfazil-Quran***, s. 159

2 -Razi, ***Təhzibul-Əxlaq və Təthirul-Əraq***, s. 51

olduğundan əxlaq elmi və nəfsin paklaşdırılması ən faydalı, ən lazımlı elmlərdən hesab olunur.

Əxlaq elmində bir sıra nəzəri mövzular vardır ki, əsasən insanın nəfsi və onun daxili qüvvələrinin (ağıl, vahimə, şəhvət, qəzəb qüvvəsi) tanıtdırılmasına, bu qüvvələrdən hər birinin alt çoxluqlarına, rəzil (mənfi) və müsbət keyfiyyətlərə aiddir. Bir sıra elmi bəhslər də insanın başqaları ilə rəftarına və əməllərinə aiddir. Buna görə də əxlaqi bəhslərin təsnifatında (bölgü) "*nəzəri əxlaq*" və "*əməli əxlaq*"la üzləşirik.

Əxlaqi fəzilətlərin (müsbət keyfiyyətlər) və rəzil (mənfi) sifətlərin tanıtdırılması, həmçinin, bəzən insanın şəxsi rəftar və halları ilə bağlıdır, bəzən isə digərləri ilə rabitə dairəsindədir. Bu üzdən də başqa bir təsnifat var: "*fərdi*" və "*ictimai*" əxlaq.

Əxlaqi cəhətindən "özünütərbiyə" bir tərəfdən, yalnız mənəvi çirkinliklərin, bir tərəfdən də yaxşılıqların və dəyərlərin tanınması ilə və bu çirkinliklərin aradan qaldırılması, dəyərlərlə zinətlənməsi ilə əldə olunur. Buna görə də, kamal yolunda hərəkət edənlər və nəfsin paklaşdırılmasına marağı olanlar üçün birinci addım, bu mənfi və müsbət keyfiyyətlərin tanınmasıdır.

Şəhid Murtəza Mütəhhəri əxlaq elminin tərifində belə deyir: Əxlaq – necə yaşamağı biıməkdən ibarətdir... Həmçinin əxlaqda başqa bir məna da nəzərdə tutulur və o da budur: necə yaşamaq lazımdır ki, mənəvi dəyərə malik olsun, müqəddəs və ali olsun? Yəni, mənəvi dəyərə malik və adi əməldən daha üstün olmaq, "əxlaqi əməl" anlayışının bir hissəsidir.

Əxlaq elminin alimləri, "əxlaq"ın nə olması və "əxlaqi əməl"in hansı əməl olması sahəsində, insanın rəftar və əməllərini "*təbii*" və "*əxlaqi*"yə bölmüşlər.[1]

a) **Təbii əməl:** Bu, insanın təbiətinin tələb etdiyi adi, gündəlik işlərdir və mənfəətin əldə olunması, zərərin də uzaqlaşdırılmasına görədir. Heyvanların gördüyü işlərlə ortaq olan bu əməllər nə təriflənəsi, nə də məzəmmət olunasıdır. Yemək, içmək, yatmaq və bu kimi fellər təbii əməllərdir.
b) **Əxlaqi əməl:** Təbii əməllərin fövqündə dayanan və insana məxsus olan əməllər. Bu əməllər təbii əməllərin əksinə olaraq tərif layiq və mənəvi dəyərə malikdir. Məsələn: bağışlama, əfv etmə, güzəştə getmə, haqqı tanıma, vəfadarlıq, pislik qarşısında yaxşılıq etmə, heç bir mənfəət güdmədən digərlərinə xidmət etmə və digər insani əməllər.[2]

Əxlaqı, əməllərin obyektinə əsasən üç dəstəyə bölmüşlər:

1. **Fərdi əxlaq:** Yəni, fərdin özünə aid olan işlər. Bu işlər yerinə yetirilən zaman əsas etibarilə Allah və camaatla rabitə nəzərdə tutulmur. Məsələn: qarınquluQ və şəhvətpərəstlik.
2. **İctimai əxlaq:** İctimai əxlaqın əsas oxu insanın digərləri ilə rabitəsidir. Bu, fərdlərlə get-gəl etmək və ictimai həyat əsasında əmələ gəlir.
3. **İlahi əxlaq:** İnsanın bu əməlləri Allahla rabitəyə aiddir. Məsələn: Allaha diqqət etmək, Onu yada salmaq, Ona ümid etmək, iman gətirmək, inanmaq,

1- Mütəhhəri, ***İslam elmləri ilə tanışlıq***, c. 2, s. 191

2 -Tədqiqatçı qrupu, ***Dairətul-Məarifi Təşəyyu (Şiə ensiklopediyası),*** c. 2, s. 191

ibadət və bəndəliyin mənşəyi olan Allah qarşısında qorxu və təvazökarlıq.[1]

Şəhid Mütəhhəri tərbiyə və əxlaqın bir-biri ilə fərqi olub-olmaması bölməsində əxlaq və tərbiyənin fərqinə inanmağın səbəbini belə izah edir: tərbiyə yalnızca "bəsləmə" və "qayğısınaqalma", "düzəltmə" məfhumunu çatdırır. Tərbiyə nəzərindən "tərbiyə"nin necə və nə üçün olacağının fərq yoxdur. Yəni, "tərbiyə" məfhumunda müqəddəslik mənası gizlənmir ki, "*Tərbiyə, yəni bir şəxsə heyvaniyyat fövqündə olan keyfiyyət ələ gətirəcək şəkildə təlim vermək*" deyək. Əksinə, rəftar və əməli tərbiyə də bura aiddir. Belə olduqda, bu söz hətta heyvanlara da şamil olur. Amma "əxlaq" məfhumunda müqəddəslik gizlənmişdir və buna görə də əxlaq sözünü heyvan haqqında işlətmirlər. Əxlaq insana xasdır.[2]

Alimlər nəzərində "əxlaq" məfhumu qısa şəkildə aydınlaşdıqdan sonra, o, dini nəzərdən də araşdırılmalıdır. İslam əxlaqi təlimləri iki mənbədən qaynaqlanır: kitab və sünnə. Allah-taala instinktlərin kontrol olunması, hidayətə kömək və insanın səadəti üçün müxtəlif amillər qoymuşdur. Əlbəttə, bu amillər insana layiq olub, onun özünün ixtiyarı və seçimi ilədir. İnsanın öz yaradılışına diqqət etməsi və təfəkkür, düşünmək xüsuisyyətlərinə malik olması ona tüğyan edən şəhvət və selin qarşısında güclü sədd çəkməyə kömək edir.

## Bədgümanlığın amilləri

İnsanın bədgümanlıq etməsinə səbəb olan amillər aşağıdakılardır:

1 -Məkarim Şirazi, ***Quranda Əxlaq***, c. 1, s. 741

2 -Tədqiqatçı qrupu, ***İslamda təim və tərbiyə***, s. 95

a) Bədgüman insanın xüsusi zəifliyə və ruhi sarsıntıya düçar olması onu başqaları barəsində pis gümanlar etməyə vadar edir. Əli (əleyhis-salam) bu barədə buyurur: *"Şər insan başqaları barəsində xeyir fikrində deyildir. Çünki onları da öz təbiəti ilə müqayisə edir."*[1]

b) İmansızlıq və ya imanın zəif olması bədgümanlığın digər amilidir. Əli (əleyhis-salam) buyurur: *"Bədgüman insanın dini yoxdur."*[2]

Başqa bir hədisdə isə buyurur: *"İman bədgümanlıqla bir yerə yığışmaq."*[3]

v) Batinin alçaq təbiətli olması, gözəl əxlaqdan və insani səciyyələrdən uzaq olmaq sui-zənnin digər bir səbəbidir. İmam Əli (əleyhis-salam) buyurur: *"Xəyanət etməyən bir şəxsə qarşı bədgüman etmək alçaqlıqdır."*[4]

Camaatın qarşı tərəfə (bədgüman insanın sui-zənn etdiyi şəxsə) qarşı sui-zən etməsinin səbəbləri aşağıdakılardır:

a) Töhmət məqamında qərarlaşmaq. Bəzən insan özünü elə yerlərdə qərar verir ki, camaat onun barəsində bədgüman etməsinə səbəb olur. Elə işlər görür ki, hər kəs onu görsə onun barəsində pis fikirləşər. Bu işə də islam nəzərindən icazə verilmir. Çünki belə olan halda insan öz ixtiyarı və iradəsi ilə başqalarının onun barəsində bədgüman etməsinə şərait yaradır və onun müqəddimələrini hazırlayır. Əli (əleyhis-salam) buyurur: *"Hər kəs pis və nalayiq yerlərə daxil olsa, müttəhim olunar. Özünü töhmətə məruz qoyan şəxs onun barəsində bədgüman edənləri məzəmmət etməsin."*[5]

---

1 - "Ğürərul-hikəm", səh. 105

2 - "Ğürərul-hikəm", səh. 264

3 - "Ğürərul-hikəm", səh. 264

4 - "Biharul-ənvar", 75-ci cild, səh. 93

5 - Nəraqi, Molla Məhdi, "Camius-səadat", 1-ci cild, səh. 319

Rəvayət olunmuşdur ki, bir gün Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih) öz həyat yoldaşı Səfiyyə (Hüyy ibni Əxtəbin qızı) söhbət edirdi. Bu zaman ənsardan olan bir kişi oradan keçirdi. Peyğəmbər onu çağırıb buyurdu: *"Ey filankəs! Bu qadın arvadım Səfiyyədir! (Yəni gərək qəlbindən pis fikir keçməsin)."*

O kişi dedi: "Ey Allahın Rəsulu! Məgər biz sənin barəndə yaxşılıqdan başqa bir şey fikirləşə bilərikmi?!"

Həzrət buyurdu: "Şeytan qan kimi insanın bütün bədənində cərəyan edir və mən də (onun) sənə daxil olacağından (yəni mənə qarşı sui-zənn edəcəyindən) qorxdum."[1]

Pis fikir, bədbinlik, sui-zənn xalqın mühakiməsi nümunələridir. İnsan başqalarının yersiz mühakimə yürütməsinə şərait yaratmamalıdır. Bununla yanaşı, başqalarının razılığı üçün çalışmamalıyıq. Yalnız Allahın razılığını qazanmaq istəyənlər düzgün yoldadırlar. Bəzən insanların istəyi Allahın istəyindən fərqlənir. İnsanlar bəzən yersiz mühakimələr yürüdür, nahaq tərif və nahaq ittihama cəhd edirlər. Demək, insan öz əməlləri ilə xalqın diqqətini cəlb etməyə çalışmamalı, eyni zamanda, ehtiyatlı olmalıdır ki, xalq ona münasibətdə bədbin olmasın. Yəni xalqın razılığı üçün çalışmamaq ayrı bir məsələdir, bədbinliyə şərait yaratmamaq isə başqa bir məsələ. Allahın razılığını qazanmaq bütün hallarda zəruridir. İnsan daim düşünməlidir ki, onun hərəkətləri Allahın razılığına uyğundur, yoxsa yox?

Allah-təala icazə vermir ki, mömin şəxs özünü abırdan sala və ya başqalarına ehtiramsızlıq göstərə. Mömin şəxsin hörməti gözlənilməlidir. Başqalarına səni hörmətdən salmaq icazəsi verilmədiyi kimi, sən də öz hörmətini və digər möminlərin hörmətini qorumalı, sui-zənn və yersiz ittihamlara yol açmamalısan. Mömin şəxs ittiham üçün şərait yaratmamalıdır.

---

1 - "Biharul-ənvar", 71-ci cild, səh. 191

Eləcə də, başqaları ittiham olunmamalıdır. Əlbəttə ki, bu iki qaydaya əməl etmək çox çətindir. Bir tərəfdən xalqın razılığını güdməməli, digər tərəfdən onların bədbin olması üçün şərait yaratmamalıyıq. Bu sərhədləri dəqiq qorumaq asan deyil. İnsan öz eyb və günahlarını gizlətməlidir. Xalqdan gizli qalmış eyblərimizi açıqlamağa ixtiyarımız yoxdur. Bu qaydaya riayət edilsə, insana qarşı müsbət fikir yaranar. Bu, ilahi bir nemətdir və bu nemətin qədrini bilmək lazımdır. Xalqın etimadı adlı nemətdən maddi və mənəvi fəaliyyətlərdə bəhrələnmək lazımdır. Dostların və müsbət fikirli xalqın varlığı ilahi hədəflərə çatmaqda yardımçı ola bilər.

Əgər haqqınızda ictimai rəy müsbət olarsa, xalq sizə inanarsa, bu inam sizi yaxşılığa vadar edər və çalışarsınız ki, insanların rəyini doğruldasınız. Əgər sizə aid edilən kamillik və gözəl xasiyyətlər sizdə yoxdursa, bu sifətləri əldə etməyə çalışın. Əgər xalq düşünürsə ki, siz ibadət və təqva əhlisiniz, bu rəyləri həqiqətə çevirməyə səy göstərin. Əgər sizi doğruçu hesab edirlərsə, çalışın ki, yalan danışmayıb, dilinizi əsassız sözlərdən qoruyasınız. Bir sözlə, xalqın müsbət rəyi nemətini əldən çıxarmayın. Xüsusi ilə, ictimai mövqeyə malik insanlar üçün xalqın müsbət fikri olduqca əhəmiyyətli sərmayədir. Ona görə də xalqın xoş gümanını qoruyun, xalqın arzuladığı və Allahın razı qalacağı rəftar sahibi olun.
Sözsüz ki, mömin, müvəhhid, kamil imana malik insanlara belə tövsiyyələr verməyə ehtiyac yoxdur. İmam Həsən (ə) isə bu kamil sifətlərin nümunəsidir. Pak insana «xalqın arzuladığı kimi ol» demək yersizdir. Çünki bu insan Allaha xatir özünü çirkinliklərdən pak etmiş və xalqın müsbət rəyini əvvəlcədən qazanmışdır. Əvvəldə qeyd etdiyimiz kimi, vəsiyyətnamədəki bu tövsiyyələr bütün xalqa ünvanlanmışdır. Çünki adi insanlara büdrəmələr, xətalar labüddür və başqaları bu nöqsanlardan xəbərsiz ola bilərlər. Yalnız belə insanların xalqın arzusuna uyğun rəftara çalışması məntiqi olar.

b) Pis və şər adamlarla oturub-durmaq. Adətən, şər və əxlaqsız adamlar saleh və düz insanlara qarşı sakit dayanmır, onlardan eyib tapmağa çalışır, onlarda kiçik bir zəiflik və nöqsanlı hal görən kimi onu şişirdir, zəiflik tapa bilmədikdə isə özündən bir eyib düzəldirlər. Belə adamlarla oturub-durmaq insanın layiqli adamlara qarşı bədbin olmasına səbəb olur, onların rəftar və təfəkkürlərini tam əksinə təfsir və təhlil edir, onların gözəl işlərini çirkin qələmə verir. Əli (əleyhis-salam) buyurur: *“Pis*

*adamlarla oturub-durmaq yaxşı insanlara qarşı bədgümanlığa səbəb olur.”*[1]

## Bədgümanlığın zərərləri

Bədgümanlıq insanın fərdi və ictimai həyatında xoşagəlməz təsirlər qoyur ki, aşağıda onların bəzilərini qeyd edirik:

**a) Fərdi təsirlər**

**1. İnsanın camaatdan qaçması;**

İctimai həyat insanlar arasında ülfət, ünsiyyət və qarşılıqlı etimad əsasında bərqərar olmuşdur. Əgər insanlar bir-birinə qarşı bədgüman etsələr, qarşılıqlı etimad aradan gedər, səmimiyyət və ünsiyyət qarşılıqlı nifrətə çevrilər, hamı bir-birindən qaçar. Bədgüman şəxs başqalarından qaçır və yalqız qalır. Əli (əleyhis-salam) buyurur: *“Hər kəs gümanını yaxşılaşdırmasa, hamıdan qorxar.”*[2]

Hər bir insanın yaş, irs, fiziki və mə´nəvi istedad, ictimai mövqe kimi xüsusiyyətləri vardır. İnsanın qurduğu ictimai mövqedən həm yuxarı, həm də aşağıda digər ictimai təbəqələr mövcudur. İnsan özündən aşağıda və yuxarıda olanlarla hansı münasibətdə olmalıdır?

---

1 - “Biharul-ənvar”, 71-ci cild, səh. 192

2 - “Ğurərul-hikəm”, səh. 254

Hamını eyni bir səviyyədə bilmək yanlış fikirdir. Müəllimlə şagird, müdirlə fəhlə, ata ilə övlad arasında inkarolunmaz fərqlər vardır. İslamda hamının bərabər olduğunu əsas gətirərək əsgərin komandirə tabe olmaması tamamilə məntiqsizdir. Rəvayətdə buyurulur: «Bütün müsəlmanlar darağın dişləri tək bərabərdirlər»(«Biharul-ənvər», cild 78.). Lakin bu rəvayətdə müxtəlif ictimai vəzifəyə malik müsəlmanlar yox, Allah qarşısında ümumi bəndəlik nəzərdə tutulur. İctimai işdə rəhbərlik məsuliyyəti daşıyan müsəlmana itaətsizlik ümumi işi müvəffəqiyyətsizliyə aparır. Bu itaətsizlik adətən zəif iradəli insanlarda baş verir. Öz zəifliyini ört-basdır etmək istəyən insan bir pillə hündürdə dayanan müsəlmana qarşı çıxıb «mən səndən əskik deyiləm» demək istəyir. Amma tabeçilikdə olan şəxsin etirazı haqlı da ola bilər.
Amma bütün bu zərurətlər müsəlman cəmiyyətinin xeyrinə olduğu üçün hər müsəlman öz vəzifəsinə əməl etməlidir. Mömin insan nəfsani istəklərə uyub tabeçiliyində olduğu şəxslə dava-dalaşa yol vermədən öz vəzifəsinə əməl etməlidir.
İnsan özündən aşağıda dayananlara həqarət gözü ilə baxmamalıdır. Allah-təala Qurani-Kərimdə buyurur: «Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, lağa qoyulanlar lağa qoyanlardan daha yaxşı olsunlar»(«Hucərat» surəsi, ayə 11.).

## 2. İman və ibadətlərin məhv olub puça çıxması

Başqalarına qarşı bədgüman olmaq, pis fikirlərə qarşı reaksiya göstərmək insanın ibadətlərini puça çıxarır, günah yükünü ona ərməğan gətirir. Əli (əleyhis-salam) buyurur: *“Bəd güman*

*etməkdən uzaq ol! Çünki bəd güman ibadəti korlayır və günahı böyüdür."*[1]

Yəni insan başqalarına qarşı bədgüman etdiyi zaman onların barəsində düzgün olmayan mühakimə yürüdür, onların barəsində yaramaz sözlər danışaraq eyiblərini axtarır və özünü başqalarından üstün hesab edir. Nəticədə bu yaramaz sözlər, qeybət və özünü üstün görməsi bir tərəfdən ibadətlərinin puça çıxmasına səbəb olur, digər tərəfdən də bu çirkin əməllər və rəzil sifətlər bədgümanlıq günahının yanında qərarlaşaraq sahibinin günahını ağırlaşdırır.

3. Həlak olmaq

Sui-zənn və qeybət bir-biri ilə əlaqəli çox namərd və xain günahdır. Ata-babalarımız "Su yatar, düşmən yatmaz" deyib. Doğrudan da, belədir. Üstəlik insanların ən böyük düşməni nəfs və şeytan gözünü belə qırpmır. İnsanı günaha təhrik etmək, fikrini qarışdırmaq, qəlbə fitnə-fəsad salmaq üçün hər an hücuma hazır dayanır. Məsum sözlərin qəlibinə qeybət dinamiti yerləşdirir və insanın o qədər xeyirli əməlini bir anda göyə sovurur, insana elə söz dedirdir ki, meşəyə düşən qığılcım kimi hər şey bərbad olur. Belə təhlükəli düşmənlərə qarşı son dərəcə diqqətli yaşamalı, iyirmi dörd saat növbə çəkən əsgər kimi nəfs və şeytana qarşı ayıq-sayıq olmalıyıq.

Bədgümanlıq çox təhlükəli ruhi xəstəliklərdən biridir. Bədbin şəxs daim ruhi əzab keçirir, onun qəlbinin səhifəsi puç xəyallar və yanlış fikirlərlə örtülmüşdür. Buna görə də zamanın keçməsi ilə öz ruhi sağlamlığını əldən verir, sui-zəndən irəli gələn məyusluq səbəbi ilə özünü həlak edir. İmam Əli (əleyhis-salam) buyurur: *"Bədgümanlıq sahibini həlak edir, ondan uzaqlaşanlar qurtuluşa çıxar."*[2]

---

1 - "Ğurərul-hikəm", səh. 263

2 - "Ğurərul-hikəm", səh. 263

## b) İctimai təsirlər

### 1. İnsanlar arasında qarşılıqlı etimadın aradan getməsi

Bədgümanlıq cəmiyyətə hakim olan məcmu etimad ruhunu aradan aparır, ictimai təhlükəsizliyi xətərə salır. Belə ki, heç kəs başqasına etibar etmir, insanlar bir-birinə xəyanətçi gözü ilə nəzər salaraq bir-birindən qaçırlar. Əmirəl-möminin Əli (əleyhis-salam) buyurur: *"Camaatın ən pisi o kəsdir ki, bədgümanlığına görə camaata etimad etmir, bir kəs də onun əməlinin pis olduğuna görə ona etimad etmir."*[1]

### 2. İşlərin xarab olması və başqalarının şər işlərə təşviqi

Bədgümanlığın mənfi təsirlərindən biri yaxşı işlərin puça çıxmasıdır. Çünki bədgümanlıq etimadsızlıq yaradır, etimadsızlıq da başqalarında mənfi hislər oyadır və işlərin eşq-məhəbbət üzündən yerinə yetirilməsi əvəzinə, etimadı cəlb etmək üçün süni rəftarlara, yaxud işdə problem yaratmağa, işlərin görülməsini mürəkkəbləşdirməyə vadar edir. Başqa sözlə desək, bədgümanlıq xisləti düz və etimad olunan insanları düzgün olmayan yollardan istifadə etməyə vadar edir. Əli (əleyhis-salam) bu barədə buyurur: *"Bədgümanlıq işləri puça çıxarır və insanı pisliklərə tərəf çəkir."*[2]

### 3. Dostluq əlaqələrinin gərginləşməsi

Dostlara qarşı bədgümanlıq onların arasındakı əlaqələrin gərginləşməsinə səbəb olur, dostluq və səmimiyyəti məhv edir.

---

[1] - "Ğurərul-hikəm", səh. 263
2 - "Ğurərul-hikəm", səh. 263

Əli (əleyhis-salam) buyurur: *"Bədgümanlıq hər kəsin qəlbinə qələbə çalsa, onunla dostu arasında artıq səfa-səmimiyyətə yer qalmır."*[1]

## 4. Yaxşılara qarşı da bədgüman olmaq

Əgər insan bədgümanlığı öz xasiyyətinə çevirərsə, o get-gedə yaxşılara qarşı da bədgüman olacaqdır.

1 - "Ğurərul-hikəm", səh. 264

Şübhəsiz, İslamın ardıcıl şəkildə müsəlmanların diqqətini bir-birlərinə yönəltməsinin səbəbləri var. Bu səbəblərdən ən mühümü budur ki, insanların taleyi bir-birinə bağlıdır, onların mənəvi kamilliyi sıx şəkildə əlaqəlidir. Əgər insanlar dağlarda və meşələrdə pərakəndə şəkildə yaşasaydılar, bugünki elmi-texniki nailiyyətləri əldə edə bilərdilərmi?! Tənhalığa çəkilmiş insan cəmiyyətlə heç bir əlaqə saxlamasa, qarnını doyurmaq üçün heyvan tək yem gəzməlidir. Cəmiyyətlə əlaqəni tamamilə üzdükdə sadəcə yemək bişirmək və paltar tikmək mümkün olmur. Sadə bir köynək fermadan toxuculuq fabrikinədək uzun bir yol keçir. Başqa insanlarla rabitədə olmadan hətta nitqi qorumaq mümkünsüzdür. Bu gün mənzilimizdə faydalandığımız su, qaz, işıq ictimai həyatın bəhrələrindəndir. Əgər toplum olmasa tənhalığa çəkilmiş insan bir ovuc su əldə etmək üçün olmazın əziyyətlərini çəkər. Bəli, ictimai həyat bizim bütün maddi ehtiyaclarımızın təminində aparıcı rol oynayır. Məgər toplum olmasa tənha insan təbiət hadisələri qarşısında tab gətirə bilərmi?! Şübhəsiz, cəmiyyətdən uzaqlıq insan üçün yalnız problemlər yaradır.

Mənəvi işlərdə də vəziyyət eynidir. Şübhəsiz ki, böyük əksəriyyət eşitmək və ya mütaliə yolu ilə dinlə tanış olur. Biz uyğun sahədəki biliklərimizə görə ata-analarımıza, müəllimlərimizə və kitablara borcluyuq. Əgər ictimai həyat olmasaydı bu sayaq rabitələr də olmazdı. Aydın məsələdir ki, hər bir millətin dili ictimai rabitələr sayəsində formalaşmışdır. Çoxsahəli ünsiyyətlər sayəsində dilin lüğət tərkibi genişlənmişdir.

Düşünmüsünüzmü ki, əgər ata-anamız və ətrafdakılar bizi Allah, peyğəmbər, din və Quranla tanış etməsəydilər, bütün bu həqiqətlərdən qəflətdə qalardıq? Deyə bilərsiniz ki, mən kitablardan oxuyub öyrənərdim. Məgər kitablar ictimai rabitələr sayəsində ərsəyə gəlmirmi? Əgər cəmiyyət olmasaydı, hərflər, sözlər, dillər formalaşardımı? Yazı necə yaranır, necə öyrədilir? Əgər bir şəxs tənhalığa çəkilib özündən əlifba yaratsa və həmin əlifba ilə kitab yazsa, bu kitabı ondan başqa kim anlayar? Başqalarının bu kitabı oxuması üçün o ictimai əlaqələrə qatılıb uyğun əlifbanı öyrətməyə məcburdur. Bəli, dini və mənəvi məsələlərdən nə biliriksə, ictimai həyatın səmərələrindəndir.

Mənəviyyatla, zəruri həqiqətlərlə tanışlıq üçün hər birimiz ictimai həyata, məsələn müəllimə, ata-anaya, məktəbə, sinifə, məscidə, hüseyniyyəyə, kitaba möhtacıq. İnsan təklikdə saleh iş görməyə də acizdir. Yalnız başqalarının köməyi ilə xeyir işləri həyata keçirmək mümkün olur. Məsələn, Əhli-beyt (ə) üçün əlamətdar günlərdə mərasim qurmaq savabdır. Əvvəla, bu məclis özü ictimai bir yığıncaqdır. İkincisi, əgər siz qonaqlara yalnız çay süfrəsi açmaq istəsəniz, süfrəyə qoyacağınız qənd, çay və başqa hər nə ictimai işin məhsuludur. Əgər başqaları fabrik və zavodlarda çalışıb ehtiyac duyduğunuz şeyləri istehsal etməsələr, siz addım ata bilməzsiniz. Demək, sadə bir məclisinin keçirilməsi üçün cəmiyyətin iştirakı labüddür.

İstər maddi, istər mənəvi yönümdə insanın bütün ehtiyacları cəmiyyət və ictimai həyat sayəsində təmin edilir. Əgər cəmiyyət və ictimai həyat olmasaydı, hətta peyğəmbərlər də bir iş görə bilməzdi.

Peyğəmbər (s) təkbaşına ayrı-ayrılıqda fərdlərlə görüşüb söhbətləşsə nə kimi nəticə əldə edər?! İslam peyğəmbəri (s) öz mühüm bəyanatlarını xalqa çatdırmaq üçün müxtəlif fürsətlərdən faydalanmışdır. Həzrət həcc dövrünü qənimət sayırdı. Həmin vaxt ucqar yerlərdən ziyarətə gələnlər böyük bir izdiham təşkil edirdi. Belə məqamlarda Allah buyuruqlarını insanlara çatdırmaq daha münasib idi. Amma fərdi dəvətlə nəticə əldə etmək mümkünsüzdür. Deməк, hətta peyğəmbərlər də cəmiyyətlə işləmiş, ictimai rabitələrdən bəhrələnmişlər. Əgər peyğəmbər ətrafındakılarla ayrı-ayrılıqda görüşsəydi ömrünün sonunadək kiçik bir qrupa həqiqəti çatdırmış olardı. Hansı ki, biz qısa bir müddətdə milyonlarla insanın İslama qatıldığını görürük.

Əslində informasiya mübadilələrinin misilsiz sürət aldığı dövrümüzdə fərdi həyatdan danışmağa dəyməz. Belə bir dövrdə insanın öz maddi və mənəvi ehtiyaclarını təkbaşına təmin etməsi mümkünsüzdür.

Əgər desək ki, insanın həyatı ictimai həyatdan ibarətdir, yalan olmaz. Bu istiqamətdə ifratçı nəzəriyyələr də var. Onların nəzərincə, ümumiyyətlə insan ictimai rabitələrə qatılmadan öz insanlığını qoruya bilməz. Onlar bildirirlər ki, ictimai həyatdan uzaqlaşmış fərd heyvan səviyyəsinə enir. Uyğun baxışı irəli sürən materialistləri rədd edirik. Bəşəriyyətin atası həzrət Adəm tək-tənha xəlq olunmuşdu. Cəmiyyət yox idisə də, həzrət Adəm şəxsiyyət baxımından böyük insan idi. Yəni Allah cəmiyyətdən kənarda da insan tərbiyə edə bilər. İslam baxımından, insanın ictimai həyata qatılması onun normal bir həyat yaşayıb öz ehtiyaclarını təmin etməsi üçündür.

Biz həzrət Adəmin yaranışı kimi istisna halları rədd etmirik. Hazırkı vəziyyət isə başqadır. Əgər ictimai rabitələr qırılarsa, ya insanların həyatına son qoyular, ya da bir çox ehtiyaclar təmin olunmamış qalar. Allah insanı elə yaratmışdır ki, o öz maddi və mənəvi ehtiyaclarını başqalarının köməyi ilə təmin edə bilir. Bu baxımdan insanı ictimai varlıq saymaq olar. Bu ictimailiyi müxtəlif cür mənalandırmaq mümkündür. Həqiqət budur ki, insan öz maddi və mənəvi ehtiyaclarını yalnız ictimai həyat sayəsində təmin edə bilir.
Əgər Allah-təala insanı kamilləşmək üçün yaratmışsa və bu kamilləşmə yalnız ictimai həyat sayəsində mümkündürsə, təbii ki, Allah rahibliyi, tərki-dünyalığı tövsiyə etməz. İnsanın təkamülündə məqsəd onun mənəvi kamilliyidir. Amma bir çox mənəvi kamilliklər maddi vasitələrlə əldə olunur. Deməк, mənəvi inkişaf üçün maddi inkişafa ehtiyac var. Maddi inkişaf isə ictimai həyat sayəsində gerçəkləşir. İnsanı kamillik üçün yaratmış və bu kamilliyi ictimai həyatla şərtləndirmiş Allah guşənişinliyi məqbul saymaz. Bu səbəbdən İslam rəhbərləri buyurmuşlar: «İslam rahibliyə, guşənişinliyə, tənhalığa çəkilməyə icazə vermir. Yalnız istisna şəraitdə, xüsusi fərdlərin zərurət ucbatından müvəqqəti olaraq kənara çəkilmək icazəsi var. Bəli, deyilənlərdən bu qənaətə gəlirik ki, rahiblik İslamda məqbul deyil. Acından ölmək qorxusu olan insana yalnız zəruri həddə murdar ətdən qidalanmaq icazəsi verildiyi kimi, bəzilərinə istisna hallarda guşənişinlik icazəsi verilmişdir. Zərurət olmayan şəraitdə rahiblik qadağandır. Əksinə, İslam ictimai rabitələrin gücləndirilməsini, fərdlərin bir-birinə yaxınlaşmasını göstəriş verir. Bu baxışı İslamda prinsip kimi qəbul etmək olar. İslam insanların maddi və mənəvi problemlərinin həlli üçün ictimai rabitələrin möhkəmləndirilməsini tapşırır.

İslam təlimlərinə əsasən biz öz iman qardaşlarımızla sıx rabitədə olmalı, kin-küdurətə yol verməməliyik. Qurani-kərimdə buyurulur: «Həqiqətən möminlər qardaşdırlar; qardaşlarınızın rabitələrini möhkəmləndirin.»("Hucurat", 10.)
Uyğun buyuruqlar bir şəhərdə və ya bir kənddə yaşayan möminlərə şamil olunmur. Buyuruqda meyar imandır. İstənilən bir qövmdən, irqdən, millətdən, məntəqədən, əyalətdən olan imanlı insan bizə qardaş sayılır və onunla rabitəni möhkəmləndirməliyik. Bəli, hətta Amerikanın qara dərili müsəlmanları bizə qardaşdır. Mömin dedikdə təkcə ərəb və ya iranlı nəzərdə tutulmur. Bütün iman əhli arasında rabitələrin möhkəmləndirilməsi İslamın qəti göstərişlərindəndir. Dünyanın bu gün ərazilər üzrə bölünməsi bu məsələdə heç bir rol oynamır. Bizim üçün əsas imandır, dünyanın ən ucqar nöqtəsindəki imanlı insan bizim qardaşımızdır və İslam göstərişlərinə əsasən onunla dostluq vacibdir.
İslamın eyni əqidəli insanları qardaş sayması onun prinsiplərindəndir. Hər bir müsəlman vəzifəlidir ki, bu qardaşlığı möhkəmləndirsin və onu hifz etsin.
Eyni zamanda qan qardaşları arasında da fərqli baxışların olması təbiidir. Necə ki, fiziki baxımdan fərqlənməyən iki nəfər yoxdur. Səliqə baxımından da iki insan eyni ola bilməz. Demək, baxış və səliqə fərqi tam təbiidir və iki qardaş, ərlə arvad, ata ilə oğul arasında fərq ola bilər. İman qardaşları da istisna deyil. Möminlər arasında da fərqli cəhətlər mövcuddur.

Digər bir tərəfdən, ixtilaflar kin-küdurətlə, narahatlıqla müşayiət olunur. Bəsirətli insan öncədən görür ki, hər bir cəmiyyətdə səliqə fərqləri ucbatından ziddiyyətlər olasıdır. İki şəxs eyni bir məsciddə namaz qılır, eyni bir şəxsə iqtida edir, eyni bir alimə, mərcəyə təqlidçidir, eyni rəhbərə tabedir və eyni bir xəttədir. Bütün bunlara baxmayaraq onların müxtəlif məsələlərdə fərqli mövqe tutmasına, fərqli münasibət göstərməsinə şahid oluruq. Təcrübəli və imanlı insanlar bu sayaq ixtilafları sadəliklə həll edə bilir. Adi insanlar arasında isə uyğun səliqə fərqləri soyuqluğa kin-küdurətə səbəb olur. Digər bir tərəfdən şeytan da pusqudadır və münasib fürsət gözləyir ki, möminlər arasında düşmənçilik toxumu səpsin. Allah-təala buyurur: «Həqiqətən, şeytan sizin aranızda ədavət və düşmənçilik yaratmaq istəyir.»("Maidə", 91.)
Ayənin zikr etmədiyimiz davamında buyurulur ki, şeytan şərab və qumar vasitəsi ilə kin-küdurət yaradır. Əlbəttə ki, şərab və qumar şeytanın yalnız iki qurğusudur. Möminlər arasında düşmənçilik yaratmaq istəyən şeytanın minlərlə qurğusu var. Şeytan iki mömin arasında qarşıdurma yaratmaq üçün fürsət gözləyir. Ata ilə övlad, ana ilə qız, iki bacı, iki qardaş, iki qonşu, iki dost, iki sinif yoldaşı arasında ədavəti qızışdırmaq üçün şeytana fürsət lazımdır. İki millət arasında ədavət yaratmaq isə onun üçün daha asandır. İnsanın amansız düşməni pusquda gözləyir və onun gedişlərindən biri də budur ki, möminlər arasında soyuqluq yarandıqda onların qəlbinə nüfuz edib saman çöpündən dağ düzəltsin. Sadəcə bağışlanası bir səhv şeytan vasitəsi ilə şişirdilir. Nəticədə iki qohum, iki yerli, iki millət arasında düşmənçilik yaranır. Şeytanın təlqinləri o qədər güclənir ki, insan hətta qəlbindəki kin-küdurət səbəbindən yata bilmir. O düşündükcə bu düşmənçilik daha da dərinləşir. Belə məqamlarda insan öz mömin qardaşının qətli ilə də razılaşa bilər.

İxtilaf gerçəkdən də evlər yıxa bilər. İxtilaf səbəbindən şagird dərsə, müəllimə soyuq münasibət göstərə bilər. Bəzən elə olur ki, şagirdin müəllimə münasibəti onu sinifdən uzaqlaşdırar və ya müəllimin sözlərinə qulaq asmaz. İxtilaf səbəbindən ərlə arvad arasındakı səmimi münasibətlər pozulur, ailə mühitində qovğa yaranır. Kin-küdurət və ixtilafların kök atıb insanları bir-birindən uzaqlaşdırması ziddiyyətlərin təbii sonluğudur. İnsanlar təkcə fiziki baxımdan uzaqlaşmır, onlar qəlbən də bir-birlərindən soyuyurlar. İncimiş insanlar bir-birlərinə ağız açmaq istəmir, yardım əli uzatmırlar. İnsan incidiyi insana ağız açmağı özünə ar bilir. Bir sözlə, ixtilaf səbəbindən hər iki tərəfin məhrumiyyətləri artır.
İxtilafların ağrılı sonluğunu nəzərə alan İslam tədbir görür. Əmirəl-möminin (ə) öz son tövsiyələrində yaxınlarına namaz və orucdan öncə aralarındakı rabitələri möhkəmləndirməyi tapşırır. Həzrət bu münasibətlə Peyğəmbərin (s) buyuruğunu zikr edir: «İki müsəlman, iki mömin qardaş arasında rabitəni möhkəmləndirmək namaz və orucdan üstündür.»
Qeyd olunduğu kimi, ictimi həyat insan, onun maddi və mənəvi təkamülü üçün çox əhəmiyyət daşıyır. Bu istiqamətdə insanın özündə amillər mövcuddur. Həmin amillər birbaşa ictimai həyatın hifzinə, qarşılıqlı rabitələrə doğru aparır. Yəni Allah-təala insanı elə xəlq etmişdir ki, insan təbii şəkildə başqalarına meyl göstərir. Bu sahədə müxtəlif amilləri sadalamaq olar. Uyğun amillərdən biri məhəbbətdir. İnsanlar təbii olaraq bir-birlərini sevirlər. Məsələn ata-ananın övlada məhəbbəti bu qəbildəndir. Bəşəriyyətin Allah tərəfindən müəyyənləşdirilmiş daxili hisləri onda övlad arzusu yaradır. Övlad sahibi olduqdan sonra insanda övladla ünsiyyətə meyl fəallaşır. Valideyn övladını qucağına alır, ona məhəbbət göstərir, onun ehtiyaclarını təmin edir. İctimai həyatın hifzi və davamı üçün bu təbii meyllər mühüm amildir.

Digər bir tərəfdən övladın ata-anaya məhəbbəti uyğun rabitələri daha da möhkəmləndirir, ailə üzvlərini bir-birinə yaxınlaşdırır, onlar arasında dərin bir bağlılıq vücuda gəlir.
Bu daxili istəklərdən bir növü də ərlə arvad arasında vücuda gəlir. Qadın və kişi təbii amillərlə bir-birinə doğru cəzb olunur. Ailə qurduqdan sonra ailə cütlüyünün hər biri hiss edir ki, o birinin yanında rahatlıq tapır. Bu rahatlıq heç bir başqa yolla vücuda gəlmir. Qurani-kərim bu barədə buyurur: «Onun nişanələrindən biri budur ki, sizin üçün özünüzdən aramlıq tapacağınız zövcələr qərar verdi, aranızda dostluq və mehribanlıq yaratdı.»("Rum", 21.)
Allah-taala bəşəri elə xəlq edib ki, o yalnız öz cütlüyü sayəsində rahatlıq tapır. Qadın və kişinin bu sayaq bağlılığı insanları bir-birinə yaxınlaşdıran digər amildir. Bu amil onlar arasında rabitələri gücləndirir.

Bu iki amildən başqa amillər də mövcuddur. Bütün bu amillər insanlar arasındakı rabitələri gücləndirir. Əlbəttə ki, uyğun amillərin qarşısını alan səbəblər də ola bilər. Belə məqamlarda uyğun maneələri aradan qaldırmaq lazımdır. Əks təqdirdə, insanların rabitələri arzu olunmayan amillər üzərində qurula bilər. Təbii cazibə amilləri o qədər güclüdür ki, hətta bir-birinin dilini bilməyən iki insan yaxınlaşmağa meyl göstərir. Təsəvvür edin ki, bir şəxs yolu itirib, həyatının bir neçə gününü ucqar bir nöqtədə keçirməyə məcbur olub. Onun düşdüyü məkan səfalı, bağ-baxçalı, gül-çiçəkli, çeşidli meyvələrlə zəngin olsa da, həmin şəxsin gözü daim insan axtarışında olasıdır. O uzaqdan kiminsə gəldiyini görən kimi dərhal ayağa qalxıb heç bir tanışlığı olmayan bu şəxslə ünsiyyətə qatılasıdır. Bəli, bu təbii bir istəkdir. Həmin təbii istək insanları bir-birinə doğru sövq edir, onları tənhalıq meylindən uzaqlaşdırır. Eyni təsirə malik başqa amillər də var. İnsan fitrətindəki bu amillər onu başqaları ilə rabitəyə, mövcud rabitələri möhkəmləndirməyə sövq edir.

İctimai rabitələri möhkəmləndirən amillər təkcə təbii amillərdən ibarət deyil. Ağıl da bu rabitələrin möhkəmləndirilməsini hökm edir. Ağılın hökmünə əsasən insan öz problemlərini aradan qaldırmaq üçün başqaları ilə münasibət qurmalıdır. Rəislə fəhlə, müəllimlə şagird, həkimlə xəstə arasındakı rabitələri nümunə göstərmək olar. Uyğun rabitələr ərlə arvad, ata-ana ilə övlad arasındakı rabitələrdən fərqlənir. Məhəbbət duyğuları üzərində qurulmuş rabitələrdə ağıl bir o qədər də rol oynamır. Adətən atalar düşünmürlər ki, öz nəsillərinin kəsilməməsi üçün övlad sahibi olmalıdırlar. Övlada meyl onların fitrətində mövcuddur. Övlad sahibi olduqdan sonra təbii şəkildə ona nəvaziş göstərir, qayğısını çəkirlər. Ata bütün bu işlərdən fitri bir ləzzət alır. Təsadüfi hallarda insan bu işlərə ağılın hökmü ilə qatılır.

Amma bir sıra ictimai rabitələr adətən ağılın hökmü ilə qurulur. Belə rabitələri qurarkən insan seçim aparır, kiminlə rabitə qurulmasının daha faydalı ola biləcəyi haqqında düşünür. İqtisadi rabitələrin qurulmasında daha çox mənfəət amili böyük rol oynayır. İnsan bu yönümdə seçim apararkən əqli hesablamalara istinad edir. Amma unutmamalıyıq ki, uyğun rabitələrdə hər iki tərəf məsələyə eyni münasibətlə yanaşır. Bu qəbil rabitələrin qorunmasında mühüm şərtlərdən biri odur ki, hər iki tərəf fayda götürə bilsin. Əgər tərəflərdən biri ümumi mənfəət üçün, digəri yalnız özü üçün çalışarsa uyğun rabitələr davam etməz. Uyğun rabitələrdə insan özü üçün xeyir intizarında olduğu kimi, qarşı tərəf üçün də mənfəət nəzərdə tutmalıdır.

## Bədgümanlıq ictimai rabitələrdə ədalət prinsipinin əleyhinə olaraq

Haqqında danışdığımız ictimai rabitələrdə qarşılıqlı mənfəətin təmini prinsipi hakimdir. Uyğun rabitələr yalnız bu prinsip əsasında davam edə bilər. Bu qəbil rabitələrdə insan qarşı tərəf üçün mənfəət nəzərdə tutmağa məcburdur. Qarşı tərəf üçün mənfəət nəzərdə tutulmaması əslində şəxsi mənfəəti itirməkdir. Bəli, uyğun rabitələrdə mənafelərin qarşılıqlı şəkildə qorunması zəruridir. Tərəflər arasında mənafelərin hifzi üçün ədalət əsas götürülür. Yalnız ədalət üzərində qurulmuş rabitələr davamlı ola bilər. Prinsipcə, ictimai həyatın əsasını ədalət təşkil edir. Ədalət varsa ictimai rabitələr yaranası və möhkəmlənəsidir. Ədalət üzərində qurulmuş rabitələri hamı qorumağa çalışır. Çünki şəxsi mənafe bu rabitələrin möhkəmlənməsindən asılıdır.

Bu ümumi qayda (ədalət əsasında mənafelərin qarşılıqlı təmini) düşüncəli və ya təbii şəkildə bütün insanların zehnində mövcuddur. Uyğun prinsip ictimai rabitələrə ciddi təsir göstərir. İslamın əksər ictimai qanunlarında da ədalət prinsipi nəzərə alınmışdır. Nə üçün bütün qanunlarında yox, əksər qanunlarında deyirik? Bu nöqtəni söhbətimizin gedişində aydınlaşdıracağıq.

Əgər fəhlə öz zəhməti müqabilində maaş alırsa demək ədalətə əməl olunur. Amma zəhməti müqabilində maaş almayan fəhləyə sitəm qılınır və bu rabitə davamlı ola bilməz. Əgər ev sahibi ilə icarəçi arasında rabitələrin möhkəm olmasını istəsək, icarəçi mülkün dəyərinə uyğun icarə ödəməlidir. Əgər ictimai rabitədə hər iki tərəfin faydası nəzərə alınırsa, bu rabitə ədalətlidir. Tərəflər ədalətli münasibətlərin hər iki tərəfə fayda verdiyini anladıqda ədalət əsasında rəftar etməyə çalışacaqlar. Ədalət hökm edir ki, cəmiyyətə fayda verənlərə fayda verilsin. Faydalar bir-birinə münasib olmalıdır. Bu ağılın hökmüdür. Dövlət bir zümrəyə yardım əli uzatdıqda həmin zümrənin cəmiyyətə faydasını nəzərə almalıdır. Ədalətə riayət olunması üçün uyğun tənasüb gözlənilməlidir. Belə olduqda xalq ictimai rabitələrin qorunmasına maraq göstərir. Fərdlər ictimai rabitələrdən zərər gördükdə bu rabitələri qırmağa, bac verməyəcəkləri rabitələrin qurulmasına çalışırlar. Uyğun prinsipi fəlsəfi baxımdan hamı anlamasa da, ümumi şəkildə dərk edir. Hər bir insan anlayır ki, o aldığı muzda uyğun yük çəkməlidir. Bəli, xidmət müqabilində haqq ödəmək lazımdır. Bütün insanlar fitri olaraq bu həqiqəti anlayır.

Şübhəsiz, ictimai həyatın hifzi üçün ən böyük amil ədalətdir. Bu həqiqətin isbatı üçün ayə və rəvayətlərə müraciət etmək olar. Amma bu araşdırma söhbətimizin mövzusundan xaricdir.[1]

1 - Ayətullah Misbah Yəzdi, Şəhadət yatağında Mövlanın öyüdü, səh. 47

## Bədgümanlıq ictimai rabitələri möhkəmləndirən Ehsan prinsipinin əleyhinə olaraq

Nəzərə almalıyıq ki, cəmiyyətdə kiməsə fayda vermək imkanından məhrum insanlar da var. Əgər bir şəxs anadan kor, iflic, şikəst doğulmuşsa, qayğısız qalmalıdırmı? Əlbəttə ki, bu zümrədən olanlar kiməsə xidmət etmək imkanına malik deyil, əksinə ömür boyu xidmətə möhtacdır. Qarşılıqlı haqlar yaradan ədalət prinsipinə əsasən bu şəxsə necə münasibət göstərilməlidir? Axı ədalətə əsasən, insan zəhməti müqabilində muzd almalıdır. Əgər cəmiyyətdə yalnız ədalət əsas götürülərsə (ədalətin haqqında danışdığımız nümunəsi), kimsə özünü imkansızlara xidmət göstərməyə borclu saymayacaq. Bu əsasla cəmiyyətin qayğısına möhtac insanlar ölümə məhkumdur! Bir ömür fəaliyyət göstərib fiziki iş imkanını itirən qocalar da bu qəbildəndir. Çünki onlar elə bir yaşa çatmışlar ki, cəmiyyətdən yalnız bəhrələnirlər və xidmət göstərmək gücündə deyillər. Məsələyə materialist baxışı ilə yanaşdıqda cəmiyyət üçün faydasız insanları yaşamaq haqqından məhrum etməliyik.

Bəli, özünü mədəniyyət carçısı sayanlar arasında bu sayaq düşünənlər var.

İslamın isə baxışı fərqlidir. İslam ictimai həyatda ədalətlə yanaşı ehsan və xeyriyyəçiliyi də bir əsas sayır. Quran buyurur: «Həqiqətən, Allah ədalət və ehsan əmr edir.».[1]

1 - Nəhl, ayə 90

Maddi hesabatlar baxımından uyğun dəyər anlaşılmır. Amma İslam çarəsiz insanlara ehsan edilməsini, onlara büdcə ayrılmasını tapşırır. Göstəriş verilir ki, bu zümrənin sizə heç bir faydası olmasa da, onlara qayğı göstərin və bu iş fərdlər tərəfindən yerinə yetirilməsə, İslam dövləti ümumi büdcədən vəsait ayırmalıdır. Çarəsiz insanlar həyatının son anınadək təmin edilməli, onlara xidmət göstərilməlidir. Onların ömrünü bir dəqiqə azaltmaq haqqımız yoxdur. Əgər bir şəxs xəstəxanaya köçürülməklə bir saat artıq yaşaya bilərsə, bu iş görülməlidir. İnsanın cəmiyyət üçün faydasız olduğunu əsas götürüb onun ömrünü kəsmək olmaz. İslam bu məqamda ehsan göstərişi verir və ədalat arxa plana keçir. Materialist məntiqi baxımından bu dəyəri aydınlaşdırmaq mümkünsüzdür. Uyğun baxışa əsasən, cəmiyyət üçün heç bir faydası olmayana xidmət göstərməyə dəyməz. İlahi məntiq isə başqadır. Ehsan göstərişi belə izah olunur ki, çarəsiz fərd hər şeydən öncə Allahın bəndəsidir və ona xidmət göstərənlər Allahdan mükafat alasıdır. Çarəsiz insanlara xidmət göstərənlərin zəhməti əvəzsiz qalmır. Allah-təala dünya və axirətdə beləl追ərinə əvəz verir. Məad və axirətə inanmayıb, sırf əxlaqi baxımdan başqalarına xidmət göstərənlərə Allah bu dünyadaca mükafat verir. Amma əgər bu şəxs mömin olsa dünya və axirətdə öz xidmətlərindən bəhrə götürür.

İlahi və dini məntiqə əsasən, birtərəfli qaydada ehsan tövsiyə olunan işdir. Birtərəfli qaydada xidmət göstərən şəxs düşünür ki, Allah bəndəsinə xidmət edir və Allahdan muzd alacaq.[1]

---

1 - Ayətullah Misbah Yəzdi, Şəhadət yatağında Mövlanın öyüdü, səh. 50

Ümumi şəkildə demək olar ki, əlindən iş gəlməyənlərə ehsan edilməlidir. Amma İslam maarifinə müraciət etdikdə, ayə və rəvayətlərdən məlum olur ki, ehsan dairəsi daha genişdir, hətta ata-ana da bu çərçivədədir. Ata-ananın iş qabiliyyəti olsa belə övlad onlara xidmət etməyə borcludur. Ata anaya demək olmaz ki, siz nə qədər xidmət etmisinizsə, mən də o qədər xidmət edəcəm. İslam belə bir baxışı rədd edir. Ata-ana övlada heç bir xidmət göstərməmiş olsa da, övlad onlara xidmət etməyə borcludur. Əlbəttə ki, ata-ananın da övlada münasibətdə vəzifələri var.

Amma onların xidmət edib-etməməsi övlad üçün əsas sayılmır. İslam nəzərincə, ata-ananın qəlbini sındırmaq və ağvalideynlik böyük günahlardandır. İslam bildirir ki, ata-ana hətta kafir olarsa, övlad onlara ehsan etməyə borcludur. Yalnız valideynlər övladı küfrə və ya günaha sövq etdiyi halda onlara itaət olunmamalıdır. Allah əmri müqabilində valideyn əmri möhtərəm deyil. Bütün qalan hallarda övlad ata-anaya ehsan etməyə vəzifəlidir. Təəssüf ki, bu gün deyilənlərə əməl olunmur. Müasir dövrün məntiqinə əsasən, ata-ana övlad üçün zəhmət çəkməyə borcludur. İnsanlar arasında belə bir ənənə yaranıb ki, valideyn övladın yaşayış, təhsil xərclərini ödəməli, ona sərmayə verməli, evləndirməli, ev və maşın almalıdır! Maddi məntiqə əsaslanan bu baxış təəssüf doğurur. İlahi məntiqə əsasən hətta kafir valideynin də övlad qarşısında haqları var. Hətta övlad üçün heç bir iş görməyən valideynə də xidmət göstərilməlidir. Ata-anaya münasibət ədalət yox, ehsan prinsipi üzərində tənzimlənmişdir. Onlara xidmətin muzdu Allah tərəfindəndir. Qurani-kərimdə oxuyuruq: «Rəbbin hökm edib ki, Ondan qeyrisinə pərəstişdən çəkinib, ata-anaya ehsan edəsiniz. Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalıq həddinə çatsalar, onlara «uf» demə, qabalıq göstərmə, gözəl şəkildə danış. Mehribanlıqla onlara təvazö qanadını aç, de ki, Pərvərdigara, onlar məni körpəlikdən böyütdüyü kimi hər ikisinə mərhəmət göstər.»[1]

1 - İsra, 23-24

Gördüyünüz kimi, tövhid tapşırığından dərhal sonra valideynə ehsan tövsiyə olunur. Belə bir şəri göstəriş olmasaydı, valideynə yaxşılığın ehsan olduğunu ağlımızla dərk edə bilməzdik. Əlbəttə, sağlam fitrəti olanlar həmin fitrət vasitəsi ilə dərk edirlər ki, ata-ana ilə mehriban davranmaq, onlar qarşısında təvazökar olmaq lazımdır. Amma xalqın çoxu anlamır ki, ata-anaya ehsan zəruridir. Bu səbəbdən Qurani-kərim bir neçə məqamda uyğun məsələni xatırladır və ciddi göstəriş verir. Allah-təala ata-anaya ehsanı o qədər mühüm sayır ki, bu məsələni ən mühüm nöqtənin ardınca bəyan edir. Oxşar təbir başqa üç məqamda da zikr olunmuşdur: «Bəni-İsraildən əhd aldıq ki, Allahdan qeyrisinə pərəstişdən çəkinib ata-anaya ehsan etsinlər.»("Bəqərə", 83.) ; «Allaha pərəstiş edin, nəyisə ona şərik qoşmayın, ata-anaya yaxşılıq edin.»("Nisa", 36.); «De ki, gəlin Rəbbinizin sizə haram etdiyini deyim: Nəyisə ona şərik qoşmayın, ata-anaya ehsan edin.»[1]

Digər bir ayədə Allaha şükür ata-anaya təşəkkürlə yanaşı qeyd olunur: «İnsana ata-anası haqqında tövsiyə verdik; anası ona hamilə oldu; ağırlıq üstdən ağırlıq; uşağın süddən ayrılması iki il çəkir. (Bəli, ona tapşırdıq ki) Mənə və ata-anana şükür et.»[2]

Göründüyü kimi, ayədə «şükür et» əmri cəmi bir dəfə işlədilir. Eyni bir əmrdə həm Allah, həm də ata-ana nəzərdə tutulur. Bu hal ata-anaya böyük diqqətin və onlara ehsanın əhəmiyyətini göstərir. Bu nöqtəni də qeyd etdik ki, bu məsələ heç bir maddi məntiqə sığmır və yalnız ilahi məntiqlə izah olunur.

1 -Ənam, ayə 151

2 - Loğman, ayə 14

## Ədəbiyyat

1- Qurani-Kərim
2- Nəhcül-Bəlağə
3- Səhifeyi-Səccadiyyə
4- Amidi, Təmimi, Əbdül-vahid, Dürərul-Hikəm, Tehran: 1984
5- Amidi, Əbdülvahid Təmimi, Feheresti-Ğurarul-Hikəm, Beyrut: 1996
6- Amuli, Hürr, Məhəmməd ibn Həsən, Vəsailüş-Şiə, Qum: 1974
7- Cəfəri, Yəqub, Nəhcül-Bəlağənin Tarixi Baxışı, Tehran: 1996
8- Cəfəri, Məhəmməd Təqi, Nəhcül-Bəlağənin tərcümə və təfsiri, Qum: 1999
9- Cordaq, Corc, Nəhcül-Bəlağənın gözəlliklərindən bir hissə, Beyrut: 2001
10- Cövhəri, İsmayıl ibn Həmmad, Sihahül-Lüğət, Qahirə: 1997
11- Ədibi, Hüseyn, İctimai təbəqələr sosiologiyası
12- Ənsari, Məhəmməd Əli, Ğurərul-Hikəm və Durərul-Kəilim
13- Payəndə, Əbul-Qasim, "Nəhcul-fəsahə", Tehran: Dünyayi daniş nəşriyyatı1382
14- Firuzabadi, Məhəmməd ibn Yqub, Qamusül-mühit
15- Xansari, Ağa Cəmaləddin, Ğurərül-Hikəm"in şərhi
16- Gilani, Əbdür-rəzzaq, Misbahuş-Şəriənin şərhi, Tehran: 2003
17- Həkim, Seyid Məhəmməd Təqi, Əli (ə) kəlamlarından ilham
18- İbn Babəveyh, Səduq, Xisal, Qum: 1992
19- İbn Meysəm, İxtiyaru-Misbahis-Salikin
20-İraqi, Əlirza, İmam Əli (ə) nəzərindən hakimiyyət və müdiriyyətə baxış
21- İbn Əbil-Hədid, Nəhcül-Bəlağənin Şərhi, Tehran: 1964
22- Qumi, Abbas, Səfinətul-Bihar, çap 1998
23- Səduq, Məhəmməd ibni Əli, "Üyunu əxbarir-Riza (əleyhis-salam)" Beyrut: 1956

# Quranda övlad haqları

Nigar Məmmədova[1]

**Abstarkt**
Bu məqalədə, müttəqilərə doğru yol göstərən, haqq olduğunda heç bir şəkk-şübhə olmayan Müqəddəs Kitabımızda uşaqlarla bağlı gələn ayələrə nəzər saldıq. Böyük zəhməti olmuş əziz alimlərimizin Qurani Kərimin təfsirlərinə istinad edərək uşaqların haqq və hüquqlarını, vəzifələrini, tövsiyələri nəzərdən keçirdik. Quranın valideynlərə övladları ilə bağlı və ümumiyyətlə, digərlərinə uşaqlarla bağlı tövsiyələri önə çəkdik. Nəticə aldıq ki, ən gözəl tərbiyə üslubu Quranda olduğu kimi, ən gözək uşaq haqları da, Quranda var.

**Açar sözlər:** Quran, övlad, uşaq, müdafiə, tövsiyə

---

1 - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

# Övladın haqları

Biz burada bir neçə övlad haqlarında toxunub, onları təhlil etməyə çalışacağıq:

## 1. ÖVLADIN MÜDAFİƏ HAQQI

Mübarək Nisa surəsinin 75-ci ayəsində deyilir: "Sizə nə olub ki, Allah yolunda vuruşmursunuz? Eləcə də o aciz kişilər, qadınlar və uşaqlar (üçün ki), o kimsələr (dua edərək belə) deyirlər: "Ey Rəbbimiz! Bizi, əhalisi zalim olan bu şəhərdən kənara çıxart, bizə, öz dərgahından bir dost (mühafizəçi) göndər və bizə, Öz dərgahından bir yardımçı göndər!"

Ayə Məkkə əhlinin təzyiq və işgəncələri altında baş götürüb qaçan müsəlmanlar haqqındadır. Bu müstəzəflər (məhrumlar) sıxıntılı mühitlərdə giriftar olan və onların ümidi hər yerdən kəsilənlərdir. Buna görə duaya əl atib, öz Allahlarından istəyirlər, o zülm və işgəncə mühitindən qirağa çıxsınlar. Azadlıqları uğrunda cihaddan boyun qaçıranlar məzəmmət olunurlar. Müsəlmanlar bir-birlərinə münasibətdə dini qeyrət və təəssüb göstərməlidirlər. Onlar bir-birlərinin nalələrinə və fəryadlarına biganə qalmamalıdırlar. İslami cihadın hədəflərindən biri müstəzəfləri, o cümlədən uşaqları zalim hakimlərin zülmündən xilac etməkdir. İslam sərhəd tanımır, harada müstəzəf varsa, cihad da vardır.

İslam ordusu o qədər güclü olmalıdır ki, bütün dünya məhrumlarına nicat verə bilsin. Müsəlmanlara rəhbərlik Allah tərəfindən olmalıdır.

Ayədə nəzərə çatdırılan bir sıra nöqtələrə alimlərimizin diqqət çəkdiyi məsələlərə işarə etmək istərdim:

1. İslam cihadı qabaqca işarə olunduğu kimi var-dövlət, vəzifə və yaxud başqa ölkələrin təbii mənbələrini, xammallarını ələ gətirmək, satış bazarını ələ keçirmək, əqidə və siyasəti zorla qəbul etdirmək kimi bir şey deyildir. Bəlkə təkcə fəzilət və iman üsullarını yaymaq, məzlumları, qol-qanadı sınmış kişi və qadınları, məhrum olunmuş və zülm çəkmiş körpələri müdafiə etməkdən ibarətdir. Beləliklə, yuxaridakı ayədə işarə olunduğu kimi cihadın iki kamil məqsədi vardır: İlahi məqsəd və insani məqsəd. Bu iki məqsəd həqiqətdə bir-birindən ayrılmazdır və bir həqiqətə qayıdırlar.

2. İslamın nəzərində yaşayış qabiliyyətinə malik olan mühit odur ki, insanın öz düzgün əqidəsinə əməl etməyə imkanı olsun.

Amma qorxu bürümüş bir mühitdə insan "müsəlmanam" sözünü deməkdə azad deyilsə, o mühitdə yaşamaq qabiliyyəti yoxdur. İmanlı adamlar da arzu edirlər ki, belə bir mühitdən çıxıb getsinlər. Çünki, belə bir mühit zalımların fəaliyyət mərkəzidir.

Maraqlı burasıdır ki, Məkkə müqəddəs bir şəhər və mühacirlərin doğma vətəni olmasına baxmayaraq, onun qorxunc və dəhşətli mühiti onların öz Allahlarından əl çəkib, oradan çıxıb getməsinə səbəb oldu.

3. Yuxarıdakı ayənin sonunda oxuyuruq: "Duşmən cəngində giriftar olmuş müsəlmanlar özlərinin nicat tapması üçün əvvəl Allah tərəfindən rəhbər və sonra isə kömək istədilər." Zalımların cəngindən qurtulmaq üçün hər şeydən qabaq ürək yandıran, ləyaqətli sərpərəst və rəhbərin vücudu, sonra isə kömək və kifayət qədər adam lazımdır.

Beləliklə, hərçənd köməyin sayı çoxdur, lakin həqiqi bir rəhbərdən istifadə etmədikdə nəticəsizdir.

4. İmanlı şəxslər hər şeyi Allahdan istəyir və ehtiyac əlini Ondan qeyrisinə tərəf uzatmırlar. Hətta əgər sərpərəst rəhbər və kömək istəyirlərsə, Ondan tələb edirlər.

## 2. ÖVLADIN MÜŞAVİRƏ HAQQI

Mübarək Saffat surəsinin 102-ci ayəsində buyurulur: "O, yüyürüb qaçmaq çağına çatdığı zaman (İbrahim) dedi: "Ey oğlum! Mən yüxüda gördüm ki, mən səni qurban kəsirəm. Bax gör nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə əmr olunanı yerinə yetir. İnşallah, mənim səbirlilərdən (olduğumu) görəcəksən!"

"Şuara" surəsinin 83-cü ayəsində həzrət İbrahim Allahdan diləyir ki, onu salehlərdən qərar versin. Bu ayədə isə o, övladının salehlərdən olmasını diləyir. Peyğəmbərlər arasında yalnız İbrahim və İsmayıl öz helmləri ilə vəsf olunmuşlar. "Həqiqətən İbrahim çox ah çəkən və həlim idi."[1] Saleh övlad İlahi hədiyyə və peyğəmbərlərin dualarından biridir. Əsas məsələ övladın gözəlliyi və ya ağlının iti olması yox, onun saleh olmasıdır. Ailənin Allaha doğru hərəkəti üçün saleh övlad ən üstün yardımçıdır. Ailədə ata öz övladları ilə mehriban davranmalı, onlara hörmət göstərməlidir. Allah yolunda bütün əsarətlərdən, hətta övlada bağlılıqdan azad olmaq lazımdır. Həzrət İbrahim bir ömür yolunu gözlədiyi, dua və yalvarışlarla Allahdan aldığı övladı, ona kömək olan bir vaxtda öz əli ilə qurban kəsməyə hazir olur.

---

[1] Tövbə surəsi, ayə 114

Ayədən aydın olur ki, Allah bizə bəyan edir ki, övladlarınızın şəxsiyyətini inkişaf etdirmək üçün onlarla məsləhətləşin və onların mülahizələrini öyrənin. Xalqın hazırlığını dəyərləndirmək üçün onların fikrini öyənmək açıq aydın işlərdə faydalıdır. Həzrət İbrahim (ə) öz yuxusuna şəkk etməsə də, yenə İsmaillə məsləhətləşdi. İnsan ömrünün zirvəsi onun fədakarlıq dövrüdür. İsmail gənclik dövrünədək bir neçə mərhələ keçmişdi. Növcavanlıq isə onun çiçəkləndiyi bir mərhələ idi. Olsun ki, bu baxışdan Allah İbrahimi "növcavanla" müjdələyir. Mömin insan Allaha təslimdir, Onun göstərişləri müqabilində bəhanə gəzmir.

Öz növbəsində ataya onun işlərində kömək göstərmək övladın yaxşılığını göstərir. Gərək uşaqlar da böyükləri İlahi işlərə təşviq edib ürək-dirək versinlər. Vəzifəyə əməl etmək üçün səbr və dözümə ehtiyac var. Səbr isə Allahdan istənilməlidir. Səbr və dözüm salehlərin xüsusiyyətlərindəndir. İsmailin səbri Allahın bu növcavanın həlim olması ilə bağlı vədi idi. Kamillikləri öz qazancımız yox, Allahın hədiyyəsi bilək. Allah yolunda addım ataq və Onun lütflərinə əmin olaq. Çünki, ilahi insanlar üçün çıxılmaz vəziyyət yoxdur, onlar Allaha təvəkkül və diqqətlə çıxış yolu tapırlar. Bütün işlərdə "inşallah" söyləyək.

Beləliklə, belə bir nəticə alırıq ki, insanın uğur qazanmasına bais olan amillərdən biri də məşvərət etmək, məsləhətləşməkdir. Çünki, bilikli, təcrübəli və ürəyiyanan insanlarla məsləhətləşdikdə, insan onların bilik və təcrübəsindən faydalanır. Odur ki, başqaları ilə məsləhətləşməyi uşaqlara əməli surətdə təlim etmək üçün valideynlərin öz azyaşlı övladları ilə də məsləhətləşmələri tövsiyə olunur. Bundan əlavə, böyüklər uşaqlarla məşvərət

etdikdə uşaqlar özlərini əhəmiyyətli hesab edir və düşünüb öz fikirlərini deməyə çalışırlar.

## 3. ÖVLADIN İRS HAQQI

Qurani Kərimdə irs haqqı, irs payının bölüşdürülməsi barədə bir sıra ayələr yer almışdır. Bunlardan biri Nisa surəsinin 11-ci ayəsidir ki, burada övladların və valideynlərin irs haqqından danışılır. Sözügedən ayədə Uca Tanrı buyurur: "Allah Təala sizə övladlarınız haqqında sifariş edir ki, (mirasdan) oğlanlar üçün iki qızın payı qədər irs düşür. Əgər sizin övladlarınızın sayı iki qızdan artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Və əgər varis təkcə bir qızdırsa, (mirasın) yarısı onun payıdır. Və onun (dünyadan köçmüş şəxsin) bir övladı olduğu təqdirdə, ata-anasının hər biri üçün mirasdan altıda bir hissəsi veriləcəkdir. Əgər onun övladı yoxdursa və varisi (yalnız) ata və anadan ibarətdirsə, mirasın üçdə bir hissəsi anaya aiddir. Əgər onun (dünyadan köçmüş şəxsin) qardaşları varsa, ananıa hissəsi altıda birdir (qalan altıda beş hissəsi atanındır). (Bu bölgü) ölən şəxsin vəsiyyətinə əməl etdikdən və onun borclarını ödədikdən sonra aparılır.

Ata-analarınızın və övladlarınızın hansı birinin sizin üçün xeyirli olduğunu bilmədiyiniz üçün bu (bölgü) Allah tərəfindən vacib edilmişdir. Allah Təala alim (hər şeyi bilən) və hikmət sahibidir."

İslam fitrət dinidir. Övladın vücudu valideynin vücudunun davamı olduğundan və valideynin cismi və ruhi xüsusiyyətləri övlada ötürüldüyündən onun var-dövləti də övlada çatmalıdır. Vəsiyyət insanın öz haqqı olduğundan varislərin hüququndan öndə gəlir. Xalqın haqqı varislərin

və qohumların haqqından öndə gəlir. İrs hökməri İlahi elm İlahi hikmətə əsaslanır.

Övlada irs çatması bir çox fəaliyyətlərə səbəb olur. Var dövlətinin övladına çatmayaçağını bilən insan bir o qədər də çalışmaz. Fransada varislik qanunu ləğv olunduqdan sonra bir çox iqtisadi fəaliyyət sahələrində tənəzzül müşahidə olundu. Cahil ərəblər qadinları və uşaqları irsdən məhrum edirdilər. İslam isə övlad və qadına onların ehtiyacı qədərində irs payı ayırır.

Dünyasını dəyişmiş şəxsin var-dövlətindən onun övladlarına ata-anasından çox pay düşməsinin səbəbi bu ola bilər ki, insanın qoca yaşlarında ehtiyacı az olur. Əgər ölənin qardaşı yoxdursa, ananın payı üçdə bir, əgər qardaşı varsa, ananın payı altıda bir olur. Qalan hissə isə ata üçündür. Atanın daha çox irs payı almasının səbəbi bu ola bilər ki, ölənin qardaşlarının xərci də, adətən, atanın öhdəsinə düşür.

Bu ayənin təfsiri ilə bağlı Ayətillah Məkarim Şirazi cənablarının Təfsiri-Nümunə, Nisa surəsinin təfsirinə müraciət edək.

Bu ayəni təfsir etməmişdən öncə bir neçə nöqtəyə işarə edək.

Birincisi bundan ibarətdir ki, çoxları belə təsəvvür edirlər, nə yavşı olardı, bir kəs öləndə onun malı ümumi malların bir hissəsi olub, beytul malın ixtiyarına qoyulsun. Lakin diqqətlə baxdıqda aydınlaşır ki, bu iş tamamilə ədalətdən uzaqdır. Çünki, miras məsələsi bütövlükdə təbii və məntiqi bir işdir. Adətən ata və ana öz cismi sifətlərini təbii miras qanununa əsasən, sonrakı nəsillərə ötürdükləri kimi, nə üçün onların malları bu qanundan istisna (kənarda) olsun? Və gələcək nəsillərə ötürülməsin?

Bundan əlavə hər bir kəsin halal malı zəhmətlərinin nəticəsidir ki, həqiqətdə onun bir yerə təplanmış qüvvəsini nişan verir. Elə buna görə də biz hər kəsi öz zəhməti ilə əldə etdiyi mala sahib bilirik. Bu fitri bir hökmdür.

Dediklərimizə əsaslanaraq deyirik insan ölən zaman öz mal-dövlətindən uzaqlaşır. Ədalətli yol budur ki, onun malı ən yaxın adamlarına verilsin. Həqiqətdə ölənin yaxın adamlarının varlığı onun özünün varlığının davamı sayılır.

Elə buna görə də camaatın əksəriyyətinin ömrünün axirina kimi, yaşamaq üçün malı və sərmayəsi vardır, lakin bununla belə onlar çalışmaqdan, işləməkdən əl çəkmirlər və onların məqsədi övladlarının gələcəyini təmin etməkdir. İrs qanunu bir dövlətin iqtisadiyyatına çox qüvvə və təsir bağışlaya bilər. Əgər hər kəsin malı ölümündən sonra tamamilə ondan alınıb, ümumi xəzinəyə tapşırılarsa, onda iqtisadi fəaliyyətlərin bir hissəsinin dayanmasına səbəb olar.

İrs qanunun fitri kökü olduğuna görə qədim xalqlar arasında müxtəlif formalarda müşahidə olunur. Bəziləri iddia edirlər ki, yəhudilər arasında irs qanunu olmayib. Lakin biz Tövrat kitabına müraciət etdikdə bunun əksini müşahidə edirik. Məlum olur ki, bəni israil millətləri arasında irs məsələsi ancaq kişi qohumlarını əhatə edirmiş, çünki orada həyat yoldaşının adı çəkilmir.

Həzrəti Məsihin (ə)-ın (İsanın) dinində həmin Tövratdakı irs qanunu etibarlı sayılırdı. Çünki, indiki İncillərdə nəql olunur ki, Həzrəti Məsih (ə) demişdir: “Mən

Tövratdakı hökmləri dəyişdirmək üçün gəlməmişəm. Elə buna xatir əldə olan kitab və risalələrdə irs barəsində bir mövzu tapmırıq. Ancaq bəzi yerlərdə irs sözündən alınmış kəlmələrdən istifadə olunmuşdur ki, onların da hamısı mənəvi və üxrəvi irs barəsindədir.[1]

---

[1] Qamus müqəddəs kitabı, səh.903

Amma ərəblərdə islamdan qabaq irs məsələsi bu üç yolun birindən ibarət idi:

1. Nəsəb. Onların nəzərində nəsəbdən məqsəd ancaq oğlanlar və kişilər idilər, uşaqlar və qadınlar isə irsdən məhrum idilər.

2. Təbna. Yəni ailədən qovulmuş övladdır ki, başqa bir ailə onu özünə nisbət verərərk oğulluğa götürülmüş hesab edirdi. Belə surətdə bu oğulluq atalıq arasında yaranan rabitə ilə irs meydana gəlirdi.

3. Əhd peyman. Yəni iki nəfər birlikdə əhd edirdilər, nə qədər ki, diridirlər bir-birini müdafiə etsinlər və öləndən sonra bir birindən irs aparsınlar.

4. İslam dini təbii və fitri irs qanununu, ona qarışmış xurafatdan təmizləyərək, bir tərəfdən uşaqlar və qocalar arasında qoyulmuş zalimanə ayrıseçkiliyi aradan apardı. İrsin sərçeşməsini üç şeydə xülasə etdi. O vaxta kimi bu şəkildə olmamışdı:

4. Nəsəb – onun geniş mənası, yəni doğulmaq vasitəsilə iki nəfərin müxtəlif səthlərdə, fərqi yoxdur kişi və qadın, ya uşaq və qoca arasındakı rabitədən ibarətdir.

5. Səbəb – yəni evlənmək vasitəsilə fərdlərin arasında yaranan rabitəyə deyilir.

6. Vilai – qohumluqdan nəsəb və səbəbdən başqa yollarla iki nəfər arasında yaranan rabitədir. Vilai itq – yəni bir şəxs öz qulunu azad eləyə və o qulun öləndən sonra heç bir qohumu özündən sonra yadigar qalmayib. Bu surətdə onun malı onu azad edən şəxsə çatacaqdır. Qulları azad etmək üçün bu bir növ mükafatdır. Vilai zinan cərirə - o xüsusi bir peyman (saziş) olub, iki nəfərin istəyi və iradəsi ilə bağlanir. İki tərəf bir-birini müxtəlif hallarda müdafiə edəcəyinə söz vermişdilər, öləndən sonra (heç bir nəsəbi və səbəbi olmayan surətdə) bir-birindən irs aparsınlar. Digəri,

vilai imamətdir. Yəni əgər bir şəxs öləndən sonra, nəsəbi səbəbi və başqa heç varisi olmayan surətdə onun mirası imama (ə) və başqa sözlə desək müsəlmanların beytul-malına verilir.

Əlbəttə, yuxarıdakı təbəqələrdən hər birinin özünəməxsus hökmü və şəraitləri vardır ki, onların şərhi fiqhi kitablarda verilmişdir.

Bu ayədə birinci dərəcəli varislərin (övladlar, atalar və analar) hökmü izah olunur. Aydın olduğu kimi heç bir qohumluq, ata və övlad arasında olan rabitədən yaxın deyil. Elə məhz buna görə Quran onları başqa irs aparan təbəqələrdən əvvəl bilmişdir.

Birinci cümlədə buyurur: Allah Təala sizə övladlarınızın barəsində sifariş edir ki, oğlanlara qızlardan iki dəfə çox pay verin. Burada cümlənin quruluşuna və bəyan tərzinə diqqət etdikdə görürük ki, qızların irs məsələsi əsil, oğlanların irsi isə ikinci dərəcəli qərar verilib və onların (qızların) səhmi ilə müqayisə edilməklə təyin edilib. Bu, bir növ qızların irs aparmasına təkiddir və cahiliyyət dövrünün səhv adətləri ilə mübarizədir ki, onları tamamilə irsdən məhrum etmişdilər. Bu fərqlərin fəlsəfəsi barədə bir qədər sonra şərh veriləcək.

Zahirdə kişinin irsi qadınınkından iki dəfə artıqdır. Lakin, azca diqqət etdikdə, aydınlaşır ki, bir baxımdan qadınların irsi iki dəfə kişilərinkindən artıqdır. Burada islam dini qadınların hüquqlarından himayə etmişdir.

Bunu izah etdikdə, islam kişilərin öhdəsinə bəzi vəzifələr qoymuşdur və ona diqqət etdikdə aydın olur ki, kişilərin qazancının yarısı qadınlara xərclənir. Lakin qadınların öhdəsinə bir şey qoyulmamışdır. Kişi gərək öz həyat yoldaşının xərcini onun ehtiyacı qədərində ödəsin. Həmçinin körpə uşaqların da xərci kişinin öhdəsindədir.

Amma qadınlar yaşayışa lazım olan bütün xərclərdən, hətta özü üçün xərcləməkdən azaddırlar. Beləliklə, bir qadın öz irs payını yığıb saxlaya bilər. Lakin kişi burada çarəsiz qalıb, irs payını öz həyat yoldaşı və övladları üçün xərcləməyə məcbur olur, onun nəticəsində də belə nəticə hasil olur ki, kişi qazancının yarısını özünə və o biri yarısını isə ailəsinə xərcləyir. Ancaq qadının payı (irs) isə olduğu kimi qalır. Bu qədər fərq ona görədir ki, adətən qadınların istehsal etmək qüdrəti azdır. Burada islam dini ədalətlə qadınları himayə edırık onların payına düşəni çox təyin etmişdir (zahirdə onların səhminin yarı olduğuna baxmayaraq).

Məsum imamların (ə) dövründə də irsdən kişinin payı ilə qadının payı arasındakı fərq məsələsi camaat arasında mübahisə mövzusu olmuşdur. Məsumlardan soruşulan suallara verilən cavabların məzmunu bundan ibarətdir ki, "Allah Təala yaşayış xərcini və mehriyyə ödəməyi kişinin öhdəsinə qoymuşdur. Elə buna xatir də onların irs payını çox qərar vermişdir."

Materialist düşüncələrə sahib olan ibn Əbil-Əvca bu məsələ ilə bağlı irad bildirmiş, səhabələr onun bu iradını imam Sadiqə (ə) nəql etdikdə o həzrət cavabında buyurmuşdur: "Çünki, qadına cihad vacib edilməyib (və buna görə də onun öhdəsində cihadın xərcləri yoxdur), qadının öhdəsində kiminsə dolanışıq xərcləri yoxdur, kiminsə diyəsini ödəmək də onun öhdəsində deyildir. Bütün bu xərclər kişinin öhdəsindədir..."[1]

Ayənin sonunda buyurulur: "Atalarınızın və övladlarınızın hansı birisinin sizin üçün faydalı olduğunu bilmirsiniz." Yəni irs qanunu bəşərin həqiqi məsləhətləri

---

[1] Vəsailuş-şiə, "Valideynin və övladların irsi" bölümlərindən 2 -ci bölüm, hədis 1, c.26, s.93

əsasında qurulmuşdur və bu məsləhəti ayird etmək Allaha məxsusdur. Çünki, insan ona lazım olan xeyiri və məsləhəti hər yerdə ayird edə bilmir. Bəziləri güman edirlər ki, atalar və analar, onun ehtiyaclarını ən çox ödəyirlər və elə buna görə də bölüşdürəndə onları (ata-ananı) övladlardan əvvəl bilməliyik. Ancaq bir qrup insanlar bunun əksini fərz edirlər. Əgər irs qanunu xalqın əlində olsaydı, onda min cür dava-dalaş və ixtilaf meydana çıxardı.

Lakin, təkcə Allah bütün işlərin həqiqətini olduğu kimi bilir. İrs qanunu sabit və münəzzəm bir şəkildə bəşərin xeyri üçün qərar vermişdir. Bu qanun alim və hikmət sahibi olan Allah tərəfindən vacib edilmişdir. Bu cümlə qabaqkı mövzuları təsdiq edir ki, irs paylarına aid olan qanunlarda xalq üçün mübahisə yeri qalmasın.

## 4. ÖVLADIN TÖVSİYƏ HAQQI

Əslində, övladın haqlarından biri də, valideyn tərəfindən düzgün tövsiyələr almasıdır. Qurani Kərimin Loğman surəsinin 13-cü ayəsindən 19-cu ayəsinə kimi olan mətnində əsasən Loğmanın oğluna nəsihətləri öz əksini tapmışdır. Bu nəsihətlərlə bağlı müfəssirlərin (Möhsün Qiraəti. Nur təfsiri) təfsirlərinə müraciət edək. Sözügedən surənin 13-cü ayəsində buyurulur: "Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: "Ey oğlum! Allaha şərik qoşma! Şübhəsiz, (Allaha) şərik qoşmaq böyük zülmdür!"

Haqqa dəvət yollarından biri moizədir. Heç kim moizədən ehtiyacsız deyildir. Quranın adlarından biri də moizədir. "Şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd nəsihət gəlmişdir".[1] Hədis kitablarında moizə ilə bağlı

---

[1] Yunus surəsi, ayə 57

xüsusi fəsillə rastlaşırıq. Bəzi rəvayətlərdə deyilir: Bəzən Peyğəmbər (s) Cəbrailə buyurardı: “Məni moizə et.”[1]

Həzrət Əli (ə) bəzən öz ətrafındakılara buyurardı: “Məni moizə edin, çünki bilməkdə olmayan bir təsir eşitməkdə var.”[2]

Övlad tərbiyəsinin üsullarını böyüklərdən öyrənmək lazımdır. Moizə zamanı öncə dinləyicinin diqqətini cəlb etmək, məhəbbət və mərhəmətlə, qarşı tərəfin şəxsiyyətinə hörmətlə müraciət etmək lazımdır. Moizə hikmət əsasında olmalıdır. Övlad nəsihətə ehtiyaclı olduğu üçün gərək onlardan xəbərsiz qalmayaq, övladlarımızla səmimi söhbət edək. Bu, övlad tərbiyəsində ən düzgün yollardan biridir. Atanın övlad qarşısındakı vəzifələrindən biri moizədir. Gənclərlə məzəmmət yox, moizə dilində danışmaq önəmlidir. Haqqa çagırış və moizədə əsas məsələləri önə çəkmək lazımdır. İnsan gərək öz moizələrini dəlil və məntiqlə bəyan etsin.

Şirk ən böyük təhlükə, ən mühüm məsələdir. Allah üçün bütün dünya əhəmiyyətsiz bir şey, şirk isə böyük zülmdür. Quran buyurur: “Dünyanın mənfəəti azdır”.[3] Yəni, insan bütün dünyanı almaq müqabilində belə şirkə yol verməməlidir.

Şirkin olduqca geniş mənası var. Uyğun sözün ən bariz mənası bütpərəstlikdir. Şirkin digər mənası Allahdan qeyrilərinə və ya azğın nəfs istəklərinə sözsüz itaətdir. Şirk insanın yaxşı əməllərini puça çıxarır. Necə ki, od yaşıl ağacı məhv edir. Şirk o qədər təhlükəlidir ki, dörd dəfə tövhid ilə yanaşı valideynə əhsan etməyi tapşıran Quran, övlada Allahdan qeyrisinə doğru çağıran valideynə itaət etməməyi

---

[1] “Məvaizi-Səduq”, səh.92

[2] Şəhid Mütəhhəri, “10 söhbət”, səh.224

[3] Nisa surəsi, ayə 77

əmr edir. İslam əhkamına görə haram işləri yerinə yetirməkdə və ya vacib əməlləri tərk etməkdə övlad valideynə tabe olmamalıdır. Yəni, vacib və haram kimi qəti hökmü olan əməllərdə heç bir halda valideynin övlada müdaxiləsinə icazə verilmir. Çünki, bunlar Mütəal Allahın vacib buyurduğu hökmlərdir. Bununla belə, heç bir halda valideyni incitməyə, kobud rəftara və yuxarı səs tonu ilə danışmağa icazə verilmir. Əgər İlahi vacibata mane olarsa belə onlarla gözəl şəkildə dil tapmaq lazımdır. Müstəhəb əməllərə gəlincə isə valideynin icazəsi nəzərə alınmalı, onların icazəsinə uyğun davranmaq tövsiyə olunur.

Bəli, sonsuz qüdrət və elm sahibi olan Allahdan uzaqlaşıb çarəsiz fərdlər və əşyalara üz tutmaq bəşəriyyətə ən böyük zülmdür. Cansız cisimlərə və zəif insanlara əsir olmaq, özün kimi acizlərdən kömək istəmək düşüncəsizlikdir. Quranda keçmişə aid əhvalatların nəql olunması səbəblərindən biri şirkin kökünü qazmaqdır.

Yuxarıda qeyd edilən surənin 14-cü ayəsində əvvəlcə insanın ata anasına yaxşılıq etmək tapşırılır, sonra ananın hamiləlik dövrünə işarə olunur. Bu yolla insanın əxlaqi vicdanını oyatmağa cəhd edilir. Valideynin və övladın qarşılıqlı hüquqları var. Ötən ayədə atanın övlada nəsihəti bəyan olundu. Bu ayədə isə övladın ata-anaya ehsanından danışılır. Bütün insanlar çatdıqları məqamdan asılı olmayaraq valideynə borcludurlar. Valideynə hörmət təkcə islami yox, həm də insani bir haqdır. Bu hüquq müvəqqəti xarakter daşımır, həmişəlikdir. Valideyn kafir olsa belə ona ehsan etmək lazımdır.

Hamiləlik və südvermə dövrü ana qarşısında vəzifələr yaradan və övlad şəxsiyyətinin formalaşdığı ən mühüm dövrdür. Valideynə təşəkkür Allah qarşısında

böyük dəyərə malikdir. Allaha sükür etdikdən sonra valideynə təşəkkür məsələsi önə çəkilir.

15-ci ayədə oxuyuruq: “Əgər o iki nəfər (ata-ana) bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün çalışsalar onlara itaət etmə. Amma dünyada onlarla xoşrəftar ol. Mənə doğru (tövbə edib) qayıdan kəsin yolunu tut. Qayıdışınız Mənə doğrudur, sizi gördüyünüz işlərdən xəbərdar edərəm.”

Valideynin məqamı o qədər ucadır ki, bu ayədə hətta insanı şırkə sürükləyən valideynlə pis rəftar etməmək tapşırılır. Yəni övlad valideynə itaət etməməli olduğu halda belə onu tənha buraxmamalıdır.

İnsan fitri olaraq tövhidə meyllidir, ətrafdakılar onu şirkə sürükləməyə çalışır. Ayədə valideynə itaət əmri verilməklə yanaşı, valideynin azmağına da diqqət çəkilir. Allahın haqqı bütün haqlardan, o cümlədən valideynin haqqından öndədir. Büdrəmə ehtimalı olan yerdə valideynə itaət edilməməlidir. Amma adi həyat tərzi hifz edilməlidir. Ömrün sonunadək valideynlə yaxşı rəftar etmək zəruridir, hətta valideyn müşrik olsa belə. Bəzən əqidə seçimi və ailədə rəftar arasında fərq qoymaq lazım gəlir. Adi həyatda valideynə hörmət göstərilməli, həyat yolunda paklar və salehlər nümunə götürülməlidirlər.

16-cı ayədə Loğmanın oğluna daha bir nəsihəti bəyan edilir: “Ey oğlum! Əgər (sənin əməlin) xardal dənəsi ağırlıqda olsa, daşın köksündə, göylərdə və ya yerdə gizlənsə, Allah onu (Qiyamətdə hesab üçün) hazır edər. Çünki Allah dəqiq və agahdır.”

Xardal kiçik qara dənələri olan bitkidir. Xardal dənəsi kiçikliyi göstərmək üçün misal çəkilir. Aydin olur ki, övladı İlahi elm və qüdrətlə tanış etmək hikmət nişanəsidir. Moizədə hər tövsiyədən öncə qarşı tərəfin adını təkrarlamaq təsirlidir. Kamil dəyərləndirmə və nəzarətdə ən kiçik işlər də

nəzərə alınmalıdır. Allah hər şeydən xəbərdar və hər şeyə qadirdir. O, dəqiq hesab aparır, çünki Lətifdir.

17-ci ayədə buyurulur: "Oğlum! Namazı bərpa et, yaxşılığa çağır, pisliyə qadağa qoy (əmr bə məruf və nəhy əz münkər et), üzləşdiyin çətinliklərə müqavimət göstər. Bu (səbir) vacib və mühüm işlərdəndir."

Quranda 28 dəfə namazla yanaşı zəkat zikr olunmuşsa da, burada namazla birlikdə əmr bə məruf (yaxşılığa çağırış) yada salınır. Ayədə sərvəti olmayan oğula müraciət edildiyindən zəkat tapşırığı zəruri sayılmaya bilər. Bəzən müsibətlər, bəzən vəzifənin ağırlığı, bəzən günah qarşısında səbir etmək lazım gəlir. Ayədən başa düşülür ki, əmr bə məruf və namaz təkcə islama aid vacib əmrlərdən deyil. İslamdan öncə də Loğman namaz tövsiyəsi verirdi.

Övladı namaza dəvət etmək valideynin vəzifələrindəndir. Yaranış və məada diqqətdən sonra ən mühüm əməl namazdır. Valideynlərə tövsiyə olunur ki, övladlarınızı namaza dəvət etməklə möminliyə, əmr bə məruf və nəhy əz münkər yolu ilə ictimailiyə sövq edin. Onları yaxşılığa çağıran və pisliyə qadağa qoyan insanlar kimi tərbiyə edin. İnsanın bu yolda səbir etməsi dəyərlidir. Həm də doğru yolda olmaq bəs etmir, başqalarını da bu yola dəvət etmək lazımdır.

Namaz və əmr bə mərufa çağırış münasibəti ilə bu iki vəzifə haqqında qisa şəkildə danişaq:

- Namaz insanla Allah arasında ən sadə, ən dərin və ən gözəl rabitədir. Bu ibadət bütün səmavı dinlərdə mövcuddur;
- namaz o qədər mühümdür ki, həzrət İbrahim (ə) öz zövcə və övladını otsuz-susuz səhrada qoymasını (Həcc mərasimi ilə yox) namazın bərpası ilə əlaqələndirir;
- İmam Hüseyn (ə) və onun sadiq səhabələri aşura

günü günorta çağı iki rəkət namaz üçün sinəsini düşmən oxlarına sipər etdi;

- namaz bütün əməllərin qəbulu üçün açardır. Həzrət Əli (ə) öz vəlisinə buyurur: "Vaxtının ən gözəlini namaz üçün ayır. Agah ol ki, bütün əməllərin namaz sayəsində qəbul olar."[1];

- Quranın əksər surələrində, "Bəqərə" kimi böyük surələrdən tutmuş, "Kövsər" kimi kiçik surələrdə namazdan danışılır.

Müsəlmanlar öz qiblələrinə üz tutmaqla müstəqillik dərsi alırlar. "Məsum imamların (ə) vilayətini qəbul etmədən qılınan namaz qəbul deyil" rəvayətindən siyasi baxışlar formalaşır. Spitli içki içənin qirx gün namazının qəbul olmaması sağlam və pak qidalanma məsələsini önə çəkir.

Deyilənlər namazda bizə aşılanan təsirlərin az bir qismi idi. Mərhum imam Xomeyni buyurur ki, namaz insan tərbiyə edən bir müəssisədir.

Əmr bə məruf dedikdə yaxşılıqların tövsiyəsi, nəhy əz münkər dedikdə pisliklərin qarşısının alınması nəzərdə tutulur. Loğmanın öz övladına əmr bə məruf və nəhy əz münlər göstərişi verməsi bu vəzifələrin yaşdan asılı olmamasını göstərir. Yaxşılığa çağırış əqidə məktəbinə eşq nişanəsidir. Xalqa məhəbbət, cəmiyyətin sağlamlığına maraq, söz azadlığı, dini qeyrət, səmimi dostluq rabitələri, pak fitrət, ümumi nəzarət, ictimai fəallıq əmr bə məruf nişanələrindəndir.

Yaxşılığa çağırış və pisliyə qadağa xeyir əməl sahiblərini təşviq edir, cahil insanları oyadır, pis işlərin qarşısını alır, bir növ ictimai asayiş yaradır. Quran buyurur

---

[1] Nəhcül-Bəlağə, məktub 27

ki, “Siz müsəlmanlar ən üstün ümmətsiniz. Çünki, yaxşılığa çağırır, pisliyə qadağa qoyursunuz...” [1]

Həzrət Davud (ə), həzrət İsa (ə) kimi peyğəmbərlər pisliyə qadağa qoymayanları lənətləmişlər.[2] İmam Hüseyn (ə) yaxşılığa çağırış və pisliyə qadağa üçün qiyam qaldırdı.[3]

İnsan günaha görə həm qəlbən narahat olmalı, həm dili ilə çəkindirməli, həm güc və qanun vasitəsilə xilaf işin qarşısını almalıdır. Bir insanı yaxşı yola gətirə bilsək, onun yaxşı işlərinin savabına şərik olarıq. Amma fəsad və günah qarşısında sakit dayansaq, güһahkar və fasiq insanlar bir gün xalqa hakim olar. Günah qarşısında sükut günahı insanların nəzərində adiləşdirir, günahkar daha da ürəklənir. Nəticədə biz biganələşirik, şeytan razı qalir və Allahın qəzəbi nazil olur.

Hətta qısa bir müddət günahın qarşıısını almaq mümkündürsə, addım atılmalıdır. Xəbərdarlıq təkrarlandıqda nəticəyə çatmaq olarsa, təkrarlamaq zəruridir.

Həmin surənin 18-ci ayəsində deyilir: “Xalqdan (təkəbbürlə) üz çevirmə, yer üzündə qürurla addım atma. Çünki, Allah heç bir təkəbbürlü lovğanı sevməz.”

“Təs”ir” dəvədə olan bir xəstəliyin adıdır. Bu xəstəliyə tutulan dəvənin boynu əyilir. Loğman oğluna deyir ki, təkəbbür üzündən xəstə dəvə kimi xalq qarşısında boynunu (üzünü) çevirmə. “Mərəh” dedikdə var-dövlət və məqama görə şadlıq mənası anlaşılır. Puç xülyalar əsasında özünü üstün tutan insan “muxtal” adlanır. Qürrələnən insana isə “fəxur” deyilir. Təkəbbür həm xalqa qarşı təhqirdir, həm keçmiş kin-küdurəti təzələyir, həm də yeni düşmənçilik

---

[1] Ali İmran surəsi, ayə 110

[2] Maidə surəsi, ayə 78

[3] Bihar, c.44, səh.328

yaradır. Hədisdə oxuyuruq ki, yer üzündə təkəbbürlə addım atan adama həm yer, həm yerin üstündə və altında olanlar lənət oxuyurlar.[1]

Ayədən aldığımız nəticə budur ki, istər müsəlman, istər qeyri müsəlman insanlarla xoş rəftar etməliyik. Hətta, yol yeriyərkən təkəbbürlə yerimək olmaz. Allahın razılığını önə çəkib yaxşılığa həvəsləndirmək, Allahın qəzəbini önə çəkib pisliklərdən çəkindirməliyik. Xalqla təkəbbürlü davranib lovğalanmaq yolverilməzdir.

Bu ayədə Loğman öz oğluna deyir ki, yer üzündə təkəbbürlə gəzmə. Surələrin birində isə təvazökar yeriş yaxşı bəndəliyin ilkin nişanəsi sayılır. "Rəhmanın bəndələri yer (üzün)də sakit və təvazökarlıqla yol gedən kəslərdir."[2]

İnsanın öz vücudundakı ən uca nöqtəni (alnını) səcdə zamanı yerə qoyması namazın əsrarəngizliklərindəndir və Allah qarşısında təkəbbürdən uzaqlığı və təvazönü göstərir. Bütün insanlar qarşısında təvazökarlıq zəruri sayılsa da, valideyn, ustad, möminlər qarşısında təvazö layiqli möminlik nişanələrindəndir.

Torpaqdan, nütfədən yaradılmış zəif insan sonda hərəkətsiz leşə çevrilir. Belə bir varlıq hansı əsasla lovğalanmalıdır?

Loğman surəsinin 19-cu ayəsində Uca Rəbbimiz buyurmuşdur: "Yol yeriyərkən orta həddi gözlə, səsini yavaş çıxar. Çünki, səslərin ən xoşagəlməyəni ulağın səsidir."

Hədisdə oxuyuruq: "Xalqı Allaha doğru dəvət edərkən, Quran oxuyarkən səs qaldırmağın eybi yoxdur."[3]

---

[1] Təfsire-Nurus-səqəleyn
[2] Furqan surəsi, ayə 63
[3] Təfsire-Nurus-səqəleyn

Loğmanın tövsiyələrində doqquz əmr, üç qadağa və uyğun əmr və qadağalarla bağlı yeddi dəlil göstərilmişdir.

Əmrlər: valideynə yaxşılıq, Allaha və valideynə təşəkkür, valideynə yaxşılıqla müşayiət olunan müsahibə, möminlərin yolunu izləmək, namazı bərpa etmək, yaxşılığa çağırış, pisliyə qadağa, orta həddə hərəkət, danışarkən səsi ucaltmamaq.

Üç qadağa: şirkə qadağa, xalqdan üz çevirməyin qadağası, təkəbbürlü yerişin qadağası.

Yeddi dəlil:

1. Şükür etmək insanın özünə faydalı olduğundan şükrü yerinə yetirin.
2. Şirk böyük zülm olduğundan şirkdən çəkinin.
3. Hamı Allaha doğru qayidasıdır. Sorğu günü varsa, valideynə ehtiram göstərin.
4. Allah hər şeydən agahdır, öz əmllərinizə qarşı diqqətli olun.
5. Səbir və dözüm əhəmiyyətli səciyyədir, səbirli olun.
6. Allah təkəbbürlüləri sevmir, təkəbbürdən uzaq olun.
7. Ən pis səs ulağın səsidir, səsinizi ucaltmayın.

**Nəticə**

İslam kompleks bir dindir. Bu dində hətta yerişlə bağlı göstərişlər vardır. İlahi ayinlərdə əqidə və əxlaq məsələləri yanaşı bəyan olunur. Orta hədd, ifrat və təfritdən uzaqlıq Quranın göstərişidir. Təkcə yol gedərkən yox, bütün işlərdə orta həddi gözləməliyik. Ayənin göstərişinə əsasən gərək səsimizi qaldırmayaq, yersiz fəryadlardan çəkinək,

yumşaq və aram danışaq. Çünki, fəryad çəkmək və səsi qaldırmaq bəyənilməyən və məzəmmət olunmuş bir işdir.

## Ədəbiyyat


1. Məhəmməd Məhəmmədi Reyşəri, "Ömrün meyvəsi", Ələm nəşriyyatı, 2014-cü il.
2. Ayətullah-üzma Musəvi Ərdəbilinin nəzəri əsasında, "Qadınlar bilməlidir", tərtib edən Nasir Mukarian, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafıya Mərkəzi, 2017-ci il.
3. Ayətullah Məkarim Şirazinin rəhbərliyi ilə bir qrup alimin əsəri, "Nümunə təfsiri", "Dinin fəxri" nəşriyyatı, 2002-ci il.
4. Möhsün Qiraəti, "Nur" təfsiri, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014-cü il.
5. Fəqih Mühəddis Məhəmməd ibn Əl-Həsən Əl-Hürr Əl-Amulinin əsəri, "Vəsailuş-şiə", "Alul-beyt müəssisəsi"nin araşdırması, 30 cilddə
6. Əllamə Seyyid Məhəmmədhüseyn Təbatəbai, "Əl-Mizan Qurani Kərimin təfsiri", Bakı, "Qələm" nəşriyyatı, 2010-cu il.
7. Qurani Kərim. Tərcüməçilər: Ağabala Mehdiyev və Dürdanə Cəfərli, Bakı, 2008-ci il.
8. İmam Əli əleyhissəlamın xütbə, məktub və hikmətli kəlamları. "Nəhcül-Bəlağə", Tərcümə və şərh. Toplayan Seyyid Rəzi. Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev. Bakı, İİR, Mədəniyyət Mərkəzi, 2009-cu il.
9. Qüdrətullah Məşayixi. İslamda hüquq nəzəriyyəsi. İmam Səccadın (ə) "Risalətül-hüquq" kitabının

şərhi, Bakı, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015-cü il, 424 səh.

10. Möhsün Qiraəti. Dinimi öyrənirəm. Bakı, “Zərdabi LTD” MMC, 2019

11. Uşaq hüquqları. Tövsiyə biblioqrafiyası. Tərtib edən Nazilə Tahirova, redaktor Ş.Qəmbərova. F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Bakı, 2015.

12. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu (19 may 1998-ci il, №499-IQ). Bakı: Qanun, 2008.-16s.

13. Molla Möhsün Feyz Kaşani. Əl-Muhəccətul-bəyza. 8 cilddə

14. Dəyərlər.org. Əhli-beyt mədəni maarif cəmiyyəti.

15. www.e-qanun.az. Azərbaycan Respublikası Normativ Hüquqi Akatların vahid internet elektron bazası.

16. Rene David. Müasir hüquq sistemləri.

17. Corci Zeydan. İslam mədəniyyətinin tarixi.

18. www. Meydan TV.az

19. Əbdülhəkim Süleymani. Islamda insan haqları. Tərcüməçi Əkrəm Hacızadə. Ə-Mustafa Virtual Universitetinin magistratura pilləsi üçün dərslik.

# Müasir insanın mənəvi tələbatı

Rauf Musayev[1]

**Abstrakt**

Bu məqalə  yazıçı və araşdırmaçı Dr. Əhmədhüseyn Şərifinin "Həqiqi irfanlar və yalan irfanlar" kitabından alıntıdır."*İrfan*" və "*idrak*" sözləri lüğətdə "tanımaq", "dərk etmək" mənasınadır. Amma terminologiyada fərqlənirlər. İdrak hər növ tanımağa və dərkə aid olunur. Amma irfan isə daxili "*intiusiya*" (şühud), batidi tapıntı və dərk vasitəsilə hasil olan xüsusi idrakdır. Əlbəttə, intiutiv (şühudi) idraklar çoxdur, amma hamısı irfan demək deyil. İrfan – Allah-taalanın, Onun Adlarının, Sifətlərinin və fellərinin intiutiv (şühudi) və batini idrakından ibarətdir. Buna əsasən, irfani idrak əqli idrakdan fərqlənir. İrfani idrak məfhumlar, sözlər və zehni surətlər növündən deyil. Əksinə, fenomenin özünü kəşf etmək və əldə etmək növündəndir.

**Açar sözlər:** İrfan, mənəviyyat, müasir, həqiqi, yalan

## Giriş

Mənəvi bir dərki, tapıntını əldə etmək üçün xüsusi mərhələlər qət etməyə, "*riyazət*"lər (nəfslə mübarizə) yerinə yetirməyə və mənəvi məşğələlərə ehtiyacımız var. Bu mənəvi məşqlər və "*Seyri-Suluk*" metodları və yolları "*Əməli-İrfan*" adlanır. Əlbəttə, əməli-irfan başqa bir termin olaraq bu mərhələləri qət

---

1 - İslam fəlsəfəsi fakültəsinin doktorantı, Əl-Mustafa Beynəlxalq Universiteti, Qum, İran

etməyə də deyilir. Yəni Allahın, Onun Adlarının, Sifətlərinin və fellərinin intiutiv (şühudi) dərkinə nail olmaq üçün əməli şəkildə məşğul olan bir şəxsin yoluna, seyri-sulukuna "Əməli-İrfan" deyilir. Əməli-irfanda, tövhidin bütün mərhələrində intiusiya (şühud) məqamına çatmaq üçün salikin 1 - özünün, 2 - aləmin və 3 - Allahın qarşısında vəzifəsinin nə olmasından, hansı nöqtədən başlamalı, hansı mərhələləri, mənzilləri və məqamları arxada qoymasından, hansı mənzildə ona hansı halların üz gətirməsindən, hər bir mənzil və məqamın zərəri və bu zərərlərlə mübarizə yollarından danışılır. Fərqləri1 az olsa da əməli-irfan əxlaq elminə çox bənzəyir. Başqa sözlə, bəzən əməli-irfanı "fəlsəfi-əxlaq" və "nəqli-əxlaq" müqabilindəki "irfani-əxlaq" adı ilə tanınan əxlaq növündən hesab etmək olar. Onun digər əxlaqi təhqiqatlardan fərqləndirici xüsusiyyəti budur ki, o, insanın vücudi təkamülünün yalnızca üfüqi müstəvidə yox, əksinə, buna əlavə olaraq şaquli müstəvidə də olduğunu deyir. Bu elm iddia edir ki, insanın şaquli istiqamətdə təkamülünü onun öz ixtiyarına qoyur, onu bitki və heyvan mərtəbəsindən insani, mələk və ilahi mərhələyə çatdırır. Buna əsasən, nəqli və əqli əxlaqda şəxsin əxlaqlı olması üçün məntiqi ardıcıllığın və bir-birinə söykənən nizamın varlığı zəruri deyil. Amma irfani-əxlaqda xüsusi dərəcələndirmə və mərhələləri bölmə ilə üzbə-üzük. Xacə Abdullah Ənsarinin (396-481 h.q.) yazdığı "*Mənazilus-Sairin*" kitabı əməli-irfan və ya irfani-əxlaq kitablarının ən məşhurudur.2

[1] M. Mütəhhərinin  bu haqda nəzəri ilə tanış olmaq üçün bax: "*Əsərlər Məcmuəsi*" kitabı, 14-cü cild.

[2] Buna əlavə olaraq, "Tavusul-Fuqara" (fəqirlərin tavusu) ləqəbi ilə tanınmış Əbu Nəsr Sərracın (vafat: 378 h.q.) "*Əllümə-fi-Əttəsəvvuf*", Əbu Talib Məkkinin (vəfat: 386 h.q.) "*Qutul-Qulub fi Müamilətul-Məhcub və*

Eyni halda, belə idrakı dadan şəxslər bunu başqalarına izah etmək, onları da özlərinin bu mənəvi təcrübəsi, batini intiusiyası (şühud) ilə tanış etmək istəyə bilərlər. Belə olan halda onların məfhumlardan, zehni surətlərdən, sözlərdən istifadə etməkdən başqa yolları yoxdur. Çünki sözlərdən və məfhumlardan istifadə etmədən öz mənəvi təcrübələrini başqalarına çatdıra bilməzlər. İntuitiv (şühudi) idrak şəxsi, fərdi idrakdır və onu heç bir şəkildə olduğu kimi başqalarına ötürmək olmur. Yalnız sözlərdən və zehni surətlərdən istifadə etməklə onun haqqında başqalarında təsəvvür yaratmaq olar. Buna "*Nəzəri-İrfan*" deyilir. Buna əsasən nəzəri-irfan, "vasitəsiz" (hüzuri) elmdən "vasitəli" (hüsuli) elm almaq deməkdir və vasitəsiz elmi, yaxud batini intiusiyanı (şühudu) söz qəliblərinə, zehni məfhumlara salmaqdan ibarətdir.1 İrfan öz inkişafının ilkin mərhələlərində və yaranmasının ilk əsrlərində daha çox əməli-irfan dediyimiz formasında yayılmışdı. Amma bu elm də həmçinin xüsusi dəlillərə əsasən get-gedə nəzəriləşmiş və aləmə, insana, Allaha özünün xüsusi baxışı ilə fəlsəfə və kəlam elmi ilə yanaşı fikri və nəzəri sistem irəli sürən bir elm kimi çıxış etdi. Buna görə də nəzəri-irfanda varlıq, Allah, insan və onun son taleyi haqqında danışılır. Əlbəttə, nəzəri-irfan fəlsəfə, kəlam, Quran və hədislə əlaqədə olan fənnlərarası bir elmdir. Necə ki, əməli-irfan da fənnlərarası elmdir, çünki fiqh və əxlaqla əlaqəlidir.

*Fəsfi Tariqil-Murid ilə Məqamit-Tövhid*", İbn Sinanın (370 -428 h.q.) ariflərin məqamı haqqında yazdığı "*Əl-İşarat*" kitabının 9-cu bölməsi, Əbul-Qasim Quşeyri Nişapurinin (377-465 h.q.) "*Risalətul-Quşeyriyyə*", Xacə Nəsirəddin Tusinin (fəvat: 672 h.q.) "*Ovsaful-Əşraf*" kitabları əməli-irfana, yaxud irfani-əxlaqa aiddir.

[1] "*İslam İrfanı axtarışında*": Misbah Yəzdi.

Ola bilər ki, "İrfan termini müqəddəs bir termindir və onu hər hansı bir şəkildə metafizik məsələlər, yaxud fövqəltəbii qüdrətlər haqqında danışan hər bir məktəbə və qrupa aid etmək layiq deyil" deyilsin. Əlbəttə, doğrudur ki, bu gün bizim cəmiyyətdə və iranlıların ürfi-camaatarası dilində "irfan" və "arif" müqəddəs və ehtiramlı sözlərdir1 və onları hər bir şəxsə, hər bir qrupu aid etmək olmaz. Amma əvvəla, bu termin elm müstəvisində "həqiqi" və "yalan" irfanın hər ikisinə də aid olur, ikinsici isə, öz-özlüyündə müqəddəs olsa da, sonlaralar onun üçün saxta əvəzləyicilər yarandığına görə onlara da aid olunmuşdur. Buna görə, irfan termini bir çox mənaları və Allahsız irfandan tutmuş dini və həqiqi irfana qədər bir sıra cərəyanları əhatə edir. Buna əsasən, irfana maddi və dünyəvi baxışları da həmçinin bir növ irfan hesab etmək olar və bu termini münaqişəsiz onlar haqqında da işlətmək olar. Necə ki, din termini də bəzən, məsələn "*Marksizm*" kimi əsas məqsədi dinə zidd olan məktəb və cərəyanlar haqqında da işlənir və yaxud, Quranın təbiri ilə desək, Peyğəmbərlə (s) müxalif olanların və kafirlərin məslәkləri də din adlanır: "*Sizin dininiz sizə, mənim dinim mənə*"2. Bu məsələnin həqiqi dinin müqəddəsliyi ilə ziddiyyəti yoxdur.

**Mənəviyyat**

Son zamanlar yayılmış terminlərdən biri də "mənəviyyat" sözüdür. Bəzi yazarlar yeni əsri mənəviyyat əsri

[1] Buna görə də irfan bir çox mənfəət güdən və fürsət axtaranların diqqətində olmuşdur. Onlar camaatın irfana və ariflərə ehtiramla yanaşmasından istifadə edərək özlərini irfan əhli, mərifət mürşidləri kimi göstərir, sadlövh insanları öz ətraflarına toplayırlar ki, özlərinin iqtisadi, siyasi, ictimai, mədəni mənfəətlərini əldə etsinlər.

[2] Kəfirun-6.

adlandırmışlar və hətta belə proqnoz vermişlər ki, XX əsr ya mənəviyyat əsridir, ya da ümumiyyətlə "əsr" deyilən bir şey olmayacaq. Yəni, bəşər öz əli ilə yaratdığı kütləvi qırğın vasitələri ilə və modernizm əsri ilə, mexaniki həyatın tələbləri ilə yanaşı əgər mənəviyyata sarı yönəlməsə, həlak olmağa sürüklənəcək. Fransa çapı olan Abzerovator jurnalı: bir müddət Fransanın mədəniyyət naziri işləyən fransız yazıçı Andrey Malrodan nəql edir: "*XXI əsr ya ümumiyyətlə olmayacaq, ya da mənəviyyat əsri olacaq*".1

Amma görəsən "mənəviyyat"da məqsəd nədir? Bu termin neçə vaxtdır ki, Qərb yazıçılarının yazılı ədəbiyyatlarında müzakirə olunur, amma təəssüflər olsun ki, indiyə qədər heç bir lüğət kitabı, yaxud "ensiklopediya"lar bu termin haqqında bütün nümunələrini əhatə edən dəqiq tərif verməmişdir. Buna əsasən də, bu terminin həddləri, onu başqalarından fərqləndirən sərhədləri, yaxud onun ifran və din kimi terminlərlə ortaqlığı o qədər də məlum deyil. Amma bu haqda qəti şəkildə demək olar ki, elə buna görə də qərblilər sekolarizm və humanizm prinsiplərinə əsaslanaraq müasir insanın mənəvi ehtiyaclarına cavab vermək istəyirlər. Buna görə də, Qərbdə formalaşan mənəviyyat ümumi olaraq sekolar mənəviyyatlar növündəndir və liberalizm dünyagörüşü, ideologiyası ilə uyğundur. Misal olaraq, Qərbdə aktiv olan Buddizm, Hinduizm, Çinizm kimi bəzi Şərq, yaxud da istər avropalı, amerikalı, qırmızıdərililərə məxsus olsun, ümumiyyətlə Qərb mənəviyyatlarını göstərmək olar. Bunların hamısı ya Qərbin sekolar prinsipləri ilə uyğundur, ya da Qərb

[1] "*İmam Xomeyni əsri*", Mir Əhməd Rza Hacəti.

informasiya vasitələri ilə təbliğ olunan rənglərlə çöhrələnmiş Qərb mənşəli mənəviyyatlarladır.

Yeni mənəviyyatçılıq, mənəviyyat üçün hətta Allaha inanmağın zəruri olmadığını deyir. O ki, qaldı din. Onların əksəriyyəti mənəviyyatı ilahi dinlər dairəsindən kənarda axtarırlar, yaxud da ən azı ona nail olmağı din və dini maarif tərəfindən gözləmirlər. Mənəviyyata belə yanaşmağın nəticəsidir ki, hətta şeytanpərəstlik və cindarlıq da mənəvi ayinlər zümrəsindən sayılır. Bəzi daxili yazıçılar da belə iddia etmişlər ki, "mənəvi həyat, zəruri olaraq köklü qədim dinlərdən birinə bağlı olması mənasında deyil, əksinə, insana aramlıq, şadlıq, ümid verən, aləm və insan haqqında dünyagörüşə sahib olmaqdır"1. Bu tərifdə mənəviyyat və dindarlıq arasında ayrılmaz əlaqə yoxdur. Müasir insanın bu növ mənəviyyata ehtiyacı müasir həyat və zamanın ruhi problemlər, çətinliklər, iztirablar, qəm-qüssə, ürək sıxıntıları, özünü itirmə və puçluq hissi yaşatdığından, müasir elm və ağıl da bu ruhi və psixoloji problemləri həll edə bilmədiyindən qaynaqlanır. İnsan üçün şadlıq, aramlıq və yaşamağa ümid yaradan, onun varlıq aləmi haqqında mənalı təsəvvürə, izaha və batini razılıqla yaşamasına səbəb olan bir fenomenin axtarışındadır. Qərblilərin və bəzi daxili yazarların nəzərində "mənəviyyat"da məqsəd budur: ondan yararlanmaq, istifadə etmək insanda belə halların əmələ gəlməsinin qarşısını alır və belə hallarla mübarizə etmək qüdrəti yaradır. Belə mənəviyyat nə Allaha inamı, nə peyğəmbərlərin (ə) gətirdiyi xəbərlərə inanmağı, nə də bu maddi dünyanın fövqündə başqa bir aləmin

[1] "*Azadlığa Tərəf*", Mustafa Məlikiyan.

varlığına ehtiyacı tələb etmir. Mənəviyyatda insanın qazandığı yeganə şey "bir növ batini razılıqdır, əlbəttə bu, insanın həyatının yalnızca bu dünya ilə məhdudlaşması, ya da şəxsin öz nəzərinə əsasən dünyadan sonra həyatın varlığının olması ilə uyğundur".1

Əlbəttə, aydındır ki, dini mənəviyyat sekolar mənəviyyatdan fərqlənir. Dini mənəviyyat insanı dünya həyatı ilə məhdudlaşdırmır. Onun əsl həyatının başqa bir yerdə olduğunu deyir və bütün sevincləri, qorxuları, ümidləri ilə birlikdə onun bütün dünyasını həqiqi həyata çatmaq üçün məhz bir keçid və körpü hesab edir. İslam nəzərindən içində Allah olmayan mənəviyyatın mənası və əhəmiyyəti yoxdur. Əsas etibarilə həyatın əsl mənbəyinə birləşmədən həqiqi aramlıq, ümid hasil olmayacaq və insanı həyatın bu əsl mənbəyinə birləşdirən şey dini mənəviyyatdır və mənəviyyat insanın varlığına və həyatına məhz dinin kölgəsində məna bəxş edir.

## Dini və Sekulyar İrfan

Ümumi bir bölgüdə, irfanı iki – *dini və sekulyar* – dəstəyə bölmək olar. Dini irfan yəni, ilahi dinlərdən alınmış, qaynaqlanmış irfan. Bu elə bir irfandır ki, özünün son hədəfinin nəinki yalnızca Allaha qovuşmaq və "*Qürb*" (Allaha yaxınlıq) məqamına çatmaq olduğunu deyir, əksinə, inanır ki, bu hədəfə qovuşmaq vasitələri də həmçinin dindən alınmalıdır və dini maarifə uyğun olmalıdır, yaxud da ən azı dini maariflərə zidd olmamalıdır.

---

[1] "*Moştaqi Və Məhcuri*", Mustafa Məlikiyan.

Bunun müqabilində, dini təlimlərə, maarifə etinasız yanaşan, mənəvi seyrin sonunu, hədəfini Allahdan başqa bir yerdə axtaran, insanı yalnızca dünya həyatı ilə məhdudlaşdıran hər növ irfanı "sekulyar" irfan adlandırırıq. Allahdan başqa şeyləri metafizik olsa belə öz hədəfi ünvanında seçən bütün irfanlara və yaxud da din və şəriətdən başqa bir vasitə ilə özünün son hədəfinə qovuşmaq niyyətində olan irfanlara sekulyar irfan deyilir.

### Həqiqi və Yalançı İrfan

Bütün dini irfanları zəruri olaraq həqiqi irfan hesab etmək olmaz. Çünki bir din təhrif oluna, ya da kimlər tərəfindənsə yaradıla və varlığın mənşəyi, mənbəyi və Allah-taaala haqında yanlış təsəvvür verə bilər. Belə bir dində arifin şəxsi son hədəfi Allaha qovuşmaq ola bilər, amma məhz həmin dinin mövzusu olan Allah qeyri-həqiqidir. Buna əsasən, belə bir dindən qaynaqlanan irfan qeyri-həqiqi irfan olacaq. Misal olaraq, yəhudi və "*Kavala*" irfanını göstərmək olar. Bunlar yəhudi dinindən qaynaqlanan irfan olsalar da yəhudiliyin təhrif olunmasına əsasən, onun irfanı da həqiqi irfan ola bilməz. Əksinə, o, yalançı irfan kimi tanınır. Məsihi irfanını da həqiqi irfan hesab etmək olmaz, çünki məsihi irfanı Xristianlıq dinindən qaynaqlansa da, mövcud məsihi dini təhrif olunmuşdur, hətta düzəltmə bir dindir.

Buna görə də həqiqi irfan o irfandır ki, həqiqi dindən qaynaqlanmış olsun. Həqiqi irfan nəinki yalnız həqiqi hədəfin axtarışındadır, hətta özünün mənəvi seyrinin təlimlərində də tamamilə həqiqi dinə və şəriətə tabedir. Həqiqi irfan o irfandır

ki, məşuqa, varlığın həqiqi mənbəyinə, Allah-taalaya qovuşmaq yolunun yalnız Onun razılığını qazanmaq və Onun əmrlərinə itaət etmək olduğunu deyir. Buna əsasən, məşuqa qovuşmaq yolunu keçmək üçün onun sözlərinə, istəyini başa düşməyə qulaq verməlidir ki, onun istədiyi şəkildə rəftar etsin, Onun bəyənmədiyi yoldan çəkinsin. Çünki məşuqa qovuşmaq üçün onun iradəsi və istəklərinə zidd əməllərin mənası yoxdur. Allah-taala da Özünün xəbərlərini və istəklərini şəffaf, təhrif olunmamış, məsum şəkildə Özünün sonuncu elçisi vasitəsilə bəşərin ixtiyarında qoymuşdur. Bu zəmində heç bir şəkildə şübhə və dumanlı bir nöqtə yoxdur. Buna əsasən həqiqi irfan, həm son hədəfi, həm də bu hədəfə nail olmaq metodu həqiqi və məsum dindən alınan irfandır. Bundan başqa hər növ irfan yalançı irfanlar cərgəsində yer alır.

## MÜASİR İNSANIN MƏNƏVİYYATA VƏ İRFANA YÖNƏLMƏSİNİN AMİLLƏRİ

Əgər müasir zamandakı din və mənəviyatın vəziyyətinə ötəri nəzər salsaq, öz fakt və ümumi məlumatlarımızı gözdən keçirsək, müasir insanın nisbətən uzun fasilədən sonra yenidən din və mənəviyyata üz tutduğunu təsdiqləyəcəyik. Müasir əsrin insanı arasında xüsusilə də son zamanlarda belə bir meylin varlığının isbatı üçün dəlil göstərməyə ehtiyac yoxdur. Dünyanın hər bir guşəsində camaatın mənəvi və dini kitablara şiddətli meyli, dünyanın müxtəlif yerlərində camaat arasında dini və mənəvi yığıncaqlarda iştirak etməyə həvəs, mənəviyyata istəklə, dinə maraqla bağlı söhbətlərin, dialoqların hazırlanması bu iddianın açıq-aydın

şahidlərindəndir. Misal olaraq, Avropada, Amerikada islami və irfani kitabların görünməmiş şəkildə qarşılandığını demək olar. Eləcə də Amerika və Hind irfani və mənəvi kitabları İslam ölkələrindəki insanları düşündürür. Bizim ölkədə mənəvi və irfani yığıncaqlar yüksək şəkildə keçirilir. "Xaneqah"lar (sufilərin toplaşdığı ev) aşkar və gizli şəkildə, açıqda və zirzəmilərdə daim yeni müridləri cəzb etməkdədir. Ölkəmizdə irfan, mənəviyyat, metafizik təlimlər və s. adı ilə mərkəzlər, müəssisələr formalaşmışdır.

Dünyada belə bir meylin varlığına başqa bir şahid musiqi, film, multfilm, roman, dastan və s. kimi sənət və mədəniyyət sahələrinin müxtəlif mənəvi istehsallarıdır. Cadugərlik, falçılıq, alınyazısı, öncədən proqnozlar, cindarlıq, şeytanla əlaqə qurmaq və s. kimi mövzularda kitabların nəşr olunması və onların böyük tirajla satışı buna başqa bir nümunədir. Təəssüflər olsun ki, belə kitabların bizim ölkədə də çoxlu müştəriləri var. Belə ki, yuxarıdakı mövzular haqqında müxtəlif kitablar tərcümə olunaraq böyük tirajlarla camaatın ixtiyarında qoyulmuşdur. Hətta falçılıq1 və alınyazısı2 ensiklopediyası nəşr olunur. Hər halda, belə sahələri camaatın yaxşı qarşılaması və bu cür kitabların yüksək satışı ümumi mənada və öncə qeyd olunan tərifə əsasən dünyada camaat arasında mənəviyyata meyl dalğasının varlığından xəbər verir. Qərb insanı arasında mənəviyyata üz tutmağın varlığı haqqında bir çox dəlillər vardır ki, uzun olmasın deyə onları xatırlatmırıq və oxucunu digər mənbələrə

[1] "*Falçılıq Ensiklopediyası*", Katakar.
[2] "*Alınyazısı Ensiklopediyası*", Linda Qudmen və Yedeqran.

baxmasını deyirik.1 Ziyalı yazıçı və iddiaçıların yazılarına ötəri baxış da həmçinin göstərir ki, irfan və mənəviyyat mövzuları, əsasən də son zamanlar, onların əsərlərində də tez-tez vurğulanır. Müşahidə edirik ki, bəzi ziyalı iddiaçılar bu mənəviyyata, irfana meyl bazarında islami irfan və mənəviyyat düşüncələri yaratmaq əvəzinə sekulyar və dinsiz, hətta Allahsız məniyyat haqqında söhbət açırlar və qədim irfanların, dinlərin, Mani, Zərdüştlük, Həxameneşyan kimi qədim İran qövmlərinin mənəviyyatının təbliğinə üz tutmuşlar. Bu, alimləri və dünyanın bir çox yerlərindən olan insan qruplarının İslam mənəviyyatına və ayininə meyl yarandığı bir zamandadır.

Amma görəsən bu meylin səbəbləri və amilləri nədir? Bəşər nə üçün nisbətən uzun zaman fasiləsindən sonra yenidən mənəviyyata üz tutmuşdur? Aşağıda bu meylin bəzi ən mühüm səbəb və amillərinə işarə edirik.

## Modern Elmə, Ağıla, Rasionalizmə və Məntiqə Ümidsizlik

Müasir bəşər modernizm dövründə güman edirdi ki, yeni elm onun bütün problem və iztirablarının həlledicisidir. Buna əsasən də hər bir qeyri-elmi və metafizik ideya ilə şiddətlə mübarizə aparırdı. Maarifçilik dövrünün qabaqcıllarından biri olan Denis Didro (1713-1784) təbiətin mesajını yeni əsrin insanına belə çatdırır: "*Ey xurafat bəndəsi! Öz xoşbəxliyini bihudə olaraq səni yerləşdirdiyim bu aləmin sərhədlərindən o tərəfdə axtarma! Şücaətli ol və özünü mənim*

[1] "*İmam Xomeyni Əsri*".

*hüququmu tanımayan bu üsyankar rəqibim olan dinin boyunduruğundan azad elə. Mənin qüdrətimə qəzəb edən allahları kənara qoy və mənim qanunlarıma qayıt. Bu zaman dərk edəcəksən ki, həyat yolun gül-çiçəyə dolmuşdur*".1

Digər tərəfdən də maarifçilik dövrünün rasionalizmi o həddə çatmışdı ki, hər bir "irrasional" (ağıla aid olmayan, ağıl ilə isbat oluna bilməyən, ağılın imkanlarındna xaric olan, isbatolunmaz) sözün "anti-rasional" (ağıla zidd olan) olduğunu güman edirdilər və buna görə də bir çox dini və mənəvi iddiaları inkar edirdilər. Rasionalistlərin əsas şüarı ingilis riyaziyyatçısı Kliffordun bu qısa və fəsahətli sözündə xülasələnirdi, o deyirdi: "*Kimsənin heç bir zaman və heç bir yerdə kafi olmayan dəlillər əsasında hər hansı bir şeyə inanması düzgün deyil*"2. Bu söz, əlbəttə ki, İslam mənəviyyatı, şiə təfəkkürü və irfanı fəzasında tam doğru sözdür. Amma Klifford bu söz ilə istəyirdi ki, din, mənəviyyat və dini inancları qeyri-əqli (qeyri-rasional) və "əsaslandırılmış dəlil"ə malik olamayan bir fenomen bilsin. Müasir insanın anti-din olması və mənəviyyatdan yayınması o yerə çatmışdı ki, hətta elmi yığıncaqlarda, üniversitetlərdə "Allah" adının çəkilməsinə razı deyildi. Ona görə ki, belə bir varlığı qəbul etmək və ona inanmaq qeyri-elmi, xurafat, əfsanə sayılırdı. Elm və elmi ocaq fəzasının xurafi və əfsanəvi fenomenlərdən uzaq olmasını istəyirdi.

Müasir insanın elmi qüruru o yerə çatmışdı ki, təcrübəni hər bir düşüncənin elmiliyinin və həqiqiliyinin isbatı üçün

[1] "*Fəlsəfə Və Aydınlaşdırma, İazh etmə*", Ernest Kasirer.
[2] "*The Ethics of Belief*", W. K. Clifford, in Philosophy of Religion.

yeganə yol bilirdi. Hər bir qeyri-təcrübi sözü qeyri-elmi hesab edirdi. Nəinki yalnızca ilahiyyat və metafizik məfhumlarına, hətta əxlaqi məfhumlara da qeyri-elmi və nəticədə də mənasız kimi baxırdı. Onların "*doğru*" və "*yanlış*"lığı haqqında fikiri mənasız sayırdı. Ona görə ki, bir düşüncənin "*mənalı*"lığı və ya "*mənasız*"lığının meyarını "*verifikasiya*" (təcrübə olunan: o da hissi təcrübə cinsindən olmaq şərti ilə) hesab edirdi. Bir sözün "doğru" və "yanlış"lığı onun "mənalı" olmasından sonra məna daşıdığına görə, elə isə hər hansı bir şey mənalı olmasa, əsas etbarilə onun doğru-yalan olması haqqında tədqiqata növbə çatmayacaq.

Saentizm və rasionalizm hamıdan çox Qərbi bürüdü və onları din və mənaviyyatdan uzaqlaşdırdı. Bir çox Şərq, xüsusilə də İslam ölkələri böyük zərərlər gördü, əlbəttə onun xidmətləri və yaxşı cəhətlərindən də məhrum idilər. Amma təəssüflər olsun ki, bu ruhiyyənin Qərb alimləri arasında yayılması və modern elmin, ağılın mərkəzliliyi və onun müasir insanın bütün elmi və əməli sahələrinə hakim olması bəzi müsəlman alimlərini də qorxu altında özünə tabe etdi. Belə ki, onların din və dini təimlər barəsindəki təfsirləri qərblilərin seantik təsirinə olduqca məruz qaldı. Misal olaraq, İqbal Lahurinin və onun arxası ilə də doktor Şəriətinin "xatəmiyyət"ə (peyğəmbərliyin sonu) verdikləri təfsir aşkar şəkildə bu meylin təsiri altındadır. Bu şəxslər müasir insanın əqli yetkinliyini və inkişafını peyğəmbərliyin və peyğəmbərlər (ə) silsiləsinin kəsilməsinin əsas səbəbi hesab edirlər. Onlar iddia edirlər ki, xatəmiyyət dövründə bəşəriyyət ağıla və müasir elmə söykənməklə, elmi metoddan (induksiya və

təcrübə) kömək almaqla öz ayağı üstündə dayana və özünün bütün problemlərini, məsələlərini həll edə bilər.1

Amma çox çəkmədi ki, bəşər bu elmi qürurun möhkəm yuxusundan oyandı. Modern elmin çatışmamazlıqlarını bütün varlığı ilə hiss etdi və bu nəticəyə gəldi ki, hər bir insani problemin həlli rasionalizmin və modern elmin işi deyil. İnsan bir neçə cəhətə malik bir varlıqdır. Bəşərin ən mühüm ehtiyac və dərdləri onun vücudi dərdləri, ruhi, psixoloji, daxili ehtiyaclarıdır və müasir elm bunlara münasib cavab verə bilməz. Bəşər get-gedə bu nəticəyə gəldi ki, təcrübi elm onun bütün problemlərini həll edə bilməz. Bir çox əsas, fundamental insani ehtiyaclar təcrübi elmin sahəsindən kənardır. Digər tərəfdən də ağıl, əqli metodlar və əqli elmlər də böyük əhəmiyyət və rola malik olmasına baxmayaraq, insanın vücudi ehtiyaclarının məhz bir hissəsinə cavab verirlər. Ümumi olaraq demək olar ki, müasir insan bu nəticəyə gəldi ki, sırf fəlsəfi, elmi və əqli sistemlər insanın bütün ehtiyaclarını təmin etməkdə lazım olan bacarığa malik deyillər. Bəlkə də demək olar ki, pozitivistlər istəmədən belə bir nəticənin hasil olmasında ən mühüm rola malik idilər. Onlar "verifikasiya"nı özünün yüksək zirvəsinə çatdırdılar və isbat etdilər ki, verifikasiya (təcrübə olunmaq) "mənalılıq"ın meyarıdır və təcrübi olamayan (verifikativ) hər bir hökm (təsdiq) və məfhum (təsəvvür) mənasızdır. Həmin ifrat baxış bir çox alim və ümumi camaatın verifikasiyanın yanlışlığını və onun arxası ilə də bəşəri elm və ağılın bacarıqsızlığını aşkar şəkildə

---

[1] Bu baxış və ona iradlarla və həmçinin xatəmiyyətin düzgün izahı ilə tanışlıq üçün müəllifin "*Xatəmiyyət, İmamət və Məhdəviyyət*" kitabəna müraciət edə bilərsiniz.

müşahidə etməsinə səbəb oldu. Buna əlavə olaraq, insanlar Allahdan ayrı və müstəqil olan müasir elmin məhsulunu və bəşərin əqli tədbirlərini XX əsrin birinci yarısında iki dünya müharibəsində bütün varlığı ilə hiss etdi.

## Anti-Mənəviyyat Fəlsəfələrin Yanlışlığının İsbatı

İşarə etdiyimiz kimi, modernizm dövründə "anti-mənəviyyat" və "anti-din" nəzəriyyələşdirilmişdir. Qərb alimlərinin təbiri ilə desək, bir sıra pozitivistlər Qərb tarixində Vitgenşteynin fikirlərinin və düşüncələrinin təsiri altında "*Vyən*" toplantısı vasitəsilə və mütaliə mərkəzinin təşkil olunması ilə ən ifrat və ən anti-din fəlsəfə və düşüncə sistemini – "*Pozitivizm Fəlsəfəsini*" – yaratdılar. "Vyən" halqası adı ilə tanınan bu qrup qısa müddət ərzində Qərbdə və onun ardınca da dünyanın hər yerində elmi və fəlsəfi fəzanı öz ixtiyarları altına almağı bacardılar. XX əsrin 4, 5 və 6-cı onilliklərində bütün fikir və düşüncə mərkəzlərini özlərinə məğlub etdilər. Saentizm pozitivizmin təfəkkürünün əsas cəhəti idi.

Amma sonda bu fəlsəfə və buna oxşar digər fəlsəfələr də sönməyə üz tutdu. Pozitivizmin bəzi müdafiəçiləri və Vyən halqasının üzvləri bu təfəkkürə elmi tövbələrini ümumi şəkildə elan elədilər və bunun özü anti-din olanlarla mübarizə üçün dindarların əlində münasib silah idi. Buna əlavə olaraq, pozitivizmin fikri əsaslarının yanlışlığı aşkar oldu. Onların düşüncələrinin ən mühüm prinsipi olan "mənalılığının meyarı" bir çoxlarının elmi tənqidlərinə məruz qaldı. Onun ən sadə iradı özü ilə ziddiyyət təşkil etməsi idi. "*Yalnız verifikativ (təcrübə olunan) hökmlərin mənası var*" sözünün özü qeyri-

təcrübi (qeyri-verifikativ) bir hökmdür və bu prinsipə əsasən də onun özü mənasız olmalıdır. Mənasız söz ilə də bütün sözlərin və hökmlərin "mənalılıq meyarı"nı təyin etmək olmaz.

## Anti-Mənəviyyat Sistemlərin Məğlubiyyəti

Anti-mənəviyyat fəlsəfələrə əlavə olaraq, bu fəlsəfələrin təsiri altında yaranan bəzi anti-mənəviyyat sistemlər də XX əsrin sonlarında rəsmi şəkildə öz məğlubiyyətlərini elan etdilər. Bildiyimiz kimi, XX əsrdə dünyanın təqribən yarısı Komunizmi, Marksizmi sevirdi. Bu elə bir sistem idi ki, onun ən mühüm cəhətlərindən biri anti-mənəviyyat və anti-din olmaq idi, din və mənəviyyatı millətlərin tiryəki hesab edirdi və bu tiryəklə mübarizəni özünün mütləq vəzifəsi bilirdi. Avropada, Asiyada, Amerikada dünyanın yarısı da həmin sistemə aşiq idi və özlərinin bütün qədim amal və arzularının ödənməsini bu anti-din sistemdən gözləyirdi. Amma XX əsrin sonralında dünya xalqları son dərəcə təəccüb və inamsızlıq içində bu sistemin rəsmi şəkildə çökməsinin şahidi oldu. Nəhayət, Kommunizm sistemi XX əsrin 9-cu onilliyində rəsmi şəkildə bacarıqsızlığını və nəticədə də özünün məhv olmasını elan etdi. Hamı bu həqiqəti başa düşdü ki, bu sistem xəyali ilğımdan başqa bir şey deyil. Və bəşəriyyətin həqiqi ehtiyaclarına cavab verməyə acizdir.

Bu həqiqət camaatın dinə meyl və istəyinə, mənəviyyat tələbinə yeni bir həyəcan verdi. Bu kommunist sisteminin boyunduruğundan nisbi müstəqillik və ən azı dünüşcə müstəqilliyi qazanan bir çox millətlər yenidən mənəviyyata və

dinə meyl hiss etdilər. Onlar bütün varlıqları ilə bu anti-mənəviyyat sistemin çatışmazlığını, zəifliyini duydular. Buna əlavə olaraq, hələ də bu sistemlərin rəsmi hakimlik etdiyi Çin, Kuba kimi ölkələrdə, artıq din və mənəviyyatla qədim şiddətli müxalifətçilik və kobudluq görünmür. Əksinə, onlar çalışırlar ki, müəyyən həddə bir növ materializm ilə uyğun olan mənəviyyatı yaysınlar. Buna görə də Budda, Hind, Qırmızıdərililər və sekolarizm mənəviyyatları ilə nəinki müxalifətçilik etmirlər, hətta özləri belə bu cür mənəvi məktəblərə üz tuturlar. İxtiyarlarında olan bir çox informasiya və təbliğ vasitələri ilə çalışırlar ki, öz millətlərinin mənəvi yanğılarını söndürmək üçün sekulyar və qeyri-dini mənəviyyatları yaysınlar. Maraqlıdır ki, Kubanın kommunist sisteminin rəhbəri Fidel Kastro rəhbərlik müddətinin sonu haqqında deyir: "*Ölkənin idarəçiliyi Allah istəyənə qədər əlimdə olacaq, əvvəlcə Allahın istək və iradəsi və ondan sonra da camaatın istək və iradəsi hər şeydən üstündür*"1. Yaxud da Rusiyanın prezidenti Vladimir Putin deyir: "*Mən də öz növbəmdə Rusiyanın Ortodoks kilsəsi ilə mənəvi bağlılığıma görə fəxr edirəm, bu bağlılıq məni ehtiyacsız edir və millətim ilə, onun mədəniyyəti ilə şəxsi əlaqə yaradır*"2.

## Mənəviyyatçı Qruplarının Geniş Təbliğatı

Mənəviyyatçı qrupların geniş, cəzibəli təbliğatlarını müasir bəşərin mənəviyyata tərəf üz tutmasının amillərindən biri hesab etmək olar. Hər bir dinin tərəfdarı öz dinlərini

[1] "*İmam Xomeyni Əsri*".
[2] Həmin yerdə.

tanıtdırmaq və daha çox insan cəlb etmək üçün geniş təbliğat aparır. Bildiyimiz kimi, indi məsihiyyət və müxtəlif məsihi qrupları çox geniş maddi və təbliğat imkanları ilə dünyanın hər bir guşəsində hər zamankından daha çox təbliğ edirlər. Buna əlavə olaraq, həmçinin Hinduizm və Buddizm dinləri də bu zəmində heç bur səyi əsirgəmirlər. Hətta Afrika və Amerikada bəzi mənəviyyatçı qruplar da özlərinin əsas prinsiplərindən birini başqalarının öz ayinlərinə cəlb olunması hesab edirlər.

Təbliğatın bu açıq şəraitində hətta yəhudiyyət də özünü təbliğatdan kənarda qoymur. Bilirik ki, yəhudiyyət rəsmi və məşhur dinlər arasında bəlkə də tarix boyunca heç bir təbliği olmayan yeganə dindir.1 Ona görə ki, özlərini irqi təəssübkeş və bu dini də Bəni-İsrailə məxsus hesab edirlər. Amma indi müxtəlif qəribə təbliğatlardan istifadə etməklə "Kavala" adında yəhudi irfanının tanıtdırılmasına çalışırlar. Kavala və sionizm rəhbərləri öz səylərini rəmzi şəkildə məşhur simaların və kino, mədəniyyət, idman ulduzlarının, həmçinin sərvətli ailələrin cəlb olunmasına yönəltmişlər. Bir neçə vaxt öncə informasiya mərkəzlərində elah olundu ki, Hollivudun böyük mədəniyyət ulduzlarından və Papanın məşhur müğənnilərindən biri olan Madonna "Kavala" ayinini qəbul etdi. Yaxud da elan olundu ki, məşhur futbolçulardan biri olan Deyvid Bekam həyat yoldaşı ilə birlikdə və ya Sərvətli Hilton ailəsinin varisi

[1] Əlbəttə, "*Diruziyyə*" və "*Sabiinlər*" də təbliğatları olmayan ayin və məzhəblərdəndir. Diruzilər indi də Suriyanın, Liviyanın və Fələstinin işğal olunmuş bəzi hissələrində yaşayırlar. Onlar "*İsmailiyyə*"nin şöbələrindən hesab olunurlar. Onlar da tənasüxə inanır və məhrəmlərlə evliliyi qəbul edirlər. Onlar təqribən 300000 nəfərdirlər. "Sabiinlər" də özlərini həzrət Yəhyanın ardıcılları bilirlər. Onlar da indi İraqın cənubunda, İranın Xuzestan bölgəsində yaşayırlar. İranda Sabiinlərin sayı təqribən 20000 nəfərdir. Onlar "su"ya olan müqəddəs inanclarına əsasən və həmçinin özlərinin dini mərasimlərini keçirərkən axar suya ehtiyacları olduğundan bir yerdə çay ətrafında yaşayırlar. İranda Kərxe və Karun çaylarının, İraqda isə Dəclə və Fərat kənarında yaşayırlar. Deyirlər ki, onlar hazırda dünyada təqribən 200000 nəfərdir və çoxu İraqdadır.

və Hiltonun zəncirvari otellərinin maliki xanım Paris Hilton “Kavala”ya qoşuldu. Beləcə, onlar çalışırlar ki, bu şəxsiyyətlərin populyarlığından, başqalarının da onları ülgü seçməsindən, xüsusilə də cavanların belə şəxslərdən təsirlənməsindən istifadə etməklə müxtəlif şəxsləri özlərinə tərəf cəlb etsinlər.

## İnsanda Fitri Və Təbii Meyl

Bəşərin müxtəlif meylləri və “*instinkt*”ləri[1] var. Filosoflar fəlsəfi “*Elmün-Nəfs*” mövzularında və aristotelçi əxlaq alimləri tarix boyunca və müasir psixoloqlar öz bəhslərində çalışmışlar ki, bəşərin meylləri və “instinkt”ləri üçün məlum modellər versinlər və onları müəyyən meyarlarla hissələrə ayırsınlar. Amma həqiqət budur ki, onları dəqiq şəkildə sadalamaq və məlum qəliblərdə, dəstələrdə yerləşdirmək mümkün deyil. Bununla belə, bəşərin bütün meyl və “instinkt”lərini ümumi bir bölgüdə iki hissəyə ayırmaq olar: 1 – Qeyri-ixtiyari və iradi şəkildə həyəcanlanaraq fəallaşan meyl və instinktlər. Onların çiçəklənməsinin təlim-tərbiyəyə ehtiyacı yoxdur. Məsələn: dünyaya göz açan körpənin gündən-günə yeməyə olan meyl, xüsusi yetkinlik dövrünə çatandan sonra yaranan cinsi meyl. 2 – Çiçəklənməsində və aktivləşməsində bəzi şərtlərin gerçəkləşməsinə ehtiyacı olan meyl və instinktlər. Mənəviyyata, dinə, mütafizikaya və bir sözlə Allaha olan meyl o meyllərdəndir ki, çiçəklənməsi və aşkara çıxması üçün bir sıra şərtlərin həyata keçməsinə ehtiyac var. Onun fəaliyyətə düşməsi üçün zəmin yaranmalıdır. Bundan öncə qeyd olunan amillərə diqqət etməklə belə nəzərə gəlir ki, hazırkı əsrdə belə bir zəmin hazırlanmışdır.

Başqa sözlə, bütün vücudi sahələrdə daha çox qüdrət əldə etmək meyli, tamamlanma istəyi, mütləq kamala meyl insanın fitri və instinkt

---

[1] Fəlsəfi diqqət və lüğəti cəhətdən “*meyl*”, “*qərizə*”, “*fitrət*”, “*təbiət*” terminləri bir-biri ilə fərqlənsə də, ümumi olaraq deyilir ki, “təbiət” daha çox cansızlar haqqında işlənir, “qərizə” insandan başqa bütün heyvanlara, “fitrət” isə insana aiddir (daha çox məlumat üçün bax: “Məcmueyi Asar, M. Mütəhhəri, c. 3.). Amma bu terminlərin harada işlənməsi üçün, biz bu bəhsdə fəlsəfi və dilşünaslıq diqqətini bu terminlərin fərqləndirilməsində nəzərə almırıq.

meyllərindəndir. Əgər çiçəklənmiş bu fitri meyllərə düzgün cavab verməsək, sui-istifadəyə çevriləcək, süni şəkildə ödənəcək və nəticədə də səadət vasitəsi zəlalət və bədbəxtlik vasitəsinə çevriləcək. Əgər ona yalan cavab verilsə, bu zaman onların zərəri və xətəri cəmiyyətin dini, əxlaqi sağlamlığı və həqiqi səadəti üçün küfr, anti-mənəviyyat, anti-din zərərindən daha çoxdur. Buna görə də Xəvaric, Vəhhabilik, Bəhailik kimi din adı ilə və dini pis və yanlış izah edərək nəticə almaqla yaranan azğın və saxta firqələrin dinə xətər və zərəri kafirlərin, komunistlərin xətərindən daha çoxdur. Buna əsasən də bütün həqiqətaxtaranların, fikir-düşüncə sahiblərinin vəzifəsidir ki, hamıya xüsusilə də təhqiqatda, axtarışda olan cavanlara həqiqi irfan və mənəviyyatı tanıtdırsın. Nəbadə bu müstəsna və tarixi fürsət təhdidin ram olunmaz cilovuna cevrilsin.

**Ədəbiyyat**

1. Qurani-kərim
2. M. Mütəhhəri, "*Əsərlər Məcmuəsi*" kitabı, çap 2004
3. Misbah Yəzdi, "İslam İrfanı axtarışında", çap 2006
4. Məhəmməd ibn Munəvvər, "*Əsrarut-Tövhid fi Məqamatiş-Şeyx Əbi Səid*", çap 1984
5- Amidi, Təmimi, Əbdül-vahid, Dürərul-Hikəm, Tehran: 1984
6- Amuli, Hürr, Məhəmməd ibn Həsən, Vəsailüş-Şiə, Qum: 1974
7- Cəfəri, Yəqub, Nəhcül-Bəlağənin Tarixi Baxışı, Tehran: 1996
8- Cəfəri, Məhəmməd Təqi, Nəhcül-Bəlağənin tərcümə və təfsiri, Qum: 1999
9- Cordaq, Corc, Nəhcül-Bəlağənın gözəlliklərindən bir hissə, Beyrut: 2001
10- Cövhəri, İsmayıl ibn Həmmad, Sihahül-Lüğət, Qahirə: 1997
11- Ədibi, Hüseyn, İctimai təbəqələr sosiologiyası
12- Ənsari, Məhəmməd Əli, Ğurərul-Hikəm və Durərul-Kəilim
13- Payəndə, Əbul-Qasim, "Nəhcul-fəsahə", Tehran: Dünyayi daniş nəşriyyatı1382
14- Firuzabadi, Məhəmməd ibn Yqub, Qamusül-mühit
15- Xansari, Ağa Cəmaləddin, Ğurərül-Hikəm"in şərhi
16- Gilani, Əbdür-rəzzaq, Misbahuş-Şəriənin şərhi, Tehran: 2003
17- Həkim, Seyid Məhəmməd Təqi, Əli (ə) kəlamlarından ilham

18- İbn Babəveyh, Səduq, Xisal, Qum: 1992
19- İbn Meysəm, İxtiyaru-Misbahis-Salikin
20-İraqi, Əlirza, İmam Əli (ə) nəzərindən hakimiyyət və müdiriyyətə baxış
21- İbn Əbil-Hədid, Nəhcül-Bəlağənin Şərhi, Tehran: 1964

# İsrafla mübarizə Nəhcül-Bəlağə baxımından

Xədiqə Qaraisayeva[1]

"İsraf" əxlaqi bəhslərdə çox əhəmiyyətli mövzulardan hesab olunur. İsraf İslamda böyük günahlardan sayılaraq elə amansız bəlalardandır ki, hətta günahsız insanları da bir çox haqlarından məhrum edir. İmam Əli (ə) Nəcül-Bəlağədə bəzən bir hakimin geyiminin necə olmasında öz sərkərdəsini orta yolu tutmağa, məmləkətin işlərində israf etməməyə çağırır və bəzən də bir əxlaq müəllimi olaraq camaatı israfdan, maddi və dünyəvi işlərdə cah-cəlaldan çəkindirir.

**Açar kəlmələr**: Nəcül-Bəlağə, israf, bədxərclik, ehsan

1 - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

## İsrafın mahiyyəti

Rağib İsfahani yazır: "*Sərəfə" (سَرَف), insanın hər hansı bir işdə ifrat etməsi deməkdir. Buna baxmayaraq onun malın infaqı haqqında işlənməsi daha məşhurdur. Bəzən malı xərcləməkdə mötədil həddən çıxmağa və bəzən də necə xərclənməyə şamil olur. Buna görə də "Süfyan" demişdir: Allah yolunda xərclənməyən hər hansı bir hal israf sayılır, hətta miqdarı çox az olsa da.*[1]

Rağibin dediklərinə, Quran və hədisdəki şahidlərə əsasən israf ümumiyyətlə hər növ həddi aşmağa deyilir. Hər bir halda, israf qadağan olunmuş və Allah-taalanın bəyənmədiyi, qəzəbinə səbəb olan əməldir. Allah-taala Əraf surəsinin 31-ci ayəsində buyurur: "*Yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz!*"

## İsrafla "*təbzir*"in (bədxərclik) rabitəsi

"Təbzir" (تبذير) israfın əksinə olaraq, yalnızca iqtisadi bir sözdür. "Təbzir" sözü "Bəzr" kökündən alınmışdır və yaymaq mənasını verir. Onun əsl kökü "*səpmək*"dir. Məcazi mənada, öz malını yersiz tələf edən adamın əməli haqqında işlənir. Həmçinin

---

[1]- Rağib İsfahani, ***Əl-Mufrədat fi Ğəribil-Quran***, "sərəfə" (سَرَف) sözünün kökü.

"təbzir"in malın günah yolunda xərclənməsi olduğunu da demişlər.[1]

İsraf sözünün iqtisadi mənası ilə, "təbzir" arasında böyük fərq yoxdur. Bu iki söz arasındakı fərq haqqında yalnız bunu demək olar: lüğət alimlərinin nəzərinə əsasən bu sözdə məqsəd tələf etmək, zay etməkdir və insanın sədəqə verməsində, xeyriyyə işlərində ifrat etməsinə şamil olmur. Amma israf ondan daha ümumidir və hədərə vermək, şəxsi və ailə xərclərdə, müstəhəb işlərdə ifratçılıq kimi bütün nümunələrinə aid olur. Başqa sözlə: hər bir "təbzir" israfdır, amma hər israf təbzir deyil.[2]

İmam Sadiqdən (ə) qısa bir cümlə nəql olunmuşdur ki, bu nöqtəni həmin cümlədən çıxarmaq olar. O həzrət (ə) buyurub: "*Təbzir israfın bir şaxəsidir*".[3]

Lüğət alimlərinin dediyinə və "israf" sözünün izahına əsasən, israf 3 meyar ilə təyin olunur:

1. **Günahlar və şəri haramlar:** Günahların özü İlahi həddlərin aşılmasıdır və onlara mürtəkib olmaq mal sərf etmədən olarsa, israfdır. Amma mal xərcləməklə olarsa, təbzirdir. Bu zaman bunun özü başqa bir günah olur. Buna

1- Ətayi, ***İsraf və təbzir Quranda və Sünnətdə***
2- Ətayi, ***İsraf və təbzir Quranda və Sünnətdə***
3- Hürr Amoli, ***Vəsailüş-Şiə***, c. 6, s. 27

görə də bəzi lüğət alimləri və müfəssirlər onu haram mal yemək[1], halalı aşıb harama keçmək[2], günah yolunda xərcləmək kimi izah etmişlər.[3] Həmçinin mərhum Nəraqi, Əllamə Hillidən nəql edir ki, İslam alimləri günah yolunda mal xərcləməyin israf və haram olmasında vahid fikirdədirlər.[4]

2. **Ağılın hökmü və əqli meyarlar:** Bu, ağılın malın haramlar üçün sərf olunmasının pisliyinə hökm verməsidir. Məsələn: haqqı olmadığı halda kiməsə maddi kömək etmək, sərvətin yanlış və faydasız yerlərdə tələf olunması, xərclənməsi. Belə ki, bu, həmin işi görən şəxsin əqli çatışmamazlığının və düşüncəsinin zəifliyindən xəbər verir. Buna əsasən, bəzi lüğət alimləri israfı "qəflət", "cəhalət" və "xəta" kimi mənalandırmışlar.[5] Həmçinin, müfəssirlərin böyüklərindən sayılan mərhum Təbərsi "*Yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz*" (Əraf-31) ayəsinin təfsirində yazır: "Əqli cəhətdən düzgün hesab olunmayan və sahibinə zərər vuran hər bir xərcləmə israf və

---

1- Tərihi, ***Məcməül-Bəhreyn***, "***sərəfə***" sözünün kökü.

2-Təbərsi, ***Məcməül-Bəyan,*** c. 4, s. 413, Əraf surəsinin 31-ci ayəsinin təfsirində.

3- Müqəddəs Ərdəbili, ***Ayatul-Əhkam,*** s. 409

4- Nəraqi, ***Əvaidül-Əyyam,*** s. 218

5- Cövhəri, ***Sihahül-Lüğət***

haramdır".[1] Buna əsasən, malı düzgün xərcləmə yerlərinin düzgün olmayan yerlərdən ayırd edilməsində ağılın hökmü mötəbər və ehtirama malikdir. Bu zaman ifrat və həddi aşmaq israfın bir nümunəsi olacaq.

3. **Sosial baxış:** Bəzi yerlərdə də ictimai baxış israfın həddinin təyin olunmasının amilidir. Misal: malın şəxsi istifadəsinin, qadına, övlada, yaxud başqaları üçün istifadə olunmasının hər birinin həddi var və əmiyyət onu hər dövrün iqtisadi vəziyyətinə və hər bir şəxsin maddi, iqtisadi və ictimai şəraitinə əsasən təyin edir. Onda təfrit etmək xəsisliyin nümunəsi olduğu kimi, eləcə də vacib bir haqqın aradan getməsinə səbəb olduqda haram və günahdır. İfratçılıq da həmçinin mötədil həddən çıxmaq və israfkarların cərgəsinə daxil olmaq mənasınadır.[2] Bu zəmində Tərihi yazır:

Qeyd olunub ki, israf – halal şeylərin istifadəsində həddi aşmaqdır və Əsbəğ ibn Nəbatə, İmam Əlidən (ə) nəql etmişdir ki, israfkarın üç əlaməti var: "*Ona aid olamyan şeyi, yeyir, alır, geyinir*". Hədisin mənası budur: öz mənsəbindən uca olan, ona yaraşmayan bir şeyi yeyir, alır və geyinir.[3]

---

[1]- Təbərsi, ***Məcməül-Bəyan***
[2]- Kəşmiri, ***İsraf***
[3]- Tərihi, ***Məcməül-Bəhreyn***, "*sərəfə*" sözünün kökü.

Həmçinin mərhum Təbərsi yazır: israfı qadağan etməkdə məqsəd budur ki, malı xərcləməkdə orta və mötədil həddi aşmayın.[1] Necə ki, Zəməxşəri öz təfsirində deyir: israf – xərcləməkdə ifratçılıqdır.[2]

Quranda israf sözü onun başqa vəznləri ilə dəfələrlə işlənmişdir. Məsələn, aşağıdakı ayələrdə:

- "*Həddi aşanlara etdikləri əməllər beləcə yaxşı göstərildi (zinətləndirildi)*".[3]
- "*(Günah etməklə) həddi aşanların əmrinə tabe olmayın (onlara boyun əyməyin)*".[4]
- "*Şübhəsiz ki, Allah (Ona şərik qoşaqla, böhtan atmaqla) həddi aşanı, yalançını doğru yola müvəffəq etməz*".[5]
- "*Firon o yerdə hakim idi. O, (küfr və azğınlıq etməkdə) həddi aşmışdı*".[6]

Bu ayələrdə "israf"dan məqsəd iqtisadi sahələrə şamil olsa da, amma əxlaqi, əqidəvi cəhətlər və İlahi hədləri aşmaq nəzərdə tutulub. Amma elə ayələr də vardır ki, onlarda israf və "təbzir" yalnızca iqtisadi mənadadır. Məsələn:

[1]- Təbərsi, ***Məcməül-Bəyan***, c. 4, s . 413
[2]- Zəməxşəri, ***Təfsiri-Kəşşaf,*** c. 3, s. 292
[3]- Yunis, ayə 12
[4] -Şüəra, ayə 151
[5]-Ğafir, ayə 28
[6]-Yunis, ayə 83

- *"Qohum-əqrəbaya da, miskinə də, (pulu qurtarıb yolda qalan) müsafirə də haqqını ver, eyni zamanda (mal-dövlətini əbəs yerə) sağa-sola səpələmə! Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır, Şeytan isə Rəbbinə qarşı nankordur!".*[1]

Qeyd olunmalıdır ki, təbzir sözü Quranda İsra surəsinin həmin iki ayəsində işlənmiş iqtisadi sözdür. Bəlkə də Quranda bu cür kəskin və şiddətli ifadə ilə hansısa bir əməlin – *eyni ilə bu ayədə təbzir haqqında gəldiyi kimi* – qadağan olunmasına nümunə, az tapmaq olar.

- *"...(Onların hər biri) bar verdiyi zaman barından yeyin, yığım günü haqqını (zəkatını, sədəqəsini) ödəyin, lakin israf etməyin. (Allah) israf edənləri sevməz!".*[2]
- *"...(Namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!".*[3]

Qeyd olunan ayələrin məzmunundan belə nəticə çıxır ki, bu ayələrdə israfın qadağan olunmasının iqtisadi tərəfi var.

---

[1]-İsra, ayə 26,27
[2]-Ənam, ayə 141
[3]-Əraf, ayə 31

Həzrət İmam Sadiq (ə) onun yanına gələn bir nəfərə buyurdu: "*Allahdan qorx və israf etmə. Sərt olma, orta və mötədil yolu tut. Həqiqətən də "təbzir" israfdır və Allah-taala buyurmuşdur: təbzir etməyin*".[1]

İmam Sadiqdən (ə) nəql olunan digər bir hədisdə buyurur: "*4 qrupun duası qəbul olunmaz. Onlardan biri o şəxsdir ki, öz malını zay edər, sonra da Allahdan ruzi verməsini istəyər. Allah da onun cavabında deyər: Sənə xərcləməkdə orta və mötədil yolu tutmağını əmr etməmişdimmi?!*".[2]

İmam Əsgəri (ə) şiələrdən birinə yazdığı məktubda, onu varlanmağa, dövlətli olmağa çağıraraq belə tövsiyə edir: "*İmkanlı və mötədil ol, və israfdan uzaq dur. Çünki bu, Şeytan əməllərindəndir*".[3]

Həmçinin, İmam Sadiq (ə) bir rəvayətdə buyurub: "*Allah-taala orta yolu sevir və həddi aşmağa düşməndir; hətta bu ifratçılıq əgər xurma çiyidini kənata tullmaq belə olsa. Çünki ondan istifadə etmək olar. Həmçinin, içməli suyu atmaq da israfdır*".[4]

İmam Əli (ə) israf haqqında buyurur: "*İsrafkarın üç əlaməti var: Yediyi şey ona yaraşmır, geyindiyi şey*

---

[1]-Hürr Amoli, ***Vəsailüş-Şiə,*** c. 6, s. 27. 1-ci hədis
[2] -Hürr Amoli, ***Vəsailüş-Şiə*"**, c. 15, 27-ci bölmə, 4-cü hədis
[3] -Qumi, ***Səfinətul-Bihar***, c. 1, s. 616
[4] -Hürr Amoli, ***Vəsailüş-Şiə***, c. 15, 25-ci bölmə, 2-ci hədis

*ona layiq deyil və aldığı şey onun həddində, mənsəbində deyil*".[1]

O həzrət (ə) başqa bir hədisdə buyurur: "*Ehtiyacdan artıq xərcləmək, israfdır*".[2]

Həmçinin buyurmuşdur: "*İsrafkar öz işinin tədarükündən və xeyirindən nə qədər də uzaqdır?!*"[3]

Yenə də buyurur: "*Fəqirliyin səbəbi israfdır*".[4]

O həzrət (ə) başqa bir yerdə buyurur: "*İsraf etmə, çünki israfakrın səxavətliliyi və hədiyyəsi tərifə layiq deyil və o əgər israfakarlığına görə fəqir olarsa, onun fəqirliyinə rəhm olumaz*".[5]

İmam Səccad (ə) "Məkarimul-Əxlaq" duasının bölmələrindən birində buyurur: "*İlahi! Peyğəmbərə (s) və onun Əhli-Beytinə (ə) salavat göndər! Məni israf etməkdən uzaq saxla və ruzimi tələf olmaqdan qoru*".[6]

Deyirlər ki, bir nəfər İmam Sadiqin (ə) hüzuruna gəlib o həzrətə (ə) ərz elədi: Biz Məkkə yolunda ehram bağlamağı və Allah evini ziyarət etməyi qərarına gəlirik. Bədənimizə təmizlik üçün nurə vurandan sonra, özümüzə sürtmək üçün nüxalə (kəpək)

---

1- Səduq, ***Xisal***, c. 1, s. 47, 257-ci hədis; Hürr Amoli, ***Vəsailüş-Şiə***, c. 12, s. 401
2- Ənsari, ***Ğurər və Durər***, c. 6, s. 2712, 9465-ci hədis
3- Ənsari, ***Ğurər və Durər***, c. 6, s. 1888
4- Ənsari, ***Ğurər və Durər***, c. 6, s. 2712, 9465-ci hədis c. 4, s. 1652
5- Ənsari, ***Ğurər və Durər***, c. 6, s. 1568
6- ***Səhifeyi-Səccadiyyə***, 20-ci dua

yoxumuzdur. Buna görə də undan istifadə edirik. Mən, Allahın bu işdən xəbərdar olduğuna görə narahat oluram. O həzrət (ə) buyurdu: "*Sənin narahatçılığın bu işin israf olduğuna görədir?*". O dedi: "Bəli". İmam (ə) buyurdu: "*Bədənin təmizliyi və gigiyenası üçün heç bir şey israf deyil və mənim özüm bəzən xalis unu yağla qarışdırıb bədənimə sürtürəm. İsraf, yalnız o şeydədir ki, malı tələf edir və bədənə zərər vurur*".[1]

## İsraf "*Nəhcül-Bəlağə*"də

İmama (ə), "Müaviyə hədiyyələrlə, maddiyyatla camaatı özünə tərəf çəkir, buna görə də yaxşı olardı siz də dövlət əmlakından (beytül-maldan) camaata bağışlayın, hədiyyə verin ki, onların sizə tərəf meyli olsun" dedikdə İmam (ə) buyurdu: "Mənə deyirsiniz ki, işlərini öhdəmə götürdüyüm şəxslərə zülm etməklə qələbə istəyim! Allaha and olsun, nə qədər ki, aləm var, dünya ayaq üstədir, ulduz ulduzlar arasındadır, bu işi görmərəm. Əgər dövlət əmlakı mənə aid olsaydı, camaat arasında bərabər şəkildə bölərdim. Amma əmlak Allahın əmlakıdır. Əmin olun ki, malı haqqı olmayan şəxsə vermək "təbzir" və israfla eyni şeydir. Kim belə edərsə, onun dünyadakı qiyməti artar, amma qiyamətdə heç bir dəyəri olmaz. İsraf belə bir adamı

[1] -Hürr Amoli, ***Vəsailüş-Şiə,*** c. 1, yuyunmanın qaydaları, 38-ci bölmə, 7-ci hədis

camaatın gözündə yuxarı qaldırar, amma Allah yanında xar edər və kiçildər. Kim öz malını haqqı olmayan şəxslərə versə, Allah-taala onu həmin şəxslər tərəfindən təşəkkür olunmaqdan məhrum edər. Nəticədə, əgər o bir gün çətinliyə düşərsə, onların köməyinə ehtiyacı olarsa, həmin şəxslər ən pis köməkçi və ən məzəmmətçi dost olarlar.”[1]

İmam (ə) dövlət əmlakı qarşısında belə bir mövqe tutması ilə, onun hamı arasında bərabər şəkildə bölünməsinə razı olmayan şəxslərin sənəsinə etiraz yumruğu vurur.

İmam Əli (ə), Səd adında bir nəfəri dövlət əmlakının və maliyyatın yığılması üçün “Ziyad ibn Əbihi”nin (atasının oğlu Ziyadın) yanına Bəsrəyə göndərdi. Ziyad əmanətləri ödəmək yerinə İmamın (ə) göndərdiyi şəxslə mübahisə elədi. İmamın (ə) göndərdiyi şəxs Kufəyə qayıtdı və Ziyadın əleyhinə şikayət yazaraq o həzrətə (ə) verdi. İmam (ə) bir məktubda onu israf etməkdən və təbzirdən şiddətli şəkildə çəkindirdi və yazdı: “*Ey Ziyad! Orta yolu tut və israfdan uzaq ol. Bu gün sabahkı öz qiyamət gününü düşün və dövlət amlakından (beytül-maldan) zəruri həddə istifadə elə. Bu gün ehtiyacından artığını, ehtiyac günün üçün, yəni qabaqdakı qiyamət günün üşün göndər. Heç ümid edirsənmi ki, Allah-taala yanında təkəbbürlülərdən olduğun halda, O,*

---

[1] -***Nəhcül-Bəlağə***, 126-cı xütbə

*təvazökarların mükafatını sənə versin?! Sədəqə verənlərin savabını qazanmağa hərissən, amma nemət içində ola-ola zəiflərin və dul qadınların haqqını vermirsən. Şübhə yoxdur ki, insan sabahkı günə nə göndərirsə, onun müqabilində də əvəz alacaq və Allahın hüzurunda özü hazırladığı yerə daxil olacaq.*”[1]

Bu bəhsin sonunda İmam Əlinin (ə) israf haqqındakı bir neçə hikmətli sözünə baxaq:

- *Səxavətli ol, amma israf eləmə. Mülayim ol, çox tələbkar olma.*
- *Orta yolu tutaraq israf etməmək və vədə verib xilaf çıxmamaq mərdlikdir.*
- *Kim orta yolu tutmazsa, israf və ifrat onu həlak edər.*
- *Kim təkəbbürlük libasını geyər və israf edərsə, şərəf və fəzilət libasını soyunmuş olar.*
- *Yaxşılıq və Allaha itaət etməkdən başqa hər bir şeydə israf etmək, pis və məzəmmətlidir.*
- *Az yemək ismət, nəciblik və təmizlikdir, çox yemək isə israf və çılğınlıqdır.*[2]

## İsraf – iqtisadi və ictimai işlərdə qarışıqlığın amilidir

[1]- ***Nəhcül-Bəlağə***, 21-ci məktub
[2] -Nazimzadə, ***Cilvehayi-Hikmət***, s. 41,44

İsraf elə bir əməldir ki, cəmiyyəti iki formada korlaya bilər. Bunlardan biri sərvət vasitəsilə qudurmaq və tüğyankarlıqdan, ikincisi isə, malı şəxsi arzulara, istəklərə görə məhv etməkdən ibarətdir.

Quranda bu haqda gəlmişdir:

"*Biz xoş güzəranına naşükür olub qürrələnən neçə-neçə məmləkəti (məmləkət əhlini) həlak etdik*".[1]

Sərvət vasitəsilə tüğyan etməyin mənşəyi budur: sərvətli şəxs bilmir ki, insanların maddi həyatının əsası çalışıb yaratdıqları və bunun vasitəsilə də öz yaşayışlarını təmin etdikləri vəsaitdir. Ya da bilirlər, amma onun qüdrəttələbliyi başqalarının xeyirini düşünməyə qoymur. Nəticədə, mal və sərvəti elə bir yolda xərcləyirlər ki, ictimai ədaləti pozmaqdan başqa bir səmərəsi olmur.

## İsrafın kökləri ilə mübarizə

Əxlaq elmində pis bir xüsusiyyət ilə mübarizə etmək üçün əvvəlcə onun kökünü tanımaq, sonra isə mübarizə tövsiyə olunur.

Pis bir xüsusiyyətlə səthi mübarizə onu məhv etmək üçün yararlı olmayacaq. Bu eyni ilə bir ağacı qurutmaq üçün onun köklərini məhv etmək yerinə budaqlarını kəsmək kimidir. Belə olan halda, həmin

---

[1]- Qəsəs, ayə 58

ağac bir müddət budaqsız və yarpaqsız qala bilər, amma bundan sonra yenə də onun başqa hissələrindən budaqlar çıxacaq.

Fərz edin ki, bir şəxs öz həyatında həmişə arzularına çatmaqda nakam qalmışdır və fəqirliklə, məhrumiyyətlə üzləşmişdir. Zaman-zaman əmələ gələn bu məyusluq, tədricən psixoloji maneəyə çevrilərək, onun şəxsiyyətində qarışıqlıq yaradır. Belə olan halda, o öz şəxsiyyətini aşkara çıxarmaq üçün elə vasitələrə əl atır ki, bu, psixologiyada "*psixi mexanizmlər*" və "*müdafiə xarakterli reaksiyalar*" adı ilə tanınır.

Psixologiyası pozulmuş şəxs bu növ psixoloji reaksiyalar zamanı öz arzularını və qatılaşmış ruhi maneələrini gizlətmək üçün elə bir əmələ əl atmağa səy edir ki, bu əməl ona cəmiyyətdə yer versin, səxsiyyət qazandırsın.

İsrafı, bədxərcliyi və ağılsız xərclləri həmin şeylərdən hesab etmək olar. Çünki israfkar şəxs bu əməli ilə özünün məzəmmət olunmuş şəxsiyyətini yenidən tapmaq, dirçəltmək axtarışındadır və o elə düşünür ki, bu yolla cəmiyyətdə ürəyiaçıq, əliaçıq və sərvətə etinasız ünvanında tanınacaq.

Böyükləri, xərcləmək üçün düzgün nümunə olmayan, hər hansı bir dəlilə əsasən həddi aşan, hesab-kitabsız xərcləməyə adət edən bir ailədə tərbiyə almış

şəxsin bu cür tərbiyəsi həmçinin digər əxlaqi cəhətlər kimi onun ruhi formalaşmasında təsir qoyacaq və ailədə qazanılmış bu xüsusiyyəti cəmiyyətə və onun özünün təşkil edəcəyi ailəyə ötürəcək. Məgər ki, həmin şəxs əxlaq və tərbiyənin dəyişdirilməsi vasitəsilə, bu cür formalaşmaqdan özünə nicat versin.

Bəzi camaatın israf etmələrinin səbəbi gərək onların əxlaqi və ruhi şəxsiyyətlərində axtarılsın. Çünki ifratçılığa, qanunu pozmağa, günaha, itaətsizliyə adət eləmiş şəxs adətən iqtisadi sahədə mötədil şəxs ola bilməz və hətta öz malını pis və şəhvani arzularının, istəklərinin, adətlərinin təmin olunmasında hədərə verər.

Dövlət işçilərinin mühitinin və yaşayışının necəliyinin ümumi camaat tərəfindən yaşam növünün seçilməsində təyinedici və təsirli rolu var. Buna görə onların islahat aparmaması cəmiyyətdə xərclərin mötidilləşdirilməsi və onun metodlarının düzəldilməsi sahəsində hər bir səy nakam, yaxud çox az faldalı olacaq.

Hakim təbəqənin məişət vəziyyəti camaatın diqqət mərkəzindədir və cəmiyyətin müxtəlif təbəqələri özünün yaşam səviyyəsini, maddi imkanlardan istifadə etmək həddini məsul şəxslərin xərclərinin həddi, növü ilə müqayisə edir və şiddətli dərəcədə onların təsiri altındadırlar.

Bu cəhətdən həzrət Əli (ə) buyurur: "*Allah-taala cəmiyyətin saleh və adil rəhbərlərinə vacib etmişdir ki, öz vəziyyətlərini – geyim, yemək, məskən və başqa ehtiyaclar – camaatın zəif təbəqəsinə uyğun etsinlər. Ona görə ki, fəqirlik və yaşam tərzinin çətinliyi onlara asan olsun, fəqirlik onlarda təhqir və xəcalət hissi oyatmasın.*"[1]

Maddi gəliri yalnızca zərurətlər və ehtiyaclar həddində olan bir ailə, bu zərurətlərə cavab vermək üçün xərcin kontroluna diqqət yetirməyə məcburdur. Amma əgər onun sərvəti həqiqi ehtiyaclarından çox olarsa, ailənin üzvləri və müdiri düzgün xərcləmə əxlaqına, mədəniyyətinə sahib olmazlarsa, həddi aşmağın onların iqtisadi imkanına, gücünə zərər yetirməyəcək xəyalı ilə israfa əl atacaqlar. Amma diqqət etmək lazımdır ki, əvvəla, həyatın axarı həmişə eyni səviyyədə olmur və onun önündə eniş-yoxuş və böhran nöqtələri var. Nə qədər ailə bir zamanlar izzət və rifahın zirvə nöqtəsində yaşamış və sonra fəqirliyə düçar olmuşlar. Buna görə də mötədil və gələcəyi düşünən insan, maddi vəziyyəti yaxşı olan günlərdə həmçinin fəqirlik, kasıblıq fikrində də olar və israfdan, "təbzir"dən uzaq durmaqla öz gələcəyini də nəzərə alar.

İkincisi də, nə iradı vardır ki, insan zərurət və təbii ehtiyaclarını ödəmək həddində öz sərvətindən

---

[1] -***Nəhcül-Bəlağə***, Sübhi Salehin tədqiqi, c. 209, s. 325

istifadə etsin və artıq qalanını da öz növündən olan digər ehtiyaclı insanların problemlərini aradan qaldırmaq yolunda xərcləsin.

## Nəticə

"İsraf" öz geniş mənasında insanın hər növ həddi aşması və ifratçılığıdır.

İsraf sözünün iqtisadi mənada "təbzir" sözü ilə böyük fərqi var. Təbzir malı tələf etmək deməkdir və şəxsi infaqlara, xeyir işlərə şamil olmur. Hansı ki, israf ondan daha ümumi olub hədərə vermək, şəxsi və ailə xərclərində ifrat kimi hər bir nümunələri əhatə edir. Başqa sözlə, hər təbzir israfdır, amma hər israf təbzir deyil.

Həzərət Əli (ə) buyurub: "*İsrafkarın üç əlaməti var: Yediyi şey ona yaraşmır, geyindiyi şey ona layiq deyil və aldığı şey onun həddində, mənsəbində deyil.*"

Bir cəmiyyətdə israfkarlıq yayılarsa, şəxsi mənfəətini düşünənlər müxtəlif bəhanələrlə öz mallarına qarşı yalançı ehtiyaclar yaradaraq süni tələblər, istəklər əmələ gətirməklə camaatı qeyri-zəruri şeylərdən istifadə etməyə tərəf çəkərlər.

İsrafkar israf və malı ağılsızcasına səpmək ilə öz sınmış şəxsiyyətini yenidən tapmaq, dirçəltmək

axtarışındadır. O düşünür ki, bu yolla cəmiyyətdə əli-üRəyi açıq və mala-mülkə, sərvətə etinasız adam kimi tanınacaq.

## 5- Ədəbiyyat

1- ***Qurani-Kərim***
2- ***Nəhcül-Bəlağə***
3- ***Səhifeyi-Səccadiyyə***
4- Amidi, Təmimi, Əbdül-vahid, ***Dürərul-Hikəm, Tehran: 1984***
5- Amidi, Əbdülvahid Təmimi, ***Feheresti-Ğurarul-Hikəm, Beyrut: 1996***
6- Amuli, Hürr, Məhəmməd ibn Həsən, ***Vəsailüş-Şiə***, Qum: 1974
7- Cəfəri, Yəqub, ***Nəhcül-Bəlağənin Tarixi Baxışı, Tehran: 1996***
8- Cəfəri, Məhəmməd Təqi, ***Nəhcül-Bəlağənin tərcümə və təfsiri***, Qum: 1999
9- Cordaq, Corc, ***Nəhcül-Bəlağənın gözəlliklərindən bir hissə, Beyrut: 2001***
10- Cövhəri, İsmayıl ibn Həmmad, ***Sihahül-Lüğət, Qahirə: 1997***
11- Ədibi, Hüseyn, ***İctimai təbəqələr sosiologiyası***
12- Ənsari, Məhəmməd Əli, ***Ğurərul-Hikəm və Durərul-Kəilim***
13- Payəndə, Əbul-Qasim, "Nəhcul-fəsahə", Tehran: Dünyayi daniş nəşriyyatı1382
14- Firuzabadi, Məhəmməd ibn Yqub, ***Qamusül-mühit***
15- Xansari, Ağa Cəmaləddin, ***Ğurərül-Hikəm"in şərhi***
16- Gilani, Əbdür-rəzzaq, ***Misbahuş-Şəriənin şərhi, Tehran: 2003***
17- Həkim, Seyid Məhəmməd Təqi, ***Əli (ə) kəlamlarından ilham***
18- İbn Babəveyh, Səduq, ***Xisal, Qum: 1992***
19- İbn Meysəm, ***İxtiyaru-Misbahis-Salikin***

20-İraqi, Əlirza, ***İmam Əli (ə) nəzərindən hakimiyyət və müdiriyyətə baxış***

21- İbn Əbil-Hədid, ***Nəhcül-Bəlağənin Şərhi, Tehran: 1964***

22- Qumi, Abbas, ***Səfinətul-Bihar***

23- Səduq, Məhəmməd ibni Əli, "Üyunu əxbarir-Riza (əleyhis-salam)" Beyrut: 1956

24- Siyahət, Abidin, Nəhcülbəlağədə əxlaq, Naşir: Cameətül-Mustafa, 2022

# Zeydiyyə və İsmailiyyə məzhəblərinin inancları

Şamil Məhərrəmov[1]

## Abstrakt

Əslində, Zeyd ibni Əli öz ata və qardaşının tə'limindən savayı, başqa sözlə desək, Əhli-beytin e'tiqadından fərqli olan heç bir əqidəyə əsaslanmamışdır. Lakin sonralar sair firqələrlə təmasda olan Zeydiyyə alimləri öz məzhəblərinin mövqeyini qoruyub saxlamaq üçün imamiyyə məzhəbinin əqidəsi ilə fərqli olan bə'zi e'tiqadi məsələlər meydana gətirdilər. Nəticədə bu cərəyan müstəqil fiqhi və kəlami məzhəbə çevrildi. Bu məqalədə onların e'tiqadının əsasını təşkil edən üsullar haqda söhbət açacaq və onların hər biri barədə ətraflı izahlar verəcəyik. Zeydiyyə məzhəbinin əqidə əsaslarını beş şey təşkil edir: Tövhid, Allahın ədaləti, vəd və vəid (cənnətə müjdə, cəhənnəm əzabından qorxutmaq), nübuvvət, yaxşı işlərə də'vət etmək, pis işlərdən çəkindirmək.

**Açar kəlmələr:** Zeydiyyə, İsmailiyyə, tövhid, ədalət, nübuvvət, imamət

## 1. Tövhid

Zeydiyyə məzhəbinin nəzəri tövhidə olan e'tiqadı Allahın zat, sifət və ibadətdə təkliyinə iman bəsləməkdən ibarətdir.

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran

Əməli tövhiddə isə onlar insanın tam azadlığını və həmin azadlığın tələbatlarından irəli gələn insanın Allahdan başqa digər varlıqlara ibadət etməkdə azad olmasını görürlər.

Allahın sifətlərinə gəldikdə isə, Zeydiyyə məzhəbi belə bir əqidədədir ki, Allah-taala zati və fe'li sifətlərə malikdir. Onlar Allahın sifətlərini Onun zatı hesab edir, xəbəri sifətlərin yozum və təfsirinə əsaslanır və Onun sifətlərinin bəşəri sifətlərə bənzədilməsini qətiyyətlə rədd edirlər. Bu səbəbdən də onlar «yədullah» – Allahın əli ifadəsini - İlahi ne'mət və qüdrət, «cənbəllah» - Allahla qonşuluq və yaxınlıq – kəlməsini Allaha itaət və «Əynullah» - Allahın gözü – ifadəsini isə İlahi elm kimi təfsir etmişlər.

## 2. Ədalət

Zeydiyyə e'tiqadında İlahi ədalət xüsusi yer tutur. Ehtiyac və cəhalətin mənşəyi olduğu üçün onlar bütün mənfi xüsusiyyətləri Allahın müqəddəs zatından uzaq hesab edirlər. Bu səbəbdən də Zeydiyyə əqidəsi əşyaların zatən yaxşı və pis xüsusiyyətlərə malik olması qaydasına (hüsn və qubhi zati) əsaslanır və Allahın gördüyü işlərin «hüsn» (müsbət) tələbatından irəli gəldiyi hesab edilir.

Digər tərəfdən də onlar belə bir əqidədədirlər ki, ilahi qəza-qədər Allahın ədalətindən doğur və Allah-taala yalnız haqq-ədalət üzərində qəzavət edəcəkdir. Bunun üçün də bu məzhəb insanların ilahi qəza-qədər üzündən günaha düçar olmasına dair irəli sürülən nəzəriyyəni qətiyyətlə rədd edir. Bu məktəbə əsasən, insanın gördüyü bütün işlər onun özünə aiddir və görülən heç bir yaxşı və ya pis işi Allah-taalaya nisbət verməx olmaz. Zeydiyyə alimləri Qur'anda insanın gördüyü işlərə dair istifadə olunan ifadələri öz e'tiqadlarının sübuta yetirilməsində

əsaslı dəlil hesab edirlər. Belə ki, Qur'ani-kərimin bir çox ayələrində «yəksibun» - ələ gətirirlər, «yəmkurun» – məkr və hiylə edirlər, «yəf'əlun» – yerinə yetirirlər, «yəsnəun» – qururlar, meydana gətirirlər, «yəxliqunə ifkən» – günah edirlər, «yəkfurun» – küfr edirlər kimi ifadələrdən istifadə olunduğunu müşahidə edirik. Deməli, insanın istər yaxşı, istərsə də pis və xoşagəlməz əməlləri onun özünə aid olunur.

İnsanın gördüyü bütün işlərdə yalnız onun özünün məs'uliyyət daşımasında və Allahın qəza-qədər və iradəsinin gördüyü işlərdə heç bir tə'siri olmamasına dair irəli sürdükləri nəzəriyyədə Zeydiyyə məzhəbi ilə Mö'təzilə məktəbi tamamilə həmfikir və həmrə'ydir. Lakin «Əmrun beynə əmreyn*»ə e'tiqadlı olan imamiyyə ilə zeydiyyə və mö'təzilə arasında müəyyən fikir ayrılığı vardır.

Bu məktəb digər tərəfdən də Allah-taalanın insanlara onların güc və bacarığından xaric vəzifələr tə'yin etməsini qəbahət hesab edir və bunun ilahi ədalətə uyğun gəlmədiyinə əqidə bəsləyirlər.

## 3. Vəd və Vəid

Bu məsələdə Zeydiyyə ilə Mö'təzilə həmfikirdir. Onlar belə bir əqidədədirlər ki, və'd və vəid Allah üçün vacib və zəruridir. Çünki O, mö'minlərin cənnətə, kafirlərin isə cəhənnəmə daxil olacağına və'də vermişdir. Bu səbəbdən də O, «və'd» və «vəid» qaydasına əməl etməlidir.

Böyük günahlara gəldikdə də, onlar Mö'təzilə kimi «Mənzilətun beynə mənziləteyn*» nəzəriyyəsinə əsaslanırlar. Çünki, Zeydiyyə məzhəbi böyük günaha düçar olanları fasiq hesab edərək deyir: «Böyük günaha düçar olanlar nə kafir, nə

də mö'mindirlər.» Onlar belə bir əqidədədirlər ki, kafir və mö'min ifadəsi bu şəxslərə dəlalət etmir. Həmçinin qeyd edirlər ki, böyük günaha düçar olmuş hər bir şəxs tövbə etmədən dünyasını dəyişərsə, əbədi olaraq cəhənnəmdə qalacaqdır.

Zeydiyyə ilə imamiyyə arasında mövcud olan fikir ayrılıqlarından biri də məhz bu məsələ ətrafındadır. Çünki, imamiyyə ardıcılları böyük günaha düçar olan şəxslərin cəhənnəmə daxil olacaqlarını qəbul etsələr də, onların əbədi olaraq orada qalacaqlarına e'tiqadlı deyildirlər.

## 4. Nübuvvət

Peyğəmbərlik məsələsində Zeydiyyə ilə digər islam firqələri arasında nəzərə çarpacaq ixtilaflar mövcuddur. Onlar peyğəmbərlərin mə'sum olmasını və onlara olan ehtiyacların əqlən zəruriliyini qəbul edərək deyirlər: Şəriət sahibi və ya əvvəlki peyğəmbərlərin gətirdikləri şəriəti təzələyən hər bir peyğəmbər, hər şeydən əvvəl, Allahın lütfü ilə peyğəmbərliyə tə'yin olunmazdan əvvəl böyük günahlardan uzaq (mə'sum) olmalıdır. Bundan əlavə, peyğəmbərlik məqamına xələl gətirən və eləcə də onlara qarşı şübhə yaradacaq kiçik günahlara da yaxın düşməməlidirlər.

Lakin İmamiyyə məzhəbi kiçik və böyüklüyündən, həmçinin şübhə yaradıb-yaratmamasından asılı olmayaraq, Peyğəmbərləri bütün günahlardan uzaq və mə'sum hesab edir.

## 5. Əmr be-mə'ruf və nəhy əz-münkər

Əmr be mə'ruf və nəhy əz münkər Zeydiyyə məzhəbinin dini e'tiqadlarının beşinci əsas hissəsini təşkil edir. Onlar bu

prinsipi belə izah edirlər: «Əmr be mə'ruf və nəhy əz münkər, nəzəri baxımdan qəlbən təsdiq, dillə iqrar etmək və əməli olaraq həyata keçirməkdən yə'ni, Allahın əmr etdiyi şeylərə də'vət və yasaq etdiklərindən çəkindirməkdən ibarətdir. Əməli baxımdan isə haqq-ədalətə kömək, batilə qarşı mübarizə, Allahın, peyğəmbərlərin və mö'minlərin izzətinin isbatı üçün əməl, dil və imanın ən aşağı mərhələsi olan qəlbi ehtiramın vacibliyinə iman gətirməkdir.

## 6. İmamət

Zeydiyyə nöqteyi-nəzərindən Peyğəmbərdən (s) sonra birinci imam və xəlifə Əmirəl-mö'minin Əli ibni Əbu Talib (ə) olmalıdır. Onlar Əlini (ə) xilafət üçün ən layiqli və bacarıqlı bir şəxsiyyət hesab edirlər. Əqidələrinin sübuta yetirilməsində Əli (ə) barəsində nazil olmuş «Maidə» surəsinin 155-ci ayəsinə, «Qədir-Xum» və «Mənzilət» hədislərinə istinad edirlər.

Zeydiyyə məzhəbi Əmirəl-mö'minin Əli ibni Əbu Talibdən sonra Həsən ibni Əli (ə) və Hüseyn ibni Əlini (ə) özlərinə imam hesab edir və bu barədə Peyğəmbərdən (s) nəql olunan bu hədisə əsaslanırlar: «Həsən və Hüseyn qiyam etsələr də, etməsələr də imamdırlar. Ataları isə onların hər ikisindən üstündür.»

Zeydiyyə məzhəbi bu hədisi imam Həsən və imam Hüseynin (ə) imamətini sübuta yetirmək üçün açıq-aşkar sənəd hesab edir. Onlar İmam Həsən və imam Hüseyn (ə)-ın hər ikisinin övladlarını imamət üçün layiqli hesab edib deyirlər: Ata tərəfindən həzrət Fatimə (s) övladlarından olan hər bir şəxs imama xas olan xüsusiyyətə malik olarsa, müsəlmanların rəhbəri olacaqdır.

Bu məzhəbə görə, imamət üçün lazım olan xüsusiyyətlər şər'i məsələlərdə başqalarından daha elmli olmaq, pəhrizkarlıqda şan-şöhrət tapmaq, şücaət, səxavət, düşüncə və təfəkkür, din yolunda qiyam və cihad etməkdən ibarətdir.

Zeydiyyə, Peyğəmbər (s) tərəfindən imam Zeynəlabidin (ə)-ın imamətinə dəlalət edəcək bir sənədin olmadığını və din yolunda qiyam etmədiyini əldə əsas tutub onu dördüncü imam hesab etmirlər. Əgər bu iki şərtdən biri Zeydiyyə tərəfdarları üçün sabit olsaydı, onu imam kimi qəbul edərdilər.

Peyğəmbər (s) tərəfindən imamın haqq olmasına dəlalət edəcək açıq-aşkar dəlil olduğu təqdirdə, onun qiyam etməsi heç də zəruri deyildir. Bu səbəbdən də onlar Əli ibni ƏbuTalibdən sonra imam Həsən, imam Hüseyn və Zeyd ibni Əlinin imamətini qəbul edirlər.

## 6- ZEYDİYYƏ FİRQƏLƏRİ

Digər əqidəvi məzhəb və cərəyanlar kimi «Zeydiyyə» firqəsi də tarix boyu müxtəlif dəstələrə bölünmüşdür.

Bu dərsimizdə «Zeydiyyə» firqəsinin tarix boyu keçdiyi mərhələlər və ondan ayrılmış digər firqələr haqda söhbət açacaq, onların görkəmli şəxsiyyətlərinin tarixçəsinə qısa şəkildə nəzər salacağıq.

### 1. Carudiyyə;

Carudiyyə firqəsi ibni Carud və Ziyad ibni Munzər Həmdanin (h.q.150. və ya h.q.160.) ardıcıllarının təşkil etdiyi cərəyandır. İbni Carud əvvəllər 5-ci və 6-cı imamın, yə'ni Əli ibni Məhəmməd Baqir (ə) və Cə'fər ibni Məhəmməd Sadiq

(ə)-ın səhabələrindən olmuş və onlardan hədis nəql etmişdir. Lakin sonralar onlardan ayrılıb «Zeydiyyə» firqəsinə qoşulmuşdur. Əbu Xalid Vasiti, Fəzl ibni Yəzid və Mənsur ibni Əbil Əsvəd Əbu Carudun tərəfdaralarından hesab olunurlar.

Əbu Carud belə bir əqidəyə əsaslanmışdır ki, Peyğəmbər (s) həzrət Əlini qeyri-aşkar olaraq (yə'ni, adını çəkmədən), imamətə tə'yin etmişdir, lakin o həzrətin vəfatından sonra camaat başqa birisinə bey'ət edərək yollarını azmış və nəticədə kafir olmuşlar.

Onların fikrincə, həzrət Məhəmməd (s) sülaləsinin rəva bildiyi hər bir şey müsəlmanlara halal və rəva bilmədikləri isə haramdır. Peyğəmbərin (s) gətirdiyi hər bir şey bu sülalə tərəfindən qorunub saxlanılır və onlar elm baxımından tamamilə eyni səviyyədədirlər.

Carudiyyə Zeyd ibni Əlidən sonra Nəfsi Zəkiyyə ləqəbi ilə məşhur olan Məhəmməd ibni Əbdullah ibni Həsən ibni Əli ibni Əbu Talibin imamətini qəbul edib üç firqəyə bölündülər:

1. Bə'ziləri belə bir əqidədə olmuşlar ki, Məhəmməd ibni Əbdullah ölməmiş, qeybə çəkilmiş və nə vaxtsa yenidən qayıdacaqdır.

2. Bə'ziləri (Taleqan vilayətinə hakim olan) Məhəmməd ibni Qasim Ələvinin qeybə çəkilib yenidən zühur edəcəyinə e'tiqad etməyə başlamışlar.

3. Bə'ziləri isə (Kufə vilayətinə hakim olan) Yəhya ibni Ömər haqda da həmin əqidədə olmuşlar.

Əlbəttə, belə bir bölüm Carudiyyə imamlarına aiddir. Yə'ni, onlar Məhəmməd ibni Əbdullahdan sonra Məhəmməd ibni Qasim və daha sonra Yəhya ibni Ömərin imamətinə e'tiqad bəsləmişlər.

**2. Süleymaniyyə;**

Bu ad Süleyman ibni Cərir Zeydinin tərəfdalarına verilən addır.

Süleymaniyyə firqəsinin davamçıları belə bir əqdidə olmuşlar ki, imamət şura tərəfindən tə'yin olunmalı və imam şuranın rə'yi əsasında seçilməlidir. (Yə'ni, kiminsə tərəfindən deyil, müsəlman şurası tərəfindən müəyyənləşdirilməlidir). Əlbəttə, bu iş iki müsəlman şəxsin rə'yi əsasında da həyata keçirilə bilər. Xalqın nəzərində fəzilət sahibi olan şəxsin də seçilməsi tamamilə mümkün olan bir işdir. Onlar Əbu Bəkr və Ömərin imamətinə dair belə bir fikirdə olmuşlar ki, ümmət bu şəxsləri öz ictihadları ilə seçdikləri üçün bu növ hakimiyyəti də qanuni hesab etmək olar. Bununla yanaşı, onların fikrincə Əli ibni Əbu Talib olduğu bir halda onlara bey'ət etmək düzgün deyildi. Lakin onların bu səhvi ictihadi səhv olduğu üçün böyük günah hesab olunmur. Qeyd etmək lazımdır ki, Süleymaniyyə firqəsi Aişə, Təlhə və Zubeyri Əli (ə)-a qarşı çıxdıqları üçün kafirlikdə günahlandırdıqları kimi, Osmanı da öz qətlinə səbəb olan şəraiti yaratdığı üçün küfrdə ittiham etmişlər. Onlar imamiyyə məzhəbinin bəda* və təqiyyəyə olan e'tiqadını tamamilə inkar etmişlər.

Süleymaniyyə firqəsi aradan getsə də, onların imamət mövzusuna dair bə'zi nəzəriyyələri bir sıra təriqətlərdə davam etdirilmişdir. Mö'təzilə alimlərindən bə'ziləri, o cümlədən Cə'fər ibni Mubəşşir və Cə'fər ibni Hərb, Süleyman ibni

Cərirənin fikirləri ilə müvafiq olaraq imaməti dinin məsləhətli işlərindən biri hesab etmişlər. Onların fikrincə tövhid və Allahtanıma mövzusunda imamətə ehtiyac olmasa da, qəzavət və qanunvericilikdə, yetimlərin və kimsəsiz qadınların himayəsində, islam cəmiyyətinin qorunmasında və düşmənə müharibə e'lan olunmasında imama ehtiyac duyulur. Bu səbəbdən də imamın elm baxımından hamıdan üstün olması, hamıdan daha tədbirli və düşüncəli olub xalqın ümumi rəğbətini qazanması lazım deyildir. Çünki, qeyd olunan ehtiyaclar bu xüsusiyyətlərə malik olan şəxsin seçilməsi ilə də aradan qaldırılmış olur. Əhli-sünnə alimlərinin bə'ziləri də belə bir əqidəyə əsaslanaraq müctəhid olmayan bir şəxsin də imamətini qanuni hesab etmişlər, bu şərtlə ki, (şər'i) hökmlərdə müctəhidə müraciət etmiş olsunlar.

3-4. Salehiyyə və Təbəriyyə;

Salehiyyə Həsən ibni Saleh ibni Həyyin və Təbəriyyə Kəsirun-nə'vanın tərəfdarlarına verilən addır.

Bu iki firqə əqidə və e'tiqad baxımından bir-birinə olduqca oxşar olmuşlar. Onlar imamət mövzusunda Süleymaniyyə ilə həmfikir olmuş, lakin Osmanın mö'min və ya kafir olmasında müəyyən fikir ayrılığına gəlib çıxmışlar. Onlar deyirlər: Onun barəsində nəql olunan tarixi sənədlərə müraciət etdikdə, onun «əşəreye mubəşşirə*»nin biri olmasına, müsəlman və ya mö'minliyinə, cənnət əhlindən olacağına hökm edirik, lakin gördüyü işlərə yə'ni, Bəni-üməyyəni dirçəltməsinə, səhabələrin rə'yi ilə müxalif olduğuna və zorakılığa dair rə'y verməsinə nəzər saldıqda, küfr etməsinə dair hökm veririk. Bu səbəbdən də onun haqda qəti qərar çıxarmağa çətinlik çəkir və onun işini Allah-taalanın öhdəsinə qoyuruq. Əli ibni Əbu

Talibə gəldikdə isə, onlar Peyğəmbərdən (s) sonra onu müsəlman ümmətinin ən fəzilətli və imamətə hamıdan layiqli şəxs olduğunu hesab etmişlər. Əgər o, öz razılığı ilə imaməti başqalarının öhdəsinə buraxıb öz haqqından keçməyə razı olubsa, biz də onun razı olduğu şeyə razıyıq. Yox, əgər Əli (ə) bu məsələyə razı olmamışsa, onda Əbu Bəkr özünü həlak etmişdir.

5. Nəimiyyə;

Bu firqə Nəim ibni Yəmanın davamçılarına verilən addır. Onlar Peyğəmbərdən (s) sonra Əli ibni Əbu Talibi imamətə daha layiqli və insanların ən fəzilətlisi hesab etmişlər. Onların fikrincə, islam ümməti Əliyə (ə) bey’ət etməməklə böyük səhvə yol vermişlər. Nəimiyyə firqəsi Osmana və Əliyə (ə) qarşı çıxan şəxsləri məhkum edərək onları küfrdə ittiham etmişdir.

6. Yə’qubiyyə;

Onlar Yə’qub ibni Əli Kufinin tərəfdarları olmuşlar. Qiyamət günündən əvvəl insanların dünyaya qayıtmalarını, qəbr əzabını, Nəkir və Munkirin sorğu-sualını və şəfaəti inkar edərək Əbu Bəkr, Ömər və Osmanın xilafətini qətiyyətlə rədd etmişlər. Lakin onların imamətini zəlalət saymamışlar.

Əbrəqiyyə, Əcəliyyə, Mərsiyyə, Səbahiyyə, Qasimiyyə, Hüseyniyyə, Həsəniyyə, Xəl’iyyə və Xəşəbiyyə, Zeydiyyə firqəsinin digər şaxələrini təşkil etmişlər.

## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ

Zeyd ibni Əli, Yəhya ibni Zeyd, (Nəfsi Zəkiyyə ləqəbi ilə məşhur olan) Məhəmməd ibni Əbdullah, İbrahim ibni Əbdullah, İsa ibni Zeyd, Yəhya ibni Əbdullah, İbni Təbatəba və Hüseyn ibni Əli Sahibul-Fəxlə yanaşı, Zeydiyyə məzhəbinin bir çox görkəmli şəxsiyyətləri də olmuşdur. Tarix boyu onlar tərəfindən yüzlərlə kitab və elmi əsərlər yazılmışdır. Burada misal olaraq onlardan bir neçəsini gətiririk:

1. Əhməd ibni İsa ibni Zeyd; (157-247 h.q.) Zəhəbi öz kitabında onun «Siyam» (Oruc) adlı yazdığı kitabın adını çəkmişdir. Lakin onun «Əmali» adlanan başqa bir əsəri daha çox şöhrət qazanmışdır. Bu kitab Əllamə Əli ibni İsmail tərəfindən «Rə’bus-səd» ünvanı altında üç cilddə nəşr olunmuşdur. Əhməd ibni İsa bu kitabda Peyğəmbər (s) və onun Əhli-beytindən 2790 hədis nəql etmişdir ki, onların əksəriyyəti Əli ibni Əbu Talib (ə)-dan qeyriləri tərəfindən nəql olunmuşdur.

2. Qasimur-rəssi ləqəbi ilə məşhur olan Qasim ibni İbrahim Təbatəba; (169-246 h.q.) O, Yəməndə Zeydiyyə firqəsinin bünövrəsini qoymuş Yəhya ibni Hüseynin babası olmuşdur. Əqidə və fiqhə dair bir çox kitablar yazmışdır. «Əd-dəlilul Kəbir», «Kitabul-ədl vət-tovhidul kəbir», «Ər-rəddu ələn-nəsara», «Əl-mustərşid», «Tə’vil-ul-ərşi vəl-kursi», «Əl-fəraiz vəs-sünən» və «Siyasətun-nəfsi» kitablarını buna misal çəkmək olar.

3. Yəhya ibni Hüseyn ibni Qasim; İmamul-Hadi ləqəbi ilə məşhur olan bu şəxs Yəməndə Zeydiyyə hökumətini tə’sis etmişdir. O, bu firqənin bünövrəsini qoyduqdan sonra 77-yə

yaxın elmi əsərlər yazmışdır. «Əl-muntəxəb fil-fiqh», «Əl-fununu fil-fiqh», «Əl-məsail», «Ər-riza», «Məzariə», «Kitabut-tovhid», «Kitabul-imamət», «İsbatun-nubuvvəti vəl-vəsiyyə», «Əl-mizan bəynə mənzilətəyn», Əd-diyanə», «Əl-xəşiyyə» və «Məanil Qur'an» kitablarını buna misal çəkmək olar.

4. Ən-nasiru lil-həqq ləqəbi ilə məşhur olan Əbu Məhəmməd Həsən ibni Əli Ət-tərvəş; (230-304 h.q.) Təbəristanda Zeydiyyə firqəsinin bünövrəsini qoyan bu şəxs «Əl-bəsat», «Ət-təfsir», «Əl-huccacul-vazihə» və «Əmali» kimi elmi əsərlərin müəllifi hesab olunur.

5. İmamul-Mürtəza ləqəbi ilə məşhur olan Əbul Qasim Məhəmməd ibni Yəhya; (287-313 h.q) Bu şəxs «Əl-usul fil-ədl vət-tovhid», «Təfsirul-Qur'an», «Əş-şərhu vəl-bəyan», «Cəvabu məsail ibni Məhdi», «Cəvabu ibni Fəzlil-Qərməti», «Ər-rəsailussəbil-muntəqa» adlı kitabların müəllifidir.

6. Əl-hakimul-Cəsmi ləqəbi ilə məşhur olan Möhsin ibni Məhəmməd ibni Kiramə; (413-494 h.q.) Bu şəxs dövrünün tanınmış kəlam alimlərindən olmuşdur və məşhur alim Zəməxşərinin müəllimlərindən biri hesab olunur. 42-yə yaxın kitab və elmi əsər yazıb yaratmışdır. «Ət-təhzib», «Şərhu uyunul-məsail», «Ət-tə'siru vəl-mə'sur», «Əs-səfinə», «Əl-imamə», «Cəlaul-əbsar» və başqalarını buna misal çəkmək olar.

7. Əl-məhdi lidinillah ləqəbi ilə məşhur olan Əhməd ibni Yəhya ibni Mürtəza. (764-840 h.q) Fiqh və üsul sahələrində Zeydiyyə firqəsinin görkəmli alimlərindən olmuş bu şəxs «Əl-bəhruz-zuxar» adlı kitabın müəllifi hesab olunur.

# 7- İSMAİLİYYƏ MƏZHƏBİ

Şiə məzhəbli firqələrdən biri də İsmailiyyə məzhəbidir. İsmailiyyə istər e’tiqadi, istərsə də tarixi baxımdan islam dünyasında böyük əhəmiyyət kəsb etmiş, öz mövqeyini qoruyub saxlayaraq bu günkü günədək davam gətirə bilmişdir. Bu məzhəb hal-hazırda islam dünyasının bir çox ölkələrində müstəqil firqə şəklində fəaliyyət göstərir, istər cəmiyyət, istərsə də müsəlman alimlərinin arasında xüsusi yer tutur. Bu cərəyan şiələrin altıncı imamı Cə’fər ibni Məhəmməd Sadiq şəhid olduqdan sonra qısa bir müddət ərzində meydana gəlmişdir. İsmailiyyə digər firqələrdən fərqli olaraq, imam Sadiqin (ə) böyük oğlu İsmaili imam kimi qəbul edir. Ümumiyyətlə altıncı imam vəfat etdikdən sonra şiələr beş firqəyə bölünmüşlər:

1. Navusiyyə;

Onların əqidəsinə əsasən, altıncı imam vəfat etməmişdir və hələ də yaşamaqdadır. O, Peyğəmbərin (s) nəslindən olan və zühurunun intizarı çəkilən Məhdidir. Zühur etdiyi gün bütün aləmə imamət (rəhbərlik) edəcəkdir. İsmailiyyə Cə’fər ibni Məhəmməddən belə bir rəvayət nəql edir: «Dağdan başımın aşağı endiyini (yə’ni, qətlə yetirildiyimi) görsəniz belə, yenə də inanmayın və bilin ki, mən sizin ağanız və rəhbərinizəm». Başqa bir rəvayətdə deyilir: «Əgər sizin yanınıza gəlib xəstələndiyimi və ya vəfat etdikdən sonra mənə qüsl verib kəfənləndiyimi xəbər versələr də inanmayın, çünki mən sizin ağanız və rəhbərinizəm».

Bu firqə onu tə’sis edən şəxsin - Əcəlan ibni Navusun - adı ilə bağlı olaraq Navusiyyə adlandırılmışdır və hal-hazırda tamamilə aradan getmişdir.

2. İsmailiyyə;

Bu firqənin ardıcılları Cə'fər ibni Məhəmməddən sonra oğlu İsmaili imam kimi qəbul edirlər. Onlar hələ atası sağ ikən İsmailin vəfat etdiyini inkar edərək demişlər: İsmailin ölümü və dəfn mərasimi onun Abbasilərdən qorunması üçün atası tərəfindən qurulmuşdur. Sonralar İsmailiyyə bir neçə firqəyə bölünmüşdür və bunun ən başlıca səbəbi İsmailin imaməti, sağ və ya vəfat etdiyinə dair aparılan mübahisələr olmuşdur. (Bu barədə növbəti dərslərimizdə söhbət açacağıq). Lakin İsmailiyyə firqələrinin müştərək cəhəti imamət məsələsində İsmailin bu işə daha layiq olması və onun altıncı imamın digər övladlarından üstünlüyünə olan e'tiqad təşkil edir.

3. Fəthiyyə;

Fəthiyyə imam Cə'fər Sadiqin (ə) ikinci övladı olan Əbdullah ibni Cə'fərin davamçılarına verilən addır. Baş və ayaqları enli olduğu üçün Əbdullah «Əftəh» ləqəbi ilə məşhur olmuşdur. Bu səbəbdən də bu firqəyə Fəthiyyə adı verilmişdir. Tarixi sənədlərə əsasən Əbdullah özünü atasının canişini e'lan etmişdir. Bu səbəbdən də atası vəfat etdikdən sonra bə'ziləri ona qoşularaq Fəthiyyə firqəsinin bünövrəsini qoymuşlar. Fəthiyyə davamçıları belə bir əqidəyə əsaslanırlar ki, Əbdullah vəfat etdikdən sonra imamət onun oğluna çatacaqdır. Lakin övladı olmadığı üçün və özü də atasının vəfatından sonra yalnız yetmiş gün yaşadığı üçün onun tərəfdarları yeddinci imam Cə'fər Kazimə (ə) üz tutdu. Beləliklə, Fəthiyyə firqəsinə son qoyuldu.

4. Səmitiyyə;

Səmitiyyə firqəsinin tərəfdarları Məhəmməd ibni Cə’fəri imam kimi qəbul etmişlər. Məhəmməd ibni Cə’fər «Dibac» ləqəbi ilə məşhur olan cəsur bir şəxsiyyət olmuşdur. Hicrətin 199-cu ilində Məkkədə Mə’muna* qarşı qiyam etmişdir. Zeydiyyə firqəsinin davamçıları bu qiyamda onlara köməklik göstərsələr də, İsa Cəludi onu yaxalayaraq Mə’munə təslim etmişdir. Səmitiyyə firqəsi bu cərəyanı tə’sis edən Yəhya ibni Əbi Səmitin adı ilə adlandırılmışdır. Bu firqə hal-hazırda öz fəaliyyətini tamamilə dayandırmış və tərəfdarlarını itirmişdir.

5. Musəviyyə;

Bu firqə imam Musa Kazim (ə)-ı sonuncu imam hesab edən şəxslərə verilən addır. Musa ibni Cə’fər on iki imamçı şiələrin yeddinci imamı hesab olunur. O həzrət vəfat etdikdən sonra bir çox tərəfdarları onun yenidən qayıdacağına e’tiqad bəsləsələr də, hal-hazırda Musəviyyə firqəsi tamamilə öz fəaliyyətini dayandırmışdır.

## TƏ’SİSÇİLƏRİ

Altıncı imamın vəfatından sonra şiələrin ümumi vəziyyəti və onların beş firqəyə ayrılmaları artıq mə’lum oldu. Bəs görəsən İsmailiyyə firqəsi kimlər tərəfindən tə’sis olunmuşdur?

İsmail ibni Cə’fər özü imamlıq iddiası edib bu firqənin bünövrəsini qoymuşdurmu? Yoxsa, bu məzhəb başqa bir şəxs tərəfindən meydana gəlmişdir?

Qeyd etdik ki, İsmail imam Cə’fər Sadiqin (ə) övladı olmuşdur və tarixi dəlillərə əsasən, ən azı onun özündən heç olmasa beş il əvvəl vəfat etmişdir. Bu da Hicrətin 143-cü ilinə

təsadüf edir. Görkəmli rical* alimlərindən olan Zərkəli öz kitabında İsmailin vəfatını Hicrətin 143-cü ilinə aid edir. İbni Ənbə isə İsmailin vəfatının Hicrətin 133-cü ilində baş verdiyini qeyd edir. İsmailiyyə məzhəbli yazıçılardan olan Arif Tə'mər bu hadisənin Hicrətin 138-ci ilində baş verdiyini qeyd etmişdir.[179]

Bir çox hədis və rəvayətlərdə İsmailin hələ atası sağ ikən vəfat etdiyi nəql olunmuşdur. İmam Sadiq (ə) onun dəfn mərasimində oğlunun vəfat etdiyinə şəhadət vermiş, hətta bə'zilərinin sonradan bu barədə şəkkə düçar olacaqlarını iqrar etmişdir. Nö'mani və Zurarət ibni Ə'yundan bu məzmunda nəql olunmuş rəvayətdə deyilir: Əbu Əbdullah Cə'fər ibni Məhəmməd Sadiqin evinə getdim. Oğlu Musa o həzrətin sağ tərəfində, İsmailin cənazəsi isə qarşısında idi. İmam mənə Davud ibni Kəsiri, Həmran və Əbu Bəsiri çağırmağı əmr etdi. Camaat bir-birinin ardınca oraya gəlirdi. Evin astanasına otuz nəfər yığıldıqda İmam (ə) Davud ibni Kəsirə buyurdu: Cənazənin üzərindən örtüyü götür. Davud, İsmailin üzündən örtüyü götürdükdən sonra Əbu Əbdullah (ə) buyurdu: Ey Davud! O diridir, ya ölü? Davud dedi: Ey mənim mövlam, o ölmüşdür. Sonra imam üzünü bir-bir orada iştirak edənlərə tutub həmin sualla onlara müraciət etdi və hamı İsmailin vəfat etdiyini iqrar etdi. Daha sonra Əbu Əbdullah buyurdu: İlahi! Sən Özün onlara şahid ol! Bunu deyib cənazəyə qüsl verilib kəfənlənməsini əmr etdi.

Qəbrə qoyularkən İmam (ə) Müfəzzələ bir daha əmr edib cənazənin üzünü açıdırdı və daha sonra ondan soruşdu: «O diridir, yoxsa ölü?» Müfəzzəl dedi: Ölü. O həzrət bir daha buyurdu: «İlahi! Sən Özün onlara şahid ol.»

Qəbrə qoyulduqdan sonra üçüncü dəfə Müfəzzələ İsmailin kəfənini açdırıb bir daha onlardan soruşdu: O diridir, ya ölü? Dedilər: Ölü. Bir daha buyurdu: İlahi! Sən Özün şahid ol və siz də ey camaat şəhadət verin. Çünki tezliklə batil əhli şəkk-şübhə yaradaraq Allah nurunu söndürmək istəyəcəklər.

İmam Cə’fər Sadiq (ə) bu qısa çıxışını bitirdikdən sonra oğlu Musaya (ə) işarə edərək buyurdu: «Lakin, kafirlər istəməsələr belə, Allah-taala öz nurunu tamamlayacaqdır.» Ravi deyir: Sonra İmam (ə) qəbrin üzərinə torpaq tökməyimizi istədi və hələ bu iş qurtarmazdan əvvəl bir daha soruşdu: Qəbirdəki qüsl verilmiş, kəfənlənmiş şəxs kimdir? Dedim: İsmail. Buyurdu: İlahi şahid ol! Sonra Musanın (ə) əlindən tutub buyurdu: Allah dünyanı və onun əhalisini qoruyub möhlət verənədək o haqla, haqq da onunladır.

Bu məzmunda nəql olunmuş digər rəvayətlər tarixçi və ravilər tərəfindən əsaslı şəkildə qəbul olunmuşdur. Bunu da qeyd edək ki, İsmailiyyə firqəsinin davamçılarının bir çoxu sonralar İsmailin vəfat etdiyini e’tiraf edərək oğlu Məhəmmədin imamətini iqrar etmişlər. Beləliklə, İsmailiyyə firqəsi meydana gəlmişdir. İsmailin atasının sağlığında vəfat etməsi tarixi sənədlərdə o qədər dəqiq işıqlandırılır ki, Abbasi dövlətindən gizli saxlamaq məqsədi ilə imam Sadiqin (ə) saxta dəfn mərasimi təşkil etməsi heç cür həqiqətə uyğun ola bilməzdi və elə bir şəraitdə təşkil olunan dəfn mərasimi ilə Abbasi dövlət mə’murlarını aldatmaq sadəcə olaraq qeyri-mümkün idi.

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, İsmail nə imamlıq iddiası etmiş və nə də İsmailiyyə firqəsinin bünövrəsini qoymuşdur. Tarixə müraciət etdikdə isə

İsmailiyyə firqəsinin bünövrəsini qoymuş dörd nəfər şəxsin adı ilə qarşılaşırıq:

1. Məhəmməd ibni Əbi Zeynəb, ya Məqlas ibni Əbil Xəttab;

(Əbul Xəttab ləqəbi ilə məşhur olmuşdur). Bu şəxs əvvəllər imam Məhəmməd Baqir (ə) və imam Cə’fər Sadiqin (ə) səhabələrindən olmuşdur. Lakin sonralar imamların məqamlarını daha da ucaldaraq onları ilahiləşdirdiyi üçün imamlar tərəfindən lə’nətlənərək uzaqlaşdırılmışdır.

Belə ki, hətta imam Sadiqdən (ə) Əbul Xəttabın lə’nətlənməsinə və hər bir müsəlmanın ondan uzaq düşməsinə dair bir neçə rəvayət də nəql olunmuşdur. Əbul Xəttab özünü imam Sadiqin (ə) vəsisi, imamları isə əvvəllər peyğəmbər hesab edirdi, daha sonra isə ifrata vararaq Cə’fər ibni Məhəmmədi ilahilik dərəcəsinə qədər ucaltmışdır.

Əbul Xəttab Kufədə ətrafına kiçik bir dəstə toplaya bilmişdir. Lakin Kufənin valisi İsa ibni Musa tərəfindən qətlə yetirildikdən sonra tərəfdarları Məhəmməd ibni İsmailə üz tutaraq onun vəfatını e’tiraf etmişlər. İsmailiyyə firqəsinin «Natiq» və «Lal İmam»a (İmamun-natiq və imamus-samit) olan e’tiqadı məhz Əbul Xəttabın nəzəriyyələrindən qaynaqlanmışdır.[180]

2. Məymun Qəddah;

Əhvazda sakin olmuş və müxtəlif göz xəstəliklərini, o cümlədən mirvari suyunun çəkilməsini müalicə etmişdir. Bu səbəbdən də ona «Qəddah» ləqəbi verilmişdir. Qəddah Əbul Xəttabın davamçılarından olmuş və onun nəzəriyyələrinin yayılmasında böyük rol oynamışdır.

3. Əbdullah ibni Məymun;

Məymun Qəddahın oğlu olmuşdur. Əvvəllər atası ilə həmfikir olsa da, sonralar ifrata vararaq peyğəmbərlik iddiası etmişdir. İbni Məymun müxtəlif hiylələrdən istifadə edərək uzaq ölkə və şəhərlərin tarix və əhvalatlarını nəql edir və bununla da əhalini öz ətrafına yığmağa çalışırdı. Əvvəl Əhvazdan Bəsrəyə, sonra isə Həms yaxınlığında yerləşən Səlmiyyə adlı məntəqəyə gəlmiş və orada boyu qısa olduğu üçün Qərmət ləqəbi ilə məşhur olan Məhəmməd ibni Əş'əs adlı şəxsə qoşulmuşdur. Qəramətə firqəsi də məhz həmin şəxsin adı ilə bağlıdır.

4. Məhəmməd ibni Hüseyn.

Dəndan və ya Zeydan ləqəbi ilə məşhur olmuşdur. Tarixi sənədlərdə göstərilir ki, o İraqda ibni Məymunla tanış olmuş və elə orada da İsmailiyyə firqəsinin nəzəriyyələri əsasında Batiniyyə firqəsini meydana gətirmişdir. İbni Nədimin dediyinə görə, İbni Hüseyn fəlsəfə və astronomiya elmlərinə mükəmməl yiyələnmişdir. O, ulduzların ruhani xüsusiyyətə malik olduğunu hesab edirdi. Bu səbəbdən də İbni Məymunla tanış olduqdan sonra əqidəsinin yayılması üçün münasib şərait tapıb ona maliyyə yardımları etməklə Batiniyyə firqəsini tə'sis etdi.

Demək, İsmailiyyə bu dörd nəfər şəxsin fəaliyyəti nəticəsində meydana gəlmişdir. Bu məzhəb sonralar bir neçə firqəyə bölünsə də, bə'zi müsəlman ölkələrində tarixi cərəyanlarda öz tə'sirini qoymağa, hətta dövlət tə'sis etməyə nail oldu. Beləliklə, tarixin enişli-yoxuşlu mərhələlərini keçərək öz ətrafına minlərlə tərəfdar yığaraq öz mövqeyini bu günkü günədək qoruyub saxlaya bilmişdir.

Növbəti dərsimizdə İsmailiyyə firqəsinin e'tiqadı barədə ətraflı söhbət açacağıq.

## İSMAİLİYYƏ FİRQƏSİNİN E'TİQADLARI

İki səbəbə görə İsmailiyyə firqəsinin e'tiqadları barədə dəqiq mə'lumat əldə etmək olduqca çətindir. Əvvəla ona görə ki, bu firqə tərəfdarları düşmənlərindən qorunmaq məqsədilə tarix boyu öz əqidə və e'tiqadlarını gizli saxlamış və başqalarının onlara yaxınlaşmalarına şərait yaratmamışlar. Bu sahədə müxtəlif kitablar yazsalar da, onu digərlərindən gizli saxlayaraq kimsənin əlinə düşməsinə razı olmamışlar. Hal-hazırda İsmailiyyə firqəsinin müqəddəs hesab etdiyi və müəmmalı mətləbləri ehtiva edən Əbul Xəttabın «Ummul-kitab» adlı şübhəli əsəri də bu qəbildəndir.

Digər tərəfdən də İsmailiyyə firqəsinin əqidə üsullarının əsasını batinçilik və yozumluq prinsipi təşkil edir. Onlar belə bir əqidədədirlər ki, bütün dini hökmlərin batini mə'naları vardır və onlardan agah olan yeganə şəxs imamın özüdür. Bu səbəbdən də İsmailiyyə bütün dini hökmlər üçün batini mə'nalar nəzərdə tutmuşdur. Yə'ni, bütün işlərin həqiqətini onun zahiri quruluşu və mə'nası deyil, batini mə'nası təşkil edir.

Məhz bu məsələ İsmailiyyə firqəsinin e'tiqad və əqidə üsullarının şübhəli və anlaşılmaz olmasına səbəb olmuşdur. Tədqiqatçı alimlər apardığı araşdırmalar zamanı bir çox hallarda yetkin nəticəyə gələ bilməyib onlar barədə elə bir fikir və fərziyyələr irəli sürmüşlər ki, bunun həqiqətən onlara aid olub-olmamasını dəqiqləşdirmək çox çətindir.

İsmailiyyə məzhəbinə qarşı yaranmış belə bir yanlış tərzi-təfəkkür onların alimlərini bu sahədə onlarla kitab və əsərlər yazıb öz əqidə və e'tiqadlarını müdafiə etməyə vadar etmişdir. Onlara qarşı irəli sürülən ittihamlardan biri də «tənasüx*» və «ibahəçiliyə»* e'tiqad bəsləmələridir.

İsmailiyyə firqəsinin əsas e'tiqadlarını isə bunlar təşkil edir:

1. Tövhid;

Bu məzhəbin davamçıları tövhid mövzusunda Allahın mütləq sifətlərini inkar edərək deyirlər: Allah-taala əql və düşüncədən üstün olduğu üçün məxluqata xas olan diri, alim, qadir, eşidən, görən və sair sifət və xüsusiyyətləri ona aid edə bilmərik.

Onlar Qur'ani-kərimin bir çox ayələrində və nəql olunmuş rəvayətlərdə Allah-taalanın adı çəkilən gözəl ad və sifətlərini isə «ümumi məfhum» olaraq qəbul edirlər. İsmailiyyə firqəsinə mənsub olan təhqiqatçılardan biri bu barədə deyir: Allah-taala məxluqata aid olunan sifətlərdən uca olduğu üçün Onun müqəddəs zatı bu xüsusiyyətlərlə vəsf olunmamışdır. Eyni zamanda məxluqat da olduqca aciz və zəif olduğu üçün Allaha xas olan sifətlərlə vəsf olunmamışdır. Allah-taala lütf və mərhəmət üzündən məxluqatı yaratmış və bütün sifət və xüsusiyyətlər Ona aid olunmuşdur ki, məxluqatı heyrət hissi bürüməsin. Allahın vücudu bütün varlıqların vücudundan ilkindir və bütün varlıqlar yaradılış (xilqət) baxımından Onun vücudundan nəş'ət tapır. Qur'ani-kərimdə «Qələm» ifadəsi ilə zikr olunan ilkin varlıq «lövhi-məhfuz» adlanan ikinci yaradılışı vücuda gətirir. İlk yaradıcı ikinci yaradılışdan əvvəl olduğu üçün «Sabit», ikinci yaradılış isə ilk yaradıcıdan asılı olduğu üçün «Tali» adlanır. Mücərrəd aləmdə olan hər bir

şeyin təcəllisi cismani aləmdə mövcud olduğu üçün, birincidə olan mütləq əqlin qarşılığını cismani aləmdə olan imam hesab etmişlər.

2. Cəbr və ixtiyar;

Cəbr və ixtiyara gəldikdə, İsmailiyyə məzhəbi insanı özünə aid olan elm, əqidə, məslək, adət-ən'ənə, gündəlik işlər və s. məsələlərdə tam ixtiyar sahibi hesab edir. Onların fikrincə, belə olmadıqda, peyğəmbərlərin göndərilməsi heç bir nəticə verməyəcəkdir. Bu barədə Nəcm surəsinin 39-40-cı ayələrinə istinad edirlər:

**«İnsana ancaq öz əməli, öz zəhməti qalar!»**

**«Şübhəsiz ki, [qiyamət günü] onun əməli, zəhməti görünəcəkdir.»**

Onlar eyni zamanda cəbr və ixtiyarı qəza-qədərlə ziddiyyətli hesab etmirlər. «Qəzanı» xeyir, vəsiyyət və asudəçilik (qurtuluş), «qədər»i isə təqdir, miqdar və tərbiyə kimi mə'nalandırırlar.[182]

3. Peyğəmbərlik;

İsmailiyyə məzhəbi nöqteyi-nəzərindən peyğəmbərlik iki hissəyə bölünür: 1. Ümumi peyğəmbərlik; 2. Xüsusi peyğəmbərlik. Ümumi peyğəmbərlik dedikdə, əql və təbiət baxımından onun bütün insanlara şamil olduğu nəzərdə tutulur. Ümumi peyğəmbərlik olmadıqda, xüsusi peyğəmbərlik (yə'ni, müəyyən təbəqəyə aid olan) camaat tərəfindən qəbul olunmur.

Qeyd etmək lazımdır ki, imamiyyə şiələri «ümumi peyğəmbərlik» dedikdə, batini hüccət və dəlil olan əqli nəzərdə tuturlar. Allah tərəfindən peyğəmbərliyə tə'yin olunan şəxslərə gəldikdə isə, onları zahiri hüccət adlandırırlar. Müsəlmanlar ulul-əzm peyğəmbərləri beş nəfər hesab etdikləri bir halda, İsmailiyyə alimləri şəriət sahibi və ulul-əzm peyğəmbərləri «Natiq peyğəmbər» adlandıraraq onların sayını yeddiyə çatdırmışlar. Yeddi natiq peyğəmbər bunlardan ibarətdir: Adəm, Nuh, İbrahim, Musa, İsa, Məhəmməd və Qaim. (Qaim dedikdə zühur edərək qiyam edəcəyinə e'tiqad bəslədikləri İsmailiyyənin yeddinci imamı Məhəmmədi nəzərdə tuturlar.)

4. Məad;

İsmailiyyə məzhəbi cismani məadı inkar edir, yalnız ruhani məada e'tiqad bəsləyir və bu barədə deyirlər: İnsan yaşadığı aləmdə həmin aləmə münasib vasitələrə ehtiyac duyur. O bir aləmdən xaric olub başqa bir aləmə qədəm qoyduqda belə, yenə də həmin aləmə münasib vasitələrə ehtiyac duyur. Bu səbəbdən də onlar cism və bədən üzvlərinin yalnız bu dünyaya lazım olduğunu hesab edirlər. Axirət dünyasına gəldikdə isə, oranı ruhani aləm hesab etdikləri üçün məadın cismani olmasına heç bir zərurət duymurlar.

İsmailiyyə məzhəbli şəxslər islamı təzə qəbul edənlərə məadı və ya məad haqqında mə'lumatı olmayan şəxslərə izah etmək istərkən bu əqidəni özünün zahiri mə'nasında yə'ni, cismani olaraq baş verəcəyini bəyan edirlər. Bir çox «miləl və nihəl» kitablarında İsmailiyyə firqəsinin «tənasüx»ə e'tiqad bəslədiklərinə işarə olunmuşdur, lakin onlar belə bir ittihamı

qətiyyətlə rədd edib onu tamamilə batil və əsassız adlandırırlar.

5. Şəriətin batini.

Dərsin əvvəlində qeyd etdik ki, İsmailiyyə alimləri bütün şər'i üsul və hökmlərin zahiri və batini mə'nalardan ibarət olduğunu hesab edirlər. Onlar bu barədə deyirlər: Allah-taala bütün şəriət və ibadi hökmləri elə bir qaydada tə'yin etmişdir ki, onlar hər bir əqli işləri və ilahi hökmləri əhatə edir. İbadət və hökmlər insanın cismi ilə, batini hökmlər isə əql və mə'nəviyyatla bağlıdır. Bu səbəbdən də şəriətin batininə daha çox qiymət verilmişdir. Onlar bu barədə bir çox əsərlər yazmış, hətta Qur'anı öz şəxsi əqidələrinə əsasən təfsir edərək ayə və ifadələrin batini mə'na daşıdığını hesab etmişlər. Məsələn, namazın mahiyyətini haqqa də'vət və imama dua etmək, orucu, ədəb-ərkanı riyakarlardan gizli saxlamaq, cənnəti imama itaət, cəhənnəmi imama qarşı üsyan, həcci elm məqsədilə el-obanı tərk etmək, zəkatı elmi, elmə ehtiyacı olan və həqiqi olaraq qiymətləndirməyi bacaran şəxslərin arasında yaymaq kimi təfsir etmişlər. İsmailiyyənin batinçiliyə olan meyli, müxaliflərinin onları şər'i hökmləri kənara qoyub batini mə'naya kifayətlənməkdə ittiham etmişlər. Yə'ni, namaz qılmaq əvəzinə imama dua edir, Beytul-haramı ziyarət etmək əvəzinə öz əqidələrini yaymağa can atır və s. Lakin İsmailiyyə ardıcılları bu ittihamları rədd edərək hər iki tərəfə e'tiqad bəslədiklərini iqrar etmişlər və şər'i hökmlərin təkcə zahirinə və ya batininə e'tiqad bəsləməyi və əməl etməyi ayrı-ayrılıqda düzgün hesab etmirlər. Belə bir e'tiqadı olanları isə küfrdə ittiham edirlər.

İsmailiyyənin diqqət yetirdikləri ən mühüm məsələlərdən biri də imamət məsələsidir və bu barədə növbəti dərsimizdə söhbət açacağıq.

## Ədəbiyyat

1. Məzhəblər və dinlər haqda bəhslər (Cə'fər Sübhani).
2. Əl-bidayə vən-nihayə (İbni Kəsir).
3. Şiə və islam firqələrinin tarixi (Doktor Məhəmməd Cavad Məşkur).
4. İsmailiyyə əqidələrinin tarixi (Doktor Fərhad Dəftəri).
5. Zeydiyyə - tətbiq və nəzəriyyə (Əli ibni Əbdülkərim Füzeyl Şərəfuddin).
6. Kəlami məzhəb və firqələr (Əli Rəbbani Gülpayiqani).
7. Şiə ideologiyasının əsasları (İmamiyyə əqidələri – Məhəmməd Rza Muzəffər).
8. İrfan və sufiliyin əaslarının müqəddiməsi (Doktor Ziyauddin Səccad).
9. Əl-muvəhhidun Əd-dəruz fil islam (Şeyx Mursəl Nəsr), çap 1999
10. Mosuətul firəqul islamiyyə (Doktor Məhəmməd Cavad Məşkur), çap 2002